Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on üçüncü sessiya

53-cü cild

14 iyun 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# XIII SESSİYASININ XÜSUSİ İCLASININ

# PROTOKOLU № 136

*Milli Məclisin iclas salonu.*
*14 iyun 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 104 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 10.02 dəq.) |
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələ daxil idi:**

Azərbaycan xalqının böyük siyasi və dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin 100 illiyi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 10.02 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Azərbaycan xalqının böyük siyasi və dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin 100 illiyi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Fazil Mustafa, Elman Nəsirov, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Əli Hüseynli, Bəhruz Məhərrəmov, Hicran Hüseynova, Əminə Ağazadə, Jalə Əliyeva, Tahir Kərimli, Razi Nurullayev, Elşad Mirbəşir oğlu, Jalə Əhmədova, Vüqar İskəndərov, Musa Quliyev, Azay Quliyev, Sahib Alıyev, Aydın Mirzəzadə, Musa Qasımlı, Anar İsgəndərov, Kamal Cəfərov, Siyavuş Novruzov, Hikmət Məmmədov, Fəzail İbrahimli, Elnur Allahverdiyev, Aqiyə Naxçıvanlı, Fəzail Ağamalı, Zahid Oruc, Əhliman Əmiraslanov, Aqil Məmmədov, Elşən Musayev, Eldar İbrahimov, Səbinə Xasayeva

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***Azərbaycan xalqının***
***böyük siyasi və dövlət xadimi,***
***Ulu Öndər Heydər Əliyevin***
***100 illiyi münasibəti ilə***

# *MİLLİ MƏCLİSİN XÜSUSİ İCLASI*

*14 iyun 2023-cü il. Saat 10.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Sabahınız xeyir, xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri!

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 10.02 dəq.) |
|---|---|
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

Yetərsay var. Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə də münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 10.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən iclasımız taleyüklü bir hadisənin ildönümü ərəfəsində keçirilir. Sabah xalqımız Ulu Öndərin qəhrəmanlığını və fədakarlığını təcəssüm etdirən Milli Qurtuluş Gününün 30-cu ildönümünü dərin ehtiramla qeyd edəcəkdir.

Hörmətli deputatlar, bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin mayın 16-da keçirilən xüsusi iclasında mən bu dahi şəxsiyyətin 35 ilə yaxın fəaliyyəti barədə fikirlərimi sizinlə bölüşmüşdüm. Bu dəfəki çıxışımda isə Ümummilli Liderimizin 1993-cü ildə parlamentin sədri kimi fəaliyyəti haqqında danışmaq istərdim.

Hörmətli həmkarlar, məlumdur ki, ümummilli liderlər xalqların milli fəlakətlər, mənəvi sarsıntılar ilə üzləşdiyi dövrlərdə tarix səhnəsinə çıxırlar. Bu fikrin doğruluğunu Ulu Öndər Heydər Əliyevin fəaliyyəti də sübut edir.

Heydər Əliyev ən yüksək dövlət vəzifələrində çalışdığı otuz ildən artıq bir müddətdə ümummilli lider missiyasını iki dəfə öhdəsinə götürmüşdür. Hər ikisində də zamanın çağırışlarına yaradıcı münasibət bildirməklə və düzgün qərarlar qəbul etməklə insanların ona bəslədiyi ümidləri doğrultmuşdur.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təməlini yaratmış, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövləti qoruyub saxlamış və davamlı inkişaf yoluna çıxarmışdır. Bununla da o, böyük tarixi şəxsiyyətlərimizin dövlətçilik ənənələrini iyirminci yüzillikdə layiqincə davam etdirmiş və zənginləşdirmişdir.

Hörmətli həmkarlar, Heydər Əliyev dünya miqyaslı siyasi və dövlət xadimi idi. Onu dünyanın ən böyük siyasətçiləri və dövlət adamları ilə müqayisə etmək olar. Ulu Öndər xalqımızın siyasi varlığını qoruyub saxlamış və xoşbəxt gələcəyinin möhkəm təməlini yaratmışdır. Heydər Əliyevin həyatı və fəaliyyəti doğma xalqına sədaqətlə xidmət etmək, onun yolunda hər cür çətinliklərə dözmək nümunəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri haqqında belə demişdir: “Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq, sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir.

...Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir”.

Hörmətli həmkarlar, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir. Ölkəmizdə qurulmuş hüquqi dövlətin bütün elementləri ilə yanaşı, Konstitusiyamız da, Milli Məclisimiz də onun yaradıcı zəkasının bəhrələridir.

Azərbaycan parlamentinin üzvləri olaraq biz bu gün fəxr edirik ki, Heydər Əliyevin böyük siyasətə qayıdışı, xilaskarlıq missiyası məhz bu binada başlanmışdır.

Ümummilli Liderimiz 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmiş və dörd aya yaxın bu vəzifədə çalışmışdır. Onun Azərbaycan parlamentinə rəhbərlik etməsi ölkəmizin qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı. Heydər Əliyevin parlamentə rəhbərliyi Milli Məclisə siyasi mədəniyyət gətirdi, qanunvericilik orqanının ruhunu kökündən dəyişdi.

Parlament ölkədə baş verən mürəkkəb və ziddiyyətli ictimai-siyasi hadisələrin açıq və demokratik şəraitdə müzakirə edildiyi real hakimiyyət orqanına çevrildi.

Hörmətli həmkarlar, qeyd etməliyəm ki, Ulu Öndərin sədrliyi dövründə parlamentin 20 iclası keçirilmiş, ölkənin ictimai-siyasi həyatı üçün son dərəcə böyük önəm daşıyan 96 qanun və qərar qəbul edilmişdir.

1993-cü il iyunun 17-dən 18-nə keçən gecə o vaxtkı dövlət başçısı Əbülfəz Elçibəy müəmmalı şəkildə Bakını tərk etdikdən sonra Milli Məclis müraciət qəbul edərək onu təcili Bakı şəhərinə, öz iş yerinə qayıtmağa və Konstitusiya səlahiyyətlərini həyata keçirməyə dəvət etdi. Bu müraciətə məhəl qoyulmadığına görə iyunun 24-də Milli Məclis Prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə keçməsi barədə qərar qəbul etdi. Bu qərar ölkədə cərəyan edən ictimai-siyasi proseslərin dövlətin tam nəzarəti altına alınması baxımından çox əhəmiyyətli idi.

1993-cü il avqustun 17-də Heydər Əliyevin sədrliyi ilə Milli Məclis iki günlük müzakirələrdən sonra Lənkəranda və onun ətrafındakı rayonlarda baş verən hadisələrə münasibətini bildirərək bu barədə geniş qərar qəbul etdi. Bunun ardınca görülən qətiyyətli tədbirlər nəticəsində bölgədə separatçılıq hərəkətlərinə son qoyuldu.

Müstəqil dövlətimiz üçün ən böyük təhlükə mənbəyi

olan vətəndaş müharibəsi məhz Heydər Əliyevin parlamentə rəhbərliyi dövründə aradan qaldırılmış, ordu quruculuğunda, ictimai-siyasi sabitlik yaradılması yolunda ilk addımlar atılmışdır.

Hörmətli deputatlar, 1993-cü il oktyabrın 3-də xalqın yekdil iradəsi ilə Prezident seçildikdən sonra Heydər Əliyev dövlətimizin digər təsisatları ilə yanaşı, peşəkar parlamentinin də formalaşdırılması işində həlledici rol oynamışdır. Ulu Öndər dəfələrlə Milli Məclisin iclaslarında iştirak etmiş, qanunvericilik işinin səmərəsini artırmaq üçün öz dəyərli məsləhətlərini vermişdir.

Müstəqil dövlətimizin hüquqi bazasının yaradılıb inkişaf etdirilməsində də Ulu Öndərin əvəzsiz rolu olmuşdur. Ümummilli Liderimizin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi layihələr üzrə yüzlərcə qanun, qərar və digər aktlar qəbul olunmuşdur.

Dəfələrlə parlamentimiz Heydər Əliyevin təklif etdiyi layihələr əsasında amnistiya aktları qəbul etmişdir. Şərq aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi məhz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə həyata keçirilən humanist aksiya olmuşdur.

Hörmətli həmkarlar, Ulu Öndərin başladığı bütün işlər onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Ümummilli Liderimizin yaratdığı möhkəm və sarsılmaz təməl üzərində dövlətimiz günbəgün daha da inkişaf edir.

2020-ci ilin sentyabr–noyabr aylarında Ali Baş Komandanın yüksək sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü və hərbi qələbəsi xalqımızın qəhrəmanlıq salnaməsində yeni şanlı səhifə açmışdır. Azərbaycan torpaqlarının 30 illik işğalına

son qoyulmuş, dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olunmuşdur.

Xalqımızı qalib xalqa çevirən bu Zəfər Ulu Öndər Heydər Əliyevin həyata keçirməyə başladığı, möhtərəm İlham Əliyevin yaradıcı surətdə davam etdirdiyi siyasətin təntənəsi olmuşdur. Ümummilli Liderimizin ən mühüm vəsiyyəti şərəflə yerinə yetirilmişdir.

Hörmətli həmkarlar, Heydər Əliyev ömrünün hər günü indiki və gələcək nəsillər üçün bir örnəkdir. Bu gün Azərbaycan parlamenti Ulu Öndərin xatirəsini dərin hörmət və sevgi ilə yaşadır. Milli Məclisin binasında Heydər Əliyevin əzəmətli abidəsi parlament deputatlarının və əməkdaşlarının, qonaqların ziyarət yerinə çevrilmişdir. Ulu Öndərin adını daşıyan xatirə zalı Heydər Əliyev irsinin təbliğində mühüm rol oynayır. İndiyədək xarici ölkələrin yüzlərcə nümayəndə heyəti, parlament rəhbərləri, dövlət və hökumət başçıları xatirə zalında Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən stendlər, onun yadigarları və digər eksponatlar ilə tanış olmuşlar.

Hörmətli deputatlar, ötən dövrdə Milli Məclisdə Ulu Öndərin fəaliyyətinin müxtəlif sahələrindən bəhs edən bir sıra kitablar hazırlanıb nəşr edilmiş, sənədli filmlər çəkilmişdir.

Ümummilli Liderimizin 100 illik yubileyi münasibəti ilə Milli Məclisdə Heydər Əliyevin fəaliyyətinə həsr edilən növbəti kitab hazırlanıb bu günlərdə çap olunmuşdur. Əminəm ki, Milli Məclis Ulu Öndərə həsr edilən kitabların hazırlanıb nəşr olunmasını bundan sonra da davam etdirəcəkdir.

Sizə təqdim edilmiş nəfis tərtibatlı bu yeni kitab üç cilddən ibarətdir. "Heydər Əliyev və Azərbaycan parlamenti" adlanan kitaba Ümummilli Liderimizin 1993-cü

ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri olduğu dövrdə keçirilmiş parlament iclaslarının stenoqramları daxil edilmişdir. Qeyd edim ki, kitab üzərində iş iki ilə yaxın davam etmişdir.

Kitabı vərəqlədikcə Ulu Öndərin sədrliyi ilə Milli Məclisdə aparılan gərgin müzakirələr gözlərimiz önündə canlanır. Kitab tariximizin bu mühüm dövrünü saxtalaşdırmağa cəhd göstərənlərə də, düşünürəm ki, faktların dili ilə verilən ən yaxşı cavabdır.

Hörmətli həmkarlar, Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin arxiv materialları əsasında sənədli film də çəkilmişdir. Bu film Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərini, o cümlədən parlament quruculuğu sahəsində gördüyü möhtəşəm işləri işıqlandırır. Onu da deyim ki, filmdə Ümummilli Liderimizin 11 çıxışından fraqmentlər tamaşaçılara ilk dəfə təqdim olunur. Az sonra biz həmin filmi birlikdə izləyəcəyik.

Mən kitabın və filmin hazırlanmasında əməyi keçən Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin, Redaksiya və nəşr işləri şöbəsinin, Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin əməkdaşlarına öz minnətdarlığımı bildirirəm.

Bilirəm ki, bu gün Mehman müəllim Qaibov da buradadır, Hafiz müəllim buradadır, Gülnarə xanım, Samir müəllim, Cəmil müəllim – mən sizin hamınıza öz minnətdarlığımı bildirirəm və sizə "çox sağ olun" deyirəm.

Eyni zamanda, filmin musiqi tərtibatına kömək göstərmiş hörmətli həmkarımız Novruzəli Aslanova mən öz təşəkkürümü bildirirəm.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin mayın 16-da

keçirilən xüsusi iclasında xarici ölkələrin parlament sədrləri, sədr müavinləri, parlament üzvləri, beynəlxalq parlament təşkilatlarının, eləcə də xarici dövlətlərin diplomatik korpusunun təmsilçiləri iştirak etmişlər. 33 nəfər xarici qonaq Ulu Öndər haqqında düşüncələrini bölüşmüşdür.

Həmin iclasın stenoqramı qısa müddətdə hazırlanıb ayrıca kitab şəklində çap edilmişdir. Eyni zamanda, yubiley münasibəti ilə "Milli Məclis" jurnalının xüsusi buraxılışı çapdan çıxmışdır. Bu iki nəşr də sizə təqdim olunmuşdur.

Hörmətli həmkarlar, Ümummilli Liderimiz Heydər Əliyevin işıqlı arzuları bu gün hər bir azərbaycanlının xeyirxah əməllərində təcəssümünü tapır. Ulu Öndərin şəxsiyyətinin sönməz nuru Azərbaycan xalqını irəliyə aparan yolgöstərən bələdçiyə çevrilmişdir. Dünya durduqca Azərbaycan da var olacaq, Azərbaycan var olduqca Heydər Əliyevin ideyaları və əməlləri də yaşayacaqdır. (*Alqışlar.*)

Hörmətli həmkarlar, çıxışlara başlamazdan əvvəl mən sizi Ümummilli Liderimizin fəaliyyətindən bəhs edən sənədli filmə baxmağa dəvət edirəm. Buyurun.

*(Sənədli film nümayiş etdirilir.) (Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, hörmətli həmkarlar. Yenə də xatırladım ki, bu film Milli Məclisin öz gücü, qüvvəsi ilə çəkilmişdir. Mən yenə də bu filmin üzərində zəhməti keçən hər bir insana öz təşəkkürümü bildirirəm. Mehman müəllim, çox sağ olun. Samir müəllim buradadır, çox sağ olsun. Cəmil müəllim, o da oradadır, mən ona öz minnətdarlığımı bildirirəm. Hafiz müəllim, Gülnarə xanım, arxivin işçiləri, mən sizə, hamınıza öz dərin minnətdarlığımı bildirirəm. Novruz müəllim, Siz çox sağ olun, çünki bu

musiqi fonu bu filmə xüsusi bir gözəllik verdi.

Hörmətli həmkarlar, biz indi çıxışlara başlayırıq. Xahiş edirəm, yazılın. Komitə sədrlərinin iclasında təklif var idi, biz belə nəticəyə gəldik ki, 5 dəqiqəyə qədər. Tahir Mirkişili buyursun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fərid müəllim, xahiş edirəm, baxın. Zəhmət olmasa, baxın, görün, nədir. Tahir Mirkişili buyursun.

**T.Mirkişili**. Hörmətli Sahibə xanım, mən ilk öncə Milli Məclisin deputatı olaraq, məsul redaktoru olduğunuz bu möhtəşəm kitaba və ideya müəllifi olduğunuz bu filmə görə Sizi, həm də Milli Məclis Aparatının əməkdaşlarını təbrik edirəm. Bu film, eyni zamanda, kitab özü tarixi bir hadisədir. Buna görə, çox sağ olun.

Hörmətli həmkarlar, hər bir xalqın mövcud olması və inkişaf etməsi o xalqın milli xüsusiyyətlərinin güclü tərəflərinin tarixin çətin məqamlarına qalib gəlmək üçün həlledici olması və həlledici məqamlarda öz liderini yetişdirmək üçün milli potensialın olması hesabına baş vermişdir. Güclü liderlərə və güclü milli xüsusiyyətlərə malik olmayan xalqlar güclü dövlət qura bilməmiş, tarixin səhnəsindən silinmiş və ya sahib olduğu dövlət zəif inkişaf etmişdir.

XX əsrin əvvəllərində Şərqdə ilk demokratik dövlət quran Azərbaycan xalqı iki il sonra bu müstəqilliyini itirmiş və zorla Sovet İttifaqının tərkibinə qatılmışdır. Bütün resurslarının ittifaq məqsədinə xərcləndiyi bir şəraitdə, keçən əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatı yoxsul, primitiv və bərbad vəziyyətə düşmüşdür. İqtisadiyyatın 85 faizi yanacaq sənayesinin hesabına formalaşır, respublika SSR-də ən geridə qalmış region vəziyyətinə düşmüşdü. Əhali də yoxsul yaşamaqdan bezmişdi. Belə bir şəraitdə SSRİ rəhbərliyində Azərbaycan Respubli-

kasının özünü doğrultmadığı, onun ərazisinin Ermənistan, Gürcüstan, Dağıstan arasında bölünməsi ideyası müzakirə olunurdu. Bax, belə bir şəraitdə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər təyin edilməsi ölkəmizin taleyini dəyişdirdi və onu yox olmaqdan xilas etdi. 15 il sonra Azərbaycan artıq SSRİ respublikaları arasında ən sürətli inkişaf edən, iqtisadi gücü yetərincə olan, elmi-texniki tərəqqiyə, insan kapitalına sahib bir respublikaya çevrilmişdir. 1980-ci illərin ortalarında Rusiyadan sonra yalnız Azərbaycan öz-özünü iqtisadi cəhətdən təmin edə bilən hala gəlmişdir. Yaradılan iqtisadi potensial və iqtisadi infrastruktur ölkənin gələcəyinə hesablanmışdır. Bütün bunlar Heydər Əliyevin yorulmaz fəaliyyəti və Azərbaycan xalqı qarşısında müstəsna və tarixi xidməti idi.

O vaxtlar üçün bu nəticə möcüzə sayılırdı. Çünki SSRİ iqtisadiyyatı elə planlaşdırılmışdı ki, Rusiyadan başqa heç bir respublika öz-özünü təmin edə və müstəqil olmaq fikrinə düşə bilməzdi. Amma yaradılan bu iqtisadi potensial artıq hər bir azərbaycanlının şüurunda müstəqil ola bilmək inamını yaratmaqda idi. Azərbaycanın müstəqil ola bilməsinə və müstəqil inkişafına getdikcə daha çox insan inanmağa başlayırdı. Heydər Əliyev həm də bu insanların təqibdən qorunub saxlanması missiyasını da həyata keçirirdi.

Elmi araşdırmalara görə, xalqların müstəqillik arzuları onların iqtisadi güc və potensialına da birbaşa bağlıdır. İqtisadi güc bu arzuların reallaşa biləcəyi inamını sonsuz olaraq artırır. Bu cəhətdən, əminliklə demək olar ki, 1980-ci illərin sonunda Azərbaycanda yaranan milli azadlıq hissələrinin formalaşmasında, azadlıq kəlməsinin meydanlarda hayqırtı ilə deyilməsində Heydər Əliyev və onun yaratdığı iqtisadi potensialın müstəsna və həlledici rolu olmuşdur. Azərbaycan xalqı məhz bu inamla öz müstəqilliyini tələb

etmişdir. Onlar məhz bu inamla 20 Yanvarda tanklar qarşısında dayandılar və müstəqilliyi tələb edərək əldə etdilər. 1980-ci illərin sonunda 1990-cı illərin əvvəli ölkənin savadsız rəhbərliyinin fəaliyyəti nəticəsində yenidən dağılmağa, iflas olmağa başlayan Azərbaycanı, müstəqil olmağı bəyan etmiş Azərbaycanı Heydər Əliyev bu dəfə artıq ikinci dəfə yox olmaqdan xilas etdi və onu müstəqil etdi. O, əvvəlcə Naxçıvanda milli bayrağımızı dalğalandırmaqla, bu dəfə insanlarda müstəqillik inamını öz şəxsinə olan inamın hesabına gücləndirməyə nail oldu. Daha sonra 1993-cü ildə Azərbaycana rəhbərlik etməklə sonrakı 10 il ərzində Azərbaycanın əbədi müstəqilliyi üçün möhkəm və sarsılmaz iqtisadi zəmin yaratdı. Elə bir iqtisadi zəmin ki, Azərbaycanı dünyanın iqtisadi cəhətdən ən sürətli inkişaf edən ölkəsinə çevirdi. O, şəxsiyyətinə olan inam və şəxsi zəmanəti hesabına Azərbaycan iqtisadiyyatını dünyaya inteqrasiya etdi. Kəmərlər, yollar, inşa etdi, Azərbaycanı parçalamaq, zəif görmək, milli ləyaqətimizi daim alçaltmaq istəyənlərin arzularını əbədi olaraq gözlərində qoydu.

Bu il Heydər Əliyevin anadan olmasının 100 illiyidir. 100 il bundan öncə bu torpaqlarda faciə yaşanırdı. Dövlətimiz işğal olunmuş, milli ziyalılarımıza qəsdlər olmuş, milli bayrağımız endirilmişdi. Bax, belə bir şəraitdə uca Tanrı Azərbaycan xalqına bu müstəqilliyi daha sonra onlara bəxş edəcək və bu dəfə onu əbədi edəcək bir övlad bəxş etdi.

Bütün gözəl, bənzərsiz müqəddəs hisslər insanlardan hünər istəyir. Ona görə də zamanın səviyyəsində yaşayıb, fərdi, xalqı və dövləti müstəqilliyə tam çatdırmaq mümkün deyildir. Heydər Əliyev zamanın səviyyəsindən yüksək şəxsiyyət idi. O, sanki bu günü və bundan sonrakı sabahı görüb, dünəndə fəaliyyət göstərirdi. Öz müstəqilliyi

ilə dostlarımızı sevindirən, rəqiblərimizi çəkindirən, düşmənlərimizi məyus edən, Qarabağı azad edən, bayrağımızı Şuşada dalğalandıran bugünkü Azərbaycan məhz Heydər Əliyevin əsəridir. Onun layiqli davamçısı, müzəffər Ali Baş Komandan, dövlət başçısı cənab İlham Əliyev isə bu əsəri hər keçən gün daha da zənginləşdirir və gücləndirir. Artıq hər kəs bilir, sonsuz olaraq inanır ki, bu gün 100 ildir, sabah 1000 il olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Burada mən dahi şəxsiyyət Heydər Əliyev mövzusuna vaxtı ilə Xalq Cəbhəsinin ideoloji platformasının hazırlanmasında və təbliğində əhəmiyyətli rolu olan bir siyasət adamı kimi qoşulmaq istəyirəm. Məhz həmin obrazda da əsrimizin böyük dövlət adamı və siyasətçisi ilə Xalq Cəbhəsinin təmsilçisi olaraq, dəfələrlə üzbəüz müzakirə və mübahisə apardığıma görə fikrimi əsaslandırmaqda, yəqin ki, çətinlik çəkmərəm.

Heydər Əliyev ömrünün ən önəmli hissəsi peşəkar çekist kimi fəaliyyətlə bağlıdır. Çekistlər yaşam və ölüm arasında məsafəni peşə gərəyi itirmiş nadir şəxslər olurlar. Bəlkə də bu sahədən deyil, pedaqoji sahədən və ya birbaşa partiya, ya da emosional hərbiçi sferasından siyasətə gəlsəydi, bu qədər amansız dalğaların qarşısında duruş gətirməkdə çətinlik çəkərdi. O, yaşamağa hazırlaşdığı soyuqqanlılıqla ölümə də hazırlaşmışdı. Ona görə də KQB-nin qapalı liderliyindən Azərbaycan Kommunist Partiyasında açıq liderliyə transferində təcrübə çətinliyi yaşamadı. O, sovet repressiyasının mahiyyətini də, stalinizmi də, bağırovçuluğu da dərindən bilirdi. Xruşov dövrünün aldatmaca yumşaqlığının da, Brejnev dövrünün

komformizminin bəd nəticələrini də proqnozlaşdırmaqda çətinlik çəkmirdi. Bəs onda bizlər, yəni hərəkatı təmsil eləyən liderlər, müstəqillik platformasında niyə Heydər Əliyevlə uzlaşa bilmədik və məğlub olduq. Bu, tarixi səhv idi, yoxsa səriştəsizlik. Axı, Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçiləndə iki müavinini keçmiş kommunistlərdən, ikisini də hərəkatçılardan seçərkən siyasi-ideoloji platformada uzlaşma modelini əyani şəkildə təqdim etmişdi. Sonrakı hadisələr göstərdi ki, məhz bu uzlaşmanın olmaması ölkəmizdə daxili qarşıdurmanın, habelə ərazi itkilərinin əsas səbəbi oldu. Yox, bu, sadəcə, öz ideoloji platformamıza aludəçiliklə və real siyasət anlayışından uzaq olmamızla bağlı məsələ idi. Biz Heydər Əliyevin içində yaşatdığı real Azərbaycanı görə bilmədik. Bizim içimizdəki Azərbaycan dünyadan təcrid olunmuş, xəyali bir məkan idi. Bu məkanı hardasa, hansısa dövlətin üzərindən gah Cənubla birləşdirirdik, gah da bölgədə sərbəst hərəkət trayektoriyası ilə Turana qoşurduq. Heydər Əliyevin içində yaşatdığı Azərbaycan isə ilk növbədə imperiya mərkəzi olan Moskva ilə münasibətləri ağıllı şəkildə çözməli idi. Bunu çözmədən Azərbaycanın varlığı hər zaman təhlükə altında qala bilərdi. Biz duyğularımızın diqtəsi ilə Moskvadan köntöy formada qopmaq istəyirdik və bunun faciəli nəticəsini proqnozlaşdırmaq ağlımıza da gəlmirdi. Heydər Əliyev isə təhlükəsiz və tədricən üzülüşmə yolunu düşünürdü. Zaman göstərdi ki, məhz bu üzülüşmə yolunun bir müddət sürəcəyini anlayan siyasi düşüncə Azərbaycanın müstəqilliyini daha çox maddiləşdirə bildi.

Açığı, biz Heydər Əliyevin Kommunist Partiyası liderindən müstəqil dövlətin liderinə transformasiyasına heç cür inana bilmirdik. Yəni dəyişə biləcəyinə inana bilmir-

dik. Böyük siyasət adamı Çörçil 1927-ci ildə çıxışında deyirdi: “Dəyişən şərtlərdə ardıcıl olmanın tək üsulu öz əsas məqsədini dəyişməz saxlayaraq, şəraitlə birlikdə dəyişməkdir”.

Bütün sovet epopeyasının yarı siyasi, yarı şəxsi rejimlərində Heydər Əliyev Azərbaycanın varlığını qorumaqla, ucaltmaq məqsədini dəyişməz saxlayaraq, özünü yeni mühitin lideri olmaq üçün dəyişdirə bildi. O, Azərbaycan DTX-sının başında olarkən də, yerli Kommunist partiya lideri, imperiya mərkəzində Syasi Büronun üzvü olanda da, Kommunist Partiyasının biletindən imtina edəndə də və nəhayət, müstəqil Azərbaycanın lideri olanda da məqsədi Azərbaycanı ucaltmaq idi. Məhz bu ardıcıllıq keyfiyyətini qoruya bildiyinə görə həmişə uğur qazana bildi.

Ona atdığımız təbliğat böhtanlarının başında, əsasən, “rus ordusunu təkrar Azərbaycana qaytaracaq”, “Qarabağı heç vaxt qaytarmağa çalışmayacaq” kimi tezislər gəlirdi. Zaman böyük siyasət adamı Heydər Əliyevə qarşı inkarçılığa, ədalətsizliyə, tənqidə və bəzən də təhqirə qədər varan müxalifətçiliyimizin iflasını bizlərə göstərdi. Nəinki Heydər Əliyevin hakimiyyəti dövründə yad qoşunun vətənimizə ayaq basmasının şahidi olduq, ardınca varisi cənab İlham Əliyevin Qəbələ RLS-dən yad qoşunları diplomatik zəka ilə çıxarmasının, ardınca Qarabağ kimi bir Qordi düyününün “dəmir yumruq”la çözülməsini alqışlayanda anladıq ki, o zamanki mühakiməmiz nə qədər haqsız və naşı idi.

Heydər Əliyev həm də öz qoyduğu irslə bizim müxalifətçilik anlayışımızı, dövlətçiliyə baxış bucağımızı dəyişdirdi. Dahi Şekspir deyirdi ki: “bəziləri böyük doğular, bəziləri böyüklüyü qazanar, bəzilərinə də böyüklük yapışdırılır”. Kiminə görə Heydər Əliyev böyük doğulmuş

şəxsiyyətdir, əlbəttə, bu genetika ilə bağlı məsələyə dəqiq izah verməkdə çətinlik çəkərəm. Ancaq əmin olduğum bir gerçək var ki, Heydər Əliyev dişi ilə, dırnağı ilə, xarakteri, zəkası və fırtınalardan sahilə salamat çıxar...

**Sədrlik edən.** Çox sağ olun. Elman Nəsirov. Buyurun, Elman müəllim.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün biz böyük qürur və fəxarət hissi ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı Milli Məclisin iclasını keçiririk. Hesab edirəm ki, xalqımız, biz parlamentarilər xoşbəxt insanlarıq. Ona görə xoşbəxt insanlarıq ki, Ulu Öndər kimi zəmanəmizin dühası, dahi bir şəxsiyyətin 100 illiyini qeyd etmək xoşbəxtliyi bizə nəsib olub. İndi mən hesablayıram, deməli, bir də düz 2123-cü ildə, yüz il bundan sonra Ulu Öndər Heydər Əliyevin növbəti yüz illiyi qeyd ediləcək. Hesab edirəm ki, həmin gün 100 il bundan sonra da gələcək nəsillər bu iclasın stenoqramına baxacaqlar, bu kadrları izləyəcəklər və doğrudan da, bunları düşünəndə bizim nə qədər çox tarixi anlar yaşadığımızın fərqindəyəm.

Ulu Öndər Heydər Əliyev haqqında düşünərkən və 1990-cı illərin reallıqlarına qayıdarkən, içimdən bir səs gəlir, deyirəm, kaş, o zamankı hakimiyyət, onun nümayəndələri, rəhbərləri arasında bir milli heysiyyat, bir vətənpərvərlik, bir milli qeyrət, namus və nəhayət, bir kişilik olardı ki, hakimiyyətdən əl çəkərdilər və 1989–1990-cı illər reallığında Ulu Öndər Heydər Əliyevi hakimiyyətə gətirərdilər. Belə olan vəziyyətdə, inanın ki, nə 20 Yanvar faciəsini yaşayacaqdıq, nə Xocalı soyqırımı ilə üz-üzə qalacaqdıq, nə də torpaqlarımız işğal altında olacaqdı. Bunlar hamısı mümkün olmayan hadisələr idi, yetərdi ki, onlar o ambisiyalarını, milli dönüklüyü kənara qoyub, belə

bir addımı atmış olardılar.

1990-cı il iyul ayının 22-də Ulu Öndər Heydər Əliyev Naxçıvana gəldi və təkcə Heydər Əliyev fenomeninə görə Naxçıvan işğal altına düşmədi. Amma halbuki Naxçıvanın işğalı Dağlıq Qarabağın, ətrafındakı 7 rayonun işğalından da daha asan idi. Çünki o, anklav idi, Azərbaycanın əsas hissəsi ilə heç bir əlaqəsi yox idi. Amma bu, baş vermədi. Çünki Naxçıvanda hakimiyyətdə məhz Heydər Əliyev idi.

Eyni məntiqlə mən bunu söyləyirəm ki, 1989-cu ildə, 1990-cı ildə bu hadisə baş versəydi, Heydər Əliyevin hakimiyyətə gəlişi olsaydı, tamamilə fərqli bir tarix yaşanmış olardı. Amma nə yaxşı ki, yenə də müdrik xalqımız 1993-cü ildə ən düzgün yolu seçdi, Heydər Əliyevin hakimiyyətə gəlişini təşkil etdi, tələbi ilə, xahişi ilə Heydər Əliyevi hakimiyyətə dəvət etdi. O zamankı tarixdən başlayaraq Azərbaycanın nicatının əsası qoyuldu.

Yadımdadır, 1997-ci il Ulu Öndər Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəri oldu. Bu səfər zamanı Hyuston şəhərində Ulu Öndərə Birləşmiş Ştatların 16-cı prezidenti Avraam Linkolnun büstü bağışlandı. Yeri gəlmişkən, Birləşmiş Ştatlarda cəmi 4 prezidentə heykəl qoyublar, onlardan biri də məhz Avraam Linkolndur. Məqsəd nə idi, mahiyyət nə idi? Bu addımları ilə amerikalılar hansı fikri söyləmək istəyirdilər? Bəllidir ki, Avraam Linkoln Birləşmiş Ştatların tarixində vətəndaş müharibəsinə son qoyan və Birləşmiş Ştatların bütövlüyünü qoruyub saxlayan prezident kimi tarixə düşüb. Yəni bu addımları ilə, Linkolnun büstünü Heydər Əliyevə verməklə söyləyirlər ki, Siz Azərbaycanda qardaş qırğınının qarşısını almısınız, vətəndaş müharibəsinə son qoymusunuz, Azərbaycanın bütövlüyünü qoruyub saxlamısınız. Həqiqətən də, indi filmdə göstərildiyi kimi, bir yandan

qondarma “Talış–Muğan respublikası”, bir yandan, şimalda “Sadval” deyilən bir separatçı cərəyan, ermənilərin hücumları davam edir, Azərbaycanda hakimiyyət uğrunda mübarizə, el dili ilə desək, heç kim, heç kimin kitabını oxumurdu. Bax, bu reallıqda Heydər Əliyev hakimiyyətə gəldi və sözün həqiqi mənasında, Azərbaycan xalqının milli xilaskarına çevrildi.

Bu gün Azərbaycan xalqı həm də Heydər Əliyevə ona görə minnətdardır ki, o özündən sonra bir siyasi məktəb yaradıb və həmin məktəbin ən layiqli davamçısı cənab İlham Əliyev bu gün Azərbaycana rəhbərlik edir. Onun rəhbərliyi sayəsində bu gün biz ərazi bütövlüyümüzü bərpa etmişik, tarixi Zəfərə imza atmışıq. Hələ qarşıda bizi yeni-yeni zəfərlər gözləyir.

Nə qədər ki, Azərbaycan dövləti var, hər zaman Heydər Əliyev də olacaq. Elə özü peyğəmbərcəsinə bu fikirləri söyləmişdir. Həyat da bunu təsdiqləyir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev.** Hörmətli sədr, xanımlar, cənablar! XX əsr bütün ağrı-acılarına və uğursuzluqlarımıza rəğmən, xalqımızın tarixində müstəqil dövlət qurmağa, iki il sonra müstəqilliyimizi itirsək də, onu yenidən bərpa etməyə nail olduğumuz üçün əlamətdardır. Heydər Əliyev XX əsrdə xalqımızın içərisindən çıxan dərin zəkası və idarəetmə istedadı ilə seçilən nadir və ən böyük dövlət adamı və tarixi şəxsiyyətdir.

XX əsrin 80-ci illərində Azərbaycan növbəti dəfə torpaq itirmək təhlükəsi ilə üz-üzə qalanda ölkəmizdə Qarabağı xilas etmək üçün sonradan milli azadlıq hərəkatına çevrilən böyük xalq hərəkatı yarandı. Amma sovet hakimiyyəti illərində insanların siyasətdən uzaq tutulması

və onların totalitar bir rejimdə qorxu mühitində formalaşması, xalqımızın rüşvətxor və istismarçı məmur təbəqəsinə nifrəti siyasi və idarəetmə təcrübəsinə malik güclü şəxsləri hərəkatın önünə çıxarmağa imkan vermədi. Heydər Əliyev 1970-ci illərdə elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı üçün xeyli işlər görsə də xalqımızın sosial inkişaf indeksi arzuladığımız səviyyədə deyildi. Azərbaycan Kommunist partiyasının qorxaq və Moskvaya sadiq müti rəhbərləri kiçik istisnalarla, əksəriyyəti yazıq duruma salınmış ziyalılar xalq hərəkatından uzaq dayandı. Bunun nəticəsi olaraq, vətənpərvər gəncliklə yanaşı, hərəkata cəmiyyətin xeyli tör-töküntüsü də qoşuldu. Onların bir çoxu önə çıxdı və bələlərinin səriştəsizliyindən istifadə edərək, Moskvaya bağlı bir çox agent hərəkatdan doğan AXC-nin rəhbərliyinə soxuldu. AXC rəhbərliyində başlayan, yaxud başladılan və kənardan qızışdırılan intriqalar, yanlış qərarlar, bəzən qərarsızlıq qısa müddətdə hərəkatı xalqın gözündən saldı, onu xalqın dəstəyindən məhrum etdi. AXC rəhbərliyindəki didişmələr, iddialar, təkəbbürlülük, səriştəsizlik, oradakı agentlər 20 Yanvar faciəsinin qarşısını almağa imkan vermədi.

Mürəkkəb tarixi şəraitdə hakimiyyətə gələn AXC sədri Əbülfəz Elçibəy qısa müddət sonra anladı ki, mövcud şəraitdə dövləti idarə etmək üçün böyük idarəetmə təcrübəsinə malik, güclü dövlət adamına ehtiyac var. Dərhal gözlər AXC-yə ciddi dəstək vermiş, SSR-nin saxlanması əleyhinə səs vermiş istiqlalçı deputat Heydər Əliyevə dikildi. 1993-cü ilin iyununda Gəncədə başlayan qiyamın yatırılması üçün edilən ilk cəhd uğursuzluğa düçar olan kimi, son dərəcə üzücü olsa da deməliyəm ki, siyasi hakimiyyət depressiyaya düşdü və ümidsizlik içərisində son ümid kimi Heydər Əliyev Naxçıvandan Bakıya, siyasi

hakimiyyətə dəvət edildi. Sov.İKP Siyasi Bürosu üzvü olmuş, SSRİ-də siyasi hakimiyyətin zirvəsinə yüksəlmiş, Kremlin güclü və zəif cəhətlərini, regionda və dünyada baş verənləri dərindən bilən, xalqımızı yaxşı tanıyan, onun mentalitetinə yaxından bələd olan Heydər Əliyev hakimiyyətə gələndən sonra pozucu qüvvələri cilovladı. Siyasi istiqrarsızlıqdan istifadə edərək torpaqlarımızı işğal edən Ermənistanın hücumlarını dayandıra bildi. Azərbaycanı MDB və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv etdi. Bölgədə marağı olan böyük güclülər arasında balans yaradaraq, onları Azərbaycanda sabitliyin olmasında maraqlı etdi, Ermənistanla atəşkəsə nail oldu.

Ədalət naminə onu da deməliyəm ki, Əbülfəz Elçibəy hakimiyyəti Heydər Əliyevə versə də prezident vəzifəsindən istefa verməməklə Heydər Əliyevə olan xarici təzyiqləri xeyli azaltdı, müstəqilliyimizin qorunmasında ona dəstək oldu. Heydər Əliyev ölkənin şimalında, şimal qərbində, cənubunda baş qaldırmış etnik separatizmin, vətəndaş qarşıdurmasının qarşısını aldı, ayrı-ayrı şəxslərə bağlı silahlı dəstələrin fəaliyyətinə son qoydu. Dövlət intizamı, qanunçuluq, böyük intellekt, səbr və gərgin əmək sayəsində bərpa olundu. Bu zaman Heydər Əliyevə qarşı terror və qiyam cəhdləri oldu. Amma o, Allahın da köməyi ilə bu təhlükələri adlatdı, ölkəmizi qorudu, onu dinc inkişaf yoluna çıxardı. Ölkəmizin təhlükəsizliyinə, Qarabağı azad edəcək ordu quruculuğuna əsas təminatlardan ən mühümü olan "Əsrin müqaviləsi"ni Qərbin nüfuzlu transmilli neft şirkətləri ilə imzalamağa nail oldu. Yeni Konstitusiya qəbul edildi, dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı.

Heydər Əliyev ölkəmizi və dövlətimizi böyük təhlükələrdən qoruyub, inkişaf yoluna çıxarmaqla adını xalqımı-

zın tarixinə qızıl hərflərlə yazdı. Yüksək insani keyfiyyətlərə malik Heydər Əliyev tariximizi, mədəniyyətimizi mükəmməl bilirdi. O, çoban Xanışla danışığında nə qədər səmimi və sərbəst idisə, Putinlə, Buşla, digər dünya liderləri ilə görüşlərində bir o qədər özgüvənli idi. Hamı ona hörmətlə yanaşırdı. Xalqımız onun xidmətlərini heç vaxt unutmayacaqdır. Onun hüquqi dövlət və bugünkü cəmiyyət quruculuğu istiqamətində başlatdığı işlərin uğurla sonuclanması üçün səylərimizi...

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun, Vüqar müəllim.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Mən də bir müstəqil iqtisadçı kimi, məhz Milli Liderimizin yenidən hakimiyyətə qayıtmasının və Milli Qurtuluş Gününün Azərbaycan dövlətinə və xüsusən Azərbaycan iqtisadiyyatına töhfələrini qeyd etmək istərdim.

Ümummilli Lider hakimiyyətə qayıdan ili, 1993-cü ildə Azərbaycan iqtisadiyyatı ciddi tənəzzül keçirirdi. Nəzərə alsaq ki, 1992-ci ildə Azərbaycan iqtisadiyyatı 27 faiz geriləmişdi, 1993-cü ildə iqtisadi geriləmə artıq 50 faizə çatdı. Məhz Ümummilli Liderimizin hakimiyyətə qayıtması çox qısa müddətdə iqtisadiyyatın stabilləşməsi və artıq 1996-cı ildə iqtisadi artımın əldə edilməsinə imkan yaratdı. Artıq 1993-cü ildən başlayaraq, biz iqtisadiyyatda sistemli şəkildə islahatların aparılması, iqtisadi tənəzzülün aradan qaldırılması və iqtisadi stabilliyin nail olunması ilə bağlı islahatların genişləndirilməsini müşahidə etdik.

Hörmətli xanım sədr, 1993-cü ildə Azərbaycanın inflyasiya səviyyəsi 1000 faizdən çox idi. Bu gün biz, təbii ki, inflyasiya ilə bağlı məsələni müzakirə edən zaman 1 və ya 2 rəqəmli inflyasiyanın olub-olmamasını müzakirə edi-

rik. 1993-cü ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri cəmi 100 milyon manat idi və bizim dünən müzakirə etdiyimiz dövlət büdcəsinin gəlirləri 33 milyard manatdan artıqdır. Təbii ki, bütün bunlar məhz həmin dövrdə əsası Ümummilli Lider tərəfindən formalaşdırılan iqtisadi strategiyanın reallaşması nəticəsində mümkün oldu. 1994-cü ildən etibarən aparılan islahatlar iqtisadiyyatda, xüsusən də ötən əsrin 90-cı illərinin sonunda sürətli iqtisadi artımın əldə edilməsinə imkan yaratdı və bütün bunlar, təbii ki, artıq 2000-ci illərdən etibarən iqtisadi islahatların dərinləşməsi və iqtisadi artım tempinin genişləndirilməsinə gətirib çıxartdı.

1994-cü ildə Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində imzalanan "Əsrin müqaviləsi", – Azərbaycan iqtisadiyyatı və yalnız neft sektoru ilə bağlı deyil, bütövlükdə, qeyri-neft sektoru daxil olmaqla, – Azərbaycan iqtisadiyyatı üçün inkişaf strategiyasının əsasını müəyyənləşdirdi. Kifayət qədər çətin və iqtisadi baxımdan tənəzzülün müşahidə edildiyi bir ildə kifayət qədər ciddi və Azərbaycanın iqtisadi maraqları nəzərə alınmaqla bağlanan "Əsrin müqaviləsi" növbəti dövrlər üçün Azərbaycan iqtisadiyyatında artım tempinin və sürətli artımın əldə edilməsinə imkan yaratdı.

Əsası Ümummilli Lider tərəfindən formalaşdırılan iqtisadi strategiya cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edir. Biz iqtisadi göstəricilərə diqqət yetirsək, nəzərə alsaq ki, 1993-cü ildə Ümummilli Lider hakimiyyətə gələn zaman Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsulu cəmi 375 milyon manat idisə, 2022-ci ildə Azərbaycan iqtisadiyyatı 133 milyard manatdan artıq olub. Yəni kifayət qədər ciddi rəqəmlərdir. Bu rəqəmlər məhz 2003-cü ildən sonra cənab Prezidentin rəhbərliyi ilə

həyata keçirilən iqtisadi islahatların dərinləşməsi nəticəsində  mümkün oldu.

Bu gün biz, təbii ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işləri müşahidə edirik. Cənab Prezidentin də qeyd etdiyi kimi, Ümummilli Liderin böyük arzusu məhz Qarabağın, Şuşanın azad olunması idi. Biz Ümummilli Lider tərəfindən əsası formalaşdırılan həm iqtisadi, həm siyasi, həm də bütövlükdə, strateji siyasət nəticəsində Qarabağın, Şuşanın işğaldan azad olunmasını müşahidə etdik. Yalnız 3 ildə Qarabağın və Şərqi Zəngəzurun  bərpasına yönəldilən vəsaitin həcmi 11,7 milyard manatdır. Bütün bunlar, təbii ki, artıq 1993-cü illə müqayisədə güclü Azərbaycan iqtisadiyyatının formalaşması, güclü dövlətin formalaşmasından xəbər verir. Bu güclü iqtisadiyyatın, güclü dövlətin banisi Ümummilli Lider Heydər Əliyevdir.

Bu gün biz artıq regionda reallaşan layihələrin, həm enerji, həm nəqliyyat və həm də digər sektorlarda formalaşan  regional layihələrin  müəllifiyik. Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan Cənub Qaz Dəhlizi və digər  layihələr yalnız regionun, Cənubi Qafqazın deyil, bütövlükdə, Avropanın enerji, eləcə də digər, o cümlədən nəqliyyat təhlükəsizliyinin formalaşması üçün töhfə verir. Orta Dəhliz və digər layihələrin reallaşması da bütün bunları 1993-cü ildə formalaşan siyasətin nəticəsi kimi qiymətləndirməyə  əsas verir. O baxımdan iqtisadi göstəricilər bir daha təsdiq edir ki, Milli Qurtuluş Günü Azərbaycan iqtisadiyyatı üçün  dönüş, başlanğıc nöqtəsi idi. Bu baxımdan, təbii ki, bir daha hər...

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, söz istəmişdiniz, buyurun. Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar. Sahibə xanım, Sizin sədrliyiniz ilə keçirilən Heydər Əliyevin 100 illiyi və Milli Qurtuluşun 30 illiyi tədbirlərinin belə yüksək səviyyədə təşkil olunması müasir parlamentarizm tariximizin ən parlaq hadisələri kimi yadda qalacaqdır. Əgər 30 il əvvəl bu salonda bir qrup vətənpərvər deputat Heydər Əliyevi sədaqətlə müdafiə edirdilərsə, digərləri özünü xilas etməyə görə, bəziləri də konyunktura naminə çıxış edirdilər. Bu gün isə fərqli siyasi analizlərə baxmayaraq, Ulu Öndər mövzusunda Azərbaycan parlamentinin vahid dövlətçilik mövqeyindən çıxış etməsi həm də müasir dövlət quruculuğumuzun uğurudur.

1993-cü ilin Milli Qurtuluş Günü Heydər Əliyevin Bakıya siyasi rəhbərliyə qayıdışı idi. Amma Heydər Əliyevin Moskvadan Azərbaycana qayıdışı hələ 1990-cı ilin yayında baş tutduğundan, bu tarixi hadisələrə dövlət quruculuğu baxımından məhz o cür qiymət verilməlidir.

Heydər Əliyevin sovet rəhbərliyində vəzifədən kənarlaşdırılması ilə həm özünə qarşı, həm də Azərbaycana qarşı qərəzli münasibətlər paralel, eyni zamanda başladı. Erməni lobbisi, bütövlükdə və Azərbaycanda millətinə, xalqına, vətəninə nankor baxan, xain çıxan adamlar fürsətdən istifadə edib, erməni lobbisi ilə birləşib Heydər Əliyevin əleyhinə işlər aparırdılar.

1990-cı ildə bütün təhdidlərə və təzyiqlərə baxmayaraq, Heydər Əliyev Bakıya qayıdarkən, təəssüf ki, Bakıda Moskvadakından daha təhlükəli təqiblərlə üzləşdi. Məhz ona görə də, təhdidlərin açıq olduğunu görərək Heydər Əliyev Naxçıvana yollandı. Beləliklə, Heydər Əliyevin Moskvadan qayıdışı, təəssüf ki, o mərhələdə Azərbaycanın qurtuluşu ilə tamamlanmadı.

Hörmətli həmkarlar, növbəti mərhələdə 1991-ci ildə

məhz mərkəzin, Moskvanın təşəbbüsü ilə SSRİ-nin dağıdılması nəticəsində, – hətta Rusiya Federasiyası belə suverenliyi haqqında Konstitusiya aktını Azərbaycandan öncə qəbul etmişdi, – yəni artıq belə tarixi şəraitdə Heydər Əliyevin Azərbaycanda olduğu dövrdə onun siyasi rəhbərliyə qayıdışı o dövr üçün xalqımızın qurtuluşu ola bilərdi.

Amma təəssüf olsun ki, vaxtı ilə bu zalda guya Azərbaycanın müstəqilliyi müzakirəsini aparan, əslində isə, Qorboçovun yenidənqurma siyasətinin yetişdirdiyi xəyanətkar kommunistlər və cəbhəçilər Heydər Əliyevin əleyhinə birləşdilər. Onlar, əslində, Heydər Əliyevin parlament rəhbərliyində təmsil olunmasına imkan verən müvafiq Konstitusiya maddəsinə qarşı çıxış edirdilər. Bununla da Azərbaycan xalqı bu tarixi qurtuluş imkanından o mərhələdə məhrum edildi.

Məhz buna görə də, sovet respublikalarının müstəqilliklərini elan etməsi fonunda ən faciəvi və acınacaqlı durum məhz Azərbaycanda oldu. Çünki 1990-cı illərin əvvəllərində postsovet respublikalarında, o cümlədən Qazaxıstanda, Özbəkistanda, Ukraynada təcrübəli şəxslər rəhbərliyə gəldikləri halda, Azərbaycanda, öz vətənində dünya şöhrətli Heydər Əliyev kimi şəxsiyyət ali siyasi rəhbərlikdən kənarda saxlanılmışdı.

Heydər Əliyev isə bu gün bu filmdə gördüyümüz kimi, bütün təhdidlərə baxmayaraq, cəsarətlə bu milli xəyanətkarların cavabını verirdi. Çünki Heydər Əliyevin gücü başqaları kimi vəzifədə deyil, polad iradəsində və xalqın ona inamında idi.

Sonrakı hadisələr daha da faciəvi oldu. 1992-ci ildə cəbhəçilərin artıq müstəqilliyini bərpa etmiş Azərbaycanı zəbt etmələri ilə 1920-ci ildə Xalq Cümhuriyyətini zəbt etmiş bolşeviklər arasında mahiyyətcə fərq yox idi. Əgər

var idisə, bu da əsrin əvvəlində sovet Azərbaycanının, heç olmasa, Qarabağı qorumaq bacarığı idi. Bu dəfə isə həm Qarabağ işğal olundu, həm də 1970–1980-ci illərdə Heydər Əliyevin yaratdığı güclü Azərbaycan iqtisadiyyatı məhv edildi.

Hələ o zaman Azərbaycan cəmiyyəti birmənalı olaraq o fikirdə idi ki, əgər Heydər Əliyev həmin dövrdə Azərbaycanın rəhbərliyində olsaydı, nə Qarabağ işğal olunardı, nə də ki, ölkə müstəqilliyinin ilk illərində bu cür böhran yaşamazdı.

1993-cü ilin iyun ayında baş verən hadisələrlə bağlı biz filmi də gördük və hörmətli həmkarlar çıxışlarında da söylədilər. Amma hələ təhlükələr bitməmişdi. Şuşanın və Laçının işğalına şərait yaratmaqla hakimiyyətə gəlmiş AXC–Müsavat cütlüyü bu dəfə 1993-cü ilin iyul-avqust aylarında digər rayonların işğalına şərait yaratmaqla belə mənfur niyyəti həyata keçirmək istəyirdilər və məqsədləri hakimiyyətdə qalmaq idi. Bügünkü filmdə Heydər Əliyev sözlərində də buna bir daha əmin olduq.

Heydər Əliyev parlament rəhbərliyində olsa da, orduda və yerlərdə real səlahiyyət AXC-nin və kriminal qruplaşmaların əlində idi. Bütün bu təhdidlərə baxmayaraq, Heydər Əliyev ölkədəki sağlam qüvvələri toplayaraq qış aylarında Qarabağda uğurlu hücum əməliyyatı keçirdi. Sonralar, 2016-cı ilin aprel ayında Azərbaycan Ordusu bu uğuru təkrarladı, 2020-ci ildə isə Ali Baş Komandan Qarabağı işğaldan tam azad etdi.

Hörmətli sədr, hörmətli həmkarlar. Beləliklə, Milli Qurtuluş Qarabağın işğaldan qurtuluşunun başlanğıcı oldu. Milli Qurtuluşla Azərbaycan o illərdə özünə yad, populist, qaragüruh qüvvələrdən qurtularaq Heydər Əliyev dövlətçilik və azərbaycançılıq təfəkkürünə qayıtdı. Azər-

baycan xarici və daxili düşmənlərin müdaxiləsinə son qoyaraq tarixi hadisələrin gedişatını öz təbii axarına qaytardı. Milli Qurtuluşla Azərbaycan demokratiya şüarları altında hakimiyyətə gəlmiş, əslində, diktatura rejimindən qurtulmuş oldu. Milli Qurtuluşla Azərbaycan xalqı qəlbində yaşatdığı azadlıq və müstəqillik simvolu – Heydər Əliyev ilə yenidən qovuşdu.

Beləliklə, Heydər Əliyevin qayıdışı və Milli Qurtuluşla nəhayət ki, Azərbaycanda əsl milli müstəqil hakimiyyət quruldu. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Konstitusiyamızın ilk cümləsində ifadə olunur ki, "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır". Suveren dövlətçiliyin ehtiva olunduğu bu konseptual müddəanın əgər tarixi proses ekvivalentini tapmaq istəsəydik, bu, heç şübhəsiz ki, 15 iyun Milli Qurtuluş Günü olardı. Çünki 30 il əvvəl legitim hakimiyyətin yeganə mənbəyi olan xalq yenidən Heydər Əliyevə etibar etdi, taleyin ümidinə buraxılmış xalqa məhz Ulu Öndər sahib çıxdı.

Heydər Əliyev bizim müasir müstəqillik təfəkkürümüzün banisidir. Kimin hansı mif uydurmasından asılı olmayaraq, etiraf edək ki, mövcudiyyəti dövründə biz SSRİ-yə öz dövlətimiz kimi yanaşmış, bu dövlətə inanmışıq. Bizim dəyərli ziyalılarımız belə əqidəli kommunist kimi sovet dövlətini özününkü hesab edib. Bu inamla yaşayan xalqın müstəqillik barədə düşünərək SSRİ-dən üz çevirməsi faktiki mümkünsüz idi.

Amma Ulu Öndərin 1987-ci ildə siyasi hakimiyyətdən ədalətsiz formada uzaqlaşdırılması xalqın sovetlərə ina-

mının itməsi ilə nəticələndi. Azərbaycanın müasir müstəqillik yolu da məhz bu qırılma nöqtəsindən başlanır. Təsadüfi deyil ki, Heydər Əliyevin repressiyalara məruz qalmasından cəmi bir neçə ay sonra başlanan xalq hərəkatının ilk iştirakçılarının əllərindəki etiraz plakatları məhz Heydər Əliyevin portretlərindən ibarət idi. Çox təəssüf ki, bəzi hallarda tariximizi qələmə alanlar nədənsə bu məqamın üzərindən sükutla keçirlər. Hansı ki, onların çoxunun əlini qələmə də, çörəyə də Heydər Əliyev çatdırıb.

Əlbəttə, Heydər Əliyevin böyük tarixi cılız adamların yazdığı və yazdırdığı “tarix kitablarına” sığışa bilməzdi. Çünki o özü elə tarix yaradan dahi idi və bunu hər kəs qəbul edib və edir. Hər kəs, o cümlədən də çox-çox aşağıda dayanıb Əliyev yüksəkliyini özünü rəqib sayanlar.

Təsəvvür edin, prezidentliyi dövründə özünə, bu gün isə yoluna müxalifətdə olanlar da bu böyük şəxsiyyətin qarşısında özlərinin bir heç kim olduqlarını o dərəcə də yaxşı dərk edirlər ki, “mübarizə yolunu” ayrı-ayrı tarixi şəxsiyyətlərə uğursuz formada istinad etməkdə, Heydər Əliyev şəxsiyyətini guya onlarla üz-üzə qoymaqda görürlər. Amma unudurlar ki, istər XX əsrin əvvəlində, istərsə də XX əsrin sonunda onların istinad etdiyi şəxslərin, – biz onların da ruhuna ehtiramla yanaşırıq, – heç birinin özünün siyasi yolu olmayıb, amma Heydər Əliyevin yolu var. Çünki əgər hansısa siyasi xətt, ideya davam edirsə, bu yoldur. Amma etiraf edək ki, nə qədər mütərəqqi olur olsun, siyasi ideyalar faydalı formada davam etmirsə, bu, artıq dalandır, yol deyil.

Bu gün Heydər Əliyevin davam edən yolu suverenliyin və tərəqqinin yeganə qarantıdır. Bilirsiniz ki, Ermənistan dövləti yaranandan, yəni 1918-ci ildən Azərbaycana ərazi iddiaları var idi və 1969-cu ilə qədər bu iddialarını

hissə-hissə realizə edə bilirdilər. Məhz Heydər Əliyevin simasında güclü milli iradənin hakimiyyətə gəlməsi bu gedişata son qoydu. 1969-dan 1987-ci ilə qədər Qarabağda kimsə baş qaldıra bildimi? Amma 1987-ci ildə Ulu Öndərin istefasından iki həftə keçməmiş o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətin Ermənistanın tərkibinə verilməsi məsələsini yenidən qaldırdılar. Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, kimsə bu çirkin əməllərə cürət edərdimi? Əsla.

Cənab İlham Əliyevin 10 mayda Şuşadan bəyan etdiyi kimi "Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu". Budur, yazılmalı tarix. Yoxsa, kiminsə Zori Balayana "sanballı" cavabı, yaxud kiminsə populist qəzet məqalələri seriyası, bunların hansı siyasi, hüquqi nəticəsi oldu?

1987–1993-cü ilə qədər dayanaydılar da ermənilərin qarşısında. Hakimiyyəti mənimsənilməklə xalqa qarşı ən ağır cinayət törədən AXC–Müsavat cütlüyü nə edirdi? Ölkə uçuruma yuvarlandığı, torpaqların işğal olunduğu bir şəraitdə, xalqın gözünün Naxçıvana dikildiyini görən o dövrkü iqtidar bütün potensialını Əliyevlə mübarizəyə səfərbər etmişdilər.

Amma Ulu Öndər bu cılız, konsepsiyasız, prinsipsiz, kortəbii qaragüruhdan çox yüksəkdə dayanmışdı. Hakimiyyətə gəldikdən sonrakı dövrdə atılan addımlar, başlanan şərəfli yol barədə saatlarla danışmaq olar. Budur, Heydər Əliyevin fərqi.

Heydər Əliyevin xalq qarşısında ən böyük xidmətlərindən biri də məhz milli iradəni ifadə edən siyasi xəttin davamlılığını cənab İlham Əliyevin timsalında təmin etməsi oldu. Cənab İlham Əliyev necə ki şanlı Zəfərlə, son 200 ildə qarşıda duran əsas ümummilli vəzifəni həll etməklə, eləcə də həyata keçirdiyi ardıcıl tədbirlərlə Ulu

Öndərin Konstitusiyada ehtiva olunan dövlətçilik konsepsiyasını, vəsiyyətini reallaşdırdı. Bu gün cənab İlham Əliyev, sözün əsl mənasında, xalqının vahidliyini təcəssüm etdirir, dövlətin varisliyini təmin edir. Dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, sözün əsl mənasında, təminatçısı və harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların hamisidir.

Belə bir şəraitdə qarşımızda bir vəzifə var, cənab İlham Əliyevin ətrafında sıx birləşmək. Ən azı mövcudiyyətimizi qorumaq naminə, böyüyən övladlarımızın xoşbəxt həyatı naminə, təhlükəsizlik, sabitlik və inkişaf naminə, müstəqillik, suverenlik naminə. Bu yol davam etməlidir. İlham Əliyevin olmadığı, Heydər Əliyev siyasi xəttinin olmadığı yol milli xəyanət deməkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hicran Hüseynova. Buyurun.

**H.Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Ulu Öndər Heydər Əliyevin vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Bu dahi insanın bir amalı var idi – Azərbaycanı tam, xoşbəxt, güclü görmək və bunun üçün də çalışırdı, hətta deyərdim ki, mübarizə aparırdı.

Ulu Öndər tarixi varislik prinsiplərini əsas götürməklə, bir çox mühüm siyasi, tarixi, strateji, iqtisadi əhəmiyyət kəsb edən məsələləri yenidən canlandırdı. Nümunələr saysızdır: ordu quruculuğu, Azərbaycan dili, iqtisadiyyatda, diplomatiyada, insan hüquq və azadlıqlarının qorunmasında, dövlət atributlarının təbliğ olunmasında biz bu varisliyi görə bilərik. Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu. Bu yolda heç bir çətinlikdən qorxub çəkinmədi. Ulu Öndər insanlara özlərinə güvənməyi

öyrətdi və xalqı inandırdı ki, Azərbaycanın gələcəyi də, onun iqtisadiyyatı və mədəniyyəti də onların öz əllərindədir. Biz onun fəaliyyətini davamlı olaraq təbliğ etməliyik. Xüsusi ilə yeni nəsil bilməlidir ki, Ulu Öndər dövlətimizi necə xilas etdi və biz hansı mürəkkəb dövrdə yaşamışıq. Ona görə də mən xanım sədr, Sizə təşəkkür edirəm ki, Milli Məclisdə belə vacib, xüsusi iclaslar keçirildi və xüsusi ilə də bu çap olunan kitablar və film, bunlar hamısı çox vacibdir. Buna görə Sizə və bütün kollektivə, kimin burada zəhməti olub, hamısına dərin minnətdarlığımı bildirirəm.

Ulu Öndərin ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının qorunması sahəsində gördüyü işlər xüsusi ilə qeyd olunmalıdır. Baxmayaraq ki, çətin bir dövr idi. Məhz onun təşəbbüsü ilə Azərbaycan qadın və uşaq hüquqları ilə bağlı bütün zəruri beynəlxalq konvensiyalara qoşuldu. Sual olardı ki, bu, nə üçün lazım idi? Ulu Öndər deyirdi ki, informasiya blokadasında yaşayan bir ölkə üçün bu, yaxşı bir imkandır, fürsətdir ki, beynəlxalq səviyyədə bizim ölkəmizin vəziyyəti haqqında məlumatı çatdıraq. Həmçinin dünya Azərbaycanın insan hüquq və azadlıqlarına hörmətlə yanaşdığını gördü. Gördü ki, Ermənistan tərəfindən işğala məruz qalmasına, 1 milyondan çox qaçqın və məcburi köçkün olmasına baxmayaraq, ölkəmiz və xalqımız beynəlxalq hüququn norma və prinsiplərinə əməl edir. Sülh üçün, inkişaf üçün, sabitlik üçün fəaliyyət göstərir. Bütün bunlar isə ölkəyə münasibəti dəyişdi.

Onun siyasətini, arzularını ləyaqətlə davam edən cənab Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan regionun ən güclü və suveren dövlətinə, eləcə də yüksək beynəlxalq nüfuza malik olan ölkəyə çevrilib. 30 ilə yaxın

davam edən erməni işğalına son qoyulub, Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunub.

15 iyun Azərbaycan tarixində xüsusi bir mahiyyət daşıyan gündür və 30 il əvvəl, bu gün Azərbaycanı parçalanmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən qurtardı. 2 il əvvəl isə Azərbaycan qardaş Türkiyə ilə Şuşa Bəyannaməsini imzaladı və güclü və qalib dövlət olaraq bir daha bölgədə və dünyada sülhün və rifahın bərqərar olması üçün öz töhfəsini təqdim etdi.

Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir. Çox sağ olun

**Sədrlik edən.** Sağ olun. Əminə Ağazadə. Buyurun.

**Ə.Ağazadə.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Ulu Öndərin dövləti və xalqı üçün xidmətlərini bir çıxışla və bir iclas çərçivəsində tam olaraq çatdırmaq qeyri-mümkündür. Çünki Heydər Əliyevin Azərbaycan xalqı üçün xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir.

Bu gün qısa olaraq, 1993–2003-cü illəri əhatə Ulu Öndərin Azərbaycan Respublikasının hüquq siyasəti və dövlət quruculuğu işində həyata keçirdiyi fundamental islahatlarından qeyd etmək istərdim.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev üçün dövlətin daxili siyasətində həyata keçirilməli olan ən əsas məsələ xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaq idi. Ulu Öndər siyasi təcrübəsi, vətənpərvərliyi, iradəsi, dərin biliyi sayəsində dövlətimizi vətəndaş müharibəsi təhlükəsindən, ictimai, siyasi və iqtisadi böhran vəziy-

yətindən xilas edərək ölkədə ilk növbədə qanunçuluğu bərqərar etdi. Qanunun aliliyinə təminat verən Konstitusiya qəbul edildi.

1995-ci il 12 noyabr tarixində ümummilli referendumda qəbul edilən Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanması kimi çox məsuliyyətli işi Heydər Əliyev öz üzərinə götürərək komissiyaya şəxsən sədrlik etmişdir. Azərbaycan Konstitusiyasının müəllifi hesab edilən Ulu Öndər Konstitusiyanın bütün mətninin, xüsusi ilə də III Fəslin, yəni əsas insan və vətəndaş hüquqları və azadlıqlarını ehtiva edən maddələrin hər bir cümləsinin redaksiyasına xüsusi diqqət vermişdir. Nəticədə Heydər Əliyevin rəhbərliyi ilə üçdə biri insan hüquqlarını bəyan edən mükəmməl, normativ hüquqi akt hazırlanmışdır.

Bundan sonra Ümummilli Liderin təşəbbüsü ilə yeni məhkəmə sistemi formalaşdırıldı. Həmçinin Konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi 1998-ci il iyulun 14-də yaradıldı. Əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək olan Konstitusiya Məhkəməsinin yaradılması insan hüquq və azadlıqlarının müdafiə edilməsi üçün çox zəruri idi.

Hüquq mühafizə sistemi kimi çətin və məsuliyyətli sahənin təşəkkülü də məhz Ulu Öndərin adı ilə bağlıdır. Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi ölkəmizdə insanların dinc və təhlükəsiz yaşamasını təmin etdi. Digər tərəfdən isə dövlətin cinayət hüququ sahəsində əsaslı dəyişikliklər edildi. Əfv institutu bərpa olundu. İlk dəfə olaraq Şərqdə ölüm cəzası ləğv edildi. Belə ki, hələ 1993-cü ildə Ulu Öndərin ölkəyə rəhbərliyə başlamasından sonra ölüm cəzasının icrasının üzərində moratorium qoyuldu. 1998-ci il fevralın 3-də isə Heydər Əliyev Milli Məclisə müraciət edərək ölüm cəzasının ləğv

edilməsinin zəruriliyini əsaslandırdı. Milli Məclisin dövlət başçısının təklifini dəstəkləyərək, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” 1998-ci il 10 fevral tarixli Azərbaycan Respublikasının Qanununu qəbul etməsi ilə bu cəza növü ləğv edildi.

Ulu Öndər ölüm cəzasının ləğvinə dair milli hüququn mühüm aktlarının qəbulu ilə yanaşı, bu sahədə əsas beynəlxalq sənədlər olan Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın İkinci Fakültativ Protokoluna, habelə “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyasının 6 nömrəli Protokoluna ölkəmizin qoşulmasının da təşəbbüskarı olmuşdur.

Həmçinin Heydər Əliyevin 1998-ci il 22 fevral tarixli “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanının əhəmiyyəti də qeyd edilməlidir. Belə ki, həmin fərmanla qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı Konstitusiyada əks etdirilmiş insan hüquq və azadlıqların əsas meyar kimi rəhbər tutulması Milli Məclisə tövsiyə edilmişdir. Azərbaycanda İnsan hüquqları üzrə müvəkkil təsisatının yaradılması ideyası da ilk dəfə məhz bu fərmanla verilmişdir.

Ulu Öndərin Azərbaycan Respublikasının Prezidenti kimi qanunvericilik təşəbbüsü ilə də Milli Məclis tərəfindən bir çox mühüm normativ hüquqi aktlar qəbul edilmişdir. Bunların arasında – Mülki, Mülki Prosessual, Cinayət, Cinayət-Prosessual, Seçki, Əmək, Ailə və digər məcəllələrin qəbulu da xüsusi qeyd edilməlidir.

Əminliklə deyə bilərik ki, xalqımızın müstəqil, demokratik, qanunların aliliyinə əsaslanan hüquqi dövlətdə yaşamaq arzusunu məhz Heydər Əliyev reallığa çevirdi. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əminə xanım. Jalə Əliyeva. Jalə xanım sualınız var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif? Buyurun.

**J.Əliyeva.** Çıxışa yazılanların hamısının danışmaq imkanının yaranması üçün çıxışların 3 dəqiqəyə endirilməsini təklif edirəm.

**Sədrlik edən.** Jalə xanım, bu mövzuya mən 3 dəqiqə ayırmayacağam. 3 dəqiqə necə ola bilər? Xeyr. 5 dəqiqə danışmışıq, 5 dəqiqə də olacaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, sakitliklə. Tahir Kərimli. Tahir müəllim, Sizin də sualınız var? Burada sual nəzərə alınmamışdır. Deyin görüm, sözünüz nədir?

**T.Kərimli.** Hörmətli xanım sədr, mənə elə gəlir ki, parlament etikasına uyğun olaraq, siyasi partiyaların sədrləri, nümayəndələri də danışsınlar. Mən orada adımı görə bilmirəm. Ona görə, xahiş edirəm, şərait yaradasınız.

**Sədrlik edən.** Ulu Öndər hamımızın Ümummilli Liderimizdir. Həm siyasi partiyalar, Yeni Azərbaycan Partiyası da siyasi partiyadır, burada müxalifəti təmsil edən partiyalarımız da, hamımız Azərbaycan xalqıyıq. Ona görə komitə sədrlərinin iclasında bizim bir nəticə olaraq birgə qərarımız oldu ki, hamı yazılacaq. İndi kim, nə zaman, haraya düşsə, orada da çıxış edəcək, çox hörmətli Tahir müəllim. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi 3 epizod üzrə yaxından görmüşəm. 1992-ci ildə Cəfər Cabbarlının heykəlinin yanında, ətrafına adamlar yığılmışdı və hər kəs çalışırdı ki, ona toxunsun. O isə gülümsəyirdi. Çünki o zaman Heydər Əliyev hər kəs üçün

möcüzəvi bir şəxsiyyət idi.

İkinci dəfə isə onun çağırışı ilə xalq o zamankı Prezident Aparatının qarşısına toplanan zaman mən yenə də orada idim. Üçüncü dəfə isə Azadlıq meydanında Surət Hüseynovun çevriliş cəhdlərindən danışanda onun çıxışını "Associated Press" Agentliyinə tərcümə edirdim.

Heydər Əliyev xoşbəxt Azərbaycan qurmaq üçün çalışdı. Amma əks mövqedə dayanan şəxslər ona kömək etmək əvəzinə, qarşı çıxmaq yolunu tutdular. Hərçənd, Heydər Əliyevi özləri dəvət etmişdi ki, gəl, Azərbaycanı xilas et, öz təyin etdiklərimizin qəzəbindən qoru. O zaman fərqli düşərgədə dayanan şəxslərin düşüncəsi bu idi ki, gəldin, təmizlədin, stabillik yaratdın, daha ver hakimiyyəti bizə, çıx get. Nə etmək lazım idi? İqtidardan müxalifə çevrilənlər Heydər Əliyevlə əməkdaşlıq etməli idi. Onu yıxmaq, hakimiyyətdən salmaq üçün gecə-gündüz ayağının altını qazmalı deyildi. İmkan vermədilər ki, Heydər Əliyev gücünü tam olaraq xalqın rifahına yönəltsin. Məcbur oldu ki, ölkəni yenidən xaosa çevirmək istəyənləri də neytrallaşdırmağa güc sərf etsin. O zaman kreslo davası etməsəydilər, bəlkə də Əli Kərimli deputat yerləri üçün iqtidarın içində ayrı-ayrı adamlarla sövdələşməyə girib saxtakarlıq etməsəydi, 4-5 deputat kreslosu, özünün ambisiyaları üçün Əbülfəz Elçibəyə xəyanət etməsəydi, əminəm ki, müxalifət də indikindən fərqli və 10 qat güclü olardı.

30 ildə nəyə nail oldular ki, danışmaqdan, tənqid etməkdən başqa? Barışmazlıq çıxış yolu deyil. Hərəkatçılar mənə deyir ki, Siz deputatlara deyin ki, AXC–Müsavat cütlüyü deyib nifaq yaratmasınlar. Siz cənab Prezident İlham Əliyevə çatdırın ki, AXC–Müsavat cütlüyü haqqında sərt ifadələr işlətməsin. Deyirəm ki, siz niyə öz gözünüzdə o tiri görmürsünüz? Siz gündə 24 saat, həftədə

7, ayda 30, ildə 365 gün iqtidar nümayəndələrini, Prezident İlham Əliyevi ən sərt sözlərlə tənqid və təhqir edirsiniz və yaxud etdirirsiniz. Onlar da daş deyil, Prezidentin də ürəyi var, hissləri var. Onun da haqqıdır ki, heç olmasa, bir dəfə olsa sizin etdiklərininiz pislikləri sizə xatırlatsın. Düşünürəm ki, əgər İlham Əliyev bu qədər humanist və mədəni olmasa idi, nə olardı. Düşünürəm ki, Allah etməsin sizlərin əlinə bir rıçaq keçsə nə edərdiniz? Daşı daş, başı baş üstə qoymazdınız. Ona görə də o kürsünü və səlahiyyəti heç zaman nə xalq sizə verər, nə də uca yaradan. Sosial şəbəkələrdə söyüş söyür, təhqir edirlər, öz leksikonlarına uyğun cavab alanda az qalırlar ki, dəli olsunlar. Deyirlər ki, yaşımıza, ağ saçımıza niyə hörmət qoymurlar? Bu saçları ağarmış, nimdaş düşüncə və həyata malik adamlara demək lazımdır ki, sən öz ağarmış saçına və yaşına hörmət qoymursansa, başqası necə qoya bilər?

İnanıram ki, ölkəmizin müstəqilliyi əbədi olacaq və bu müstəqil ölkəmizdə də, suveren ölkəmizdə də Azərbaycan xalqı hər zaman xoşbəxt və rifah içərisində yaşayacaq və Azərbaycanda hər zaman siyasi stabillik və milli birlik davam edəcək. Azərbaycan artıq oturuşmuş, öz kökləri üzərində inkişaf edən müstəqil, suveren bir dövlətə çevrilmişdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm, hörmətli xanım sədr, hörmətli deputatlar. Hörmətli xanım sədr, az öncə izlədiyimiz film üçün Sizə və əziyyəti olan hər bir kəsə dərin minnətdarlığımızı bildiririk. Həqiqətən, çox təsirli və düşündürücü filmdir. Bir daha ötən əsrin 90-cı illərindəki vəziyyət haqqında qənaətlər yenilənir.

Bəşəriyyət tarixi boyunca oturuşmuş qanunların ötən əsrin 90-cı illərində Azərbaycanda heç bir əlamətinin

görünmədiyi qənaətinə gəlirik. Bu nədən ibarətdir? Bir qayda olaraq, xarici təhlükə, təhdid hər hansı bir ölkə, xalq daxilində həmrəyliyi, birliyi şərtləndirir. Münaqişə nəzəriyyələrində də bununla bağlı çoxlu yanaşmalar mövcuddur. Azərbaycanda isə biz bunun tam əksini görürük. Ermənistan həmin dövrdə Azərbaycan torpaqlarını ardıcıl şəkildə işğal edirdi. Düşmənin işğalçılıq siyasətinin uğurları ölkədə hakimiyyət uğrunda mübarizə üçün istifadə edilirdi. Toplar, tüfənglər, tanklar, zirehli texnika düşmən üzərinə yeriməkdənsə, Milli Məclisin üzərinə yeridilirdi.

Tanınmış Çin mütəfəkkiri Sun Tzunun "Müharibə sənəti" haqqında əsərində göstərilir ki, müharibənin əsas güclərindən biri də mənəviyyat qanunudur. Mənəviyyat qanununu mütəfəkkir bu cür izah edir. "Müharibə aparan ölkə, xalq həmişə daxili birliyə, həmrəyliyə sahib olmalıdır". İlkin şərt bundan ibarətdir. Azərbaycanda isə ötən əsrin 90-cı illərinin əvvəllərində bunun da tam əksini görürdük. Ayrı-ayrı silahlanmış birləşmələr hakimiyyət uğrunda qeyri-sivil mübarizə aparırdılar. Siyasi birliyin, həmrəyliyin təmin olunması haqqında, ümumiyyətlə, düşüncə mövcud deyildi və bir çox hallarda biz eşidirdik ki, həmin dövrdə hakimiyyətdə olanlar, daha dəqiq demiş olsaq, AXC–Müsavat hakimiyyətinə xalqın limiti tükənməkdə idi. Hesab edirəm ki, bu, doğru yanaşma deyil. Çünki az öncə səsləndirdiyim kimi, topu-tüfəngi Milli Məclisə tuşlayanlara xalqın nə inamı, nə etimadı, nə də, təbii ki, limiti ola bilərdi. Xalqın yeganə ümid yeri biz sonradan gördük ki, yalnız bir şəxslə bağlıdır. Bu da Ümummilli Lider Heydər Əliyev idi. Həmin dövrdə Ulu Öndərin hakimiyyətə qayıdışı təkcə dövlətçiliyimizi, xalqımızı deyil, həyat fəaliyyətinin bütün sahələrini xilas etdi. Həmin dövrdə dövlətimizin təhlükəsizliyi, hərbi

təhlükəsizlik, ümumi şəkildə isə milli təhlükəsizliyimiz çox ciddi təhdidlər qarşısında idi. Bu təhdidlərin aradan qaldırılması üçün Azərbaycanda heç bir resurs mövcud deyildi. Yalnız Ulu Öndərin, siyasi dahinin strateji baxışları sayəsində resursların olmadığı bir şəraitdə milli təhlükəsizliyimizin təmin edilməsi imkanları qısa zaman kəsiyində formalaşdırıldı. İlk öncə siyasi sabitliyin təmin olunması milli iqtisadi sistemin elementlərinin formalaşdırılması imkanlarını yaratdı.

Beynəlxalq münasibətlər sahəsinin tanınmış tədqiqatçılarından olan Kuinsi Rayt qeyd edirdi ki, dövlətin xarici siyasətinin, diplomatiyasının keçərli olması üçün onun arxasında güclü ordu lazımdır. Ulu Öndər də bu prinsipə söykənərək elə ilk günlərdən milli ordu quruculuğu istiqamətində çox təsirli addımlar atdı.

Təbii ki, Ulu Öndərin Azərbaycan xalqının, dövlətinin həyatında fəaliyyəti, gördüyü işlər haqqında saatlarca, günlərcə danışmaq olar. Konkret olaraq, sadəcə, milli təhlükəsizlik, müdafiə sahəsində onun görmüş olduğu işlər bugünkü qələbələrimizin, xüsusi ilə də 2020-ci il Vətən müharibəsində tarixi qələbəmizin ilkin elementlərini hələ o dövrdə formalaşdırmış oldu. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Jalə Əhmədova. Buyurun.

**J.Əhmədova**. Hörmətli sədr, hörmətli həmkarlar və media nümayəndələri. Bu gün biz əminliklə deyə bilərik ki, 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ölkəmizi böyük bəlalardan xilas etdi. Həmin gün böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan həmin gündən başlayaraq Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu. İnkişafın

sarsılmaz təməlləri qoyulmuş həmin gün ölkəmizin tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasəti həyata keçirməsi, dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Ulu Öndər kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi. Ölkəmizi parçalanıb, yox olmaq təhlükəsindən qurtardı. Bu isə dövlətimizin, azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, bir sözlə, qurtuluş demək idi.

100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin vaxtı ilə söylədiyi “mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır” kəlamı hər birimizin yaxşı yadındadır. Bu, həqiqətən də, belə idi. Heydər Əliyev bütün ömrü boyu xalqın yanında olmuş, fəaliyyətini, bütövlükdə, ölkəsinin inkişafı və tərəqqisinə həsr etmiş fenomenal bir şəxsiyyət idi. Ölkəmizin dövlətçilik tarixində misilsiz xidmətləri olan Ulu Öndərimiz Heydər Əliyevin öz xalqına olan məhəbbətindən və vətəninə bağlılığından, Azərbaycanın bütün sahələrdə inkişafı istiqamətində məqsədyönlü siyasətindən, insanpərvərliyindən, böyük ürək sahibi olmasından nəinki saatlarla, günlərlə danışmaq olar. Vətəni və xalqı qarşısındakı misilsiz xidmətləri saymaqla bitməyən o böyük şəxsiyyət Azərbaycan dövlətinin gücləndirilməsi və onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsi, ölkənin siyasi və iqtisadi qüdrətinin daha da artırılması işində böyük xidmət göstərmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərini özündə cəmləşdirən Ulu Öndər fəaliyyət göstərdiyi bütün sahələrdə özünü məhz birinci şəxs, lider kimi təsdiq etmişdir. Qeyri-adi zəka, fitri istedad, möhkəm iradə, dəmir məntiq kimi fenomenal xüsusiyyətlərə malik olan Heydər Əliyev dünya liderləri

arasında xüsusi nüfuza sahib olub. İdarəetmənin ustadı və siyasətin kamil bilicisi olan Ulu Öndərin beynəlxalq tribunalardakı qətiyyətli çıxışları, keçirdiyi görüşlər nəticəsində Azərbaycan ilə dünya dövlətləri arasında qarşılıqlı münasibətlərin təməli qoyulub.

Min illər keçsə belə yaddaşdan çıxmayacaq, nəsillərdən nəsillərə ötürüləcək Heydər Əliyev ideyaları və başa çatdıra bilmədiyi işlər bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla reallaşmaqdadır. Ümummilli Liderimizin həyat və siyasət məktəbinin yetirməsı olan cənab Prezidentin gərgin əməyi, uzaqgörən xarici və daxili siyasəti nəticəsində Azərbaycan bu gün bölgədə və dünyada söz və nüfuz sahibinə çevrilib. Bütün dünyada torpaqlarını işğaldan azad edən qalib ölkə kimi tanınıb. Azad edilmiş torpaqlarımızda aparılan tikinti və bərpa, quruculuq işləri, uğurla reallaşan Böyük Qayıdış layihəsi, məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıtması, ölkənin bütün sahələrdə dinamik inkişafı cənab Prezident İlham Əliyevin Heydər Əliyev siyasi məktəbini keçdiyini, Ulu Öndərin dövlət idarəçiliyi praktikasına yiyələnmiş peşəkar siyasətçi olduğunu bir daha sübut edir. “Mən hər bir vətəndaşımın yanındayam” deyən dövlət başçımızın da yanında Azərbaycan xalqıdır. Xalq–dövlət birliyi isə sarsılmaz olur. Allah xalqımızı, dövlət başçımızı, dövlətimizi və dövlətçiliyimizi qorusun. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar İskəndərov. Buyurun.

**V.İskəndərov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Düşünürəm ki, xalqların, dövlətlərin taleyində onların yetişdirdiyi liderlərin böyük rolu var. Necə ki, bu gün Amerika Birləşmiş Ştatları Corc Vaşinqtona, bugünkü Fransa Şarl de Qola, Almaniya Adenaura, çox saymaq

olar, Türkiyə Atatürkə borcludur, Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi Ümummilli Liderimiz Heydər Əliyevə o qədər borcludur. Ümummilli Liderin iki dəfə – sovetlər dövründə və müstəqillik dövrümüzdə hakimiyyətdə olması ölkəmizin taleyində və həyatında çox böyük rol oynayıb və bütün sahələrdə böyük inkişaf olub. O sahələrdən birini, gənclər siyasəti, idman siyasətini də qeyd etməliyik. Ümummilli Liderimiz hakimiyyətə gəldiyi ilk zamanda, – onu da qeyd edim ki, ilk yaratdığı nazirlik müstəqil dövlətin Gənclər və idman nazirliyi oldu, – Azərbaycan gəncliyinə, Azərbaycan idmanına böyük önəm verdi. Çünki o dövrdə sovetlərdən qalmış komsomol təşkilatları dağılmışdı, gənclər bir növ pərakəndə şəkildə, təşkilatsız qalmışdılar. Onların təşkilatlanması, dövlət idarəçilik sistemində irəli çəkilmələri, onlara önəm verilməsi Ümummilli Liderimizin qarşıya qoyduğu əsas məqsədlərdən biri idi. Hər 3 ildən bir keçirilən gənclər forumları, – mən də 2 forumun iştirakçısı olmuşam, – Ümummilli Liderimizin qarşımızda bir saatdan artıq məruzə etməsi, bir növ Azərbaycan gəncliyinə ölkəmizin gələcək konturlarını cızması idi. Eyni anda idman siyasətimizə də böyük önəm verilirdi. Çünki bir dövləti tanıtmaq üçün idman ən böyük, uyğun vasitələrdən biridir. Həmin zamanlarda Milli Olimpiya Komitəsinə cənab Prezident İlham Əliyevin seçilməsi, ölkəmizdə idman qurğularının inşası, gənclərimizin idmana meyllənməsi, sağlam həyat tərzi aşılanması və gələcək Azərbaycan insanının, genofondumuzun sağlam ruhda böyüməsi Ümummilli Liderin əsas məqsədlərindən biri sayılırdı.

Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq

nümayiş etdirdi. Ölkəmizi ictimai-siyasi pərakəndəliyin, anarxiyanın məngəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı. Yenidən qurduğu və hər gün qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altına qoyaraq dərhal Bakıdan Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı. Bütün bunlar isə Azərbaycan xalqında gələcəyə bir inam, ümid işığını yandırmış oldu. Bu baxımdan Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan və qızıl hərflərlə yazılmış 15 iyun Milli Qurtuluş Günü kimi tarixdə qaldı.

1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu və inkişafımızın sarsılmaz təməlləri qoyuldu. Bu, bir həqiqətdir ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycan rəmzi kimi qəbul edilir. Xatirəsini həmişə uca tuturuq, minnətdarlıqla anırıq və bu günü Milli Qurtuluş Günü kimi qeyd edirik.

Bu, əlbəttə ki, əbəs yerə deyil. Çünki Ulu Öndərin Azərbaycan rəhbərliyində olması Azərbaycan tarixinin yeni bir dönüş nöqtəsi oldu. Ölkəmiz inkişafa qədəm qoydu, bugünkü güclü Azərbaycan yarandı. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Prezidentimiz İlham Əliyevin Ulu Öndərin siyasi kursunu davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan bir dövlətinə

çevrilib. Ümummilli Liderimizin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirib. Xalqımız əmindir ki...

**Sədrlik edən.** Sağ olun. Musa Quliyev. Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri cənab Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, ölkəmizin hər yerində olduğu kimi, Milli Məclisdə də hörmətli xanım sədr, Sizin təşkilatçılığınız və rəhbərliyiniz altında çox yüksək səviyyədə, müxtəlif formatlarda ardıcıl olaraq keçirilir və bu tədbirlər davam etməkdədir. Bu gün çox dəyərli bir kitabın və filmin təqdimatında iştirak etdik. Bütün bunlar Ulu Öndərə sədaqətin və məhəbbətin ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın tarixində və taleyində yeri və rolu tarixçilər, politoloqlar, filosoflar tərəfindən uzun illər araşdırılacaq, öyrəniləcək, dəyərləndiriləcəkdir. Lakin Ulu Öndərin müasirləri olan bizlər dəqiq bilirik ki, Heydər Əliyev Azərbaycanın rəhbərliyində olmasaydı, bugünkü Azərbaycan dövləti də olmayacaqdı. Nəinki müstəqil, qüdrətli bir dövlət yaratmaq bizə nəsib olmayacaqdı, hətta ola bilsin ki, indiki müstəqilliyimiz və ərazimiz çərçivəsində yaşamağımız da böyük sual altına düşmüş olardı.

Heydər Əliyev yer üzünə xüsusi missiya ilə göndərilmiş Tanrının sevib, seçdiyi böyük dövlət xadimi, xarizmatik şəxsiyyətdir. Onun ən böyük missiyası canından əziz sevdiyi doğma xalqına müstəqil, güclü dövlət yaratmaq, bu xalqı xoşbəxt görmək idi. O, sanki Azərbaycana xilaskar olaraq göndərilmişdi və xalqını ən ağır dövrlərdə

fəlakətlərdən qurtararaq xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirdi.

Heydər Əliyevin digər bir tarixi missiyası birləşdiricilik missiyası idi. Ümummilli Lider bu gün hamımızın qürur duyduğumuz müstəqil, müasir Azərbaycan dövlətinin möhkəm özüllər üzərində bünövrəsini qoydu. Onun siyasi, ideoloji inkişaf konsepsiyasını yaratdı. Bütün dünya azərbaycanlılarını müqəddəs üçrəngli bayrağımızın altında birləşdirən Azərbaycançılıq ideologiyasını hazırladı və tətbiq etdi.

Ulu Öndərin növbəti missiyası quruculuq missiyası idi. O, həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində güclü Azərbaycan yarada bildi. İctimai, siyasi, iqtisadi, sosial, mədəni humanitar həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin sözü, əməli, imzası olmasın.

Heydər Əliyev həm də Azərbaycan parlamentarizminin müasir əsaslarını formalaşdırmış, parlament davranışı və mədəniyyəti ənənəsini yaratmış böyük dövlət xadimidir. Xalqını öz ətrafında birləşdirərək doğru yolla irəli aparmaq Ulu Öndərin liderlik missiyası idi.

Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi ki, “mənim başa çatdırmadığım işləri Azərbaycan xalqının dəstəyi ilə İlham Əliyev başa çatdıracaq”. Ulu Öndərin arzusunda olduğu, lakin başa çatdıra bilmədiyi ən birinci vəzifə isə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi idi. Heydər Əliyev həm də xoşbəxt siyasi liderdir ki, onun başladığı müqəddəs yolu oğlu və siyasi varisi Ali Baş Komandan cənab İlham Əliyev Şuşa ucalığına qədər davam etdirdi.

Bu gün Ulu Öndərin ruhu şaddır. Onun canından artıq sevdiyi Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdur.

Ali Baş Komandan İlham Əliyev öz xalqı ilə birlikdə bu şərəfli missiyanı bacardı və müasir, bütöv Azərbaycan dövlətinin qurucusu, torpaqları işğaldan azad edən və ərazi bütövlüyünü təmin edən sərkərdə kimi öz şərəfli adını qızıl hərflərlə tarixə yazdırdı.

Qarabağın və Şərqi Zəngəzurun çiçəklənəcəyi, inkişaf edəcəyi, dünyanın turizm mərkəzlərindən birinə çevriləcəyi, Zəngəzur dəhlizinin açılacağı günlər lap yaxındadır. Qarşıda isə daha böyük milli hədəflər dayanır. Bu yolda böyük Allah və Ulu Öndərin müqəddəs ruhu köməyimiz olsun. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bildiyimiz kimi, Azərbaycan xalqı dünyada çox az xalqlardandır ki, XX əsrdə 2 dəfə dövlət müstəqilliyinə nail olub. 1918-ci il mayın 28-də qurduğumuz birinci müstəqil dövlət cəmi 23 ay yaşadı. Müsəlman Şərqində ilk dəfə yaradılan demokratik respublikanı, təəssüflər olsun ki, o zaman qorumaq mümkün olmadı. Eyni taleyi 1991-ci ilin oktyabrın 18-də Xalq Cümhuriyyətinin hüquqi varisi kimi müstəqilliyini bərpa edən Azərbaycan Respublikası da yaşaya bilərdi. Belə ki, müstəqilliyimizin ilk illərində həm Mütəllimov rejiminin, həm də AXC–Müsavat cütlüyünün yarıtmaz siyasəti və hakimiyyət hərisliyi nəticəsində ölkə çox ağır iqtisadi, siyasi və mənəvi böhrana sürüklənmiş, dövlət idarəetmə aparatı iflic vəziyyətə düşmüş, ölkəni xaos, hərc-mərclik və anarxiya bürümüşdü.

Bu dövrdə dövlət quruculuğu istiqamətində heç bir real addım atılmamış, nizami ordu qurmaq əvəzinə, ayrı-ayrı şəxslərə və siyasi partiyalara xidmət edən silahlı dəstələr yaradılmış və hakimiyyət uğrunda gedən mübarizəyə cəlb edilmişdi. Nəticədə Xocalı, Şuşa, Laçın və Kəlbəcər kimi

strateji rayonlar Ermənistan tərəfindən işğal olunmuş və yeni ərazi  itkiləri üçün real zəmin yaranmışdı. O vaxtkı iqtidarın kobud və ardıcıl səhvləri ölkəmizin dünya miqyasında təklənməsinə, daxildəki  pozucu ünsürlərin xarici qüvvələrlə birləşib Azərbaycanı parçalamaq, etnik zəmində qarşıdurma yaratmaq və vətəndaş müharibəsinə sürükləmək kimi məkrli planlarının həyata keçirilməsinə rəvac vermiş, xalqımızın müstəqil yaşamaq və öz dövlətini qurmaq inamını sarsıtmışdır.

1993-cü ilin birinci yarısında isə vəziyyət daha acınacaqlı həddə çatmış, ölkədəki hökumət böhranı dövlət böhranına çevrilmiş, milli maraqlar gözardı edilmiş və Azərbaycanın müstəqil dövlət kimi varlığı sual altına düşmüşdü. AXC–Müsavat cütlüyü bu təhlükəli və qorxulu prosesin qarşısını almaqda aciz idi. Ağır vəziyyətə düşmüş xalq yeganə çıxış yolu kimi böyük dövlət adamı və nəhəng siyasət ustadı Heydər Əliyevə üz tutdu və onu köməyə çağırdı. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlətçiliyi və müstəqilliyini məhv olmaqdan qurtarmaq, ölkəni düşdüyü dərin böhrandan çıxarmaq, ictimai-siyasi sabitliyi bərpa etmək, vətəndaşların dövlətinə olan inam və etimadını yenidən özünə qaytarmaq kimi çox çətin, riskli, eyni zamanda, bir xilaskarlıq missiyasını üzərinə götürməli oldu.

Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi, sarsılmaz iradəsi və  cəsarətli addımları ilə ölkədə başlamış qardaş qırğınının, vətəndaş müharibəsinin və ölkənin bir neçə yerə parçalanmasının qarşısını qısa müddətdə aldı. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında hakimiyyəti silah gücünə devirərək ölkəmizin müstəqilliyinə son qoymaq cəhdlərini qətiyyətlə dəf etdi. Heydər Əliyevin dühası

sayəsində xalqımız dövlət müstəqilliyini qorudu, bir əsirdə ikinci dəfə dövləti dağılmaq təhlükəsindən xilas etdi və milli qurtuluşa nail oldu.

Ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdikdən sonra Heydər Əliyevin qarşısında müstəqilliyimizi əbədi və dönməz etmək, müasir dünyada Azərbaycanın layiqli yerini müəyyən etmək, mövcud çağırışlara hazır olan savadlı və vətənpərvər nəsil yetişdirmək, vətəndaş həmrəyliyinin, əmin-amanlığın hökm sürdüyü güclü, demokratik və hüquqi dövlət qurmaq kimi daha bir çətin və tarixi vəzifə var idi.

Bu vəzifənin də öhdəsindən layiqincə gəlməyi bacaran Ulu Öndər Azərbaycanın tərəqqi və dirçəliş dövrünü başlatdı. 1995-ci ildə müstəqil dövlətin ilk Konstitusiyası qəbul olundu. Ölkəmizin hərtərəfli inkişafı üçün milli strategiya müəyyənləşdirildi, "Əsrin müqaviləsi" imzalandı, nizami ordu yaradıldı, dövlətçiliyimizin ideya əsasını təşkil edən azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarını birləşdirən vahid amala çevrildi. Bir sözlə, güclü və qüdrətli Azərbaycan bugünkü səviyyəsinə gəlməsi üçün bütün hazırlıqlar görüldü.

Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri də Azərbaycanın müstəqillik və inkişaf yolunu əzmlə davam etdirən, Ulu Öndər vəsiyyətini yerinə yetirərək torpaqlarımızı işğaldan qurtaran və ərazi bütövlüyümüzü bərpa edən cənab İlham Əliyev kimi layiqli siyasi varisi, qətiyyətli və müdrik lideri və müzəffər Ali Baş Komandanı yetişdirməsi idi.

Əminik ki, dünya siyasət tarixinə adını qızıl hərflərlə yazdırmış, azərbaycanlı olması ilə daim fəxr etmiş, müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev xalqımızın qəlbində daim yaşayacaq. Heydər Əliyev siyasəti Azərbaycanın müstəqilliyinə və inkişafına əbədiy-

yən xidmət edəcəkdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Yüksək vəzifə daşıyan, hətta ölkəyə rəhbərlik edən heç də hər bir siyasətçi dövlət xadimi ola bilmir. Dövlət xadimlərinin isə çox az qismi, barmaqla sayılacaq qədəri tarixi şəxsiyyətə çevrilməyi bacarırlar ki, onlardan da biri, heç şübhəsiz, Ulu Öndər Heydər Əliyev idi.

Bu il Azərbaycanda "Heydər Əliyev İli" kimi qeyd edilir. Amma, əslində, bizim və bizdən sonrakı nəsillərin qarşılayıb yola salacağı hər bir il Heydər Əliyev ili olmasa da, Heydər Əliyevli il olacaq. Çünki axı, özü demişdi: "necə ki Azərbaycan var, mən də olacam".

Bəli, bu gün Azərbaycan var, sabah da olacaq və ilk növbədə ona görə olacaq ki, dünyada müstəqil siyasət yeridən az sayda dövlətlərdən biridir. Biz buna görə, təbii ki, Heydər Əliyevə borcluyuq. O şəxsiyyətə ki özünün də bildirdiyi kimi, müstəqillik əldə edəcəyimizə çox da əmin olmadığı vaxtlarda da, Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə də bu haqda fikirləşirmiş.

Söhbət elə bir adamdan gedir ki, fikirləşdiyini dilə gətirənlərdən deyil, əmələ çevirənlərdən idi. Yəni o zaman atdığı addımları xatırlayıb da dərk edirsən ki, Heydər Əliyev digər sovet respublikalarının rəhbərləri kimi təkcə iradəçilik ilə deyil, həm də dövlət quruculuğu ilə məşğul olub. Yəqin ona görə son dərəcə mürəkkəb bir vaxtda yenidən Azərbaycanın başına gələrkən qoyub getdiyinin, demək olar ki, xarabalıqları üzərində yeni bir dövlət quranda heç bir səhvə yol vermədi. Məncə, burada təkcə fövqəladə bacarıq və dühası deyil, həm də onun dövlətçilik təcrübəsi az rol oynamadı. Bir sözlə, Heydər Əliyev müstəqil dövlət quruculuğuna 1993-cü ildən daha əvvəl,

sovet Azərbaycanına rəhbərlik edərkən başlamışdı.

Heydər Əliyevin həmişə müstəqillik düşüncəsi ilə yaşadığını və artıq bunun mümkünlüyünə tam əmin olduğunu düz 32 il əvvəl 1991-ci ilin martında bu salondakı çıxışı və etdikləri də təsdiqləyir. Ulu Öndər o zaman burada deyirdi ki, hətta digər respublikalar belə SSRİ-nin tərkibində qalmaq istəsələr, Azərbaycan oradan çıxmalı, ittifaqla ikitərəfli əlaqələr qurmalıdır.

Təəssüf ki, Ulu Öndər eşidilmədi, Azərbaycanda SSRİ-nin tərkibində qalmaqla bağlı saxta referendum keçirildi. Bir yerdən başqa, o da Naxçıvan idi. Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımızı dövlət rəmzi kimi ilk təsdiqləyən Naxçıvan.

Heydər Əliyevin müstəqillik mücadiləsi, o, Azərbaycanda ikinci dəfə rəhbərliyə başlayandan sonra da davam etdi. Bəzən Ulu Öndərin bütün çevriliş cəhdlərinə sinə gərərək hakimiyyəti qoruyub saxlamasından danışırlar. Mən bu ifadəni yanlış sayıram. Heydər Əliyevin qoruduğu hakimiyyət deyil, müstəqillik idi. Müstəqilliyimiz üçün ən böyük təhlükə isə "radikal müxalifət" adlandırılan, radikallıqları məsuliyyətsizlik və marginallıqlarından qaynaqlanan səriştəsizlər deyil, çeşidli səbəblərdən hakimiyyətdə yer alan, paralel idarəçiliyə cəhd edən imperiyaya bağlı səriştəlilər idi ki, məhz onları, belə demək mümkünsə, ya milliləşdirmək, ya da neyrtallaşdırmaq lazım gəlirdi. Heydər Əliyev bunu da qrossmeysetrcəsinə bacardı.

Əziz həmkarlar, mən bu gün müstəqillik məsələsini ona görə qabardıram ki, Azərbaycan müstəqil olmağı, müstəqil siyasət yeritməyi bacarmasaydı, torpaqlarını heç cür işğaldan azad edə bilməyəcəkdi. O günü görmək hər şeyə qadir sandığımız Heydər Əliyevə, çox təəssüf ki, nəsib olmadı. Xatırlayıram ki, çoxları "əgər Heydər Əliyev bunu

bacarmadısa, çətin kimsə Qarabağı geriyə qaytara bilər" deyirdi. Amma həyat göstərdi ki, belə fikirləşənlər həm yanılıblar, həm də haqlıdılar. Onda yanılıblar ki, Qarabağı qaytaran oldu. O mənada haqlı idilər ki, qaytaran elə həm də Heydər Əliyev idi. Onun siyasətinə sədaqət göstərmək, onun vəsiyyətini yerinə yetirmək, onun yolu ilə getməklə müzəffər Ali Baş Komandanımız İlham Əliyev Qarabağı azad etdi. Heydər Əliyevin bir nəhəngliyi də burada meydana çıxdı. Hər kəs gördü ki, təkcə özü deyil, yetirməsi, davamçısı da həm dövlət xadimi, həm də tarixi şəxsiyyət olmağı bacardı.

1991-ci ildə bu salonda Heydər Əliyev Qarabağın əldən getdiyini, təcili tədbir görmək lazım gəldiyini bildirəndə bir nəfər, yumşaq desək, onu təkzib etməyə çalışmış "Qarabağ indiki kimi bizim olmayıb" demişdi. Proseslərin gedişi Ulu Öndərin nə qədər haqlı olduğunu üzə çıxardı.

Ancaq bu gün hamımız bir ağızdan "XIX əsrdən bu yana Qarabağ heç zaman indiki kimi bizim olmayıb" deyə bilərik. Bunun ən gözəl təsdiqi 2 il öncə...

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Çox sağ olun. Hörmətli Sahibə xanım, ilk növbədə hamı kimi mən də Ulu Öndərin həyatı haqqında çox dəyərli filmə, eyni zamanda, onun parlament fəaliyyəti ilə bağlı kitabların nəşrinə görə Sizə və Milli Məclisin Aparatına təşəkkür edirəm. Bu film də, bu kitablar da Heydər Əliyev irsinin araşdırılmasında çox gözəl mənbə rolunu oynayacaq.

Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, hesab edirəm ki, bəşəriyyətin ən görkəmli siyasi və dövlət xadimlərindən biridir. Heydər Əliyev dövrünün keyfiyyət göstəricisini dəyişə bilən nadir şəxslərdən biridir. Heydər Əliyev dünyaya sanki Azərbaycan xalqının əsrlərlə yığılıb

qalmış problemlərini həll etmək üçün gələn tarixi bir şəxsiyyətdir.

Heydər Əliyev çalışdığı bütün sahələrdə böyük nəticələr əldə edə bilib. O, təhlükəsizlik orqanlarında işləyərkən təhlükəsizlik orqanlarını Azərbaycan xalqını cəzalandıran orqandan Azərbaycan xalqını qoruyan bir orqana çevirdi. 1940-cı ildə Azərbaycan təhlükəsizlik orqanlarında işləyənlərin cəmi 20 faizi azərbaycanlı idi. Heydər Əliyevin 1960–1970-ci illərdə fəaliyyəti nəticəsində 1970-ci ildə bu rəqəm orada işləyənlərin 80 faizinə qədər gəlib çata bildi. Heydər Əliyev təhlükəsizlik orqanlarında işləyərkən cəsarətlə Azərbaycan xalqının milli maraqlarını qoruya bilirdi.

1963-cü ildə Sumqayıtda 1 may nümayişində nümayişçilər Sumqayıtın çörəklə pis təchizatına görə Siyasi Büro üzvlərinin şəkillərini yandırmışdılar və 1 may nümayişini pozmuşdular. Bunu tədqiq etmək üçün göndərilən polkovnik Heydər Əliyev nümayişçilərin cəzalandırılmasının qarşısını aldı. Yada salmaq istəyirəm ki, ondan 1 il əvvəl 1962-ci ildə Rusiyanın Novaçerkask şəhərində belə bir hadisə baş vermişdi. Nümayişə çıxan insanların 17 nəfəri güllələnmişdi, 7 nəfərinə isə güllələnmə verilmişdi. Rus xalqı SSRİ-nin titul xalqı, əsas xalqı idi. Amma rus xalqının nümayəndələri öz xalqını qoruya bilmədi. Amma Azərbaycan xalqının hələ təhlükəsizlik orqanlarında bir idarə rəisi işləyən Əliyev soyadlı bir nəfəri Azərbaycan xalqını bu fəlakətdən qurtara bildi.

Heydər Əliyev Bəxtiyar Vahabzadəni Azərbaycan üçün qoruya bildi. Xəlil Rza Ulutürkü, Anarı qoruya bildi. Bir çoxlarını, ziyalıları Azərbaycan üçün qoruya bildi. Heydər Əliyev 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyində azərbaycanca çıxış etdi. Bu bizə qəribə gələ bilər. Amma 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti-

nin süqutundan sonra respublika rəhbərliyində olan, ciddi bir auditoriya qarşısında ana dilində çıxış eləyən birinci şəxs idi. Heydər Əliyev yeni bir Azərbaycan liderinin yetişdiyini göstərdi.

13 il Sovet Azərbaycanına rəhbərliyi Azərbaycanı aqrar sənaye bölgəsindən sənaye aqrar bölgəsinə çevirdi. Heydər Əliyev həmin dövrdə Azərbaycanda 250 müəssisə tikdirdi. 800 min iş yeri açdırdı. 1975-ci ildə Azərbaycan əhalisi cəmi 5 milyona çatdı. 800 min iş yerinin nə demək olduğunu təsəvvür edin. 6 yeni universitet açıldı. Mən özümü xoşbəxt sayıram ki, həmin universitetlərdən birinin məzunu oldum. Heydər Əliyev həmin dövrdə Azərbaycan mədəniyyətini, incəsənətini SSRİ səviyyəsində tanıda bildi. Müslüm Maqomayev, Polad Bülbüloğlu, Lütfiyar İmanov, Firəngiz Əhmədova, bunları tanıtdı. İstedadlı Azərbaycan rəssamı Tahir Salahovun SSRİ Rəssamlar İttifaqının birinci katibinin seçilməsinə nail oldu. Minlərcə Azərbaycan gəncinin SSRİ-nin aparıcı universitetlərində təhsil almasına nail oldu.

Heydər Əliyevin bacarığı, qabiliyyətliliyi, müasirliyi, məhdud çərçivədə böyük işlər görməsi SSRİ rəhbərliyinin diqqətini cəlb etdi. Onun SSRİ rəhbərliyinə çəkilməsi çox tarixi bir hadisə idi. 70 il ərzində SSRİ rəhbərliyinə türk xalqlarından cəmi 3 nəfər rəhbərlikdə olub. Nəriman Nərimanov, 1957–1961-ci illərdə özbək Muhiddinov və Heydər Əliyev. Çox maraqlıdır ki, 3-ünü də bu və ya digər formada SSRİ rəhbərliyindən uzaqlaşdırmışdılar. Heydər Əliyev SSRİ rəhbərliyində olarkən, necə işləmək lazım gəldiyini göstərdi.

Heydər Əliyev rəhbərlikdən uzaqlaşdırıldıqdan sonra xalqın yaddaşında qaldı. Heç də təsadüfi deyil ki, 1988-ci ildən sonra milyonlarca insan nümayişə çıxarkən Heydər

Əliyevin adını çəkirdi. Heydər Əliyev Naxçıvana rəhbərlik eləyərkən Naxçıvanın Ermənistan tərəfindən işğalının qarşısını aldı. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi Azərbaycanın müstəqilliyinin itirilməsinin qarşısını aldı. Heydər Əliyev olmasa, açıq deyək, Azərbaycan bu gün Yəmən idi, Azərbaycan bu gün Liviya idi, Suriya idi, Somali idi və sair. Heydər Əliyev Azərbaycan problemlərini, Azərbaycanın gedəcəyi yolu müəyyənləşdirdi. Azərbaycanı bu yola apara biləcək komandanı formalaşdırdı. Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün həmin yolu uğurla davam etdirir, uğurlarımız göz qarşısındadır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Azərbaycan xalqının böyük siyasi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı belə bir xüsusi iclasın keçirilməsi böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, zamanın fövqündə dayanan şəxslər, dahilər, dühalar olurlar. XX əsrdə Azərbaycanın taleyində həlledici rol oynamış və inkişaf yolunu müəyyənləşdirmiş, millətimiz və dövlətimiz var olduqca müraciət ediləcək, öyrəniləcək, ibrət alınacaq bir neçə tarixi gün mövcuddur. Belə günlərdən biri bərpa edilmiş, lakin itirilmək təhlükəsi qarşısında qalan Azərbaycanın dövlət müstəqilliyinin xilas edildiyi, güclü dövlətin qurulmasının, bütün vətəndaşların tək millət, tək dövlət, tək bayraq, tək torpaq uğrunda birləşməsinin, işğal altında qalan torpaqların azad edilməsi üçün təməllərin qoyulduğu 1993-cü ilin 15 iyunudur.

Çox yaxşı bilirsiniz ki, hər hansı bir tarixi hadisə və prosesə verilən qiymətdə götürülən başlıca meyar onların özündən sonrakı inkişafa necə təsir etməsi, dövlət və

millət üçün nəticələrinin necə olması, hökumətin fəaliyyətinə düzgün qiymət verilməsi üçün qarşıya qoyduğu məqsəd və vəzifələri necə yerinə yetirməsi, faydaları və ziyanları ilə ölçülür. Elə isə 1991-ci ildən sonra millətimizin qarşısında hansı vəzifələr dayanırdı? Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan xalqının qarşısında dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçmək, tək partiyalı sistemdən çox partiyalı sistemə, demokratiyaya keçmək, dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq, Ermənistanın əsassız ərazi iddiaları ilə başlatdığı Azərbaycanın daxili işlərinə kobud müdaxiləsini və hərbi təcavüzünü dayandırmaq və nəticələrini aradan qaldırmaq dayanırdı. Lakin iqtidarlar bu vəzifəni yerinə yetirə bilmədilər. Belə bir şəraitdə ölkə ümumi böhrana daxil oldu. Dövlət idarəçiliyindəki səriştəsizlik, problemlərin yanlış qoyuluşu, onların həllinə səhv, primitiv, məhdud yanaşma, qanunverici, icraedici və məhkəmə hakimiyyəti arasında ixtilaflar, xalq ilə hakimiyyət arasında ziddiyyətlər, vətəndaşlara qarşı kobud davranışlar, ölkənin şimalında və cənubunda xaricdən dəstəklənən separatçı qurumların elan edilməsi, Azərbaycan xalqının parçalanma astanasında olması, vəziyyətdən çıxmaqdan ötrü sabaha ümidlərin olmaması, yürütdüyü siyasət nəticəsində hakimiyyətin xalqdan aralı düşməsi, ona bəslənən ümidləri doğrulda bilməməsi ümumi böhran yaratdı. Belə bir şəraitdə Heydər Əliyev hakimiyyətə gəldi və bu, qurtuluş oldu. Azərbaycan xalqı nədən qurtuldu?

Heydər Əliyevin parlament sədri və oktyabr ayında Prezident seçilməsi ilə Azərbaycan xalqı ilk növbədə dövlət müstəqilliyini itirmək təhlükəsindən qurtardı. Azərbaycan xalqı böyük tarixi ləkə ola biləcək və kandarında

dayandığı qardaş qırğınından və vətəndaş müharibəsi təhlükəsindən qurtuldu. Azərbaycan Respublikası xaricdən dəstəklənən separatçılıqdan və parçalanmaqdan xilas oldu. Xalq dövlətinin bütövlüyünü qorudu. Azərbaycan xalqı müstəqil dövlətçiliyə, firavan gələcəyə olan inamsızlıqdan, bədbinlikdən və mənəvi-psixoloji böhrandan, müstəqil Azərbaycan dövlətinin qarşısında dayanan vəzifələri yerinə yetirməyə qadir olmayan bacarıqsız hakimiyyətdən, hakimiyyətə Konstitusiyaya zidd yollarla gəlmək, silah və təzyiqlərlə hakimiyyət dəyişikliyinə nail olmaq, eksperimentlər ölkəsinə çevirilmək meyllərindən xilas oldu.

Hakimiyyətə gəlişi ilə ölkəni parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən xilas edən Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu və memarı oldu. Azərbaycanda təməlləri möhkəm olan güclü dövlətçilik ənənələrinin, dərin dövlətin əsası qoyuldu.

Hörmətli xanım sədr, biz tarixi günləri xatırlayarkən, ilk növbədə ondan ibrət dərslərini söyləməliyik. 30 ildən sonra, 15 iyun tarixindən alınan ibrət dərsləri nələrdir? Birinci, demokratiyanı bərqərar etmək üçün ilk növbədə dövlət olmalıdır. Zəif dövlət hakimiyyəti və anarxiya olan yerdə demokratik cəmiyyət qurmaq, insanın ali hüququ olan yaşamaq hüququnu təmin etmək olmaz. Xalq dövləti idarə edən hakimiyyət sükanını heç bir zaman naşı, populist adamlara, milli dövlət maraqlarını düzgün müəyyənləşdirə bilməyən, çətin anlarda qaçıb gizlənən şəxslərə etibar etməməlidir. Hakimiyyətə küçədən gəlmək cəhdlərinə yol vermək olmaz. Azərbaycan xalqının qarşısına qoyduğu vəzifələrə çatmağının yolu güclü dövlətdən və qüdrətli dövlət rəhbərliyindən keçir və bunu ötən illərin təcrübəsi bir daha göstərdi ki, cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi...

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar və media nümayəndələri. 2023-cü il “Heydər Əliyev İli”dir. Bu ilin məsuliyyəti çox böyükdür. Heydər Əliyev Azərbaycan tarixində nadir şəxsiyyətlərdəndir ki, həm özü  tarix yaradıb, həm də onun fəaliyyəti ilə bağlı tarix yazılır və yəqin gələcəkdə də yazılacaqdır. Elə bu gün Milli Məclis tərəfindən təqdim olunan həm kitablar, həm də film onu göstərir ki, nə qədər Heydər Əliyev var, nə qədər müstəqil Azərbaycan var, onunla bağlı hələ bundan sonra da çox kitablar yazılacaq.

Heydər Əliyev Azərbaycan tarixində necə xarakterizə olunur? Azərbaycan tarixçiləri Heydər Əliyevin fəaliyyətini beş dövrə bölürlər. Bu dövrün birincisi, təbii ki, 1944–1969-cu illərdir. Heydər Əliyev bu illərlə bağlı Azərbaycana nələr verə bilmişdir? İlk əvvəl Heydər Əliyev yeganə azərbaycanlıdır ki, ilk dəfə Azərbaycan tarixində bu xüsusi xidmət orqanına rəhbər təyin olunmuşdur. İkincisi, Heydər Əliyev bu dövrdə yüzlərcə azərbaycanlını bu dövlət qurumuna cəlb etdi, eyni zamanda, yüzlərcə Azərbaycan ziyalısını sovet cəza üsulundan xilas edə bildi.

Heydər Əliyevin fəaliyyətinin ikinci dövrü 1969–1982-ci illərlə bağlıdır. Heydər Əliyev bu dövrdə Azərbaycan tarixində hansı xarakterik hadisələrlə yadda qalıb? Mən bir neçəsini, təbii ki, xatırlatmaq istəyirəm. 1971-ci ildə Naxçıvanski adına hərbi məktəbin açılması Heydər Əliyevin müstəsna xidməti idi. Eyni zamanda, 1969-cu ilin iyuluna, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Azərbaycanın 4000 kvadrat kilometr ərazisi Ermənistana verilmişdir. 1969-cu ilin iyulunda Heydər Əliyev hakimiyyətə

gəldi və bir daha həmin torpaqdan söhbət getmədi.

Heydər Əliyevin Azərbaycan tarixinə ən böyük xidmətlərdən biri hakimiyyəti dövründə hər il minlərcə Azərbaycan gəncini SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərməsi oldu. Təbii ki, o ziyalıların da sonra müstəqil Azərbaycanın elm və təhsilinin inkişafında müstəsna xidmətləri oldu. Təbii ki, Heydər Əliyevin bu dövrlə bağlı ən böyük xidmətlərdən biri də 1978-ci ilin Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasıdır.

Ən nəhayət, Moskva dövrü. Təbii ki, 1982–1987-ci illərlə bağlı bir cümlə ilə bu fikri deyə bilərəm ki, Heydər Əliyev yeganə türk müsəlmandır ki, sovet dövlətini idarə eləyib. Nə Heydər Əliyevə qədər, nə də Heydər Əliyevdən sonra heç bir türk müsəlman bu dövlətin idarəçiliyində belə yüksək vəzifədə olmayıb.

Təbii ki, Heydər Əliyevin fəaliyyətinin sonrakı dövrü Naxçıvanla bağlıdır. Bəli, tarixdə həmişə sual olunur, əgər 1918-ci ildə Qafqaz İslam Ordusu Azərbaycanın köməyinə gəlməsəydi, Cümhuriyyət neçə ay yaşaya bilərdi? 1921-ci ildə Mustafa Kamal Atatürk Qars müqaviləsini imzalamasaydı, Naxçıvanın taleyi neçə ola bilərdi? Nəhayət, 1990-cı ildə Heydər Əliyev Naxçıvana getməsəydi, şaxtalı qış, soyuq, sərt, qazsız, işıqsız bir Naxçıvan erməni hücumuna duruş gətirə bilərdimi? Bəli, Heydər Əliyevin Naxçıvana gedişi Naxçıvanı qoruyub saxladı. Nəinki qoruyub saxladı, Heydər Əliyev tarixdə ilk dəfə olaraq, Naxçıvanda üçrəngli bayrağı yenidən dövriyyəyə cəlb etdi və ən nəhayət, Yeni Azərbaycan Partiyasını, iqtidar partiyasını yaratmaqla bu partiya ilə Azərbaycanı xoşbəxt günlərə çıxardı.

Ən nəhayət, onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevin fəaliyyətinin beşinci dövrü 1993–2003-cü illəri

əhatə edir. Biz bu dövrü yaşadıq. Yəni 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, amma onun şirinliyini yaşamadıq. Bir tərəfdən müharibə, bir tərəfdən də düşmən işğalı. Ancaq bütün bunların qarşısını ala bilən, bunların öhdəsindən gələ bilən yeganə bir şəxs Heydər Əliyev oldu. Heydər Əliyev hakimiyyətə gəldi və bugünkü gün, yəni 15 iyunda hakimiyyətə gəlməyi ilə, hər şeydən əvvəl, müstəqil Azərbaycanı qorudu, Azərbaycan xalqını qorudu və Azərbaycanı bu 10 il ərzində dünya dövlətləri sırasına çıxara bildi. Təbii, bu 10 il ərzində Heydər Əliyevin xidmətləri o qədər çoxdur ki, sadəcə, bir cümlə ilə onu belə yekunlaşdırmaq olar, Heydər Əliyevin siyasətinin nəticəsidir...

**Sədrlik edən.** Çox sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Əziz Azərbaycan xalqı, biz tarixdə ilk dəfə hüquqi baxımdan milli azadlığa və dövlət müstəqilliyinə 1918-ci il 28 may tarixində nail olsaq da, bu müstəqillik formal xarakter daşımışdır. 23 aylıq mövcudluqdan sonra dövlət müstəqilliyi itirilmişdir. Ancaq Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək ümidini heç vaxt itirməmişdir. Ulu Öndər Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə, xalqın milli-mənlik şüuru inkişaf etdirilmiş, tarixi ənənələrin qorunması, dilin, mədəniyyətin, ədəbiyyatın tərəqqisi, milli özünəməxsusluqların, adət-ənənələrin yaşadılması istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur. Məhz bu dövrdə Heydər Əliyev tərəfindən həssaslıqla və uzaqgörənliklə idarə olunan proses çərçivəsində milli özünüdərk xüsusi ilə qüvvətlənmişdir. Azərbaycan ziyalıları üçün sərbəst düşüncə şəraiti təmin edilmiş, güclü iqtisadiyyat və milli kadr bazası formalaşdırılmışdır. Məhz bu faktorlar gələcək və müstəqil Azərbaycan

dövlətinin əsasını şərtləndirmişdir.

Lakin fitnəkar və ikiüzlü Mixayıl Qorbaçov, milli qeyrəti olmayan kosmopolit Əbdürrəhman Vəzirov, prinsipsiz Mütəllibov və xəyanətkar AXC–Müsavat cütlüyü təkcə Heydər Əliyevə qarşı deyil, Azərbaycan xalqına, Azərbaycan dövlətinə, Azərbaycanın ərazi bütövlüyünə qarşı mübarizə aparıblar. Məhz Vəzirov–Mütəllibov alyansının milli xəyanəti, fəaliyyətsizliyi və prinsipsizliyi nəticəsində Azərbaycan xalqının başına 20 Yanvar faciəsi gətirildi.

Həmin dövrdə Azərbaycan rəhbərliyi, siyasi rəhbərliyi susmağı üstün tutanda, Heydər Əliyev Moskvada KQB-nin gözü qarşısında 20 Yanvar faciəsini qətiyyətlə pislədi. Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Moskvanın təzyiqlərinə və Mütəllibov rejiminin törətdiyi bütün cinayətlərə baxmayaraq, Heydər Əliyev vətənə qayıtdı. Dövlətçilik ənənələrinin əsasını Naxçıvanda qoymağa başladı. Azərbaycan Respublikasının üçrəngli bayrağını ilk dəfə Naxçıvan Ali Məclisinin üzərində qaldırdı. Adından "sovet sosialist" sözlərini çıxardı. Ən əsası isə ermənilərin 100 illik arzusu olan Naxçıvanı işğaldan xilas etdi.

Həmin dövrdə xalq hərəkatı ideyasını qəsb edən və merkantil maraqlar uğrunda birləşən bir sıra səriştəsiz AXC liderləri ilə Mütəllibov arasında gedən hakimiyyət davası, özbaşınalıq, qanunsuz silahlı dəstələrin yaradılması Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına şərait yaratdı. AXC ilə Ayaz Mütəllibov arasında hakimiyyət davası Azərbaycanda XX əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı ilə nəticələndi. Bu məsələyə siyasi qiyməti 1997-ci ildə iyunun 27-də elə bizim Milli Məclis verib.

Bundan sonra Konstitusiyaya zidd yolla hakimiyyətə

gələn AXC– Müsavat cütlüyü Azərbaycanı daha ağır problemlərlə üz-üzə qoydu. Məhz bu cütlüyün bir illik hakimiyyəti dövründə Azərbaycan strateji cəhətdən əhəmiyyətli ərazilər itirdi və yeni ərazi itkiləri üçün real təhlükə yarandı. Daxildə iqtisadi böhran, qeyri-sabitlik, xarici siyasətdə ifrat subyektivizm Azərbaycanın bir dövlət kimi varlığını təhlükə altına saldı. Nəhayət, Ermənistanın silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğalı Azərbaycanda böhranı son həddə çatdırdı. Həmin dövrdə Ali Sovetin sədri olmuş İsa Qəmbərin 1993-cü il 28 aprel tarixində imzaladığı qərarda Kəlbəcər rayonunun müqavimətsiz işğal olunması və buna şəraitin yaradılması öz təsdiqini tapmışdır.

Bundan əlavə, satqın Surət Hüseynov və Əlikram Hümbətovun hakimiyyət uğrunda mübarizəyə görə milli ordu hissələrini cəbhə bölgəsindən çıxarması, elə yenə də hakimiyyət üçün AXC–Müsavat cütlüyünün Gəncədə törətdiyi qardaş qırğını erməni təcavüzkarlarının Azərbaycanın yeni-yeni yaşayış məntəqələrini işğal etməsinə şərait yaratdı.

Belə ağır şəraitdə Azərbaycan xalqının israrlı tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan xalqını, Azərbaycan dövlətini, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri də məhv olmaqdan xilas etdi. Azərbaycanın müstəqilliyini dönməz etdi, əbədi etdi. XX əsrdən XXI əsrə ötürdü. Heydər Əliyevin Azərbaycan xalqına olan dərin məhəbbəti, güclü siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanın daxili sabitliyinin, müstəqil siyasətinin, iqtisadi gücünün əsası qoyuldu. Bununla da bizim İkinci Qarabağ müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz böyük Zəfərin təməli qoyuldu. Necə ki, Heydər Əliyevin

uzaqgörən siyasəti nəticəsində Milli Qurtuluşdan–böyük Zəfərə, Naxçıvandan–Şuşaya çatmışıq, yenə də yeni Azərbaycandan–güclü Azərbaycana yalnız Heydər Əliyev irsi ilə irəliləyəcəyik.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri. İlk növbədə hörmətli xanım sədr, Sizə dərin təşəkkürümüzü bildiririk ki, Ulu Öndərin 100 illiyini həm beynəlxalq konfrans keçirməklə, həm bugünkü bu kitabların təqdimatı ilə, həm də filmin göstərilməsi, o tarixi arxivdə olan sənədlərin işıq üzü görməsi ilə bir daha Ümummilli Liderin adına layiq 100 illik tədbiri keçirilir. Burada da deputat həmkarlarım Ümummilli Lider haqqında öz fikirlərini, rəylərini bildirirlər.

Hər xalqa Ümummilli Lider nəsib olmur. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri var və Heydər Əliyevin, Ümummilli Liderimizin Azərbaycan xalqı qarşısında etdiyi xidmətlər, gördüyü işlər hələ uzun illər Azərbaycanda gələcək nəsillər tərəfindən də yazılacaq, deyiləcək, çəkiləcək, göstəriləcəkdir. Heydər Əliyev elə bir nadir şəxsiyyət idi, o, dünyaya sübut etdi ki, vəzifəsindən, zamanından, tarixindən, yaşından asılı olmayaraq, harada işləməsinə baxmayaraq, öz xalqına xidmət eləmək olar. İstər ən yüksək vəzifədə çalışanda da, istər istefada olanda da, istərsə ən ucqar bir yerə, Naxçıvan Muxtar Respublikasına gedəndə də, bunları hamıya sübut etdi ki, əgər məqsədin xalqa xidmət etməkdirsə, xalqa xidmət edə bilərsən.

Heydər Əliyevi hərdən ayrı-ayrı tarixi şəxsiyyətlərlə müqayisə edirlər. Heydər Əliyev müqayisə olunan şəxsiyyət deyil. Məsələn, Atatürk hakimiyyətə gələndə

100 generalı var idi. Heydər Əliyev hakimiyyətə gələndə nəyi var idi? Xəzinə bomboş, Milli Ləl-Cəvahirat Fonduna süpürgə çəkmişdilər, Azərbaycanda ayrı-ayrı siyasi partiyaların taborları, şəxsi qoşunları və siyasi məqsədlərə xidmət edən insanlar. İlk fürsət olan kimi, dərhal qoşunları geri çəkdilər və bizim digər ərazilərimiz də işğal olundu ki, Heydər Əliyevi hakimiyyətdən yıxsınlar. Yəni bu yolla hakimiyyətə gəlmişdilər və bu yoldan da mütəmadi olaraq istifadə edirdilər. Burada həmkarlarım qeyd etdi, bunlar nə etmədilər ki, Heydər Əliyevin qarşısını almasınlar. Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri idi. Adətən o sədr müavini kimi yuxarıda, tribunada oturmalı idi. Heydər Əliyev seçiləndən sonra dərhal Daxili Nizamnaməyə dəyişiklik etdilər ki, Naxçıvan Ali Məclisinin sədri Ali Sovetin sədr müavini olmasın. Heydər Əliyev azad seçki istəyirdi. 1992-ci ildə Konstitusiyaya 121-ci maddəsində ikinci bəndi əlavə etdilər ki, 65 yaşından yuxarı olan adam seçilə bilməz. Adətən, aşağı yaş həddi ola bilər, amma yuxarı yaş həddi harada görünmüşdü ki, Heydər Əliyevə qarşı bunlar bu addımları atdılar.

Ümumilikdə götürəndə, burada, bu zalda Heydər Əliyevin çörək verdiyi, vəzifə verdiyi insanlar Heydər Əliyev öz təcrübəsini bölüşdürmək istəyəndə, Qarabağın xilas yolların deyəndə, ayağını yerə döyüb "reqlament" deyərək, qışqırmağa başladılar. Nəticə etibarı ilə də bizim bu ümumxalq işimiz, yəni torpaqlarımızın işğal altına düşməməsi və onun azad olunması gəldi bu vəziyyətə çıxdı ki, heç olmasa, bizim Ali Baş komandanımız ata vəsiyyətini yerinə yetirərək torpaqlarımızı işğaldan azad etdi. Yəni bütün sahələrdə qeyd olundu. Bunlar 6 dəfə Heydər Əliyevə qarşı və cənab Prezidentə qarşı dövlət çevrilişi ediblər. 1992-ci ildə Naxçıvanda Heydər Əliyevi

fiziki cəhətdən məhv etmək istəyirdilər. 1994-cü, 1995-ci, 2003-cü, 2005-ci illərdə, sonuncuda parlament seçkiləri ərəfəsində dövlət çevrilişinə cəhd göstərdilər. Yəni bunlar deyirlər, mən sevinirəm, bizim Xalq Cəbhəsindən olan digər nümyəndələrimiz artıq Heydər Əliyev həqiqətini etiraf edib və elan edirlər ki, vaxtında düzgün qərar qəbul etmədilər. Bəli, vaxtında düzgün qərar qəbul edilib Heydər Əliyev vəzifəyə, hakimiyyətə gəlsə idi, Azərbaycan bu qədər problem yaşamazdı.

Mən xoşbəxt adamam ki, seçkilərdə həmişə Heydər Əliyevin səlahiyyətli nümayəndəsi, o cümlədən vəkili olmuşam. O cümlədən "Ümid" körpüsünün açılışında hörmətli Ziyafət müəllimlə, rəhmətlik Murtuz Ələsgərovla bir yerdə işləmişəm və uzun müddət Heydər Əliyevin tabeçiliyində...

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, mən də hər şeydən öncə, Ulu Öndərimizlə bağlı təqdim olunan film və kitablara görə Sizə təşəkkür edirəm. Filmin süjeti və emosional enerjisi o qədər canlı idi ki, hər birimiz yenidən o tarixi hadisələrə qaytardı və yenidən eyni həyəcanla o günləri yaşayırmış kimi olduq.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin, inkişaf edən Azərbaycan dövlətini və nəhayət, qalib Azərbaycan dövlətinin qurucusudur, memarıdır. Azərbaycanın ictimai rəyində Ulu Öndər Heydər Əliyevə münasibət birmənalıdır və Azərbaycan tarixi də Heydər Əliyev haqqında birmənalı yazacaqdır və necə ki, yazır. Biz həmişə Ulu Öndər haqqında danışanda deyirdik ki, illər keçəcək biz Heydər Əliyevin böyüklüyünü daha aydın dərk edəcəyik. Doğrudan da, 2020-ci ildə əldə etdiyimiz tarixi Zəfərdən sonra onun böyüklüyünü bir daha yenidən və yenidən dərk edirik.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qurarkən çox böyük çətinliklərlə, çox böyük keşməkeşlərlə üzləşdi. Onlardan bir qismini hörmətli həmkarlarım dedilər. Amma ən çətin problemlərdən biri, Azərbaycan xalqının aşmalı olduğu ən çətin mərhələlərdən biri milli şüur məsələsi, siyasi şüur məsələsi idi. Çünki siyasi şüur siyasi proseslərin obyektiv dərk edilməsi üçün vacib bir funksiya yerinə yetirir. Bax, elə 15 iyunda vətəndaş müharibəsinə gəlib çatmağımızın səbəblərindən biri də Azərbaycanda siyasi şüurun obyektiv əsaslarda dərk edilməməsi nəticəsində baş vermişdir. Bu mənada Heydər Əliyev böyük maarifçi kimi bu məsələni həll edə bildi.

İkinci məsələ, siyasi-sosial antropologiya məsələsidir. Yəni aparılan yanlış siyasət əsasında Azərbaycan xalqının sosial antropologiyası qeyri-düzgün əsaslarda formalaşırdı. Yəni milli xarakter, milli mənəviyyat, milli düşüncə və milli ideologiya kombinasiyası sosial antropologiya kontekstində tərsinə qoyulmuşdu. Heydər Əliyev bu məsələni də həll etməyi bacardı.

Üçüncü məsələ, milli inersiya məsələsi idi, yəni milli ətalət məsələsi idi. Hər bir xalqın böyük bir inersiyası var, gücü var. Amma bu ətalət formasındadır. Ona başlanğıc surət vermək lazımdır ki, bu milli enerji potensial olmaqdan çıxıb, həqiqi enerjiyə çevrilsin və onun müdafiə etdiyi cazibə mərkəzi milli dövlət olsun. Bax, Heydər Əliyev bunu bacardı. Bəzən biz müqayisə aparanda görürük ki, fizikanın qanunları, doğrudan, elə cəmiyyətin qanunları ilə üst-üst düşür. Bu mənada sükunətdə olan cismə və ya enerjiyə başlanğıc surət verəndə o öz ətaləti ilə hərəkət etməyə başlayır. Heydər Əliyev milli enerjiyə o başlanğıc surəti verməyə bacardı. Sırf sosioloji kontekstdə. Bu hərəkətə gələn enerji milli dövləti müdafiə etdi və bunu da hər

siyasətçi bacarmır.

Nəhayət, milli həmrəyliyi təmin edəcək ideoloji vasitələrə ehtiyac var idi. Burada da Ulu Öndərimiz nadir bir sosial düstur tapdı. Yəni azərbaycançılıq ideologiyasını ortaya atdı. Azərbaycan dilinə, mədəniyyətinə, tarixinə sahib çıxmaqla, azərbaycanlı sosial kimliyə sahib çıxmaqla Qərbdən gələn universal dəyərlərin hipotezi əsasında milli inkişafı təmin etmək. Bugünkü Qərb siyasi elmi məsələni belə izah edir. Deməli, mühafizəkarlıq, yəni konservatizm, üstəgəl liberalizm, yəni qlobal, universal dəyərlər bərabərdir neokonservatizm. Yəni, əslində, azərbaycançılıq Azərbaycan xalqının milli neokonservatizmidir ki, bunu da Azərbaycan xalqına Ulu Öndər Heydər Əliyev bəxş edibdir.

Heydər Əliyev Azərbaycan cəmiyyətinin siyasi portretini də çox yaxşı cızmağı bacarırdı. O, hakimiyyətə təzə gələndə məhz bu portreti belə çəkdi, qeyd etdi ki, "müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir". Bax, müstəqilliyimiz ilk illərinin siyasi portreti bu idi. Bir qədər sonra fərdin özünü dövlətə mənsub hesab etməsi kontekstində problemləri görən Heydər Əliyev mili dövləti hər bir fərd üçün sərvət kimi müəyyənləşdirdi.  O dedi ki, "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının mili sərvətidir". Yəni vətəndaş, fərd özünü dövlətə mənsub etdikdə vətəndaş-dövlət vəhdəti yaranır.

Nəhayət, 3-cü məsələ 1995-ci il 15-16 mart hadisələrindən sonra 3-4 apreldə o vaxtkı Respublika Sarayında keçirilən ümumxalq toplantısında Heydər Əliyev dedi ki, "Azərbaycanın müstəqilliyi daimidir, dönməzdir, əbədidir!". Bax, o müstəqilliyimiz əbədidir.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Tahir müəllim, indi buyurun.

**T.Kərimli**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Müdriklərdən biri deyib ki, "bütün dünyanın filosofları dünyanı yalnız izah etmişlər, məqsəd isə onu dəyişməkdən ibarətdir". Bunu isə tarixdə çox nadir insanlar bacarıb. Heydər Əliyev Azərbaycan tarixini dəyişdi. Misal, biz paytaxtda olanda bizimlə ögey insanlar kimi rəftar edirdilər, paytaxt bizim deyildi. Məhz Heydər Əliyevin gücünə paytaxt milliləşdi. O paytaxt ki vaxtı ilə onu Abşeronla birlikdə Azərbaycandan ayırmaq istəyirdilər. Heydər Əliyev dilimizə dövlət dili statusu verdi, Heydər Əliyev hərbi məktəblər açdı. Bayaq deyilən çoxlu işləri gördü.

Yaxşı, Moskvada ona qarşı ədalətsizliklər oldu, başa düşdük, burada, Ali Sovetin iclasında partokratlar ayaqlarını döydülər, başa düşdük. Amma mənə təsir edən başqa bir məsələdir. Axı, Heydər Əliyev Azərbaycan xalq hərəkatını tam himayə edirdi. Mən açıq bildirirəm, Heydər Əliyevin müstəqillik istəyi olmasa idi, burada çoxları müstəqilliyə də səs verməzdi. Bəs necə oldu ki, mən dünyada bir qarışqa incitmək istəməyən bir adam, mən də buna qarşı radikal oldum? İstəyirəm müxalifətçiliyin əsasını deyim. Necə oldu ki, biz xilaskar kimi qəbul etdiyimiz və Əbülfəz bəy bizə deyirdi ki, sizi, nə bilim, Surət gətirib meydanda dar ağacından asacaq. Mən sizi xilas edirəm, bəs xilaskara qarşı əsl hakimiyyət mənəm, vəzifəni donduraq, mübarizə aparaq, burada mitinqlər, orada piketlər, burada çıxışlar. Bəs onun ürəyinin tutmağında mənim günahım yoxdur? Onun ömrünü qısaltmaqda bizim günahımız yoxdur?

Biz ola bilər, əqidəli idik, ideoloji cəhətdən yaxşı idik, amma dövlət idarəçiliyində o qədər səriştəsiz idik ki,

dövləti xilas etmək, dövləti qorumaq istəyən insana qarşı potensial çətinliklər yaratdıq, əziyyətlər verdik. Çox təəssüf ki, mən həmin siyasi proseslərin, yəni əsası əyriliklə qoyulan müxalifətçiliyin, xilaskar kimi qəbul olunan insana, hakimiyyətə... Düşmən, nifrət üzərində qurulan hakimiyyətin rudimenti bu gün siyasi atavizmləri göstərir. Bircə kəlmə deyə bilmir ki, məhz "Əsrin müqaviləsi" Heydər Əliyev tərəfindən bağlanmasa idi, bizim aqibətimiz, bu gün ordumuz, iqtisadiyyatımız necə olardı? Digər məsələləri dilə gətirə bilmirlər və hətta müəyyən ittihamlar irəli sürürlər.

Misal üçün, mən demək istəyirəm, Gültəkin Hacıbəyli, Cəmil Həsənov, əgər siz burada deputat olsaydınız, yenəmi radikal müxalifət olardınız? Mən buna inanmıram. Əli Kərimli, hətta bizi də ittiham edirsiniz ki, hakimiyyət bizi öyrədir, icazə verir, korrupsiyadan, sosial problemlərdən danışaq. Siz burada 10 il oturanda, sonra da Müsavat 5 il oturanda sizədəmi öyrədirdilər? Bu hakimiyyət, sizin dediyimiz kimi, anti-demokratik idisə, siz, AXCP–Müsavat orada necə təmsil olundunuz? Əgər anti-demokratikdirsə, necə oldunuz? Yox demokratik idisə, siz nə istəyirsiniz? Niyə gözünüz görmür? Bu gün, nə bilim, Rusiya hakimiyyəti gəlib burada dayanıb.

Biz 1988-ci ildən xalq hərəkatına Qarabağ şüarı ilə gəldik. Nə istəyirsən, Qarabağı aldı verdi də. Biz ağlımıza gətirə bilərdik? Əli Kərimov, sən, mən, digərləri prezident olsa idi, edə bilərdik? Biz orada, Laçın dəhlizində məntəqə qura bilərdik? Nə olar, dilinizdə bir etiraf olsun. Necə ola bilir ki, qulağımız, gözümüz pislə bərabər yaxşını görür, amma dilimiz o yaxşını demir? Bilirsiniz, Məhəmməd peyğəmbərin yanına bir qadın bir uşağı gətirir ki, bu, xurma yeyib, danla. Deyir ki: "Get, sabah gələrsən". Səhər

gəlir, uşağa öyüd-nəsihət verir. Qadın deyir: “Ya peyğəmbər, elə dünən də deyə bilərdiniz”. Deyir: “Mən dünən özüm də xurma yemişdim”.

Əli Kərimli və digərləri, sizin yadınızdan çıxıb dünən xurma yeməyiniz? Mən tək ola bilər burada oturmuşam və xalqımın sözünü deyirəm. 10 il burada siz bu iqtidardan xurma yemisiniz. Yadımdadır, necə sizlər üçün şəraitlər yaradılırdı, biznes şəraitləri yaradılırdı, məktəblərdə dərslər deyirdilər. Mən dəfələrlə demişəm, kini, kidurəti atın ürəyinizdən. Gəlin, görək xalq üçün, bu vətən üçün, dövlət üçün birlikdə nə iş görə bilərik? Əbülfəz bəyin evini Heydər Əliyev Fondu təmir etdi, bir kəlmə dilinizdən minnətdarlıq hissi çıxsın. Sizin liderinizdir. Bilirsiniz necə? Mənim heç kimə, nə də vəzifəyə ehtiyacım var, heç gələcəkdə iddiam da yoxdur. Amma biz etiraf etməliyik və mən bu gün əzab çəkirəm, vicdan əzabı çəkirəm ki, dövlətimizin qurucusuna qarşı belə aqressiv olmuşuq. Gəlin, bu aqressiyanı yığışdıraq, bir olaq, sevgi içimizdə hakim olsun, iqtidarlı-müxalifətli bir-birimizi sevəyin və Azərbaycanın gələcəyini təmin edək. Dövlət qurulub...

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, onu da qeyd edim ki, müxalifət partiyalarından kim yazılmışdısa, hamısına söz verildi. Fəzail müəllim, Siz məndən söz istəmişdiniz. Buyurun. Fəzail İbrahimli.

**F.İbrahimli.** Hörmətli sədr, hörmətli millət vəkilləri, dəyərli mətbuat nümayəndələri! Ulu Öndərin yubileyi ilə bağlı silsilə tədbirlər gedir. Təxminən bir ay bundan əvvəl Azərbaycan Milli Məclisi 37 ölkənin nümayəndə heyəti ilə birlikdə bir beynəlxalq konfrans keçirib. Bu gün parlament iclası, bütövlükdə, Ulu Öndərin yubileyinə həsr olunub. 3 cildlik kitab təqdim olunub və təsiri altında olduğumuz film. Mən filmi təhlil etmək fikrində deyiləm.

Ancaq bir məqam, mənə elə gəlir ki, hər birimizi sarsıtdı. Bütün varlığını bu millətin yoluna həsr edən bir insana qarşı o filmdə dönük sifətlər görürdük. Amma ataların sözü var, deyir: "Haqq nazilər, amma üzülməz". O dönük sifətlər çox qısa bir zaman kəsiyində Heydər Əliyevin Ali Sovetin sədri seçilməsini ayaq üstə qarşıladılar. Rədd olsun belə siyasi buqələmunlar. Onlar Azərbaycan xalqına böyük ziyan gətirən qüvvələrdir.

Ulu Öndər, millətin Ümummilli Lideri səviyyəsinə qalxan, tariximizin 40 illik bir dövrünə öz möhürünü vuran, dünya miqyaslı dövlət xadimi statusuna yüksələn bir insan haqqında hər hansı bir qısa zaman kəsiyində nə demək olar? Bu, mümkün deyil, böyük bir budaqdan bir yarpaq qoparmaq kimidir. Ona görə mən zamanın mənə verdiyi imkan daxilində Heydər Əliyevin fəaliyyəti ilə bağlı olan qlobal məqamların bəzilərini sizinlə bölüşərdim.

Heydər Əliyev Azərbaycan Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi idi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və nəhayət, müstəqil Azərbaycan Respublikasının Prezidenti. Bütün bu həyat pillələrində, bu addımlarda, axı, Heydər Əliyevdən əvvəl və sonrakılar da olub. Bu, ilk deyildi, amma Heydər Əliyevi fərqləndirən cizgilər nədən ibarət idi? Fakta diqqət yetirək.

Azərbaycan Cümhuriyyəti süquta uğrayır və antimilli bir siyasət  gedir. Ana xətt bundan ibarətdir. Müsəlmana etibar etmək olmaz, o, yaxşı kommunist ola bilər, amma onun içərisində bir müsavatçılıq, bir müsəlmançılıq var. Bu düşüncə Nəriman Nərimanovun faciəli taleyinə səbəb oldu. Mir Cəfər Bağırovun güllələnməsi ilə nəticələndi.

Amma bu siyasi xətt Heydər Əliyevə tuşlanan zaman Heydər Əliyevin böyüklüyü, əzəməti, qüdrəti və gücü ondan ibarət idi, bu siyasi xətti darmadağın etdi. İlk dəfə olaraq Dövlət Təhlükəsizliyi Komitəsinin sədri bu millətdən olan bir insanın imzasına tapşırıldı. Bu, nə demək idi? Hamımız yaxşı bilirik ki, fərdin, millətin və dövlətin taleyi Dövlət Təhlükəsizliyi Komitəsinin divarları arxasında həll olunurdu. Çıxarılan nəticələrə uyğun siyasi qərarlar verilirdi. Bax, millətin imzası həmin ildən başlayaraq Heydər Əliyevə həvalə olundu. Ömrünün axırına qədər bu imza millətin taleyində uğurlu bir yol açdı.

Azərbaycan Kommunist Partiyasının birinci katibi ondan əvvəl də olmuşdu. Axırıncı yerdə idik, millətin adı düzgün ifadə olunmurdu. Ölkənin adı düzgün deyilmirdi. Birincilər sırasına çıxartdı və elə bir vəziyyətdə çıxardı ki, artıq Heydər Əliyevin iş təcrübəsi ittifaq miqyasında qəbul olundu və istifadə olundu. Siyasi Büro. Demək, Stalinin ölümündən, Beriyanın güllələnməsindən sonra Siyasi Büroda gizli bir sövdələşmə olmuşdu, Qafqaz mənşəli insanları Siyasi Büroya buraxmaq olmaz. Heydər Əliyev getdi, çıxdı, dəvət etdilər. Bu, Heydər Əliyev sevgisi deyildi, bu, Heydər Əliyevə olan sevgidən irəli gəlmirdi. Səbəb nə idi? Hökumətin o vaxt çox ağır bir durumunda böyük potensialı olan kadra ehtiyac var idi, gücə ehtiyacı var idi. Məhz ona görə də Siyasi Büroya qaldırıldı və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini oldu. Hökumətdə ikinci adam, bir azərbaycanlı, bir türk, bir qafqazlı, bir müsəlman. Bunun fəlsəfəsi nədən ibarət idi? İdarə olunan, əyalət kimi baxılan, daim yuxarıdan aşağı nəzər yetirilən bir millət Heydər Əliyevin timsalında bir imperiyanın idarəçiliyində idarə olunan deyil, idarə edən bir xalq statusuna qalxdı. Bax, bu idi Heydər

Əliyevin böyüklüyü, əzəməti, qüdrəti, onu hamıdan fərqləndirən cəhət.

Müstəqil Azərbaycanın Prezidenti. Zaman Azərbaycan xalqını 2 dəfə imtahana çəkdi. Əsrin əvvəllərində məsələ çox kəskin qoyulmuşdu, ya ayağa dur, dövlətçiliyini bərpa et, millətinə sahib ol, dünya dövlətlərinin boy sırasında dayan, ya əri, mayeyə çevril, məğlub ol, istənilən böyük dövlətlərin əyri qabının tutumunu al. Bu tarixi həqiqəti dərk edən Azərbaycan Xalq Cümhuriyyətinin liderləri ayağa qalxdı, böyük bir tarix yaratdı, Azərbaycan Xalq Cümhuriyyəti. Amma deyir "zalımın başı qarışanda, məzlum bildiyini edir". 23 ay yaşadı. Amma Ulu Öndər bugünkü Azərbaycan Cümhuriyyətin varisidir. Əsrin sonunda Azərbaycan yenidən o imtahan qarşısında qaldı. Varisin başının üstünü yenidən qara buludlar aldı. Xalqın ehtiyac duyduğu Ulu Öndər xalqın istəyi ilə hakimiyyətə qaytarıldı. Bu bizim gözümüzün qabağında olan bir işdir. Dövlət qorundu, millət qorundu, parçalanmanın qarşısı alındı. Bugünkü Azərbaycanın inkişafına rəvac verə biləcək strateji bir kurs hazırlandı, "Əsrin müqaviləsi". Ancaq bu dünyadan nisgilli köçdü.

Azərbaycan xalqına Ulu Öndərin verdiyi ən böyük hədiyyə onun övladı İlham Əliyev oldu. Atasının vəsiyyətini yerinə yetirdi, onun nisgilini yerinə yetirdi, Azərbaycanı dünyaya yeni libasda təqdim etdi. Bu gün Azərbaycan dünya dövlətlərinin boy sırasında sözü, qüdrəti, çəkisi olan bir dövlətdir.

Bütün bu deyilənlərin hamısını yekunlaşdırıb, son olaraq obrazlı formada belə ifadə edərdim. Ruhu şaddır Ulu Öndərin. Çünki Heydər Əliyev dühasından ilham alan Azərbaycan xalqı tarixin dalğalarını yara-yara irəliləyən müstəqil Azərbaycan gəmisini bəşəriyyətin xoşbəxt gələ-

cəyinə uğurla aparır. Yolunuz uğurlu, andınız yerinə yetsin, Azərbaycan. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Elnur Allahverdiyev. Buyurun.

**E.Allahverdiyev.** Xanım sədr, ilk öncə başda Siz olmaqla tarixi filmin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Sabah biz xalqımızın və müasir dövlətçilik tariximizin dönüş anı olan Milli Qurtuluş Gününü qeyd edəcəyik. Tarixin səhnəsindən yüzlərcə dövlətlər və xalqlar gəlib keçib. Bu dövlətlərin bir çoxunun yer üzündən silinməsi, xalqların isə yalnız tarixin yaddaşında qalması mühüm, taleyüklü anlarda tələb olunan düzgün addımın atılmamasının nəticəsidir. Bu baxımdan Azərbaycan xalqı özünün uzaqgörənliyi, müdrikliyi, mühüm anlarda birliyi və həmrəyliyi ilə mürəkkəb tarixi mərhələləri aşaraq hazırkı müstəqil dövlətə malikdir. Bu reallıq xalqımızın tarixən zəngin dövlətçilik ənənələrinə malik olduğunun bariz göstəricisidir.

Haşiyədən kənara çıxmayaraq bir misalla qeyd etmək olar ki, əsrlər boyu dünyanı saxta tarixi, "minillik dövlətçilik ənənələri" ilə aldadan erməni xalqı təsadüf nəticəsində əldə etdiyi müstəqilliyini qorumaq iqtidarında deyil, çünki buna onun məhz dövlətçilik ənənələrinin olmaması imkan vermir.

1990-cı il yanvarın 20-də xalqımızın möhtəşəm birliyi sonrakı müstəqilliyimizin əldə olunmasında aparıcı amil kimi çıxış etmişdir. Bu nöqteyi-nəzərdən qeyd edə bilərik ki, 1993-cü ilin iyunu və bunun məntiqi nəticəsi olaraq bu gün qeyd etdiyimiz Milli Qurtuluş Günü xalqımızın tarixinə bir müdriklik, qəhrəmanlıq, ümummilli iradə, inadkarlıq anı kimi həkk olunub. Məhz xalqımızın uzaqgörənliyi həmin çətin, ümidsiz, qaranlıq günlərdə bütün

maneələrin aradan qalxmasına və Ulu Öndərin Bakıya gəlməsinə şərait yaratdı.

Hər birimiz o hadisələrin canlı şahidi olmuşuq. Yüz minlərcə soydaşımızın doğma yurd-yuvalarından didərgin düşüb Bakıya, ölkəmizin digər bölgələrinə pənah apardıqlarını, şəhərlərimizə, rayon və kəndlərimizə hər gün şəhidlərin gətirildiyini xatırlayırıq. Cəbhədən gələn acı dolu məğlubiyyət xəbərləri xalqımızı mənəvi cəhətdən yormuşdu. Bir qrup xəyalpərəst, qeyri-peşəkar siyasətçinin bərbad dövlət idarəçiliyi onunla nəticələnmişdi ki, ölkəmiz vətəndaş qırğını astanasında idi, xalq belə bir çətin, düşmənlə əliyalın üz-üzə durduğu dövrdə çarəsiz vəziyyətdə qalmışdı. Hər birimizin evində bir gərginlik, təşfiş var idi.

Həmyaşıd həmkarlarım təsdiqləyərlər, biz o vaxt məktəbli yaşında olsaq da, bizim nəslin ətrafda baş verən ictimai-siyasi hadisələrə görə kifayət qədər ayıq nəsil olması səbəbindən hər birimiz evlərimizdə, ətrafımızda böyüklərin, yaşlıların, ağsaqqaların keçirdikləri narahatlığı hiss edirdik. Yalnız 15 iyundan sonra hamıda bir rahatlıq, sakitlik hökm sürməyə başladı. Çünki dövlətçiliyimizin bu qaranlıq tuneldən çıxıb firavan inkişaf yoluna qədəm qoyması üçün ümidlər görünməyə başlamışdı. Biz bu barədə çox danışmışıq, ancaq düşünürəm, növbəti dəfə deməkdə fayda var ki, tarixinin ən qüdrətli çağını yaşayan, ərazi bütövlüyü təmin olunmuş, sərhədləri qorunan Azərbaycanın əsası məhz həmin gün qoyuldu. Ümummilli Lider Heydər Əliyevlə xalqımızın birliyi nəticəsində.

Fürsətdən istifadə edərək, xalqımızı bu əlamətdar günlə bağlı bir daha təbrik etmək istəyir, gələcək uğurlarımızın bol olmasını diləyirəm.

Yaşasın Azərbaycan xalqı. Yaşasın Heydər Əliyev ide-

yaları və siyasətini uğurla davam etdirən müzəffər, qalib lider Prezident cənab İlham Əliyev. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqiyə Naxçıvanlı. Buyurun.

**A.Naxçıvanlı.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, media nümayəndələri. Tarix sübut edir ki, hər bir xalqın, millətin taleyində dahi şəxsiyyətlərin, siyasi liderlərin müstəsna rolu vardır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideyalara, ümummilli mənafelərə ürəkdən bağlılığı ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır.

Anadan olmasının 100 illiyini qeyd etdiyimiz müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla da dünya və regional proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Bu nadir şəxsiyyət XX əsrin sonunda yenidən əldə etdiyimiz müstəqilliyimizin əbədi və dönməz xarakter almasına nail olmuş, yalnız ona xas olan bənzərsizlik və təkrarsızlıq, spesifik fenomenlik xüsusiyyətləri ilə həm özü dünya diplomatiyasının ön sıralarına ucalaraq bəşərilik qazanmış, həm də Azərbaycanın dünyada günəş kimi parlamasının möhkəm təməlini qoymuşdur.

Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarix yaradan şəxsiyyət idi. Heydər Əliyev fəaliyyətə başladığı dövrdən liderlik ömrü yaşamaqla, böyük siyasətçi, qüdrətli dövlət başçısı, ədəbiyyatımızın və tariximizin, mədəniyyətimizin dərin bilicisi, universal, ensiklopedik zəkaya sahib mütəfəkkir kimi tarixə düşmüş-

dür. Onun dövlətçilik fəaliyyəti sayəsində Azərbaycan dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur.

Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, yüksək mədəniyyət hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafı və tərəqqisini təmin edəcək əsas amillərdir.

Heydər Əliyev siyasətinin fəlsəfi mahiyyətini açıb göstərmək olduqca vacib və əhəmiyyətlidir. Hörmətli Prezidentimiz İlham Əliyevin böyük ehtiramla söylədiyi sözlər öz yüksək dəyərini saxlamaqdadır. O demişdir: "Heydər Əliyevin düşündüyü ideyalar indi də yaşayır. Onun siyasəti davam etdirilir, fəlsəfi fikirləri Azərbaycanımızın qüdrətlənməsi proqramının əsas istiqamətlərini göstərməkdədir".

Heydər Əliyevin bütün siyasi və dövlətçilik fəaliyyəti çağdaş Azərbaycanın, Azərbaycan xalqının, milli dövlətçiliyin inkişafı və möhkəmlənməsi tarixidir. Onun həyat və fəaliyyətinin xronologiyası böyük bir tarixi dövrün parlaq səhifəsini təşkil edir. Heydər Əliyev fenomenliyi ondan ibarətdir ki, o, uzağı aydın görür, məqsədləri dəqiq müəyyən edirdi və o məqsədlərə aparan səmərəli yolları tezliklə tapırdı. Heydər Əliyev demokratik, hüquqi, dünyəvi dövlətin əsasını qoyaraq Azərbaycanda dövlətçilik ənənələrini bərpa etdi.

Ulu Öndər tərəfindən qoyulmuş dövlətçilik siyasəti Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 20 ildə Prezidentimiz İlham Əliyevin apardığı düşünülmüş siyasət nəticəsində Azərbaycanın dünyada nüfuzu artmış, dövlət başçısının uğurlu fəaliyyət modeli dünyanın qabaqcıl ölkələri tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkəmizin ərazi

bütövlüyünün təmin olunması, Qarabağımızın və Ümummilli Liderimizin hər zaman azad olunacağına dərin inam bəslədiyi mədəniyyət və milli ruhumuzun beşiyi olan Şuşanın düşmən tapdağından xilas olması, 44 günlük Vətən müharibəsində əldə olunmuş Zəfər və onun yaratdığı yeni imkan və reallıqlar, tarixi torpaqlarımızda aparılan yenidənqurma və quruculuq işləri Heydər Əliyev ideyalarının həyata keçirilməsinin bariz nümunəsidir.

Cəmiyyətimizdə milli təəssübkeşlik, vətənpərvərlik hisslərinin təşviqi Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasının əsasıdır. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözləri onun həyat kredosudur. Bu gün Ulu Öndərin xatirəsi canından da artıq sevdiyi vətənimizin hər yerində yad edilir, adına abidələr ucalır. Ancaq bu abidələrin ən əzəmətlisi onun öz xalqının ürəyində yaratdıqlarıdır. Onun həmişəyaşar fikirləri, düşüncələri, arzuları bu gün çin olmaqdadır.

Bütün zirvələri fəth edən Ulu Öndər məhz günəş ucalığında dayanaraq indi də bizim yolumuza işıq saçır. Müstəqil Azərbaycanımız var olduqca xalqımızın qəlbində Heydər Əliyevə sonsuz sevgi və dərin ehtiram hissi əbədi yaşayacaqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Zamana və məhdud məkana sığmayan ictimai-siyasi prosesləri dərin məntiqi və təkrarolunmaz analitik istedadı ilə düşüncələri çərçivəsinə salıb, onu xalqımızın milli maraqlarına yönəldib əhəmiyyətli nəticələrə nail olmağı bacaran Ulu Öndər bəşəriyyətin nadir şəxsiyyətlərindən biridir. Onun doğum ili ilə üst-üstə düşən ölkəmizə 23 illik rəhbərliyi və bu illər ərzində əldə edilən qeyri-adi nəticələr mahiyyətcə təkcə bir şəxsiyyətin və bir

millətin uğuru deyil, həm də bəşəri baxımdan son 100 ilin barmaqla sayıla biləcək hadisəsi idi.

Ulu Öndərimizin 1969–1982-ci və 1993–2003-cü illərdə respublikamıza rəhbərlik dövrlərinin birini digərindən ayırmaq böyük yanlışlıq olardı. Hakimiyyətinin birinci mərhələsində kommunist rejiminin yaratdığı ciddi məhdudiyyətləri aşaraq Azərbaycanı aqrar ölkədən iri sənaye ölkəsinə çevirən, gələcək müstəqilliyimizə hədəflənən bütün şərtləri zərgər dəqiqliyi ilə müəyyənləşdirib onları böyük ustalıqla reallaşdıran, maddi-texniki bazadan başlamış, milli məfkurənin formalaşmasına qədər böyük bir prosesi yaradıb onu idarə edən Ulu Öndərimiz, sözün həqiqi mənasında, Azərbaycanı azərbaycanlaşdırdı, onu milliləşdirdi və Azərbaycan dilini Azərbaycan dövlət dili kimi Konstitusiyada təsbit etdi. Bütün bunlar müdrik rəhbərin xalqımız qarşısında gələcəyə yönələn böyük missiyası və xidmətləri idi. Onun milli müstəqilliyimizə xidmət edən töhfələri əlverişli tarixi şəraitdə keçən 100 illiyin 80-ci illərinin sonlarında meydanlarda cücərməyə başladı, milli azadlıq mübarizəsinə çevrildi və sovet imperiyasının çökməsində əvəzsiz və müstəsna rol oynadı.

Sovet imperiyasının repressiv makinasından xilas etdiyi və himayəyə götürdüyü şair, yazıçı və ziyalılar millətimizi azadlıq məfkurəsinə, azadlıq mübarizəsinə kökləyir, milli məfkurənin genişlənməsində fəal rol oynayırdılar. Əslində, 1982-ci ilə qədər Ulu Öndərimiz Azərbaycanı SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevirmiş, eyni zamanda, çiçəklənən respublika, milli mənlik şüurun formalaşdığı bir Azərbaycanı xalqımıza töhfə etmişdi.

Təəssüf edirəm ki, ondan sonra hakimiyyətə gələn Kamran Bağırov, Əbdülrəhman Vəzirov, Ayaz Mütəllibov kimi antimilli şəxslər tərəfindən millətin maraqları naminə

həmin nailiyyətlər qorunub saxlanılmadı, əksinə Moskvanın təlimatları hesabına bütün bu nailiyyətlər alt-üst edildi. Eyni zamanda, Ulu Öndərimizin səpmiş olduğu toxumlar, çox təəssüf ki, sonradan kommunist namenklaturası, Azərbaycan Xalq Cəbhəsi və Müsavatla bərabər Ulu Öndərimizə qarşı ciddi xəyanətlər etdilər. Heydər Əliyevə qarşı cinayətlərə əl atıldı, Ali Sovetin yığıncağında ona qarşı şərəfsiz davranışlar ortalığa qoyuldu. Lakin bunların heç biri Ulu Öndərimizi yolundan döndərə bilmədi. O, təkbaşına millətimizə və Azərbaycana qarşı olan sonsuz və əbədi sədaqətini davam etdirərək Azərbaycanın istiqlalı uğrunda mübarizəsini davam etdirdi.

Ulu Öndərimizin qarşısında uca Tanrı böyük bir missiya qoymuşdu. uca yaradan Ulu Öndərin taleyinə yazdığı bu missiyanı, müstəqil Azərbaycan dövlətini yaratmaq kimi olduqca çətin vəzifəni həyata keçirmək üçün onu bütün namərdliklərdən qoruyub saxlaya bildi. Azərbaycanın fəlakətli vəziyyətə düşdüyü zaman kəsiyində xalq ayağa qalxaraq Ulu Öndərimizi hakimiyyətə gətirdi və o öz missiyasını reallaşdırmaq üçün imkanlar əldə etdi. Belə bir imkanı reallaşdırdı, bugünkü müasir Azərbaycan dövlətinin əsasını qoydu, onu xalqımıza əmanət etdi. Azərbaycanın bu əmanəti bu gün ölkə Prezidenti tərəfindən sədaqətlə qorunub saxlanılır və ona yeni-yeni əlavələr, zənginliklər gətirilir.

Mən çox şadam ki, Ulu Öndərimizin yanında olmuşam. Bu mənim taleyimin...

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, 100 yaşlı Heydər Əliyevin tərcümeyi-halının son 10 ilini Milli Qurtuluş Günündən hesablamaq doğrudur. Lakin 8 noyabr Zəfərinin siyasi təqvimimizi dəyişməsindən sonra məğlubiyyət zehinləri ilə

deyil, qalibiyyət zəkası ilə son bir əsrlik tariximizə qiymət vermək daha ədalətlidir.

Əslində, 15 iyun xilaskarlığı son 30 ilə aid təqvim hadisəsi deyil. Çünki Heydər Əliyev bioqrafiyasının onlarla fəsli dönüş, qətiyyət, fədakarlıq aktı kimi, yalnız şəxsi məna daşımayıb millət tarixinin ayrılmaz hissəsidir. Məsələn, Lenin, Stalinin birgə yaratdığı imperiyada NKVD adlı çekist sistemində işə başlayıb, DTK sistemində zirvələrə ucalmaq təkcə biliklə mümkün deyildi, daha çox fiziki mətinlik, yenilməzlik, dəyanət, intizam və özünü ideallarına həsr etməklə reallaşa bilərdi. Nərimanovun və Bağırovun acı taleyindən sonra Heydər Əliyevin sərt bir sistemdə irəliləməsi fərdi yüksəliş nümunəsi olmaqla bərabər, həm də məğlubedilməz milli rəhbər formalaşdırdı. Zaman göstərdi ki, Ruhulla Axundovun, İmam Mustafayevin və Vəli Axundovun hakimiyyətdən devrilmələri "çekist şineli"ndən çıxmamaları ilə birbaşa bağlı idi.

Heydər Əliyevin sovet Azərbaycanın rəhbərliyinə gəlməsi SSRİ-nin tarixində nadir hadisə idi. Çünki mərkəz o vaxta qədər DTK-dan respublikalara milli rəhbər təyin etməmişdi. Ona görə də xalqımız təkcə 15 iyunu deyil, elə 14 iyul tarixini də öz yaddaşında xilaskarlıq hadisəsi kimi saxlayır.

Əliyevin gedişi ilə enən və böyük xaosa yuvarlanan Azərbaycanın 1987–1993-cü illəri sübut edir ki, "Əliyev xətti" qırılan kimi sovet coğrafiyasının bütün ərazilərində, xüsusi vurğulayaq ki, təkcə Ermənistanda deyil, Rusiyadan Orta Asiyaya və Gürcüstana qədər hər yerdə azərbaycanlıların aşağılanması və kütləvi qovulması başlandı. Bir neçə il sonra daxildə yüz minlərcə didərgin də son 200 illik köç silsiləsinin davamı idi. Halbuki hadisələr başqa cür ola bilərdi. 1982-ci ildə Əliyevi Kremlə yola salmaq

üçün növbəyə duranların bircə faizi onun istefası zamanı müdafiəsinə qalxsaydılar, xalqımızın taleyi başqa cür olar və qurtuluş 1993-də deyil, 1987-ci ildə baş verərdi.

Heç şübhə yoxdur ki, 1969–1982-ci illərin keçici qırmızı bayraqları Sovet Azərbaycanının quruculuq salnaməsidir. Hərçənd bizə ayrı cür təqdim edirdilər. 15 iyun qədər parlaq hadisələrdir. Əliyevin xilaskarlığı 1990-cı illərin "bir illik hakimiyyətləri ilə necə iqtidar olmaq olmaz" sualının da əbədi cavabıdır.

Sovet rejimini çökdürdüyünü iddia edən milli cəbhəmiz 3 ildə üç dəfə hakimiyyəti dəyişəndən sonra özləri də kiçik bir əyalətə çəkilib dövlətin adını öz sahibinə qaytardılar. Adını ona görə deyirik ki, faktiki olaraq, o dövlət yox idi. Əbülfəz Elçibəyin bütün həyatı boyu məcburən də olsa, ən düzgün qərarı məhz o oldu. Lakin Heydər Əliyevin Bakıya qayıdışı təkcə 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycanın deyil, 1918-ci ildəki Cümhuriyyəti, üçrəngli bayrağımızı, Demokratik Respublikanın qurucu liderləri olan Rəsulzadəni, Xoyskini, Topçubaşovu da xilas etdi. İndi sağ qaldıqları üçün böyük liderə borcunu onun ruhu ilə döyüşməklə qaytaran Elçibəy ardıcıllarını da ölümdən qurtardı. Ulu Öndər Cümhuriyyəti və sovet keçmişimizi birləşdirərək yeni dövlət qurdu.

Ölkəmizə qələbə gətirən "dəmir yumruq", əslində, Heydər Əliyevin xilaskarlığına aid hadisədir. Horadiz əməliyyatı ilə başlayan, etnik separatizmin zərərsizləşdirilməsi və hərbi müxalifətin tərk silahı davam edən, daha sonra atəşkəslə neft savaşını udan da elə həmin dəmir iradə idi. Üstündən 30 il keçəcək, öz xalqının faciəli lideri Levon Ter Petrosyan deyəcək ki, Əliyev neft müqaviləsi ilə gələcək 30 illik müharibəni uddu. Beləliklə, Əliyev kursu qalib gəldiyi üçün zəfərimizin birinci müəllifi onun özüdür.

İndi qayıdış əbədi bir prosesdir və 2022-ci ilin 19 iyulunda Ağalıya dönüş də Milli Qurtuluşun 29 ildən sonrakı davamıdır. 15 iyun təkcə 1990-cı illərin xaosunun sonu deyil, həm də 44 günlük müharibənin başlanğıcı və 8 noyabr Zəfərinin sələfidir. Əsl Böyük Qayıdış Heydər Əliyevdir. Əgər ata Əliyevin Böyük Qayıdışı olmasaydı, 2003-cü ildə hakimiyyət estafetini xilaskarlıqla qəbul edən oğul Əliyevin 17 illik müqəddəs davası və doğma torpaqların xilası da gerçəkləşə bilməzdi. 200 illik dövrdən sonra ermənilərə sərhəd və suverenlik cədvəli bəyan edən İlham Əliyev də bütöv müstəqilliymizin tək müəllifidir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bu gün bir çox çıxışlarda Heydər Əliyevin müxtəlif sahələrə göstərdiyi diqqət haqqında da danışıldı. Dediyim kimi, iqtisadiyyat, milli təhlükəsizlik sahələrinə göstərdiyi diqqət haqqında söz açıldı, bu sahələrin inkişafında Ümummilli Liderimizin böyük rol oynaması qeyd edildi. Mən düşünürəm ki, bu sahələrin sırasında səhiyyə sahəsi də var. Mən hörmətli həmkarımız Əhliman müəllimdən xahiş edərdim. Əhliman müəllim, bu sahədə Heydər Əliyevin rolu haqqında fikirlərinizi bölüşərdiniz. Buyurun.

**Ə.Əmiraslanov.** Çox təşəkkür edirəm, Sahibə xanım. Hörmətli həmkarlar, Azərbaycanda səhiyyənin, tibb elminin, tibb təhsilinin inkişafı bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndər ilk dəfə respublikamızda hakimiyyətə gəldiyi illərdə bu sahədə – səhiyyədə çox dərin durğunluq hiss olunurdu. Əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi çox aşağı idi. Ulu Öndər ilk növbədə səhiyyə sahəsində yüksək ixtisaslı kadrların hazırlanması üçün Azərbaycandan istedadlı gəncləri keçmiş SSRİ-nin tanınmış

mərkəzlərinə göndərərək onların yüksək ixtisaslı mütəxəssis kimi hazırlanıb Azərbaycana qayıtmalarını təmin edirdi. Azərbaycanda o dövrdə bir çox tibb mərkəzləri, o cümlədən diaqnostik, toksikoloji, neyro-cərrahiyyə, kardiologiya kimi mərkəzlər istifadəyə verildi və o mərkəzlər bu gün də xalqımıza uğurla xidmət edir. O dövrdə təməli qoyulmuş onkoloji və oftalmoloji mərkəzlərin tikintiləri məlum səbəblərdən yarımçıq qaldı.

Ulu Öndər Moskvadakı fəaliyyəti dövründə də o səhiyyə sahəsinə cavabdeh bir şəxs kimi keçmiş SSRİ miqyasında səhiyyə sahəsində çox uğurlu layihələr həyata keçirdirdi. Onların bir qismi bu gün də Rusiyada, Moskvada uğurla fəaliyyət göstərir. Onkoloji, kardioloji, ürək-damar cərrahiyyəsi mərkəzləri bu gün uğurla fəaliyyət göstərir və orada çalışan qədirbilən insanlar bizim Ulu Öndərimizi böyük minnətdarlıq hissi ilə yad edirlər.

Ulu Öndərin ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıtdığı illərdə bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də böhran yaşanırdı. Xəstəxanalarımız bərbad vəziyyətdə idi, kadr çatışmazlığı var idi, bir çox xəstəliklərin müalicəsini Azərbaycanda həyata keçirmək mümkün deyildi. Bu dəfə artıq Ulu Öndər gənclərimizi, mütəxəssislərimizi qardaş Türkiyəyə, Avropaya və Amerika Birləşmiş Ştatlarına göndərərək, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanaraq Azərbaycana qayıtmalarını təmin etdi və Azərbaycanda yeni tibb müəssisələri, tibb mərkəzləri yaranmağa başladı. Onların arasında tikintisi yarımçıq qalmış onkoloji və oftalmoloji mərkəzlər istifadəyə verildi. Tibb Universitetinin klinikalarının yaranmasının əsası qoyuldu və onlarca yeni xəstəxana və tibb müəssisələri istifadəyə verilməyə başladı. Müalicəsi Azərbaycanda mümkün olmayan bir çox xəstəliklərin müalicəsini artıq

ölkəmizdə həyata keçirmək mümkün oldu. Bunlardan, orqan transplantasiyası, açıq qəlb əməliyyatları, anqoplastika və digər əməliyyatlar üçün artıq ölkəmizdən kənara getməyə ehtiyac qalmırdı.

Ulu Öndər ölkəmizə dünyada tibb elmi sahəsində tanınmış mütəxəssisləri də dəvət edirdi. Onların arasında tanınmış tibb alimi İhsan Doğramacı, kardioloq Debeyki, akademiklər Bloxin, Trapeznikov kimi mütəxəssislərlə görüşlər, söhbətlər ölkəmizdə səhiyyənin və tibb elminin inkişafı üçün çox ciddi perspektivlər açırdı. Mən belə görüşlərin şahidi olmuşam. Hər belə görüş ölkəmizdə tibb elminin və səhiyyənin inkişafı üçün böyük təkan verirdi.

Çox şükürlər olsun ki, ölkəmizdə Ulu Öndərin səhiyyə və tibb elminin inkişafı sahəsində apardığı siyasət möhtərəm cənab Prezidentimiz tərəfindən uğurla davam etdirilir. Nəinki ölkəmizin paytaxtında, bu gün bölgələrimizdə uğurla fəaliyyət göstərən, geniş imkanlara malik xəstəxanalar yaradılıbdır. Tibb Universitetinin klinikalarının yaranması ənənəsi davam edir və bu gün yeni-yeni klinikaların açılışı həyata keçirilir.

Mən hesab edirəm ki, Ulu Öndərin tibb sahəsində...

**Sədrlik edən.** Çox sağ olun. Aqil Məmmədov. Buyurun.

**A.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri və media nümayəndələri. Biz indi tarixi bir bayramın – 15 iyun Milli Qurtuluş Gününün ərəfəsindəyik. Bu tarix Heydər Əliyevlə xalqın birləşdiyi, bütövləşdiyi gündür.

1993-cü ilin 15 iyunu Azərbaycan tarixində yeni bir eranın başlanğıcı oldu. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Dahi şəxsiyyətin uzaqgörən siyasətinin bu gün Prezident İlham Əliyev tərəfin-

dən layiqincə davam etdirilməsi nəticəsində Azərbaycan daha böyük uğurlara imza atır, inkişaf edir və qüdrətli dövlətə çevrilir.

Cənab Prezident İlham Əliyevin sərəncamına əsasən 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar hazırda ölkəmizdə və bir çox xarici ölkələrdə müxtəlif məzmunlu tədbirlər həyata keçirilir. Bu tədbirlər Azərbaycan xalqının öz xilaskarına, müstəqil dövlətimizin qoruyucusuna olan dərin məhəbbətini ortaya qoymaqla yanaşı, beynəlxalq aləmdə Ulu Öndərə, onun xatirəsinə göstərilən etimadın təzahürünə çevrilir.

Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyev ömrü, Heydər Əliyev irsi yalnız bir xalqa deyil, bütövlükdə, dünyaya, insanlığa xidmət edir.

Bu il xalqımız Heydər Əliyevin 100 illik yubileyini böyük qədirbilənliklə qeyd etməkdədir. O cümlədən Ümummilli Liderin yubileyi düşməndən azad olunmuş torpaqlarımızda da qeyd edilir. Xoş günlərimizin memarı Ulu Öndər Heydər Əliyevin işğal olunmuş torpaqlarımızın mütləq azad olunacağı ilə bağlı söylədiyi inamlı, qətiyyətli fikirlər artıq öz məntiqli təsdiqini tapmışdır. Məhz dahi Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi, cənab İlham Əliyevin Prezidentliyi və Ali Baş Komandanlığı torpaqlarımızın işğaldan azad olunmasına gətirib çıxardı.

Bu gün azad edilmiş ərazilərimizdə tikinti-quruculuq işləri sürətlə davam edir. Keçmiş məcburi köçkünlər Böyük Qayıdışa hazırlaşır. İstər Azərbaycanda, istərsə də dünyanın bir sıra ölkələrində böyük siyasi xadim Heydər Əliyevin adı müxtəlif formalarda əbədiləşdirilib və bundan sonra da belə davam etdiriləcəkdir.

Hörmətli millət vəkilləri, Ulu Öndər ölkəmizin haqq

səsini, Qarabağ həqiqətlərini uca kürsülərdən daim dünyaya çatdırıb. Bu gün siyasi aləmin ən yüksək zirvələrini fəth etmiş böyük azərbaycanlının adı tariximizin ən şərəfli səhifələrinə həkk olunmaqla yanaşı, canından çox sevdiyi Vətəninin ən yüksək zirvələrinə də yazılmalıdır. Hesab edirəm ki, bütün bu xidmətlərinə, eləcə də onun qoyduğu sağlam təməllərlə torpaqlarımız 28 ildən sonra işğaldan azad olunduğuna görə bu ərazilərdə də Ulu Öndərin adı əbədiləşdirilməlidir. Bunu nəzərə alaraq, təklif edirəm ki, bu ənənənin davamı olaraq, eyni zamanda, Ulu Öndərin 100 illik yubileyinə bir töhfə olaraq 30 ilə artıq düşmən əsarətində olan, indi isə hər daşı, hər qayası Azərbaycan əsgərinin səngərinə çevrilən Murovdağın ən uca zirvəsinə Heydər Əliyevin adı verilsin. Ulu Öndərin adı ən uca zirvələrdə həkk olunmağa öz misilsiz xidməti ilə haqq edir.

Bütün bunları nəzərə alaraq, bu təklifimlə bağlı aidiyyəti dövlət qurumlarından müvafiq addımlar atılmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elşən Musayev. Buyurun.

**E.Musayev.** Təşəkkür edirəm, xanım sədr. Əslində, mən dünən oxşar bir çıxış etmişdim və bu gün düşünürdüm ki, çıxış etməyim. Sadəcə, Milli Məclis əməkdaşlarının hazırladığı möhtəşəm filmdən sonra mən çıxış etməyi qərara aldım.

İlk öncə, Fazil Mustafaya və Tahir Kərimliyə etdikləri çıxışlardan, səmimi çıxışlardan dolayı təşəkkür etmək istəyirəm. Çünki özünü mühakimə etməyi, etiraf etməyi bacaran insan ən böyük insandır.

Burada parlament haqqında danışıldı. Bəli, Azərbaycan parlamentində Heydər Əliyev gələndə xaos var idi. Amma bütün bunların nəyi düz idi ki, parlamentləri də düz olsun? Bəlkə qanunvericilik hakimiyyətdən başqa hüquq

mühafizə orqanları düz idi, bəlkə büdcəyə baxanları düz idi, bəlkə icra başçıları düz idi? Amma məsələ burasındadır ki, həqiqətən, tarix hər şeyin qərarını özü verir. Burada zamanında o ayaq döyəcləyənlər var idi, – haqqında danışıldı, – onlar indi haradadırlar? Məchullardadırlar, amma Heydər Əliyev bizimlədir. Heydər Əliyev bizim qəlbimizdədir.

Allah Fəttah Heydərova rəhmət eləsin. Bir dəfə bir əhvalat danışdı. Dedi Heydər Əliyev Naxçıvanda olanda həmişə deyirdi ki, mənim yanıma, otağıma axşamlar gəlməyin. Çünki axşamlar ora gedən adamlar həmin otaqdan çıxandan sonra böyük bir təqibə məruz qalırdılar. Nə bandit, nə əyyaş, nə cibgir, nə əlində bıçaq, silah olan vardısa, həmin insanların ardınca göndərirdilər.

Bu gün o ədalətdən danışanlar var, bizim siyasi rəqiblərimiz. Zamanında Heydər Əliyevə və onun tərəfdarlarına qarşı bütün rəzillikləri ediblər. Amma bu gün elə danışırlar, sanki mələkdirlər. Bu iqtidar, bu hakimiyyət, İlham Əliyev də, Heydər Əliyev də həmin rəqiblərinə qarşı ən azından onların olduqlarından milyon dəfə ədalətli olublar. Məsələ burasındadır.

Bir dəfə Amerika səfirliyində Heydər Əliyev radikal müxalifətin nümayəndələrinə yaxınlaşdı, deyəsən, səhv etmirəmsə, tədbiri Amerika səfirliyi təşkil etmişdi. Dedi müxalifətçilik çox normal bir şeydir, amma onu kişi kimi etmək lazımdır. 30 il boyunca həmin insanlar kişi ola bilmədilər. Burada, deyəsən, Tahir müəllim dedi ki, “Əsrin müqaviləsi”ni etiraf edə bilmirlər. Bunlar bu günə qədər heç nəyi etiraf edə bilməyiblər. Şuşanı satan Şuşanı alanı ittiham edir. Bundan o tərəfə nə var? Şuşanı xilas etməkdən o tərəfə nə var? Bir lider bundan artıq nə edə bilər? Onu belə ittiham edirlər, nəinki “Əsrin müqaviləsi”ni.

Mən düşünürəm ki, burada biz videoları da gördük, o simaları, o vizionları, bilmirəm, yumşaq dildə onları deyə bilmirəm, ona görə kobud deyirəm. Heydər Əliyevi onlar həlqəyə almışdılar. Görün, Heydər Əliyevə kimlər təzyiq edib. Parlament sədrinin otağına vaxtında silahla giriblər. "Sadval" oradan, "Talış–Muğan Respublikası" burdan. Hüquq mühafizə orqanlarının rəhbərləri Azərbaycan televiziyasında canlı yayıma girib adam döyürdülər. Heydər Əliyev bizləri onlardan, o ünsürlərdən qurtarıb.

Hərdən deyirlər, İlham Əliyevin bu gün hakimiyyətdə olması, təbii, siyasi varisliyi, mənəvi varisliyi öz yerində, amma mən düşünürəm ki, bu, həm də bir ruh varisliyidir. Həmin ruhu daşıyan insanlardan biri Şuşanı fəth edir, digərinin ruhu isə Şuşanın üzərində artıq rahat nəfəs alır.

Biz videolarda həmkarlarımızı gördük, bəziləri keçmiş həmkarlarımızdır. Arif Rəhimzadə, Eldar müəllim. Biz onlara çox minnətdar olmalıyıq. Biz bu gün onları başımızın üstündə gəzdirməliyik. Çünki ən çətin dövrlərdə Heydər Əliyevin yanında olublar. Ümumiyyətlə, həmin dövrlərdə kim Heydər Əliyevin yanında olubsa, mən onların qarşısında baş əyirəm. Eşq olsun o insanlara. Bunu tam sidqi ürəkdən edirəm.

Bu həyatda Heydər Əliyevçi olmaqdan gözəl heç nə yoxdur. Bu həyatda Heydər Əliyevi anlamaqdan, dərk etməkdən gözəl heç nə yoxdur. Nəhayət, bu həyatda Heydər Əliyevin zamanında əyləşdiyi parlamentin üzvü olmaqdan gözəl və şərəfli heç nə yoxdur.

Ruhu şad olsun Ulu Öndərin. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, elə Elşən müəllimin sözünə qüvvət olaraq mən istəyirdim indi sözü çox hörmətli Eldar İbrahimova verim. Eldar müəllim

Ulu Öndərin silahdaşı olub, onunla birlikdə işləmiş insandır. Bu gün burada nümayiş olunan kadrların çoxunda biz əvvəlki Eldar müəllimi və indiki Eldar müəllimi görürük. Eldar müəllim, mən sözü Sizə vermək istəyirəm. Buyurun.

**E.İbrahimov.** Çox sağ olun. Çox hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Azərbaycan Respublikasının vətəndaşları, dünya azərbaycanlıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyini böyük coşğu və sevinclə qeyd edirlər.

Hörmətli sədrimiz Sahibə xanımın təşəbbüsü ilə may ayının 16-da bir çox ölkələrin parlament sədrlərinin və nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclası keçirilmişdir. Bu gün də biz parlamentimizin Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında həm də qurtuluşumuzun 30 illiyini qeyd edirik. Belə bir genişmiqyaslı tədbirin keçirilməsinə, xüsusi ilə bu gün arxiv materiallarına əsasən təqdim olunmuş kitablara və filmə görə, hörmətli Sahibə xanım, mən Sizə xüsusi minnətdarlığımı və təşəkkürümü bildirmək istəyirəm. Çünki bu gün həm də Heydər Əliyevin ruhu şaddır.

Ulu Öndərin fəaliyyətinin qısa təhlili göstərir ki, Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından uğurla çıxararaq ölkənin ictimai, siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Onun Azərbaycan dövləti və xalqı qarşısındakı möhtəşəm xidmətləri gələcək nəsillərin qəlbində də daim yaşayacaqdır.

Heydər Əliyev 1969–1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi müddətdə bütün həyatını özünün qibləgahı hesab etdiyi Azərbaycanın iqtisadi inkişafına, milli-mənəvi

dəyərlərin bərpası və tərəqqisinə və Azərbaycanın müstəqilliyinin formalaşmasına həsr etmişdir. Azərbaycan tarixinə quruculuq illəri kimi daxil olmuş bu dövrdə baş verən geniş miqyaslı inkişaf göstərdi ki, məhz Heydər Əliyev kimi enerjili və qətiyyətli bir liderin həmin şəraitdə Azərbaycanda siyasi rəhbərliyə gəlməsinə böyük ehtiyac var idi.

Heydər Əliyev 1987-ci ildə Moskvada SSRİ rəhbərliyindəki vəzifəsindən istefa verdikdən sonra 1990-cı ildə Bakıya gəlmiş və sonra isə Naxçıvana getmişdir. Naxçıvan əhalisi həmin il görkəmli dövlət və siyasi xadimi Naxçıvan MSSR və Azərbaycan SSR Ali Sovetinə deputat seçdi. Mən də həmin il Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdim və Heydər Əliyevlə birlikdə Ali Sovetin sessiyalarında iştirak edirdik. 1990-cı ilin noyabr ayının 17-də Muxtar Respublikanın Ali Sovetinin birinci sessiyasında SSRİ-nin mövcud olmasına baxmayaraq, Heydər Əliyevin böyük cəsarəti sayəsində doğma Azərbaycanımızın müstəqilliyinin rəmzi olan üçrəngli bayrağın dövlət bayrağı kimi qəbul edilməsi elan edildi. Həmin gün Azərbaycan Respublikasının müstəqilliyinin əbədi və dönməz olmasının möhkəm təməlinin qoyulduğu gün kimi tarixə düşdü.

Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi çox çətin bir vaxtda – 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Heydər Əliyev partiyanın sədri seçildi. Həmin dövrdə Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsünün tikilməsi ilə Azərbaycan–Türkiyə qardaşlığının möhkəm təməli qoyuldu.

1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbini qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçildi. Ulu Öndər müasir Azərbaycan

dövlətinin memarı olmaqla yanaşı, həm də haqlı olaraq bugünkü Azərbaycan parlamentinin banisi sayılır. Heydər Əliyev cəmi 4 ay Ali Sovetin sədri vəzifəsində çalışsa da bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, ona siyasi mədəniyyət gətirdi.

Sonralar, 1997-ci il iyunun 27-də Milli Məclisin iclasında mənim əvvəlki iclasda verdiyim təklif deputat həmkarlarımın böyük əksəriyyətinin dəstəyini aldı və 15 iyun günü Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edildi və bayramlar sırasına daxil olundu. Hesab edirəm ki, doğma Azərbaycanımızın torpaqlarının erməni işğalından azad olunması məhz elə həmin gündən – qurtuluş günündən başlamışdır. Çünki hələ o vaxtlar Ulu Öndər bütün çıxışlarında böyük əminliklə deyərdi ki, "Biz Qarabağa mütləq qayıdacayıq. İnanın ki, qayıdacayıq". Yəni bu fikirlər əsas verir ki, elə Qarabağın da qurtuluşu 15 iyundan başlayır.

Böyük səs çoxluğu ilə 4 dəfə Prezident seçilən İlham Əliyev cənabları keçən 20 il ərzində Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını daha yaxşı gələcəyə apardığını sübut etdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi sayəsində 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbə ilə hörmətli Prezidentimiz tarixi nailiyyətə imza atdı. Azərbaycan xalqına verdiyi vədini və ata vəsiyyətini uğurla yerinə yetirdiyini bəyan etdi.

Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyev hakimiyyətə qayıtdığı gün bayram günü kimi qeyd edilməyə tam layiqdir. "Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam", deyən Heydər Əliyevin ideyaları və əməlləri daim yaşayacaq və onun adı Azərbaycanla həmişə qoşa çəkiləcəkdir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Eldar müəllim. Hörmətli həmkarlar, icazənizlə, biz çıxışları yekunlaşdıraq. Bizim bəyanatımız var.

Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin bəyanatını oxumaq üçün mən sözü bizim ən gənc deputatımıza – Səbinə xanım Xasayevaya vermək istəyirəm. Səbinə xanım, buyurun.

**S.Xasayeva.**

## Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi bu il dövlət səviyyəsində tədbirlər ilə qeyd edilir. Böyük siyasi və dövlət xadiminin vətən və millət qarşısında misilsiz xidmətləri dərin minnətdarlıq duyğuları ilə xatırlanır.

Bütün həyatını Azərbaycanın inkişafına, qorunmasına və istiqlalına həsr edən, onu zamanın burulğanlarından xətərsiz çıxarmağa nail olan Heydər Əliyev qədim tariximizin ən böyük şəxsiyyətlərinin ön cərgəsində dayanmaq haqqı qazanmışdır. Xalqımızın yaradıcılıq enerjisini, zəkasını, əzmini və iradəsini öz fəaliyyətində təcəssüm etdirən Ulu Öndər təkcə dövləti idarə etməyin deyil, həm də vətəni necə sevmək lazım olduğunun parlaq nümunələrini göstərmişdir.

Ötən əsrin 60-cı illərinin sonlarında və 90-cı illərinin

əvvəllərində Heydər Əliyevin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın həyatında çox ağır sınaqlar dövrünə təsadüf etmişdir. Hər dəfə də Heydər Əliyev ona bəslənən ümidləri doğruldaraq həqiqi milli lider olduğunu sübuta yetirmişdir.

1969-cu ildə Heydər Əliyev Azərbaycanın siyasi həyatına gələcəyi görmək və yaratmaq bacarığına malik qüdrətli rəhbər kimi daxil oldu, cəmiyyət tərəfindən prinsipial, qətiyyətli, iradəli və etibarlı bir insan kimi qəbul edildi. Onun respublikaya ilk dəfə rəhbərlik etdiyi 13 il ərzində Azərbaycanda dövlət quruculuğunun bütün tarixi ərzində əldə olunmayan sürətli inkişaf yolu keçildi, sənaye və kənd təsərrüfatı nəhəng addımlarla irəliləməyə başladı. Elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, digər yaradıcılıq sahələrinin inkişafına qayğı və diqqət artırıldı. Mühüm sosial dəyişikliklər həyata keçirildi, əhalinin həyat tərzi dəyişdi. Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikaları sırasına çıxdı, cəmiyyətdə yeniləşmə, gələcəyə inam hissi bərqərar oldu.

Milli-mənəvi sərvətlərin qorunmasına və artırılmasına, milli mənlik şüurunun oyanmasına və güclənməsinə yönələn düşünülmüş tədbirlər görüldü. Xalqımızın qədim tarixi təbliğ edilməyə başlandı. 1978-ci ildə qəbul olunmuş Konstitusiyada Azərbaycan dilinə dövlət dili statusu verildi.

Heydər Əliyev Azərbaycan SSR-in əsasında inkişaf etmiş yetkin, müstəqil bir dövlətin cizgilərini formalaşdırırdı. Zəngin iqtisadi potensial yaradılması ilə yanaşı, yüksək ixtisaslı milli kadrların, o cümlədən hərbi mütəxəssislərin hazırlanmasına ümdə əhəmiyyət verilirdi.

1982–1987-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci

müavini vəzifəsində çalışarkən Heydər Əliyev Azərbaycan xalqını layiqincə təmsil etmişdir. İttifaqın bir sıra nazirlik və komitələrinin fəaliyyətinə nəzarət edən rəhbər şəxs kimi o, dövlət əhəmiyyətli məsələlərin həllində böyük uğurlar qazanmışdır.

Bununla yanaşı, Ulu Öndər Azərbaycanın inkişafı ilə bağlı məsələləri diqqət mərkəzində saxlayırdı. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi Azərbaycanın iqtisadi inkişafı üçün böyük əhəmiyyətə malik bir sıra qərarlar qəbul etmişdi. Azərbaycanda mərkəzdən maliyyələşdirilən bir sıra iri layihələr həyata keçirilmişdi.

Heydər Əliyevin Sovet İttifaqının liderlərindən biri olması Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan qüvvələrin qarşısında ən böyük maneə idi. 1987-ci ilin oktyabr ayında Ulu Öndərin Sovetlər Birliyinin rəhbərliyində yüksək vəzifələrdən uzaqlaşdırılması ilə Azərbaycanın faciələrinin əsası qoyuldu.

Heydər Əliyevin məcburi istefasından iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi ilə bağlı məsələ qaldırdılar. Azərbaycana qarşı ərazi iddiaları irəli sürülməsinə və Ermənistan Respublikasında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmasına haqq qazandırmaq üçün 1988-ci ilin fevralında SSRİ və Ermənistan xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Sumqayıt şəhərində iri miqyaslı təxribat törədildi.

1990-cı ilin yanvarında fərsiz rəhbərlərin milli xəyanəti və sovet imperiyasının dəhşətli cinayəti nəticəsində xalqımız günahsız qurbanlar verəndə Heydər Əliyev heç bir təqib və təzyiqdən çəkinməyərək, ailə üzvləri ilə birlikdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəldi,

bəyanat verərək haqq səsimizi dünya ictimaiyyətinə çatdırdı. Ulu Öndər xalqımıza qarşı silah tətbiq edilməsinə qəti etirazını bildirərək, 20 Yanvar cinayətinin mahiyyətini və səbəblərini, bu faciəni törədən qüvvələrin niyyətlərini açıq şəkildə göstərdi.

Bu hadisədən bir neçə ay sonra Heydər Əliyev xalqının yanında olmaq üçün ittifaq və respublika rəhbərliyinin törətdiyi müxtəlif maneələrə baxmayaraq, Bakıya qayıtdı, burada qalmağa imkan verilmədiyinə görə doğulduğu şəhərə – Naxçıvana getdi. Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, muxtar respublikanın Ali Məclisinin sədri seçildi. Naxçıvan əhalisi ilə birlikdə ağır blokada şəraitində yaşayıb işlədi, muxtar respublikanın müdafiəsini möhkəmləndirmək üçün qətiyyətli tədbirlər görərək Azərbaycanın bu qədim bölgəsini erməni işğalından qoruyub saxladı.

Ulu Öndərin rəhbərliyi ilə Naxçıvan Azərbaycanın həqiqi dövlət müstəqilliyinə gedən yolda bayraqdar rolunu öhdəsinə götürdü və bu rolu uğurla yerinə yetirdi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi qəbul edildi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı.

1992-ci ilin noyabr ayında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi və Heydər Əliyevin partiyaya sədr seçilməsi Azərbaycanın müasir siyasi sisteminin formalaşması baxımından önəmli bir hadisə oldu. Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası qısa müddətdə cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildikdən sonra ölkəmiz son

dərəcə mürəkkəb problemlərlə qarşılaşıb çox çətin vəziyyətə düşmüşdü. Yeni yaranan dövlət quruluşunun siyasi, sosial və iqtisadi təməlini möhkəmləndirməyə, dəyişən şəraitə uyğun idarəçilik mexanizmləri hazırlamağa qadir siyasi rəhbərliyin olmaması zəruri dövlət quruculuğu vəzifələrini yerinə yetirməyə imkan vermirdi.

1993-cü ilin əvvəllərində hakimiyyət tam iflic vəziyyətinə düşmüşdü. O vaxtkı iqtidarın səriştəsizliyi və acizliyi üzündən hərc-mərcliyin dövlət həyatının bütün sahələrinə sirayət etməsindən, ölkədə hökm sürən başıpozuqluqdan, hakimiyyət uğrunda didişmədən, əslində, milli ordunun olmamasından istifadə edən təcavüzkar Ermənistan Respublikası bir-birinin ardınca torpaqlarımızı işğal edirdi.

1980-ci illərin sonlarında Ermənistandakı ata-baba torpaqlarından qovulan 250 minə yaxın azərbaycanlının ardınca işğal edilmiş bölgələrdən 700 mindən çox soydaşımız da yerindən-yurdundan didərgin salınmışdı. Sürətlə gedən dağılma prosesinin məntiqi nəticəsi kimi, 1993-cü ilin ortalarında ölkəmiz real vətəndaş müharibəsi təhlükəsi, separatçılıq meyilləri ilə üz-üzə dayanmışdı. Azərbaycan parçalanmaq, bir dövlət kimi məhv olmaq fəlakətinin lap yaxınlığında idi.

1993-cü ilin iyununda Azərbaycan dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır məqamda xalqın təkidli tələbləri ilə Heydər Əliyevin ali hakimiyyətə qayıtması Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi. Ulu Öndərin dövlət rəhbərliyinə qayıdışı sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü, xalqımızın mənliyi və ləyaqəti müdafiə olundu.

Azərbaycan Respublikasının həqiqi dövlət müstəqilliyinin tarixi məhz Qurtuluş Günündən başlanır. Çünki Ulu Öndərin dediyi kimi, “Tarix dəfələrlə sübut etmişdir ki,

xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir". Bu gün tam inamla söyləmək olar ki, əgər o vaxt ölkədə baş verən hadisələrə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, Azərbaycan dövlətinin varlığına çoxdan son qoyulmuşdu.

Heydər Əliyevin böyük siyasətə qayıdışı yolunda ilk addım onun Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsi olmuşdur. Ümummilli Liderimiz Prezident seçilənədək dörd aya yaxın parlamentə rəhbərlik etmişdir.

Heydər Əliyevin Azərbaycan Parlamentinin sədri vəzifəsində fəaliyyəti ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı və onun peşəkar nümayəndəli orqan kimi formalaşması istiqamətlərini müəyyən etməyə imkan verdi. Milli Məclis mürəkkəb ictimai-siyasi problemləri müzakirə və həll etməyə qadir olan hakimiyyət orqanına çevrildi.

Heydər Əliyev siyasi iradəsi və qətiyyəti, çevik və dərin ağlı, müdrikliyi və yaradıcı düşüncəsi, zəngin təcrübəsi, ona inam bəsləyən xalqından aldığı dəstək sayəsində Azərbaycan dövlətinin qarşısında dayanan taleyüklü problemlərin həllinə nail oldu. Azərbaycan Respublikası XX əsrin əvvəllərində cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq və məhv olmaq təhlükəsindən qurtuldu. Sonralar ölkənin qanunvericilik orqanının xalqın arzu və istəklərini nəzərə alaraq, Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü "Milli Qurtuluş Günü" kimi dəyərləndirməsi bu həqiqətin daha bir təsdiqi idi.

Ulu Öndərin xilaskarlıq missiyasında ən mühüm addımı ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış

dövlət və hakimiyyət böhranını aradan qaldırmaq, vətəndaş müharibəsi təhlükəsinin, dövlət çevrilişi və terror cəhdlərinin qarşısını  almaq oldu.

Müstəqilliyimizin ilk illərində səriştəsiz siyasi və hərbi rəhbərlik xarici hərbi təcavüzü dəf edə bilən silahlı qüvvələrin yaranmasına imkan verməmişdi. Ulu Öndər torpaqlarımızı müdafiə etməyə qadir olan milli ordunun formalaşdırılmasını ən vacib vəzifələrdən biri kimi irəli sürdü. Bu istiqamətdə qəti tədbirlərin həyata keçirilməsi döyüş əməliyyatları zonasında dönüş yaratdı və 1994-cü ilin may ayında cəbhə xəttində atəşkəs elan olundu.

Ölkə daxilində möhkəm ictimai-siyasi sabitlik yaradıldı. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyən edildi. Xarici neft şirkətləri ilə çoxsaylı sazişlər imzalandı. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin çəkilişinə başlandı. Xarici tərəfdaşların yatırdığı milyardlarla dollar məbləğində investisiya Azərbaycan iqtisadiyyatının inkişafına əlavə təkan verdi. Təbii sərvətlərdən götürülən gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanılmasını təmin etmək məqsədi ilə beynəlxalq səviyyəli maliyyə qurumu olan Dövlət Neft Fondu yaradıldı.

Neft sənayesinin dirçəlməsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına da şərait yaratdı. Bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu, iqtisadi islahatlar, o cümlədən torpaq islahatı, özəlləşdirmə aparıldı. Həyatın bütün sahələrində tənəzzülə son qoyuldu, ölkəmiz dinamik inkişaf yoluna çıxdı.

Dövlətimizin elmi təhlilə əsaslanan, müasir dünyanın reallıqları üzərində qurulan hərtərəfli və dolğun xarici siyasət konsepsiyası formalaşdırıldı və ardıcıl həyata

keçirilməyə başlandı. Ölkəmizin dünyaya inteqrasiyası reallığa çevrildi. Azərbaycan Respublikası nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvü oldu. Dünyanın əksər dövlətləri ilə dostluq münasibətləri yaradıldı.

Yeni Konstitusiyanın hazırlanıb ümumxalq səsverməsi yolu ilə qəbul olunması ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, hakimiyyət bölgüsünə və demokratik təsisatların yaranmasına yol açdı, qanunun aliliyi təmin olundu, demokratik seçki mexanizmi bərqərar edildi, yeni siyasi partiyalar fəaliyyətə başladı.

Ölkədə əsaslı siyasi, hüquqi və sosial islahatlar həyata keçirildi. Şərq və müsəlman aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi və bir sıra digər tədbirlər dövlətimizin beynəlxalq nüfuzunu daha da artırdı.

Milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərinə çevrildi. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı. Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi ənənə halını aldı.

Bu möhtəşəm işlərin gerçəkləşdirilməsində Milli Məclis həmişə Ümummilli Liderimizin yanında olmuş, onun uzaqgörən daxili və xarici siyasətini fəal surətdə dəstəkləmişdir.

Qeyd edilməlidir ki, Ulu Öndər parlamentə daim böyük diqqət və qayğı göstərmişdir. 1995-ci il noyabrın 24-də Heydər Əliyev birinci çağırış Milli Məclisin ilk iclasında

iştirak etmiş, qanunvericilik orqanının üzvlərinə öz xeyir-duasını vermişdir. Sonrakı dövrdə də Ulu Öndər parlamentin bir sıra iclaslarında iştirak və çıxış etmişdir.

Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilən çoxsaylı qanunvericilik aktları dövlətimizin müasir beynəlxalq standartlara uyğun möhkəm qanunvericilik bazasının formalaşmasını təmin etmişdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi otuz beş ilə yaxın dövr ərzində böyük bir siyasi məktəb yaratmış, xalqa xidmət etməyin yollarını silahdaşlarına və siyasi davamçılarına aşılamışdır. Bu baxımdan Heydər Əliyev ideyaları təkcə dünənə və bu günə deyil, həm də gələcəyə ünvanlanmışdır.

Ümummilli Liderimizin müəyyənləşdirdiyi strateji inkişaf strategiyasını zamanın çağırışlarına və tələbatına uyğun şəkildə davam etdirmək naminə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı geniş bir bölgədə söz sahibi olan güclü dövlətə çevirmişdir. Getdikcə daha da artan imkanlarımız qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng layihələr qlobal iqtisadiyyatda mühüm rol oynayır.

Azərbaycanda bərqərar olmuş etibarlı siyasi rəhbərlik amili cəmiyyət və dövlət həyatının bütün sahələrində böyük nailiyyətlərin təməlini təşkil edir. Ulu Öndərin ən böyük arzusu həyata keçirilmiş, 44 günlük Vətən müharibəsində qələbə sayəsində əzəli və tarixi torpaqlarımız erməni işğalından qurtarılmış, dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olunmuşdur. Azərbaycan Bayrağını azad Qarabağda və Şərqi Zəngəzurda dalğalandıran

xalqımız işğalçılar tərəfindən viran qoyulmuş yaşayış məntəqələrimizi bərpa edib gülüstana çevirərək qurucu xalq olduğunu da dünyaya nümayiş etdirir.

Heydər Əliyevin ölməz ideyaları Azərbaycanın qüdrətinin təməlində dayanan əsas amillərdən biridir. Ümummilli Liderimizin müəyyən etdiyi yol Azərbaycanı xoş gələcəyə, xalqımızı firavanlığa və səadətə aparır. Nə qədər ki Azərbaycan var, Heydər Əliyev yaşayacaq, Ulu Öndərin ideyaları dövlətimizə və xalqımıza yeni-yeni qələbələr qazandıracaqdır. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən bəyanatı səsə qoyuram. Xahiş edirəm, bəyanata münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin bəyanatı qəbul edildi.

Hörmətli həmkarlar, deyildiyi kimi, sabah Milli Qurtuluş Gününün 30-cu ildönümü qeyd ediləcəkdir. Bununla əlaqədar təklif edirəm, möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, xalqımızın və dövlətimizin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Hörmətli həmkarlar, bu gözəl bayram münasibəti ilə

mən sizin hamınızı və media nümayəndələrini ürəkdən təbrik edirəm. Sizə möhkəm can sağlığı, işlərinizdə uğurlar, firavanlıq və xoşbəxtlik arzulayıram. *(Alqışlar.)*

Hörmətli həmkarlar, bununla da bugünkü iclasımız başa çatdı.

Çıxış etməyən hörmətli həmkarlarımızdan xahiş olunur ki, çıxışlarını katibliyə versinlər, stenoqrama daxil ediləcək. Bu iclasın da stenoqramı sonra çap olunacaq.

Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***14 iyun 2023-cü il***

**Anar Məmmədov.** Müasir Azərbaycan tarixinin bütöv bir epoxası, önəmli bir mərhələsi Ulu Öndərimiz Heydər Əliyevin adı, fəaliyyəti ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin 34 illik rəhbərliyi dövrü müasir Azərbaycan tarixinin ən yüksək mərhələsi, inkişaf mərhələsi olmuşdur. Müstəqil ölkəmizin bugünkü uğurları Heydər Əliyev strategiyasının təntənisidir. Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolundadır, həyatımızın bütün sahələrində yüksəliş, tərəqqi var. İqtisadi artım tempinə görə respublikamız son illər bütün dünyada lider mövqeyinə yüksəlib. Bu gün ölkəmizdə davam edən geniş quruculuq işləri Heydər Əliyev zəkasının bəhrəsidir. Azərbaycan tarixinə qurucu və xilaskar kimi daxil olmuş Ulu Öndərimiz xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmişdir.

Heydər Əliyev xalqını sonsuz məhəbbətlə sevmiş, da onun sevgisini daim uca tutmuşdur. Məhz xalqı məhəbbət dünya şöhrətli siyasi xadimi yenidən öz ana vətəni Azərbaycana ikinci dəfə ölkə rəhbərliyinə qaytarmışdır.

1993-cü ilin keşməkeşli iyun günlərində xalqın təkidli tələbi və xahişi ilə yenidən hakimiyyətə qayıdan böyük və bənzərsiz şəxsiyyət Heydər Əliyev xalqı başının üstünü almış bütün bəlalardan hifz edib qorudu, respublikada ictimai-siyasi sabitliyi təmin etdi, vətəndaş qarşıdurmasını aradan qaldırdı, ölkəni parçalanmaq təhlükəsindən xilas etməklə milli qurtuluşu təmin etdi. Ölkəmiz demokratiya,

hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi. Xalq birliyi yarandı. Ümummilli Liderimiz Heydər Əliyevin işləyib hazırladığı və mərhələ-mərhələ reallaşdırdığı "Əsrin müqaviləsi" milli neft strategiyası Azərbaycana böyük siyasi və iqtisadi dividentlər gətirdi.

Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə bərabər, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Respublikamız insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq sazişlərə qoşulmuşdur.

2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Bu təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına ciddi təkan vermişdir.

Bütün varlığı ilə vətənə və xalqa candan bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir.

Azərbaycanın bugünkü sürətli və irimiqyaslı inkişafının təməlini Heydər Əliyev yaradıb. Biz bu gün onun yaratdığı fundamental təməl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxırıq.

Ümummilli Liderimiz Heydər Əliyevin xalqımız qarşısında ən böyük və tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, sürətli inkişaf yoluna qədəm qoymuş Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan layiqli davamçı

hazırlamışdır. Yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, müasir düşüncəli, praqmatik lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inamla irəliləyir. Zəngin dövlətçilik məktəbindən dərs alan təcrübəli diplomat, Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada ən islahatçı dövlət başçılarından biri kimi qəbul edilir.

Onun düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünyanı bürüyən maliyyə böhranı zamanı da ən az zərər çəkən ölkə olmuşdur. Sevindirici haldır ki, Ümummilli Liderimizin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələbinə uyğun olaraq, yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Heydər Əliyev qürur hissi ilə deyərdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu gün Azərbaycan xalqı fəxr edir ki, onun Heydər Əliyev kimi bir övladı var. Qəlbi həmişə Azərbaycanla döyünən Heydər Əliyevin parlaq xatirəsi daim anılacaq və seviləcəkdir.

**Aydın Hüseynov.** 15 iyun – Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və iqtisadi əhəmiyyətə malik bir tarixi gündür.

Həmin gün müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın xilaskarı Ümummilli Liderimiz Heydər Əliyevin ölkəyə ikinci dəfə rəhbərliyə dəvət olunması ilə Azərbaycanın əbədi müstəqilliyi qorunub saxlandı, gələcək inkişafının möhkəm təməlləri qoyuldu.

Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə

vəziyyəti sabitləşdi, qətiyyətli islahatlar həyata keçirildi.

Ulu Öndərin ən çox diqqət yetirdiyi məsələ islahatların mükəmməl qanunvericilik bazasının yaradılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması olmuşdur. Təsadüfi deyil ki, Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.

Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyası Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasında və ölkəyə xarici investisiyaların cəlb olunmasında həlledici rol oynamışdır. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsini təmsil edən 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması və icrasına başlanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru Azərbaycanın enerjidaşıyıcılarını dünya bazarına çıxaran Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsidir. Bununla yanaşı, Azərbaycan qazının Qərb bazarına ixracının təmin olunması üçün Ulu Öndərin şəxsi təşəbbüsü ilə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşasına başlanıldı.

Ümummilli Lider Azərbaycan iqtisadiyyatının lokomotivi olan neft-qaz sənayesinin dirçəldilməsi ilə bağlı tədbirlər həyata keçirməyə başladı. 1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi təmin edilmiş, məzmunca fərqli münasibətlər formalaşmışdır.

Heydər Əliyev tərəfindən müəyyən edilmiş və onun rəhbərliyi ilə uğurla həyata keçirilmiş sahibkarlığın inkişafı strategiyası və qəbul olunmuş dövlət proqramları bu

sahənin inkişafında xüsusi rol oynamış, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində müəyyən addımlar atılmışdır.

Heydər Əliyevin müəyyən etdiyi sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri infrastrukturun inkişaf etdirilməsi olmuş, Azərbaycanın beynəlxalq nəqliyyat sisteminin gücləndirilməsi üçün TRACECA, Şimal–Cənub, INOGATE proqram layihələri həyata keçirilmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı və sair kimi beynəlxalq maliyyə institutları ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, bu münasibətlərin hüquqi bazası təmin edilmişdir.

Beləliklə, 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı. 1995–2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2 faiz, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əməkhaqqı 5,1 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Ötən 30 illik uğurlarımızın əsasında iqtisadi gücümü-

zün artması və möhtəşəm ordu quruculuğunun və əsas milli amalımız olan torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsinin kökündə məhz Ulu Öndərin xilaskarlıq missiyası olan 15 İyun salnaməsi dayanır.

**Azər Badamov.** Tarix sübut etmişdir ki, lideri olmayan ölkələr heç vaxt xoşbəxt ola bilmirlər. O ölkələrdə heç vaxt sabitlik və inkişaf olmur. Azərbaycan xalqı xoşbəxtdir ki, Ümummilli Lider Heydər Əliyevi var. Ümummili Lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycan inkişaf və sabitliyi ilə həmişə fərqlənmişdir. Amma Ümummili Lider Heydər Əliyev rəhbərlikdən uzaqlaşdırılanda xalqımıza və dövlətə qarşı düşmənlər tərəfindən faciələr, qətlimlar törədilmişdir. Hətta ikinci dəfə qovuşduğumuz dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmalı olduq. Ulu Öndər deyirdi ki**,** “Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir”. Tarix Ulu Öndərin bu müdrük kəlamını həyatda sübt etdi. Belə ki, 105 il əvvəl qurulan AXC cəmi 23 ay yaşasa da, 1991-ci ildə qovuşduğumuz müstəqiliyin ömrü Heydər Əliyevin rəhbərliyə qayıdışı ilə əbədiləşdi.

Ulu Öndər Heydər Əliyevin apardığı uğurlu siyasi kurs Azərbaycanın inkişafının möhkəm təməllər üzərində qurulmasına yol açdı

Dağlıq Qarabağın azadlığı, Azərbaycanın ərazi bütövlüyü Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin əsas xəttini təşkil edib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs milli birliyimizin güclənməsini və Vətən müharibəsində mühüm amilə çevrilməsini şərtləndirdi.

Ulu Öndər həmişə öz çıxışlarında Azərbaycanın çox-

millətli ölkə olmasını, etnik rəngarəngliyini və tolerantlığa böyük əhəmiyyət verməsini xalqımızın böyük sərvəti hesab etmişdir: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib". Bu müdrük kəlamlar Ümummili Lider Heydər Əliyevə aiddir.

44 günlük Vətən müharibəsində qazanılan qələbə Azərbaycanın müasir tarixinin ən şanlı səhifəsidir desək, yanılmarıq. Təbii ki, bu qələbəni şərtləndirən amilləri sadaladığımız zaman bir mühüm məqama – əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan milli birliyimizə, milli həmrəyliyimzə də toxunmaq lazımdır. 1991-ci ildə Ulu Öndərimizin rəsmi status qazandırdığı Azərbaycanın milli həmrəyliyi 20 ilə yaxın müddətdən sonra işğal altındakı torpaqlarımızın azadlığında əsaslı rol oynadı.

Azərbaycanın bu günkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız Ulu Öndər Heydər Əliyevin siyasi varisi, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Biz, çoxmilli tərkibin nümyəndələri bu gün Heydər Əliyevin ideyalarına sadiqliyimizi nümayiş etdirməklə, hörmətli Prezident cənab

İlham Əliyevin uzaqgörən siyasətini dəstəkləməklə qürur duyur və özümüzü xoşbəxt hesab edirik.

2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Bu il həm də ölkəmizin, dövlətçiliyimizin xilasının, milli birliyimizin qorunub inkişaf etdirilməsinin 30-cü ildönümüdür. 1993-cü ildən başlanan 30 illik şərəfli yol beynəlxalq aləmdə sözü imzası qədər dəyərli olan Azərbaycanın tanınmasına, mühüm tərəfdaş kimi qəbul olunmasına yol açıb. Bu yol qələbə yoludur. Bu yol Zəfər yoludur. 2023-cü il "Heydər Əliyev İli"nin timsalında sülh, inkişaf və tərəqqi ili olacaq. Buna inamımız sonsuzdur.

**Bəxtiyar Əliyev.** Ulu Öndər Heydər Əliyev ölkəmizin və xalqımızın tarixində əvəzsiz xidmətləri olan, şərəfli və mənalı ömrünü xalqının nicatına, milli dövlətçiliyinin dirçəlməsinə həsr edən böyük dövlət xadimi, tarixi şəxsiyyətdir. Müasir Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq dövlət kimi formalaşması Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının nəticəsi, uzaqgörən siyasi fəaliyyətinin bəhrəsidir.

1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə Azərbaycan Respublikasında siyasi hakimiyyətə Heydər Əliyevin qayıdışı ümidsizliyə qapılmış xalqın və fəlakətə sürüklənmiş Azərbaycanın nicat günü, işıqlı sabaha doğru inamla atılan ilk addımdan başlayan tariximizdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 2022-ci il 29 sentyabr tarixli Sərəncamında deyilir:

"Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiy-

yətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin iki dövrü var: 1969–1982-ci illər və 1993–2003-cü illər. Hər iki dövrdə Heydər Əliyev dövlətimiz üçün çətin zamanda hakimiyyətə gəlmiş və hər iki dövrdə də Azərbaycanın iqtisadi yüksəlişi, xalqımızın yaxşı yaşaması, dilimizin, ədəbiyyatımızın, incəsənətimizin, ənənələrimizin qorunması üçün böyük işlər görmüşdür.

Məhz həmin illərdə Azərbaycan bütün sahələrdə sürətlə inkişaf etməyə başladı. Respublika yenidən qurulurdu. Aqrar ölkə kimi tanınan, amma kənd təsərrüfatı sahəsində də böyük uğurları olmayan respublikada həm kənd təsərrüfatı inkişaf etdirildi, həm də ölkə sənayeləşdirildi, həmin dövrün yüksək texnologiyaları əsasında yeni zavod və fabriklər tikildi.

Digər sahələrlə yanaşı, təhsil və elm sahəsində həyata keçirilən irimiqyaslı islahatlar öz müsbət nəticələrini qısa müddətdə göstərməyə başladı. Məsələn, 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edildi. Bu qərarların icrası nəticəsində ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yə, 1982-ci ildə isə 3750-yə çatdırıldı. Ümumtəhsil məktəblərində şagirdlərin sayı 1980-ci ildə 710 min nəfər idi ki, bu da 1970-ci illə müqayisədə iki dəfə çox idi. Həmin illər ərzində iqtisadi inkişafı təmin edən, əmək bazarının tələblərinə cavab

verən yüksəkixtisaslı kadrlar hazırlayan 5 yeni ali təhsil müəssisəsi, mövcud ali təhsil müəssisələrində isə yeni ixtisaslar açıldı və ali təhsil alanların sayı 70000 nəfərdən 100000 nəfərə çatdırılmışdı. Bununla yanaşı, həmin illərdə SSRİ-nin ən nüfuzlu ali məktəblərində respublikanın inkişafı üçün zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 min nəfər ali təhsil aldı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına 1969–1982-ci illərdə rəhbərlik etdiyi dövrdəki fəaliyyəti "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 2022-ci il 29 sentyabr tarixli Sərəncamda belə səciyyələndirilir: "Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı

ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir".

Qeyd etməliyik ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası 1990-cı illərin əvvəllərində nəinki bölgə və dünyada baş verən hadisələrə təsir etmək gücünə malik deyildi, hətta özünün mövcudluğu belə sual altında idi. Gənc respublikada xaos, özbaşınalıq hökm sürürdü. Siyasi hakimiyyətdə olan şəxslər baş verən tarixi prosesləri dərk edə bilmir, nə baş verir, niyə baş verir və nə etmək lazımdır kimi suallara cavab verə bilmirdilər.

Hələ 1987-ci ildə keçmiş SSRİ-nin rəhbəri olmuş Mixail Qorbaçovun Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi siyasi hakimiyyətdən uzaqlaşdırılmasına nail olmasının xalqımıza qarşı hazırlanmış məkrli planın işə salınmasına bir işarə olduğunu çoxları zamanında anlamadılar. Respublikanın o vaxtkı rəhbərləri, hətta M.Qorbaçovun erməni müşaviri Aqanbekyan Fransada Azərbaycana qarşı saxta ittihamlarla çıxış edəndə tarixi proseslərin təhlükəli məcraya məqsədyönlü şəkildə yönləndirildiyinin fərqinə varmadılar. Əbdürəhman Vəzirovun 1988-ci ildə Azərbaycana rəhbər göndərilməsi və onun qəbul etdiyi antimilli qərarlar isə yaşanacaq faciələrin miqyasını daha da genişləndirdi. Mixail Qorbaçovun əmri ilə Azərbaycan xalqının 1990-cı ilin 20 Yanvar gecəsi sovet qoşunları tərəfindən qətlə yetirilməsinin nəinki qarşısını almadı, hətta çətin zamanda xalqının yanında olmaq əvəzinə, gecə ilə öz sahiblərinin yanına qaçdı. Azərbaycanın o vaxtkı rəhbərliyi bu qanlı qırğına siyasi qiymət vermədi.

Həmin dövrdə Azərbaycanda baş verən hadisələr haqqında obyektiv məlumatın yayınlamasına da imkan veril-

mirdi. Ölkə tam informasiya blokadasında idi. Xalq nə baş verdiyini, niyə baş verdiyini və nə edəcəyini bilmirdi. Belə bir məqamda 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi və bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törədilməsi səbəblərini də açıqladı, xalqına dəstək oldu. Hesab edirik ki, bu, tarixi hadisə idi. İlk dəfə nə baş verdiyini Heydər Əliyev bütün dünyaya bəyan etdi. Məhz buna görə SSRİ rəhbərliyi və şəxsən azərbaycanlılara qarşı hərbi cinayətin törədilməsinə əmr vermiş Mixail Qorbaçov bu həqiqəti gizlətmək üçün Heydər Əliyevə qarşı repressiyaları daha da gücləndirdi.

Bu hadisənin üzərindən ötəri keçmək olmaz. Çünki həmin dövrdə baş verənləri və sonrakı prosesləri düzgün qiymətləndirmək mühüm əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin hadisə haqqında demişdi: “Hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ 2 il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi”. O, həmişə xalqı ilə birlikdə oldu, ondan dəstək aldı və vətəninə, xalqına, dövlətinə sadiq oldu.

1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, bu gün müstəqil, qüdrətli, sürətlə və davamlı inkişaf edən, yeniləşən, demokratiya yolunda inamla irəliləyən, şanlı zəfərlər qazanan

Azərbaycan dövləti bəlkə də yox idi. Məhz Ulu Öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunun əsası qoyuldu və nəticədə, qurtuluş savaşında tənəzzüldən tərəqqiyə doğru dönüş başlandı.

Bu gün Azərbaycan dövləti tarixinin ən qüdrətli dövrünü yaşayır və bu uğur 30 il əvvəl Heydər Əliyev tərəfindən müəyyən edilən müstəqil dövlət quruculuğu siyasətinin bəhrəsidir. 1993-cü il iyunun 15-dən başlanan tərəqqi yolu tariximizə qızıl hərflərlə yazılıb. Amma əldə edilən nailiyyətlər o qədər də asan başa gəlməyib.

1991-ci ildə Azərbaycan müstəqilliyinə qovuşsa da, formal olaraq özünü müstəqil elan etsə də, sözün həqiqi mənasında, müstəqil dövlət hesab etmək mümkün deyildi. Çünki müstəqil dövlətlərə xas olan əlamətlərin heç biri Azərbaycanda yox idi və bunun nəticəsi kimi cəmi üç il sonra, 1993-cü ildə ölkə tarixinin ən ağır günlərini yaşamağa başladı. Dövlət ağır, çətin sınaq qarşısında idi və o dövrdəki hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində vəziyyət daha da dramatikləşdi.

Bir tərəfdən, torpaqlarımız işğal edilirdi, digər tərəfdən, on minlərcə soydaşımız köçkün həyatı yaşamağa məcbur qalırdı. Bu azmış kimi ölkədə vətəndaş müharibəsinə də rəvac verilirdi. Döyüş bölgələrindəki hərbi birləşmələr çıxarılaraq Bakı və Gəncə arasında üz-üzə gətirilib toqquşmalara sövq edilirdi. Bu da Azərbaycanın dövlət kimi taleyini sual altında qoyurdu. Məhz belə bir məqamda xalqın çağırışı ilə Bakıya gələn Ümummilli Lider Heydər Əliyev ilk növbədə hadisələrə obyektiv qiymət verdi, vəziyyətdən çıxış yollarını göstərdi və sonra qanlı hadisələri dayandırmaq üçün Gəncəyə getdi, qardaş qırğınının qarşısını aldı.

Hələ 1991-ci ilin yayında dahi şəxsiyyət Heydər Əliyev

Azərbaycan Respublikasının Ali Sovetinin sessiyasında çıxış edərək Qarabağın başı üzərində sıxlaşan “siyasi qara buludlar”ın hansı ağır nəticələrə səbəb ola biləcəyi və bunun qarşısının alınması ilə bağlı konkret təkliflərini səsləndirdi. Təəssüf ki, həmin dövrdə Ayaz Mütəllibovun rəhbərlik etdiyi və Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyinin dəstəklədiyi bir komanda Ulu Öndər Heydər Əliyevin bu çağırışına nəinki səs verdi, hətta ona qarşı qarayaxma kampaniyasına başladılar. Bunun nəticəsi isə çox ağır oldu, Azərbaycan xalqı ağır məşəqqətlər yaşadı. Milli birliyə və müstəqilliyə xəyanət edildi.

Bu tarixi həqiqətləri Azərbaycan xalqı yaşadı və bütün proseslərə şahidlik etdi. Çünki həmin zaman hakimiyyət dairəsində vəziyyətdən çıxış yolunu göstərə biləcək, ağır yükü çiyinlərinə götürəcək nə siyasi qüvvə, nə də siyasi lider var idi. Nicat, qurtuluş yolu yalnız Heydər Əliyevin uzaqgörən siyasətindən keçirdi.

O illərdə Azərbaycan getdikcə daha böyük təhlükəyə doğru yuvarlanırdı. Ölkənin müstəqilliyinin əleyhinə olan bəzi xarici dairələrin ölkə daxilində dəstək verdiyi qüvvələr də hərəkətə keçmişdi. Cənub bölgəsində separatçı Əlikram Hümbətovun yaratdığı qondarma qurum, şimal bölgəsinə yeridilən separatçı dəstələr Azərbaycan dövlətçiliyinin əsasını sarsıtmağa cəhd edirdilər. Bütün bunlar Azərbaycanı parçalamağa yönəlmişdi və bütövlükdə, müstəqil dövlət kimi mövcudluğunu sual altına qoyurdu.

Lakin xalq Ulu Öndərin ətrafında sıx birləşməklə öz gələcək taleyini həll etdi. Ümummilli Lider Heydər Əliyev öz həyatı üçün real təhlükələrə baxmayaraq, xalqın çağırışına səs verərək Bakıya gəldi və daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində

dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı, xalqda öz gələcəyinə inam yarandı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, dövlətin və xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

Məhz bu dövrdən sonra Ulu Öndər ciddi şəkildə dövlət quruculuğu işlərinə başlamaqla yanaşı, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı hücumlarının qarşısını aldı. Qısa müddətdə çevik ordu birləşmələri yaradıldı və Füzuli, Ağdam istiqamətlərində əks hücumlara başlanıldı. İtirilmiş yaşayış məntəqələrinin bir qismi geri alındı, amma daha böyük təhdidlər olduğuna görə müvəqqəti atəşkəs elan edildi. Çünki həm də dövlətin büdcəsində müharibə aparmaq, əhalinin normal həyat fəaliyyətini təmin etmək üçün vəsait yox idi. İnsanlar gecədən səhərə qədər çörək növbəsinə dayanırdılar, amma çörək çatmadığı üçün bir çoxları da evə əliboş qayıdırdılar. Arzular puç olur, ümidlər qırılırdı. İqtisadiyyat dağıdılmış, dövlət əmlakları talan edilmişdi. Biz bunu heç vaxt unutmamalıyıq, ona görə ki, bir daha belə dövrə qayıtmayaq, vicdanlarını və ləyaqətlərini itirənlərə bel bağlamayaq. Çünki o qəbildən olan insanların səsi hələ bu gün də ara-sıra eşidilir.

Digər tərəfdən, həmin dövrdə hakimiyyətdə olanlar vəzifələrini dondurmaqla dövlətin fəaliyyətini iflic vəziyyətinə salmaq yolunu tutdular. Bu, məsuliyyət hissini itirən məmurların dövlətə və xalqa qarşı xəyanəti idi. Ona görə də Azərbaycan bu vəziyyətdən qurtulmaq üçün zaman qazanmalı idi.

Ümummilli Lider Heydər Əliyev müstəqil milli dövlət quruculuğunun bütün istiqamətləri üzrə inkişaf konsepsiyasını müəyyən edərək, dövlət quruculuğuna başladı,

Azərbaycanın xarici əlaqələrini gücləndirdi və müstəqil Azərbaycanı dünyada tanıtdı. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı və dövlətin iqtisadi inkişafının möhkəm əsası qoyuldu. Ölkədə sabitlik yaradıldı, xarici şirkətlər Azərbaycana investisiya yatırmağa başladılar.

Heydər Əliyev uzaqgörənliyi 1993-cü ildə məhv olmaq təhlükəsi ilə üzləşən Azərbaycanın anarxiyadan 1995-ci ildə sabit, güclü dövlət quruculuğu prosesinə keçidini tam təmin etdi. 1993–2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yaddaşlarda və tarixdə qaldı. Müstəqil Azərbaycan Respublikasının yeni tarixi yazıldı. Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, dünya birliyində yüksək yer tutan ölkəmiz nəinki beynəlxalq təşkilatlara üzv oldu, həm də həmin təşkilatlarda söz sahibi oldu.

Həmin dövr "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamda belə qiymətləndirilir:

"Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir".

Bu gün Azərbaycan özünün intibah dövrünü yaşayır və əminliklə deyə bilərik ki, bu uğurların əsası 30 il öncə qoyulub. Hesab edirik ki, Ulu Öndər Heydər Əliyevin

müəyyənləşdirdiyi inkişaf konsepsiyasını uğurla gerçəkləşdirən Prezident İlham Əliyev ölkəmizi məhz Heydər Əliyevin görmək istədiyi Azərbaycana çevirib.

Bu gün Azərbaycanın qətiyyətli və tam müstəqil siyasət yürüdən güclü siyasi lideri, möhkəm və davamlı inkişaf edən iqtisadiyyatı, qüdrətli ordusu var. 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz bunu bir daha həm təsdiq etdi, həm də daha da möhkəmləndirdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev qəhrəman əsgər və zabitləri ilə döyüş meydanında qəhrəmanlıqlar göstərərək Qarabağı və Şərqi Zəngəzuru erməni-faşist işğalçılarından azad etdi və Azərbaycanın şanlı Zəfər tarixini yazdı. Bu, həm də təməli 1993-cü ildə Ulu Öndər tərəfindən qoyulmuş Azərbaycan Silahlı Qüvvələrinin ana vətənin azadlığı uğrunda müqəddəs savaşda yazdığı şərəf tarixi idi.

Birmənalı olaraq deyə bilərik ki, biz Ulu Öndər Heydər Əliyevin müstəqil, güclü Azərbaycan üçün işləyib hazırladığı və həyata keçirdiyi siyasətin təntənəsinin şahidiyik. 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz də bunun bariz nümunəsidir. Bu siyasəti uğurla davam etdirən və ölkənin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidini təmin edən müasir milli dövlət quruculuğu modelinin müəllifi Prezident İlham Əliyev Azərbaycan Respublikasını dünyanın ən qüdrətli dövlətləri ilə bir sırada duran dövlətə çevirib. Bu gün Azərbaycan inkişaf etmiş böyük güclərlə birgə müştərək beynəlxalq layihələr həyata keçirir, BMT-dən sonra dünyada ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına rəhbərlik edir. Azərbaycan müstəqil siyasət aparan az sayda dövlətlərdən biridir.

"Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq

münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir".

Əminliklə deyə bilərik ki, Azərbaycanın ən yeni tarixini yazan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövləti daha da sürətlə inkişaf edəcək, hər bir vətəndaşın rahat, təhlükəsiz, firavan və xoşbəxt həyatını təmin edəcəkdir.

Fikrimi "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamdan daha bir iqtibas gətirməklə tamamlamaq istəyirəm:

"Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

**Cavid Osmanov.** 15 iyun müstəqil Azərbaycanın tarixində unudulmaz, çox böyük əhəmiyyətə malik bir gündür. Bu gün tarixə Milli Qurtuluş Günü olaraq düşüb və 1997-ci ildən Milli Məclis tərəfindən bayram günü elan edilib.

Müstəqilliyinin ilk illərində xalqımız səriştəsiz və naşı rəhbərlər üzündən çox ciddi problemlərlə üz-üzə qalmışdı. Ölkədə xaos, anarxiya, özbaşınalıq baş alıb gedirdi. AXC–Müsavat cütlüyü həm hakimiyyətə gəlmək üçün, həm də hakimiyyətə gəldikdən sonra ölkədə vəziyyəti daha da ağırlaşdırmışdı. Düzgün olamayan xarici siyasət isə Azərbaycanın təklənməsi ilə nəticələnmiş, Ermənistanın

hərbi hücumları daha geniş vüsət almışdı. Ölkə daxilində ayrı-ayrı silahlı dəstələr öz bildiklərini edir, talançılıq baş alıb gedirdi. Ölkənin və xalqın parçalanması qaçılmaz olmuşdu. Bəzi separatçılar ölkədə ayrı-ayrı "respublikalar" yaratdıqlarını elan edirdilər. AXC–Müsavat hakimiyyətinin səriştəsizliyi və bəzi üzvlərinin xəyanəti ölkəni olmazın problemlərlə üz-üzə qoymuşdu, xalq çörək və ərzaq qıtlığından əziyyət çəkrdi. Ölkə vətəndaş müharibəsinin astanasında idi. Bir sözlə, xalq və ölkə parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə idi.

Belə bir çətin vaxtda xalqımız öz nicat yolunu Naxçıvanda yaşayan dahi şəxsiyyət Heydər Əliyevə müraciət etməkdə gördü. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 9-da Bakıya gələn Heydər Əliyev iyunun 15-də Ali Sovetin sədri seçildi. Məhz bu tarix Azərbaycan xalqının həyatında bir dönüş nöqtəsi oldu. Ulu Öndər öz iradəsi və düşünülmüş siyasəti ilə qısa zaman ərzində ölkəni öz axarına qaytardı. Ölkədə daxili sabitlik təmin edildi, Ermənistanla atəşkəs müqaviləsi imzalandı, ölkə iqtisadiyyatında yaşanan tənəzzül aradan qaldırıldı və Azərbaycan özünün davamlı inkişaf yoluna qədəm qoydu. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövr inkişaf və sabitlik illəri kimi yadda qalıb.

Əgər Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Bakıya qayıtmasaydı, ölkəni Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələr gözləyirdi. Məhz Ulu Öndərin cəsarətli addımları, xalqa, ölkəyə olan sonsuz məhəbbəti müstəqil Azərbaycanın qurtuluşunun əsası oldu. Xalq qarşısında misilsiz xidmətləri əminliklə deməyə əsas verir ki, müstəqil Azərbaycanın memarı məhz Ümummlili Lider Heydər Əliyevdir. Dahi şəxsiyyətin ən böyük arzusu isə müstəqil Azərbaycanın ərazi bütövlüyünün təmin edil-

məsi idi. Ulu Öndər bunun üçün yorulmadan çalışır, siyasətinin qayəsini ərazi bütövlüyümüzü təmin etmək təşkil edirdi.

Müstəqil Azərbaycan Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib. Prezident cənab İlham Əliyevin Ulu Öndərin siyasi kursunu hər bir sahədə uğurla həyata keçirməsi ölkəmizin davamlı inkişafına, iqtisadi cəhətdən güclü dövlətə çevrilməsinə xidmət edib. Həyata keçirilən düşünülmüş siyasət və düzgün strategiya nəticəsində torpaqlarımız düşmən tapdağından azad edilərək ərazi bütövlüyümüz təmin edilib. Bir zamanlar məcburi köçkünlərlə görüş zamanı Ulu Öndərin səsləndirdiyi və getmək arzusunda olduğu Şuşa, Laçın, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər və Ağdam bu gün öz azadlığına qovuşub və bu əzəli torpaqlarımızda sürətli bərpa-quruculuq işləri həyata keçirilir.

Təbii ki, Azərbaycanın möhtəşəm Zəfərinin və bütün bu böyük işlərin təməlində Ulu Öndər Heydər Əliyevin siyasi dəst-xətti dayanır. Bu siyasi dəst-xətti müasir dövrün tələbləri çərçivəsində həyata keçirən Prezident cənab İlham Əliyev isə Azərbaycanın gələcək təhlükəsizliyi və tərəqqisinin qarantıdır. Xalqımız da əmindir ki, qurtuluşdan başlanan yol Azərbaycanı tərəqqiyə, Zəfərə və yüksək zirvələrə aparır.

**Eldar Quliyev.** XX əsrin əvvəllərində ilk dəfə olaraq öz azadlığına qovuşaraq müstəqil dövlət kimi formalaşmağa başlayan Azərbaycan Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərə bildi. Lakin əsrin sonunda Heydər Əliyev qətiyyəti və siyasi uzaqgörənliyi ilə xalqımızın bu istəyi reallığa çevrildi. Bugünkü müstəqil və müasir Azərbaycan Respublikası xalqımızın uzun illər ürəyində yaşatdığı istiqlal istəyinin gerçək həyatda ifadəsi, onun milli mənliyinin

təcəssümüdür.

İkinci dəfə müstəqillik əldə etməsindən keçən 32 il müddətində Azərbaycan Respublikası dünyaya sübut etdir ki, o, heç kimdən asılı olmadan sərbəst yaşamaq iqtidarında olan, bəşəriyyətin bir nömrəli problemi sayılan enerji təhlükəsizliyinin təmin edilməsinə özünün layiqli töhfəsini verən və etibarlı tərəfdaş imici qazanmış bir ölkədir. Bütün bu fəaliyyətin kökündə isə məhz 1993-cü ilin 15 iyun günü dayanır. Məhz həmin gün Azərbaycan xalqının görkəmli oğlu, dünya şöhrətli ictimai və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Parlamentinə sədr seçilməsi şanlı tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Vətənini, xalqını sevən, o dövrün çətin və ağrılı günlərin dəhşətlərini yaşayan insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Belə ki, həmin vaxt Azərbaycanda xaos və özbaşınalıq tüğyan etməklə Gəncədə vətəndaş müharibəsi başlamışdı. Sənaye müəssisələri işləmir, kənd təsərrüfatı acınacaqlı vəziyyətə düşmüşdü. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı Heydər Əliyevin Naxçıvandan Bakıya, ikinci dəfə hakimiyyətə gəlməsini təkidlə tələb edirdi. Ulu Öndər məhz xalqın tələbini nəzərə alaraq, Azərbaycan Ali Sovetinin sədri seçilməyə razılıq verdi.

Ümummilli Lider həmin vaxtlar müstəqil respublikamızı düşdüyü çox ağır vəziyyətdən çıxarmaq üçün yorulmaq bilmədən gecə-gündüz çalışırdı.Yaxşı yadımdadır, Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə idarəetmədə heç bir təcrübəsi olmayan, respublikanın və xalqın taleyinə biganə olan, yalnız özlərini düşünən AXC–Müsavat cütlüyünün məsuliyyətsiz münasibəti nəticəsində ölkəmizdə digər sahələrində olduğu kimi, əhalinin ərzaq təminatında da çox acınacaqlı vəziyyət yaranmışdı. Hətta

əhalini çörəklə təmin etmək üçün cəmi 2-3 günlük ehtiyat var idi. Bu gərginliyi aradan qaldırmaq üçün məni və digər əlaqədar yoldaşları gecə saat 1-2 radələrində Prezident Aparatına çağırdılar və Heydər Əliyev bizə qonşu ölkələrdən təcili taxıl gətirmək tapşırığı verdi. Belə hallar 2-3 dəfə təkrar oldu və respublikamız Ulu Öndərin səyləri nəticəsində bu dözülməz vəziyyətdən çıxdı.

Heydər Əliyev ölkədə yaranmış xaosu və özbaşınalığı aradan qaldırmaq üçün respublikamızın şimalında və cənubunda baş qaldırmış separatizm meyllərinin qarşısını qısa bir vaxtda qətiyyətlə aldı və qeyri-qanuni silahlı qruplaşmaları ləğv etdi. Ulu Öndərin uzaqgörən siyasət və qətiyyəti sayəsində tezliklə Ermənistanla atəşkəs elan edildi və ölkəmizin böyük gələcəyi naminə "Əsrin müqaviləsi" imzalandı. Bununla da tezliklə respublikamızda sabitlik təmin edildi, iqtisadi tənəzzülə son qoyuldu və dinamik inkişaf başladı.

Ulu Öndərin dövlətin idarə olunmasında formalaşdırdığı siyasətin diqqətçəkən məqamlardan biri də bir çox vacib məsələlərin düzgün həllinə nail olmaq üçün özü yüksək intellektə malik olsa da, həmişə respublikanın ziyalıları, tanınmış dövlət və ictimai xadimləri, böyük nüfuz sahibi olan ağsaqqalları ilə məsləhətləşər, onların fikirlərini dinlədikdən sonra qərar verərdi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası da bu yolla hazırlanmışdır.

Heydər Əliyevin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin noyabrında 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbəyə gedən yol da elə Milli Qurtuluş Günündən başlamışdır.

Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əlirza

oğlu Əliyev qədirbilən xalqımız tərəfindən həmişə dərin hörmətlə yad ediləcək. 15 iyun tarixi Milli Qurtuluş Günü bayramı kimi qeyd edilərək yaddaşlara həkk olunmuşdur.

**Emin Hacıyev.** 15 iyun – Azərbaycan dövlətçiliyinin qurtuluş tarixidir. Müasir Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmaqla ölkəmizin suverenliyini, müstəqilliyini xilas etdi. Azərbaycanı siyasi böhrandan, xaosdan, vətəndaş müharibəsindən, ağır iqtisadi vəziyyətdən qurtardı. Bu tarix Azərbaycanın müstəqil dövlət kimi inkişafının başlanğıcı oldu. Ölkəmiz tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoydu. Dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınaraq, beynəlxalq aləmin bərabərhüquqlu üzvünə çevirildi. Bütün bu uğurlara dahi şəxsiyyət Heydər Əliyevin müdrikliyi, zəngin idarəetmə təcrübəsi, uzaqgörən siyasəti sayəsində nail olundu.

Təbii ki, bu inkişafı təmin etmək heç də asan deyildi. Müstəqilliyin ilk illərində AXC–Müsavat iqtidarının səriştəsizliyi, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Ölkədə yaranmış ağır ictimai-siyasi vəziyyət işğalçı Ermənistanın Azərbaycana qarşı çirkin niyyətlərinə çatmasını asanlaşdırdı. Məhz AXC–Müsavat cütlüyünün bir illik naşı hakimiyyəti torpaqlarımızın işğalı ilə nəticələndi, Şuşa, Laçın, Kəlbəcər işğal altına düşdü. Azərbaycan xalqını belə bir ağır vəziyyətdən yalnız Ulu Öndər xilas edə bilərdi və etdi. Xilaskarlıq missiyasını öz üzərinə götürən dahi şəxsiyyət tez bir zamanda Azərbaycanı parçalanmaqdan xilas etdi. Ölkədə asayiş və qayda-qanun bərqərar edildi, nizami ordu yaradıldı. Qarabağ müharibə-

sində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Ümummili Lider Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi” ilə Azərbaycana nəhəng xarici sərmayələr cəlb edildi. İri neft-qaz layihələri ölkəyə iqtisadi və siyasi güc gətirdi. Bununla da Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu. Ölkədə ilk parlament seçkiləri keçirildi və referendum yolu ilə Konstitusiya qəbul edildi.

Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi 1993–2003-cü illər Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsidir. Ümummilli Liderin siyasətinin uğurlu davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin ən sürətli inkişaf dövrünü yaşayır. Bu gün Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Bugünkü Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər, torpaqlarımızın 30 illik işğaldan azad edilməsi Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir.

Bu gün güclü, qalib Azərbaycan azad edilmiş torpaqlarımızı yenidən qurur. Sürətli bərpa-quruculuq işləri, nəhəng infrastruktur layihələri həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzurda ən yeni texnologiyalara əsaslanan müasir şəhərsalma yanaşmaları tətbiq edilir. Böyük Qayıdışa start verilərək, sakinlər uzun illər həsrət qaldığı öz doğma yurd-yuvalarına qaytarılır.

Təbii ki, bugünkü uğurlarımızın, Zəfərimizin bünövrəsi məhz 1993-cü il iyunun 15-də Ulu Öndərin siyasi hakimiyyətə qaydışı və milli qurtuluş tariximizə əsaslanır.

Artıq üçüncü ildir ki, bu şanlı tarixi ərazi bütövlüyünü bərpa etmiş, qalib dövlət kimi qeyd edirik. Azərbaycan xalqı heç vaxt Ulu Öndərin dövlətimiz qarşısında misilsiz xidmətlərini unutmayacaq. Ömrünü Azərbaycanın inkişafına həsr edən Ümummilli Lider Heydər Əliyev xalqımızın qəlbində daim yaşayacaq. Xalqımız Ulu Öndərin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir. Mən tam əminəm, nə qədər ki, Azərbaycan olacaq o qədər də Heydər Əliyev olacaq. Fürsətdən istifadə edərək, Azərbaycan xalqını 15 iyun – Milli Qurtuluş Günü münasibəti ilə təbrik edirəm. Bayramınız mübarək

**Əziz Ələkbərov.** Bu gün tarixi bir gündür və Ulu Öndər Heydər Əliyev haqqında söz demək qürurvericidir. Çünki Ulu Öndər Heydər Əliyev təkcə XX yüzil yox, bütün dövrlər üçün Azərbaycan tarixinin ən böyük şəxsiyyətlərindəndir. Azərbaycan tarixinin tarix yaradan dahi şəxsiyyətlərindəndir.

İstər hakimiyyətinin birinci dövründə, istərsə də ikinci dövründə Azərbaycanın elə taleyüklü məsələsi yoxdur ki, Ulu Öndər həmin məsələ ilə bağlı öz iradəsini ortaya qoymamış olsun. O, Azərbaycan xalqının və Azərbaycan dövlətinin mənafeyi üçün mümkün olan hər şeyi edib.

Ulu Öndər Heydər Əliyevin fəaliyyəti çoxşaxəlidir. Şübhəsiz ki, o, ilk növbədə böyük dövlət və siyasət adamıdır. Onun taleyinə iki dəfə Azərbaycanda hakimiyyətə gəlmək düşüb. İkisində də sələflərindən dağılmış, iqtisadi cəhətdən uçuruma yuvarlanmış, sosial-mənəvi böhrana sürüklənmiş bir ölkəni miras alıb və onu qısa müddətdə inkişaf etmiş bir ölkəyə çevirib.

Amma bütün bunlarla yanaşı, Ulu Öndər Heydər

Əliyev XX yüzil Azərbaycan tarixinin ən milli lideridir. Onun Azərbaycanda milli düşüncənin formalaşmasında misilsiz xidmətləri var. Hələ sovet dövründə elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinə yüksək qayğı və diqqəti, milli ideyaları təbliğ edən əsərlərə yaşıl işıq yandırması, belə əsərlərin müəlliflərini qoruması, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırması, milli kadr hazırlığını və dövlət qurumlarında, xüsusi ilə hüquq mühafizə və təhlükəsizlik orqanlarında azərbaycanlı kadrları irəli çəkməsi bunun əyani sübutudur.

Ulu Öndəri sələflərindən fərqləndirən əsas cəhət onun Azərbaycan xalqının Ümummilli Lideri olmasıdır. Ulu Öndər Heydər Əliyevin Ümummilli Lider olmasını şərtləndirən cəhətlərdən biri də odur ki, o, heç vaxt fəaliyyətini rəhbərlik etdiyi respublikanın sərhədləri ilə məhdudlaşdırmayıb. O, dünyanın harasında yaşamasından asılı olmayaraq, həmişə hər bir azərbaycanlını, onların problemlərini daim diqqət mərkəzində saxlayıb. Bu, vaxtı ilə Qərbi Azərbaycanda – indiki Ermənistan Respublikası ərazisində yaşamış soydaşlarımıza da eyni dərəcədə aiddir.

Ulu Öndər Heydər Əliyev Qərbi Azərbaycan torpaqlarını, Qərbi Azərbaycanda soydaşlarımızın minillər boyu yaratmış olduğu mədəni irs nümunələrini, o torpaqlardan çıxmış böyük şəxsiyyətləri hər fürsətdə xatırlatmaqla millətin yaddaşını təzələyir, soydaşlarımıza ermənilərin içində öz milli kimliyini qorumaq, milli dəyərlərini inkişaf etdirmək üçün güc, qüvvət verirdi.

1972-ci ildə Azərbaycan aşıq sənətinin zirvəsi olan Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi, həm də nəinki Bakıda və Moskvada keçirilməsi, həmçinin Ermənistan rəhbərliyinin Ermənistanda bu yubileyi keçirmək məcburiyyətində qoyulması, Aşıq Ələsgərin Göyçə maha-

lının Basarkeçər rayonunun Ağkilsə kəndində məzarı üstündə abidəsinin ucaldılması o dövr üçün çox böyük hadisə idi. Bu, Qərbi Azərbaycanda xalqımıza qarşı yüzillər boyu etnik təmizləmə siyasəti yeridən ermənilərə ciddi bir mesaj idi. Bu, təkcə ədəbi-mədəni hadisə deyil, həm də siyasi məsələ idi, bu torpaqların tarixi Azərbaycan torpaqları olmasının mesajı idi. Bu, cənab Prezident İlham Əliyev tərəfindən bugün xeyir-dua verilən və Qərbi Azərbaycan İcması tərəfindən uğurla həyata keçirilən Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının təməli idi.

Bu gün biz fəxr edirik ki, Ulu Öndər Heydər Əliyevin siyasi xətti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir, arzuları həyata keçirilir. Bunu cənab Prezidentin Aşıq Ələsgərlə bağlı bir ildə iki fərman – 2021-ci il fevralın 18-də Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, 2021-ci il noyabrın 30-da isə Bakı şəhərində heykəlinin ucaldılması barədə Sərəncam imzalaması da təsdiq edir. Bunun ardınca İrəvan Müəllimlər Seminariyasının və İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illik yubileylərinin keçirilməsi ilə bağlı sərəncamlar da tarixi torpaqlarımıza Böyük Qayıdışın ilk addımlarıdır.

Biz bu gün – Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi günlərində onun xalqımız qarşısında tarixi xidmətlərini bir daha xatırlayır və əziz xatirəsini sonsuz minnətdarlıqla yad edirik.

**İltizam Yusifov.** Bu gün hər birimiz, bütün Azərbaycan əlamətdar, əzəmətli, şərəfli və tarixi günlər yaşayır. Böyük azərbaycanlı, hər birimizi azərbaycançılıq ideyaları ətrafında birləşdirəm dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi və qurtuluşumuzun 30 illiyi.

15 iyun – Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti,

onun müasir Azərbaycanın tarixində oynadığı əhəmiyyətli rolu barədə çox deyilib və Azərbaycan dövləti var olduqca da Milli Qurtuluş Gününün dövlətçiliyimizin var olması, zəfərlər əldə etməsindəki rolundan hələ çox danışılacaq.

2020-ci il 8 Noyabr Zəfər günü müasir Azərbaycan tarixinə necə qızıl hərflərlə yazılıbsa, 15 İyun – Milli Qurtuluş Günü də Azərbaycan dövlətçilik tarixində eyni qaydada yadda qalacaq.

2020-ci il 8 noyabr Zəfərinə gedən yol məhz 15 iyun – Milli Qurtuluş Günündən başlayır. Məhz həmin tarixdən Azərbaycanın müdrik, uzaqgörən, böyük dövlət xadimi və xilaskarı Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində dövlətimiz məhvolma təhlükəsindən xilas olaraq bir dövlət kimi varlığını qoruyub saxlaya bildi. Ulu Öndərin mahir sərkərdəlik, fitri dövlətçilik qabliyyəti nəticəsində məhvolma mərhələsində olan Azərbaycan bütün bu fəlakətlərdən qurtularaq, dövlət təhlükəsizliyini təmin etdi və ən qısa zamanda sürətli inkişaf mərhələsinə qədəm qoydu.

Ulu Öndərin Azərbaycan dövlətçiliyini xilas etməsini bir neçə mərhələyə bölmək olar. Birincisi, Azərbaycanın müstəqilliyinə olan təhlükəni aradan qaldırıb, onun inkişaf strategiyasının əsasını müəyyən etmək. Ulu Öndərin 1993–1995-ci illərdəki gərgin əməyi nəticəsində istər ölkə daxilində, istərsə də ölkə xaricindən Azərbaycanın müstəqilliyinə və suverenliyinə təhdid yaradan siyasi və hərbi amillər aradan qaldırıldı. Ölkə daxilindəki siyasi proseslərin normal məcraya yönəlməsinə nail olundu.

İkincisi, Azərbaycanın müstəqilliyinə və suverenliyinə olan təhdidlərin qarşısının daha etibarlı alınmasının təmin edilməsi istiqamətində atılan addımlar. Belə ki, Ulu Öndər Azərbaycanın enerji resurslarının verdiyi imkanlardan istifadə edərək beynəlxalq aləmin və böyük korporasi-

yaların ölkəmizə diqqətini cəb etməklə beynəlxalq səviyyədə dövlətçiliyimizə olan təhdidləri zərərsizləşdirə bildi. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın sürətli inkişaf strategiyasının bünövrəsini qoymaqla yanaşı, Azərbaycanın suverenliyinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan çox mühüm tarixi addım oldu.

Bununla paralel olaraq ölkə daxilində genişmiqyaslı iqtisadi və sosial islahatlar həyata keçirilməyə başlandı. Ulu Öndərin genişmiqyaslı siyasi, təhlükəsizlik, iqtisadi, ordunun yenidən qurulması istiqamətdə yürütdüyü siyasət, ən qısa zamanda öz bəhrəsini verməyə başladı. Bunun nəticəsində Azərbaycan sürətli iqtisadi inkişaf mərhələsinə qədəm qoymağa başladı. Azərbaycanın iqitsadi qüdrəti artıqca qarşısında duran problemlərin həll olunub, hədəflərə nail olunması üçün yeni imkanlar yarandı. Bu, eyni zamanda, Azərbaycanın Qarabağ münaqişəsi istiqamətində aparılan danışıqlar prosesində mövqeyin gücləndirilməsində və nəhayət problemin həll olunmasında mühüm amilə çevrildi. Bünövrəsi Ulu Öndər tərəfindən qoyulan siyasətin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan qarşısındakı problemləri həll edərək hədəflərinə nail oldu.

Ulu Öndərin siyasi irsinin layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan sıçrayışlı inkişaf mərəhələsinə qədəm qoydu. Azərbaycan təkcə iqtisadi cəhətdən deyil, eyni zamanda, beynəlxalq aləmdə nüfuzlu və hesablaşılan bir dövlətə, o cümlədən dünyanın ən güclü ordularından birinə malik dövlətə çevrildi. İkinci Qarabağ savaşından sonra Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradaraq dünyanın ciddi aktorlarından birinə çevrilməkdədir. Azərbaycan işağaldan azad olunan torpaqlarında heç bir beynəlxalq

maliyyə institutundan maliyyə dəstəyi almadan öz maliyyə resursları hesabına sürətli tikinti, bərpa-quruculuq işlərini həyata keçirməkdədir. Azərbaycan Ordusunun daha da güclənməsi istiqamətində ciddi addımlar atılır.

Azərbaycan–Türkiyə tandemi isə ölkəmizin gücünə əlavə güc qatmaqdadır. İki qardaş ölkə arasında imzalanan Şuşa Bəyannaməsi bu müttəfiqlik münasibətlərini yeni bir inkişaf mərhələsinə daşımaqdadır. Qarşıda bizi daha ciddi işlər gözləyir. Bu, istər türk dünyası, istərsə də digər regional əməkdaşlıq baxımdan birgə addımlar atmağa və hədəflərə nail olmağa imkan yaradacaq.

44 günlük Vətən müharibəsindəki tarixi qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə, regionun inkişafında yeni mərhələnin, sülh quruculuğunun və sabitliyin başlanğıcı oldu. Bu gün Qarabağ və Şərqi Zəngəzur müasir tələblərə uyğun olaraq, yenidən qurulur. Soydaşlarımızın torpaq həsrətinə son qoyulur. Böyük Qayıdış proqramı mərhələli, xüsusi düşünülmüş proqram əsasında həyata keçirilir. Dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın xilaskarı kimi adını tarixə qızıl hərflərlə yazdırmaqla Ümummilli Liderin 2003-cü ildə xalqa tarixi müraciətində ona göstərilən inamı və etimadı doğrultdu, dahi şəxsiyyətin vəsiyyətini yerinə yetirdi.

Əminliklə deyə bilərik ki, qalib Azərbaycan bundan sonra da Heydər Əliyev yolu ilə yeni zəfərlərə doğru irəliləyəcək. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

**Jalə Əliyeva.** Çıxışıma başlamazdan əvvəl, bir az bundan öncə izlədiyimiz, ideya müəllifi hörmətli Sahibə

xanım Qafarova olan möhtəşəm film üçün başda xanım sədr olmaqla, bütün yaradıcı heyətə təşəkkür edirəm.

Azərbaycan mütəfəkkiri Məhəmməd Hadi 1908-ci ildə "İttifaq" qəzetində çap etdirdiyi "Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar" şeirində böyük bir təəssüf hissi ilə deyirdi ki, "Yox millətimin xətti bu imzalar içində". Məhəmməd Hadi bu misraları yazarkən təbii olaraq bilmirdi ki, cəmi 15 il keçəcək, qədim Azərbaycan torpağı Naxçıvanda bir oğlan uşağı dünyaya gələcək, onun adını Heydər qoyacaqlar. Məhəmməd Hadi bunu da bilmirdi ki, bu oğlan uşağı böyüyüb, elə bir dühaya çevriləcək ki, ölkəsinin, xalqının adını bütün dünyaya duyurmuş olacaq, ölkəsinin, xalqının varlığını dünyaya təsdiq etdirəcək. Millətinin xəttini imzalar içində var edəcək!

Bəli, Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə ərsəyə gətirdiyi və dünyaya bəxş etdiyi, əslində isə, Tanrının bizə lütf etdiyi dahidir və belə dahilər hər zaman doğulmurlar.

İngilis filosofu K.Tomas deyir ki, "dünyada elə oğullar var ki, xalqlar onun şöhrətinin arxasında gəlirlər və belə oğulların sayı çox deyil". Bəli, belə nadir oğullardan birini Tanrı məhz Azərbaycan xalqına bəxş edib. Ulu Öndər tarixçi idi, amma daxilindəki memarlıq ruhu, yaradıcılıq eşqi ilə Azərbaycanımızın qurucusuna, xalqımızın xilaskarına çevrildi.

Bu günlərdə onun dünyaya gəlişinin yüzüncü ildönümünü böyük bir məhəbbət və fəxarətlə qeyd edirik. Onu, sadəcə, doğum və ölüm günündə deyil, hər an, hər saat minnətdarlıqla anırıq. Təbii ki, dünya durduqca, müstəqil Azərbaycanımız durduqca, qədirbilən xalqımız durduqca onu heç vaxt unutmayacaq, onun xatirəsinin işığına toplaşacaq, ona minnətdar olacağıq.

Əslində, düşünürəm ki, onun şəxsiyyətinin ölçüsü bizə göründüyündən, bizim onun üçün etmək istədiklərimizdən daha böyükdür və heç şübhəsiz ki, illər keçdikcə biz onun nəhəngliyini daha dərindən anlayacağıq. Əminik ki, bu ölkə Heydər Əliyevin onu bizə əmanət etdiyi kimi qalacaqdır – bütöv və sabit, demokratik və sivil, dünya birliyində layiqli yer tutmuş bir ölkə kimi.

Ulu Öndərin özünün də dediyi kimi, dostu və qardaşı Süleyman Dəmirəl yazır ki, “Mən Heydər Əliyevlə Naxçıvanda olarkən ondan Azərbaycana niyə gəldiyini soruşdum. O dedi: “Mən doğulduğum yerdə xalqıma xidmət etmək istədim. Başqa yerdə bunu edə bilməzdim”.

Bəli, o, xalqına xidmət etmək üçün ömrünün qalan hissəsini də xalqına bağışladı. O deyirdi ki, “mən fəxr edirəm ki, azərbaycanlıyam”. Ən böyük azərbaycanlı olan Heydər Əliyev bizə müstəqil Azərbaycanı bəxş etdi. Bizə azərbaycançılıq ideyasını hədiyyə etdi. O, son nəfəsinə qədər nə etdisə, ölkəsi üçün, vətəni üçün, xalqı üçün etdi.

Ötən illər ərzində və elə bu gün də əldə etdiyimiz bütün uğurların təməlində məhz Heydər Əliyev uzaqgörənliyi, Heydər Əliyev dühası, Heydər Əliyev ideyaları və idealları dayanır.

2020-ci ildə xilaskar Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri yazıldı. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə nəticəsində Qarabağ işğaldan azad edildi. Bu tarixi Zəfər Prezident İlham Əliyevin müdrik siyasəti, güclü iradəsi, beynəlxalq təzyiqləri layiqincə dəf etməsi, rəşadətli ordumuzun misilsiz şücaəti və Azərbaycan xalqının öz lideri ətrafında yumruq kimi birləşməsi nəticəsində qazanıldı. Qarabağı düşmən işğalından azad etməklə Prezident İlham Əliyev

Ulu Öndərin də ən böyük arzusunu, vəsiyyətini həyata keçirmiş oldu.

Biz artıq Qarabağlı Azərbaycanıq. İndi artıq yolumuz Zəngəzuradır, bütün tarixi torpaqlarımızadır. Biz düşmən tərəfindən dağıdılan, məhv edilən torpaqlarımızı qarış-qarış yenidən qururuq. Torpaqlarımızı yenidən cənnətə çeviririk. Bütövləşirik! Bütöv Azərbaycanı yaradırıq. Allah bu yolda da hər zaman olduğu kimi, yar və yardımçımız olsun! Tanrı xalqımızı, ordumuzu, Prezidentimizi, Azərbaycanımızı qorusun!

Heydər Əliyev ideyaları və idealları hər zaman bizimlədir!

**Kamaləddin Qafarov.** 1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə dönüşü və iyunun 15-də respublika Ali Sovetinin sədri vəzifəsinə seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Buna görə də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan 15 iyun Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Ulu Öndər illər sonra həmin günləri belə xatırlayırdı: "Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".

Müstəqilliyin ilk illərində ölkəmizin üzləşdiyi ciddi iqtisadi problemlər qarşısıalınmaz xaotik proseslərin başlanmasına yol açmışdı. Bu vəziyyət isə respublikada hakimiyyəti ələ keçirmiş səriştəsiz və məsuliyyətsiz qrupların dağıdıcı fəaliyyətləri nəticəsində ölkəni cəmi 2 il ərzində siyasi böhrana gətirib çıxarmışdı. Vətəndaş mü-

haribəsi, ölkənin bir neçə marionet dövlətlərə parçalanması və Azərbaycanın vahid suveren ölkə olaraq dünyanın siyasi xəritəsindən silinməsi bizi gözləyən ən yaxın perspektivlər idi. Belə bir ağır məqamda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar edə bilərdi və bunu etdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtardı. Məhz Heydər Əliyev dühası Azərbaycan xalqının parçalanması, Azərbaycan dövlətçiliyinin məhvi, Azərbaycan iqtisadiyyatının dağılması proseslərini dayandırmağa nail oldu. Ümummilli Liderin hakimiyyətə qayıdışı xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Bununla da Azərbaycanda uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusi əhəmiyyətə malik oldu.

Ümummilli Lider Heydər Əliyevin istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə xalqın rifah halının yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülmüşdür. 70 il ərzində keçmiş SSRİ-nin tərkibində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meylləri ilə qarşı-qarşıya idi. Bu tənəzzülün əsasında ayrı-ayrı sahələrdə idarəetmənin düzgün təşkil edilməməsi, o cümlədən mövcud potensialdan səmərəli istifadə olunmaması kimi səbəblər dururdu. 1969-cu ilin iyulunda Heydər Əliyevin

Azərbaycana rəhbər seçilməsindən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən əsas strateji amil oldu. Məhz həmin tarixdən – Ulu Öndərin ilk dəfə siyasi hakimiyyətə gəldiyi gündən Azərbaycanın həqiqi inkişafı başladı. Bu işlərə paralel olaraq, respublikamızda milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. 1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq məhz Azərbaycan SSR-in Konstitusiyasına “Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir” maddəsi daxil edildi. Siyasi-ideoloji müstəvidə görülən işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar idi. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi liseyin yaradılması isə peşəkar milli hərbiçilərimizin yetişməsində mühüm amil oldu. Heydər Əliyevin bu uzaqgörən qərarı gələcəyə hesablanmışdı və müstəqil Azərbaycanın ordu quruculuğunda həmin lisey mühüm faktor oldu. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşan Azərbaycan zabitlərinin bir qismi  məhz həmin liseyin yetirmələri oldular.

Ölkə Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində də Azərbaycan hərtərəfli və sürətli inkişaf mərhələsini yaşayır. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib. Çoxşaxəli, tarazlaşdırılmış, milli maraqlara əsaslanan xarici siyasət kursuna malik olan Azərbay-

can artıq uzun müddətdir ki, Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində dünyada və Avropada etibarlı tərəfdaş və nüfuzlu söz sahibi kimi tanınır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara  müvafiq surətdə reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb.

Ən mühüm məqam isə budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə davam etdirən ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin yazdıgı Zəfər salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu gün Ulu Öndərin görmək istədiyi güclü, qüdrətli, nüfuzlu və qalib Azərbaycan öz uğurlarını Heydər Əliyev İlində də davam etdirir. Xalqımız 1993-cü il iyunun 15-də  ümidlə qədəm qoyduğu qurtuluş və nicat yolu ilə bu gün tarixi zəfərlərə, möhtəşəm qələbələrə doğru inamla irəliləyir.

**Könül Nurullayeva.** 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı əsl xilaskarlıq missiyası idi. Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır.  Bu tarixi qurtuluş sayəsində Azərbaycan tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxdı, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət

kimi tanındı, beynəlxalq aləmdə layiqli yer tutdu. Ümumilli Liderin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri Azərbaycan dövlətçiliyini xilas etməsində idi.

Ulu Öndər məhz 1993-cü il iyunun 15-də bəyan etmişdir ki, məqsədimiz Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət qurmaqdır və biz bu yol ilə gedirik. Müstəqil Azərbaycan məhz bu doğru və uğurlu yolla addımladığı üçün beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tuta bildi. Bütün dövrlərdə Azərbaycanın müstəqilliyi Ulu Öndər Heydər Əliyev üçün ən prioritet məsələ idi.

Hər zaman xalqın etimadından əlavə güc aldığını deyirdi. Təbii ki, xalqın bu dahi şəxsiyyətə sarsılmaz inamı, dəstəyi səbəbsiz deyildi. Xalqımız Heydər Əliyevin vətəninə sonsuz və təmənnasız sevgisini hər zaman hiss edirdi və bunu yüksək qiymətləndirirdi.

“Mən bütün təxribatların, terrorun qabağında durmuşam və duracağam. Azərbaycanın müstəqilliyini qorumuşam, qoruyacağam. Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq” deyirdi Ulu Öndər. O, bütün ömrünü Azərbaycanın dayanıqlı inkişafına, xalqımızın rifahına, müstəqilliyimizin əbədiliyinə və dönməzliyinə həsr etdi. Zaman keçdikcə biz Ulu Öndərin şəxsiyyətinin ucalığını, dövlətimiz üçün müəyyən etdiyi siyasi kursun və inkişaf yolunun əzəmətini daha dərindən anlayırıq. İstər sovetlər dönəmində, istərsə də müstəqillik illərində Heydər Əliyevin müəllifliyi ilə qazanılan hər bir uğur tariximizin şərəfli səhifələridir. Azərbaycan xalqı Heydər Əliyevlə bütün dövrlərdə qürur duyub.

Bu gün müzəffər Ali Baş Komandan Prezident İlham

Əliyevin rəhbərliyi ilə xalqımızın nail olduğu hər bir uğur həm də Heydər Əliyev ideyalarının reallaşmasıdır. Müstəqil Azərbaycan Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib. Ümummilli Liderin ən böyük arzusu Azərbaycanı azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş dövlət kimi görmək idi. Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət həm Azərbaycanın inkişafında, milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını şərtləndirib.

Təsadüfi deyil ki, məhz dayanıqlı inkişaf nəticə etibarı ilə torpaqlarımızın işğaldan azad olunmasını da uğurla təmin etdi. Regionun ən güclü ordusuna çevrilən Azərbaycan Silahlı Qüvvələri Ermənistanın işğal siyasətinə son qoydu, tarixi ədaləti və ərazi bütövlüyümüzü bərpa etdi. 30 illik işğala 44 gündə son qoyuldu. Yəni Azərbaycan beynəlxalq hüququ özü öz gücü hesabına təmin etdi.

Ən böyük vətənpərvər kimi Ulu Öndər Heydər Əliyev hər zaman deyirdi: “Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik. Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, xalqımızı, dilimizi, dinimizi, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcək və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcək”. Bu gün

tam əminliklə deyə bilərik ki, məhz Ulu Öndərin arzuladığı vətənpərvər gənc nəsil yetişib. Tarixi Qələbəmizin əldə olunmasında heç şübhəsiz, müasir gəncliyin vətənpərvər ruhda formalaşması da birbaşa rol oynadı.

Müstəqilliyin ilk illəri kifayət qədər mürəkkəb dövr idi və müxtəlif istiqamətlərdən gəncləri təsir altına salma cəhdləri xüsusi ilə təhlükə yaradırdı. Bu baxımdan düzgün gənclər siyasəti reallaşdırmaq, gəncləri dövlətçilik və milli maraqlar ətrafında birləşdirmək olduqca vacib idi. Gəncləri Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər bu istiqamətdə də bütün təhlükələrin qarşısını aldı. Azərbaycan gəncinin vətənpərvər ruhda, milli-mənəvi dəyərlərə bağlı formalaşması təmin olundu. Təsadüfi deyil ki, gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması, ərazi bütövlüyü məsələsində Ali Baş Komandandan götürülən nümunələr 44 günlük müharibədə həlledici rol oynadı. Vətən müharibəsində əsas missiyanı Ümummilli Lider Heydər Əliyevin siyasi irsi, azərbaycançılıq ideologiyasının təsiri altında, Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdi. Prezident İlham Əliyevin də söylədiyi kimi, “Döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti 2003-cü ildə uşaq olan insanlar idi. Onlar yetişdi, “öldü var, döndü yoxdur” deyərək vətənin azadlığı uğrunda canlarından keçdilər, şəhid oldular, qazi oldular və tarixi ədaləti bərpa etdilər”! Beləliklə, Ümumilli Liderin də ən böyük arzusunu yerinə yetirmiş oldular.

2020-ci il 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad edilməsi bir daha Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun təntənəsi kimi şərəfli tariximizə həkk olundu. Milli Qurtuluş Günü ərəfəsində müstəqil Azərbaycanın memarı, Ümumilli Lider Heydər

Əliyevin əziz xatirəsini bir daha dərin ehtiramla anırıq.

Biz gənclər bizə əmanət olan bu dövləti, bu vətəni göz bəbəyimiz kimi qorumalı, onun müstəqilliyinin əbədi və dönməzliyi naminə daim səfərbər olmalıyıq.

**Malik Həsənov.** XX əsr dünyaya bir çox dövlət xadimləri, təcrübəli, əzmli, görkəmli liderlər, son dərəcə qabiliyyətli dövlət liderləri bəxş etmişdir. Tarixdə dərin iz qoyan dahi şəxsiyyətlər xalqın, millətin düşüncələrinə əbədi şəkildə həkk olunurlar. Onların əsasını və miras qoyduqları irs millətlərin gələcəyinə doğan günəş, gələcək tarixlərini və dünyadakı mövqelərini müəyyənləşdirən amil olmuşdur. Azərbaycan xalqının unudulmaz lideri Heydər Əliyev də bu görkəmli dövlət başçılarından, dahi şəxsiyyətlərdən, bütün həyatını xalqının, millətinin gələcəyinə, müstəqilliyinin əldə edilməsinə həsr edən şəxsiyyətlərdən biridir. Dahi bəstəkar Üzeyir Hacıbəyov söyləyirdi: “Bəşər tarixində elə şəxslər var ki, onlar tək özləri üçün yox, bütün xalqın, bəlkə də bütün bəşəriyyətin xoşbəxtliyi və çiçəklənməsi naminə həyata gəliblər”. Bu ifadələri, bütövlüklə, Ulu Öndərimiz Heydər Əliyevə şamil etmək olar.

Bu dahi şəxsiyyətin düşüncələri daima yaşayır, zəfər çalır və xalqımıza yeni zəfərlər bəxş edir. Heydər Əliyev əmanəti Azərbaycan xalqının mənəvi irs xəzinəsində özünəməxsus mövqeyə sahibdir. Zaman öz ritmi ilə ötüb keçsə də, minilliklər ərzində xalqımız və dövlətimiz tarixin çətin və qəfil imtahanları ilə üzləşdiyi zamanlarda mövcud vəziyyətdən ən doğru çıxış yolunu Heydər Əliyev irsində axtarıb tapmışdır. Hər bir xalqın dövlətçilik irsinə sahib olması üçün əlverişli siyasi şərait, elm, təhsil istiqamətində qüdrətli idarəçilik qabiliyyətinə malik olan, vətənpərvərlik duyğuları hər şeydən öncə gələn liderə sahib olmaları ən vacib şərtdir.

XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi ən qüdrətli dahi şəxsiyyət Ümummili Lider Heydər Əliyev belə görkəmli dövlət xadimlərindən olmuşdur.

Heydər Əliyev 1923-cü il 10 may tarixində Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya göz açmışdır. O, yarım əsrdən artıq zəngin idarəçilik təcrübəsinə malik olan, müxtəlif xarakterli və səviyyəli idarəçilik sistemlərinin bütün incəliklərinə bələd olan, polad iradə sahibi idi. Müasir Azərbaycan tarixinin güclü şəxsiyyəti Heydər Əliyevin siyasi obrazı dövlətçilik iradəmizin, tarixin ən qalmaqallı imtahanlarından müvəffəqiyyətlə çıxan idarəçilik irsinin, müasir siyasi düşüncələrin canlı göstəricisidir. Milli özünüdərkin pik zirvədə olan, Azərbaycan xalqının yeni tarix səhifələrindəki müstəqil dövlət siyasi ifadəsi Heydər Əliyev adı ilə əlaqəlidir. Xalqımız daima arzusunda olduğu, əldə etməyə çalışdığı müstəqilliyə, dövlətçilik ənənələrinə Heydər Əliyevin vətənpərvər fəaliyyətləri nəticəsində nail olmuşdur.

Heydər Əliyevin Ümumilli Lider, dahi şəxsiyyət kimi anılmasının ən başlıca səbəbi onun bütün siyasi vəziyyətlərdə xalqının, millətinin, dövlətinin üzləşdiyi çətinliklərə laqeyd qalmayaraq, əzmlə mübarizə aparması olmuşdur. Heydər Əliyevin idarəçiliyinin ilk günlərindən qəbul etdiyi qərarlar, reallaşdırdığı islahatlar onun xalqına, millətinə, dövlətinə dərin hisslər ilə bağlı bir lider olmasının parlaq bir nümunəsidir. Ən diqqətçəkən, təqdir edilən məsələlərdən biri də odur ki, SSRİ təhlükəsizlik sistemində mülki işçi kimi fəaliyyətə başlayaraq, lakin rəhbər vəzifəyə kimi ucalan ilk azərbaycanlı şəxsiyyət Heydər Əliyev olmuşdur. Sovet rejminin sərt qaydalarına rəğmən, 1969-cu ildən Azərbaycana rəhbərlik edən Heydər Əliyev ölkəmizdə iqtisadi, elmi canlanmalar ilə yanaşı, mədəni

təfəkkürə və müstəqillik ideyalarının dirçəlməsinə təkan vermişdir. Ümummilli Liderin repressiya qurbanlarına bəraət verilməsinə dair reallaşdırdığı işlər xalqımızın milli məfkurəsinin qüvvətlənməsinə xidmət etmişdir.

Heydər Əliyevin Azərbaycanı idarə etdiyi birinci tarixi dövrə nəzər salsaq, ən çox diqqətçəkən məqam milli özünüdərkin tərəqqisi, xalqın tarixi keçmişinin, tarixi yaddaşının özünə geri qaytarılması olmuşdur. Məhz bu zamandan başlayaraq Azərbaycan tarixçiləri tərəfindən şanlı tariximizin əvvəlki dövrləri obyektiv bir şəkildə araşdırılmağa və qələmə alınmağa başlanılmışdır. Eyni zamanda, dövlət rəmzlərinə və atributlarına dərin bir həssalıq ilə yanaşan Heydər Əliyev Azərbaycan SSRİ-nin yeni konstitusiyası qəbul edilərkən bu ali sənəddə Azərbaycan dilinin rəsmi dil kimi göstərilməsinə nail olmuşdur. 1978-ci ildə Azərbaycan SSRİ-nin Konstitusiya layihəsi hazırlanaraq müzakirəyə verilmiş və müzakirələr yekunlaşdıqdan sonra ölkənin Ali Sovetinin sessiyasında Konstitusiya Komissiyasının sədri Heydər Əliyevin "Azərbaycan Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" çıxışında ən vacib məqamlardan biri də əsas qanunun təməl prinsipləri sırasında respublikanın milli, tarixi xüsusiyyətləri ilə paralel, Azərbaycan dilinin dövlət dili statusunun alması idi. Konstitusiyanın 73-cü maddəsində yazılırdı: "Azərbaycan Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

Xalqımızın vətənpərvər oğlunun sovet dönəmində Azərbaycan üçün reallaşdırdığı bütün fəaliyyətləri parlaq gələcək üçün planlaşdırılmışdı. Bu fəaliyyətlər müstəqil Azərbaycan Respublikası qurulduqdan sonra onun əsas dayaq sütünları olaraq öz nəticəsini göstərmişdir. XX əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin idarəçiliyi ilə

ölkə ərazisində kütləvi şəkildə reallaşdırılan islahatlar nəticəsində iqtisadi inkişafın təkmilləşməsi, həyat şəraitinin yaxşılaşdırılması və milli oyanış gələcək müstəqilliyin carçısı idi. XX əsrin 90-cı illərində müstəqil Azərbaycan Respublikasını yaratmaq kimi çətin və bir o qədər də məsuliyyətli olan bu vəzifənin öhdəsindən Heydər Əliyev layiqincə gəlmişdir.

Müstəqilliyimizi bərpa etsək də müstəqilliyin ilk zamanlarında xalqımız tarixin çətin günləri ilə üzləşmiş və bu günlər Heydər Əliyevin sayəsində geridə qalmış və xalqımız öz rifahına qovuşmuşdur. Müstəqilliyimizin bərpasının 1991–1993-cü illər zaman çərçivəsi xaosun, anarxiyanın, siyasi hərc-mərcliyin, dövlətin parçalanma riskinin artdığı məşəqqətli günlər kimi tarixə düşmüşdür. Xalq müstəqil Azərbaycan Respublikasının vətəndaşı olmaq sevincini yaşamaqdan öncə Dağlıq Qarabağ problemi ilə üz-üzə qalmışdır. Sənəd üzərində reallaşdırılan bu müstəqilliyi dövlətin mövcudluğu ilə qüvvətləndirmək xalqımızın və dövlətimizin qarşısında duran ali bir vəzifə idi. 1993-cü ilin may-iyun aylarında hökümət böhranının son həddə çataraq kəskinləşməsi ilə əlaqədar vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi ilə qarşı-qarşıya durduqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gəlməsi tələbləri ilə çıxış etməyə başlamışdı. Azərbaycan xalqı yaşadıqları bu çıxılmaz vəziyyətin qarşısını almaq, mövcud problemləri dəf etmək üçün Heydər Əliyevin hakimiyyətə gəlməsini israrla tələb etmiş və öz müqəddəratlarını Heydər Əliyevə etibar etmişdir. Xalqının belə çətin günündə onu tək qoymayan Heydər Əliyev bu israrlı dəvət təklifini qəbul etmişdir. Xalq Heydər Əliyevin bu geri dönüşünü coşqu, fərəh və qürur hissi ilə qarşılamışdır. Azad Azərbaycan tarixində bu gün

xalqın Milli Qurtuluş Günü kimi öz imzasını qoymuş və bu gün Milli Qurtuluş Günü kimi qeyd edilməkdədir.

Xalqın yekdilliklə səsverməsi nəticəsində 1993-cü il 3 oktyabr tarixində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Heydər Əliyevin 1993-cü ildə Azərbaycan hakimiyyətinə geri dönməsi ilə ölkənin ictimai-siyasi, iqtisadi həyatında, elm və mədəniyyət sahəsində canlanma, dirçəliş, inkişaf başlamışdır. O, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan dövlət idarəetmə və qurulucuq işlərinə təkan vermişdir. Heydər Əliyevin Azərbaycan idarəçiliyinə geri dönüşü ilə dövlətçilik, müstəqillik, ədalətlilik, dünyəvilik kimi ideyologiyaların təməli qoyulmuşdur. Heydər Əliyevin hüquqi və demokratik dövlət quruculuğuna yönəlmiş siyasəti nəticəsində dövlətimizdə insan hüquq və azadlıqları əsas konsepsiyaya çevrilmişdir. Heydər Əliyevin xarici siyasəti nəticəsində respublikamız dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar ilə əlaqələr artan xətt üzrə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasətinin özəyini sülh, beynəlxalq hüquq normaları, sərhədlərin bütövlüyü və toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı əməkdaşlıq konsepsiyaları təşkil edirdi.

Heydər Əliyevin reallaşdırdığı tədbirlər nəticəsində Milli Ordumuzun qurulması, silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdəfiəsi ilə əlaqədar vacib addımlar atılmışdır. Məhz 1994-cü ildə atəşkəs rejiminin əldə olunması da Heydər Əliyevin siyasi və diplomatik tədbirlərinin nəticəsidir. Müstəqil Azərbaycanın dövlətçiliyi üçün təhlükə yaradan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişlərinin qarşısı Heydər Əliyev tərəfindən uğurla alınmış və müstəqilliyimiz toxunulmaz olaraq qorunub saxlanılmışdır.

Bugünkü müstəqil Azərbaycan Respublikası bizə Ulu Öndər Heydər Əliyevin əmanətidir və bu əmanətə cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız tərəfindən sahib çıxılır. Bu gün çağdaş dünyada respublikamız Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin müstəqil dövlətçilik düşüncələrinin şüarları ilə və Prezident İlham Əliyevin əzmli dövlət quruculuğu, yaradıcılıq təfəkkürünün həqiqi və heyrətamiz nəticələri əsasında davamlı inkişafa sahib olan müstəqil bir dövlət kimi tanınmaqdadır. Davamlı inkişaf Azərbaycan xalqının və respublikasının qarşısına qoyduğu hədəflərə nail olmasına şərait yaradır və bundan da böyük inkişaf yolları açır.

**Məlahət İbrahimqızı**. Milli qurtuluşa aparan yol baş verənləri gözlərimiz önündə canlandırır və bizi tariximizi vərəqləməyə sövq edir. XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan çox keçmədən böyük təhlükələrlə üzləşdi. Müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki səriştəsizliyi mərd oğul və qızlarımızın qanı bahasına bərpa edilmiş müstəqilliyimizi addım-addım uçuruma yaxınlaşdırırdı. Bir tərəfdən, ölkədə tez-tez baş verən hakimiyyət dəyişikliyi, sərhədlərin müdafiəsinin unudulması, digər tərəfdən, ayrı-ayrı şəxslərə xidmət edən qeyri-qanuni silahlı birləşmələrin respublikamızda xof yaratması və qanunlara tabe olmaması, o cümlədən ölkədə yaranmış hakimiyyətsizlikdən istifadə edib torpaqlarımızı hissə-hissə zəbt edən Ermənistan ordusunun törətdiyi vəhşiliklər Azərbaycanı parçalanmaq həddinə çatdırırdı.

Həmin dövrdə hakimiyyəti qeyri-qanuni yolla ələ keçirmiş AXC–Müsavat cütlüyü ziyalıları, tanınmış ictimai-siyasi xadimləri, həmçinin ağsaqqalları, elm adamlarını yaxına buraxmır, onlarla məsləhətləşmir və hakimiyyəti

özlərinin zəif təfəkkürləri ilə "idarə edirdilər". Bu cütlüyün vəzifəyə təyin etdiyi şəxslər, əsasən, savadsız, dövlət idarəçiliyində heç bir təcrübəsi olmayan, əsas amalı var-dövlət toplamaq olan naşı adamlar idi. Vəziyyət getdikcə ağırlaşırdı. Qanunlara tabe olmayan ayrı-ayrı şəxslər ətraflarına topladıqları qeyri-qanuni silahlı birləşmələrlə hakimiyyəti ələ keçirmək üçün min bir oyundan çıxırdılar.

AXC–Müsavat iqtidarının ölkəyə kor-koranə rəhbərliyi nəticəsində 1993-cü ilin iyun ayında müstəqilliyini yenicə bərpa edən Azərbaycan xalqı Sovet İttifaqinin əsarətindən qurtulduğu üçün sevinməyə macal tapmamış fəlakətə sürükləndi. AXC–Müsavat iqtidarının ölkəyə kor-koranə rəhbərliyi respublikamızı kiçik xanlıqlara bölərək bununla da Azərbaycan dünya xəritəsindən silinmək ərəfəsinə yetişirdi. Xalqın taleyini yalnız öz maraqlarını güdən, kreslo davasına çıxan naşı adamlar həll edirdi.

Azərbaycan idarəolunmaz vəziyyətə çatmış ölkəyə çevrilirdi. Hakimiyyətdə olanların ölkənin tanınmış ictimai-siyasi xadimlərinə güvənməsi əvəzinə, xarici ölkələrdəki himayədarları ilə məsləhətləşmələri xalqla iqtidar arasında uçurum yaradırdı. Xalqın narazılıqlarına əhəmiyyət verməyən AXC–Müsavat cütlüyü yalnız hakimiyyəti saxlamağı düşünərək, respublikamıza faciə gətirmiş, günahsız insanların həlak olmasına şərait yaratmışdı. Dövlət əmlakının talan edilməsi xalqı acınacaqlı duruma salmışdı və suverenliyimizə təhdid yaratmışdı. Bütün ölkələrlə münasibətlər korlanmış, bəzi ölkələrə qarşı iddialar irəli sürməklə Azərbaycan qonşu dövlətlərlə düşmən edilmiş və respublika təcrid vəziyyətə salınmışdı. AXC–Müsavat cütlüyünün bir illik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırılaş-

ması, torpaqlarımızın işğalı ilə nəticələnmişdi. Gəncədə baş verənlər ölkədə vəziyyətin təhlükəli həddə çatmasının əsas sübutu idi.

1993-cü ilin 4 iyun hadisələri vəziyyəti daha da gərginləşdirdi. AXC–Müsavat iqtidarının milli qəhrəman səviyyəsinə yüksəltdiyi, korpus komandiri Surət Hüseynov hakimiyyətə tabe olmur, öz əqidə yoldaşları ilə birlikdə iqtidara meydan oxuyurdu. O, hakimiyyətin istefasını tələb edir, ölkədə birincliyi öz əlinə almaq istəyirdi. Gəncədə baş verənlər ölkədə vəziyyətin təhlükəli həddə çatmasının əsas sübutu idi. O vaxtkı hakimiyyətin səriştəsizliyi, baş alıb gedən siyasi xaos ölkəni vətəndaş müharibəsi ilə üz-üzə qoydu. İqtidarın Surət Hüseynovu və rəhbərlik etdiyi hərbi birləşməni tərksilah etmək üçün göndərdiyi silahlı qüvvələr ağır məğlubiyyətə uğradı. Qardaş qanı axıdıldı, günahsız insanlar qətlə yetirildi. Vəziyyət daha da ağırlaşdı və ölkə vətəndaş müharibəsi həddinə çatdı.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi.

Cəmiyyətin bütün təbəqələri əmin idilər ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət dövlət idarəçiliyində zəngin təcrübəsi olan, dünya şöhrətli siyasi xadim Heydər Əliyev ola bilər. Əslində, bu istək bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, xalq ölkəni fəlakətdən qurtarmaq üçün ulu öndər Heydər Əliyevə müraciət etdi.1993-cü il iyunun 9-da Heydər Əliyev xalqın çağırışına səs verərək

Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, respublikamızın taleyində dönüş anı oldu. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Xalqın təkidi ilə Naxçıvandan Bakıya gələn Ulu Öndər əvvəlcə Gəncəyə gedib baş verən hadisələrlə yerində tanış olmağı qərara aldı. “Əminik ki, Gəncə hadisələri diqqətlə araşdırılacaq, mübahisəli məsələlər bütün Azərbaycan xalqının mənafeyi, milli dövlət quruculuğu naminə danışıqlar, qarşılıqlı anlaşma və sülh yolu ilə həll ediləcək” söyləyən Ulu Öndər Gəncəyə yollanmaqla əsl həqiqəti öyrənməyə çalışdı. Bu səfərin çox təhlükəli olduğu hamıya bəlli idi. Hətta hakimiyyət hərisləri Ulu Öndərə qəsd də edə bilərdilər. Ancaq bu təhdidlərin, təhlükələrin heç biri Heydər Əliyevi qərarından döndərə bilmədi. Ümummilli Lider Gəncəyə yollandı. Gəncəlilər xilaskar lideri böyük hörmət və ehtiramla qarşıladılar.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Xalqımızın taleyində böyük əhəmiyyəti olan günlərdən biri də məhz tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. 1993-cü il iyunun 24-də Milli Şuranın qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verildi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu, beynəlxalq aləmə inteqrasiya olunmağa başladı və dost, qonşu dövlətlərlə əlaqələr tədricən bərpa olundu. 1997-ci ilin iyun ayında Milli Məclis 15 iyun gününü bayram günü elan etdi.

Prezident İlham Əliyev Milli Qurtuluş Gününü Azər-

baycan tarixində dönüş nöqtəsi adlandırıb. Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır.

Dövlətçilik tariximizin şanlı qürur səhifəsi olan 1993-cü ilin 15 iyunu, eyni zamanda, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyəvidir. Ulu Öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin möhkəmləndirilməsi, qurtuluşu deməkdir.

Ulu Öndər Heydər Əliyev ölkəyə rəhbərlik etməklə müstəqilliyimizi qorudu və əbədiləşdirdi. Respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı, xalqın ciddi narahatlığına səbəb olan qeyri-qanuni silahlı birləşmələri zərərsizləşdirdi, ordudakı pərakəndəliyi aradan qaldırdı və vahid ordu formalaşdırdı. Tədricən iqtisadi sahədə əsaslı dönüş yaratdı, dayanıqlı inkişafın təməlini qoydu. Heydər Əliyevin adı tariximizə vətənin və xalqın xilaskarı kimi yazılıb. Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Həmin vaxt möhkəm təməllər üzərində qurulmuş

sabitlik Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirildi. Möhtərəm Prezidentimiz ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı istiqamətində bütün imkanlardan istifadə etdi və Azərbaycanı dünyada sülh tərəfdarı, Ermənistanı isə işğalçı ölkə kimi tanıtdı. Bu illər ərzində möhtərəm Prezidentimizin qarşıya qoyduğu prioritet vəzifə ordu quruculuğunu daha da inkişaf etdirmək idi. Dövlət başçımız qarşısına qoyduğu məqsədə nail oldu. Məhz Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alır.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusu sərhədboyu ərazilərimizdə təxribatlar törədərək ölkəmizə müharibə elan edən zaman qarşılarında güclü Azərbaycan Ordusunu gördü. Cəmi 44 gün davam gətirə bilən Ermənistan silahlı qüvvələri darmadağın edildi və təslim oldu. Rəşadətli ordumuzun qazandığı tarixi Zəfər Azərbaycanın dünya birliyindəki nüfuznu daha da yüksəltdi.

Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib. Ölkəmiz Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş, dünyada söz sahibi olan Azərbaycandır.

**Məzahir Əfəndiyev.** Tariximizdə bir sıra hadisələr vardır ki, bunlar xalqımızın milli mənlik şüurunda, həmçinin azərbaycançılıq ideologiyası təfəkküründə dərin və əbədi yerə malikdir.

15 iyun Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri, tariximizə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Günüdür. Bu gün, eyni zamanda, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət

kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Ölkəmizin ictimai-siyasi həyatına Milli Qurtuluş Günü kimi daxil olmuş bu günün xalqımızın milli yaddaş fəlsəfəsi, milli özünüdərk prosesində özünəməxsus yeri vardır.

1993-cü il iyunun 15-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və davamlı inkişafın təməlini qoydu.

Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", deyən Ümummilli Lider problemlərin həlli üçün, ilk növbədə bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, Azərbaycanın tarixində yeni dövrün, faktiki müstəqilliyin, demokratiya və inkişaf mərhələsinin başlanğıcı qoyuldu. Məhz həmin tarixi gün Azərbaycan xalqının yaddaşında Milli Qurtuluş Günü kimi həkk olundu, 1997-ci ilin iyun ayında Milli Məclis tərəfindən milli bayram elan edildi.

Prezident İlham Əliyev bu tarixlə bağlı deyib: "Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi". Həqiqətən də, 1993–2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf illəri kimi daxil olub, 2003-cü ildən sonrakı dövr isə böyük yolun davamıdır.

İkinci Qarabağ – Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər məhz Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir.

2023-cü ildə xalqımız Milli Qurtuluş Gününü "Heydər

Əliyev İli”ndə ikiqat sevinc və qürur hissi ilə qeyd edir. Bu il həm Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Azərbaycançılıq ideologiyası ətrafında birləşmək kimi müqəddəs hissləri, həm də doğma Qarabağımızda sürətlə həyata keçirilən Böyük Qayıdışı özündə ehtiva edir.

Qeyd edim ki, 15 iyun, eyni zamanda, Azərbaycan xalqının tarixində bir digər əlamətdar hadisəyə təsadüf edir, bu da bizim üçün mühüm mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalanması idi.

Məhz 15 iyun Mili Qurtuluş Günündə başlanmış, azərbaycançılığa köklənmiş fəaliyyət doğma Şuşamızı dünyanın ən füsünkar guşələrindən birinə çevirməkdədir.

Bütün sahələrdə qazandığımız uğurlar əminliklə söyləməyə əsas verir ki, biz dövlət müstəqilliyimizi bir daha əldən verməyəcəyik, müstəqilliyimiz əbədi olacaq.

Müşfiq Məmmədli. Sabah Azərbaycanın müstəqillik dövrünün ən mühüm siyasi hadisələrindən olan Milli Qurtuluş Gününün 30-cu ildönümü tamam olur. 30 il əvvəl yaranan bu tarix xalqımızın Ulu Öndəri Heydər Əliyev tərəfindən güclü və müstəqil dövlətçiliyimizin bünövrəsinin qoyulduğu gündür.

1993-cü ilin keşməkeşli iyun günlərini yaxşı xatırlayırıq. Hakimiyyətdə olan qüvvələrin idarəçilikdəki kobud səhvlərinin nəticəsi olaraq, bir tərəfdən torpaqlarımız Ermənistan tərəfindən işğal olunur, bir tərəfdən də sapı özümüzdən olan baltaların dəstəyi ilə respublikamızda separatçılıq güclənirdi. Gəncədə baş verən silahlı toqquşma və qardaş qırğını törədilməsi isə cəmiyyətimizin mənəvi sarsıntısına səbəb olmuşdu. Həmin günlərdə kuliminasiya

nöqtəsinə çatan hərbi-siyasi proseslər, əslində, hakimiyyəti hərbi yolla ələ keçirən AXC–Müsavat qaragüruhunun ilk vaxtdan yürütdüyü yarıtmaz siyasətin məntiqi nəticəsi idi.

Həmin dövrdə dövlətimizin taleyinə biganə qala bilməyən insanlar, ziyalılar, sosial və siyasi statusundan asılı olmayaraq, sağlam mövqeyi olan hər kəs bütün bunları görür və Azərbaycanın gələcəyi üçün dərin narahatlıq keçirirdilər. Bu mənada hələ 1992-ci ilin noyabr ayında görkəmli dövlət xadimi, Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın taleyinə biganə qala bilməyən insanların ortaya qoyduqları siyasi iradənin göstəricisi idi.

Elə buna görə də, 1993-cü ilin təlatümlü iyun ayında, uçurum qarşısında qaldığımız ağır günlərdə sabaha olan ümidlərimiz tükənməməmişdi. Çünki Heydər Əliyev faktoru vardı. Ölkədəki hərc-mərcliyin, hərbi-siyasi çəkişmələrin, vətəndaş qarşıdurmasının və bütövlükdə, dövlətimizin xilası üçün bütün xalq Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini arzu edirdi.

Dövlətimizin taleyi üçün dərin narahatlıq keçirən Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 9-da Bakıya gəlişi proseslərin tamamilə fərqli məcrada cərəyan etməsinə səbəb oldu. Yaxşı yadımızdadır ki, Heydər Əliyevin gəlişi ilk növbədə mənəvi sarsıntılara, bədbinliyə son qoydu və cəmiyyətdə yüksək əhvali-ruhiyyəyə yol açdı. Hər kəs sevinirdi və bilirdik ki, Heydər Əliyevin gəlişi ilə bütün iztirablar başa çatacaq və belə də oldu.

1993-cü ilin iyun ayının 15-də Ulu Öndərin Ali Sovetin sədri seçilməsi ilə Azərbaycanın təhlükə və böhranlardan qurtuluşunun təməli qoyuldu. Bu qayıdışla Azərbaycanın müstəqilliyini istəməyən, dövlətçiliyimizin məhv olmasını arzulayan bütün antimilli qüvvələrin planları iflasa

uğradıldı. Bu qayıdışla Azərbayacanı qüdrətli dövlətə çevirən Heydər Əliyev siyasi kursu başladı. 15 iyun tarixi isə təqvimə Milli Qurtuluş Günü kimi həkk olundu.

Aradan illər ötdükcə, zaman kəsiyi uzandıqca, Azərbaycan daha da gücləndikcə, inkişaf etdikcə Heydər Əliyevin o ağır dövrdə gördüyü işlərin mahiyyətini, məzmununu, Ulu Öndərin həmin mürəkkəb şəraitdə hansı çətinliklərə qalib gəldiyini daha dərindən anlayırıq.

İndi Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Heydər Əliyev yolunu qətiyyətlə davam etdirən, Ulu Öndərin ideyalarını layiqincə həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə tariximizin şərəfli səhifələri yazılır. Vətən müharibəsində qazanılan qələbə, ərazi bütövlüyümüzün bərpası hər birimizin qürur mənbəyimizdir. Bu uğurlarımız, həm də göstərir ki, Ulu Öndər Heydər Əliyevin qurduğu, Prezident İlham Əliyevin tarixinin ən qüdrətli mərhələsinə yüksəltdiyi Azərbaycan artıq qarşısında dayanan bütün hədəflərə çata bilən dövlətdir.

Ulu Öndərin ideyaları ölməzdir, əbədidir! Yaşasın bu ideyaları uğurla həyata keçirən, Azərbaycan xalqını və dövlətini qələbələrə aparan müzəffər Ali Baş Komandan İlham Əliyev!

**Naqif Həmzəyev.** Məlumdur ki, Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra ölkənin daxildən parçalanmanın, hakimiyyət uğrunda mübarizənin, hərc-mərcliyin qarşısını almış, sabit, təhlükəsiz Azərbaycanın qurulmasına nail olmuşdur. Bunun üçün Heydər Əliyevin təşəbbüsü ilə milli təhlükəsizliyin hüquqi bazası yaradılmış, struktur islahatlar həyata keçirilmiş, güclü ordu və peşəkar hərbçi komandası formalaşdırılmış, hərbi sahədə xarici dövlətlərlə əlaqələr inkişaf etdirilmişdir. Heydər Əliyev milli təhlükəsizlik orqanlarının səmərəli fəaliyyəti-

nin təşkili, milli kadrların hazırlanması üçün mühüm fəaliyyət həyata keçirmişdir. Əgər əvvəlki illərdə milli kadrlar hazırlanmasaydı, müstəqillik dövründə Milli Təhlükəsizlik Nazirliyi kimi  mürəkkəb təşkilatda fəaliyyət göstərmək və onun işini təmin etmək mümkün olmazdı. Bu və digər məsələlər tarixi, sistemləşdirmə, ümumiləşdirmə metodlarından istifadə edilərək təhlil olunmuşdur.

Müstəqilliyin ilk dövründə Ermənistanın hərbi təcavüzünə məruz qalmış, daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşmiş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi həyati vacib əhəmiyyət daşıyırdı. XX əsrin 90-cı illərində bütün çətinliklərə baxmayaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə düzgün strateji inkişaf xətti müəyyənləşdirilmiş, ölkənin müxtəlif sahələrində milli təhlükəsizlik təmin edilmişdir. Bu baxımdan təqdim olunan mövzu mühüm siyasi və elmi əhəmiyyət kəsb edir.

Heydər Əliyevin milli təhlükəsizlik siyasətinə dair müxtəlif araşdırmalar mövcud olsa da, bu sahədə yeni yanaşmaların təhlilinə, qanunvericilik bazasının, milli təhlükəsizlik siyasətinin təminatı mexanizmlərinin öyrənilməsinə ehtiyac vardır.

Heydər Əliyev Azərbaycanın xarici kəşfiyyat orqanlarından qorunmasını, Azərbaycan dövlətçiliyinə qarşı terror, təxribat və başqa düşmənçilik aksiyalarının qarşısının alınmasını, ərazi bütövlüyünün bərpasını vacib hesab edirdi. Bu baxımdan Azərbaycanın milli təhlükəsizlik və ordu quruculuğu sahələrində Heydər Əliyev siyasətinin əsaslarının öyrənilməsi tədqiqatın qarşısında dayanan əsas məqsədlərdəndir. Dövlətin milli təhlükəsizliyinin təmin edilməsi demokratik-hüquqi cəmiyyətin etibarlı təminatı,

ən mühüm dəyərlərin, fərdin, xalqın milli maraqlarının qorunmasıdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasından sonra onun milli təhlükəsizliyinin əsasını ilk növbədə suverenliyin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, milli maraqlarının, vətəndaşlarının hüquqlarının daxili və xarici təhdidlərdən qorunması və təmin edilməsi təşkil etmişdir. Bu baxımdan milli təhlükəsizliyin əsas obyektləri qismində insanın hüquq və azadlıqları, cəmiyyət və onun maddi, mənəvi dəyərləri, dövlət və onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü çıxış edir. Bu dəyərlərin qorunmasının mexanizmi isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizlik maraqlarının qorunması istiqamətində fəaliyyət göstərən dövlət hakimiyyəti orqanları və təhlükəsizlik institutlarının üzərinə düşür.

Dövlət təhlükəsizliyinə cəmiyyətdə siyasi qüvvələrin və ictimai qrupların fəaliyyətinin idarə olunması, bu məqsədlə səmərəli mexanizmlərin işlənib hazırlanması, onun mövcudluğu, cəmiyyətin təhlükəsizliyi, ictimai institut normalarının, əhalinin bütün qruplarının hüquq və azadlıqlarının təmin olunması, şəxsiyyətin təhlükəsizliyi isə ictimai insitutların və təşkilatların fəaliyyətinin reallaşdırılması vasitəsi kimi qəbul edilir. Milli təhlükəsizlik cəmiyyətdə müxtəlif sahələr və strukturlar arasında siyasi, iqtisadi, ekoloji, hərbi, ideoloji və digər sahələri əhatə edir.

Hələ keçmiş SSRİ dövründə, XX əsrin 50-ci illərin sonlarından etibarən Azərbaycan təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi, repressiyaya məruz qalmış bir çox insanların hüquqi və mənəvi bəraət alması istiqamətində xeyli işlər görüldü. Bu proses bilavasitə ömrünün böyük bir hissəsini təhlükəsizlik

orqanlarına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, 1964-cü ildən sonrakı dövrdə təhlükəsizlik orqanlarına milli kadrların cəlb olunması, onların yetişdirilib, rəhbər vəzifələrə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almağa başladı. Heydər Əliyev SSRİ zamanında milli təhlükəsizlik orqanlarının iş prinsipi ilə bağlı deyirdi: "Mənim xatirimdədir, 1953-cü ildə Stalin vəfat edəndən sonra təhlükəsizlik orqanlarında müəyyən struktur dəyişiklikləri əmələ gəldi. Mən o vaxt Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinin, sonra komitəsinin Əks-kəşfiyyat İdarəsinin rəisi idim. O dövrü bu gün də xatırlayanda dəhşətə gəlirəm ki, biz kimlərlə işləyirdik. Yerli kadrlar çox az idi. Vaxtı ilə elələrini seçirdilər ki, onlar yüksək savada, biliyə, yaxud keyfiyyətə malik olmasınlar. Əsas rəhbər vəzifələrdə işləyənlər başqa millətlərə mənsub olan kadrlardan ibarət idi. Ancaq 1950-ci illərin ikinci yarısında, 1960-cı illərdə, sonra 1970-ci illərdə Azərbaycanın təhlükəsizlik təşkilatında ciddi dəyişikliklər həyata keçirmək mümkün oldu".

SSRİ dövründə, 1967-ci ildə ilk dəfə Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının – Heydər Əliyevin təyin edilməsi, demək olar ki, bir tarixi hadisə oldu. Həmin dövrdə Heydər Əliyev milli kadrların hazırlanması və onların irəli çəkilməsində misilsiz xidmətlər göstərdi. Cənubi Qafqazın digər respublikalarında isə vəziyyət Azərbaycandan fərqli idi. Həmin respublikalarda təhlükəsizlik orqanlarında həm yerli, milli kadrlar əksəriyyət təşkil edir, həm də onların rəhbərləri, birinci şəxs həmişə yerli, milli kadrlarından ibarət olurdu. Bunların hamısı Azərbaycanı daim təzyiq altında

saxlamaq, idarə etmək və Azərbaycanda milli dirçəlişin, milli oyanışın qarşısını almaq məqsədi daşıyırdı.

Heydər Əliyev respublika və ittifaq rəhbərliyində çalışdığı müddətdə belə Azərbaycanın xüsusi xidmət orqanlarının fəaliyyətini daim diqqətdə saxlamış, öz qayğısını bu qurumdan əsirgəməmişdir. İdeya müəllifi Heydər Əliyev olan "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda "milli təhlükəsizlik" anlayışı dövlətin, cəmiyyətin və insanların dəyərlərinin qorunması kimi xarakterizə olunmuşdur.

Bu qanuna əsasən Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsi bir sıra prinsiplərə – Azərbaycan Respublikasının Konstitusiyasına və onun qanunlarına riayət edilməsi, milli təhlükəsizliyin vahid dövlət siyasətinə əsaslanması və onun təmin olunması, milli təhlükəsizliyin subyektləri arasında səlahiyyətlərin dəqiq müəyyən edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və həmin orqanların bir-birini qarşılıqlı surətdə operativ məlumatlandırması, bu sahədə fəaliyyətin həyata keçirilməsinə nəzarət, beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyətinə əsaslanır. Siyasi, iqtisadi, informasiya sahəsində Azərbaycanın milli maraqlarının təmin olunması isə milli təhlükəsizliyin əsas məqsədidir.

Heydər Əliyev bir çox ilklərə imza atmış görkəmli şəxsiyyət olaraq, "Milli Təhlükəsizlik Konsepsiyası"nın da yaradılmasının və yüksək inkişafının müəllifidir. Heydər Əliyev milli təhlükəsizlik siyasətinin əsas istiqamət, vəzifə və mexanizmlərinin, metod və vasitələrinin müəyyən edilməsini, bu sahədə qanunvericilik aktlarının

hazırlanmasını və qəbul edilməsini, təşkilati strukturların təşəkkülü və inkişafı üçün vacib olan əsas məsələləri öz nəzarəti altında həll etmişdir.

Keçən əsrin 90-cı illərində Heydər Əliyevin proqram əhəmiyyətli ideyalarının icrasının reallaşdırılması tam mümkün olmasa da, onun layiqli siyasi varisi, Prezident İlham Əliyevin bilavasitə təşkilatçılığı və rəhbərliyi ilə həmin istiqamətlər uğurla həyata keçirildi. Misal üçün, 2004-cü il 27 mart tarixli Fərman və ona əlavə ilə "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi haqqında" Əsasnamə, 2004-cü il 29 iyun tarixli "Milli Təhlükəsizlik haqqında" və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi. 2007-ci il 23 may tarixdə isə "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası" hazırlanıb, təsdiq olundu. Bundan başqa, 2010-cu il iyunun 8-də "Azərbaycan Respublikasının Hərbi doktrinası" qəbul edildi.

Azərbaycan təhlükəsizlik orqanlarının səmərəli fəaliyyəti milli təhlükəsizliyin təmin edilməsinə əsas zəmanətdir. Bu baxımdan müstəqillik illərində Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyəti mütəmadi olaraq təkmilləşdirilmişdir. Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra, 1991-ci il noyabrın 1-də Dövlət Təhlükəsizlik Komitəsinin maddi-texniki bazası əsasında Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaradılmışdır. Dəyişən yalnız təhlükəsizlik orqanının adı və şəxsi heyəti deyil, eyni zamanda, Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran vəzifələrin məzmunu və mahiyyəti idi. Əgər Dövlət Təhlükəsizlik Komitəsinin bütün imkanları və potensialı sovet dövlətinin mövcudluğunun və strateji maraqlarının təmin olunmasına yönəlmişdisə, Milli Təh-

lükəsizlik Nazirliyinin qarşısında duran əsas vəzifələr müstəqil Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna və təhlükəsizliyinə, iqtisadi, elmi-texniki, müdafiə potensialına və digər milli maraqları əleyhinə yönəlmiş kəşfiyyat, terror-təxribat, digər pozuculuq və cinayətkar fəaliyyəti aşkarlamaq, qabaqlamaq və qarşısını almaqdan ibarət olmuşdur.

Milli Təhlükəsizlik Nazirliyi beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın digər təhlükəli formaları ilə qətiyyətlə mübarizə aparmışdır. Məhz bu sahə üzrə Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyətinin hüquqi əsasını 1999-cu il 18 iyun tarixli "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununu təşkil edir. Bu Qanun Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyənləşdirir, bu sahədə dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edirdi.

Müstəqil Azərbaycanın mühüm dövlətçilik təsisatlarından olan milli təhlükəsizlik orqanlarının formalaşması və inkişafında müstəsna rol oynayan xüsusi xidmət orqanları üçün ixtisaslı kadrların hazırlanmasını, eləcə də peşə hazırlığının artırılmasını və təkmilləşdirilməsini həyata keçirən Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev Akademiyasının yaradılması bilavasitə Ümummilli Liderin adı ilə bağlıdır. Heydər Əliyev milli təhlükəsizlik orqanlarında milli kadr potensialının formalaşdırılmasına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirmiş və Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması təşəbbüsü ilə çıxış etmişdir.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 1 dekabr tarixli Sərəncamı ilə təhlükəsizlik orqanlarının milli

kadr ehtiyatının formalaşdırılması, eləcə də milli təhlükəsizlik orqanlarını xüsusi ixtisaslı ali təhsilli zabit kadrlarla təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası yaradılmışdır.

Heydər Əliyev milli kadr siyasəti ilə bağlı deyirdi: "Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar kadrlar və iş üslubu olsun".

Ümummilli Lider Heydər Əliyevin milli təhlükəsizlik orqanlarının inkişafında əvəzsiz xidmətlərini nəzərə alaraq və onun xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 20 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına Heydər Əliyevin adı verilmişdir.

Ümumiyyətlə, Prezident İlham Əliyev Heydər Əliyev siyasi irsini davam etdirərək milli təhlükəsizlik orqanlarına daim diqqət və qayğı göstərmiş, Azərbaycanda milli təhlükəsizlik sisteminin və xüsusi xidmət orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, milli maraqların xarici və daxili təhdidlərdən qorunması istiqamətində mühüm addımlar atmışdır.

Azərbaycan dövlətinin ərazi bütövlüyünün, sərhədlərinin, dövlət müstəqilliyinin əsas təminatçısı milli Azərbaycan Ordusudur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusu, daha sonra milli ordu yaransa da, Cümhuriyyətin süqutundan sonra ordu quruculuğu prosesi dayanmışdır. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid

Naxçıvanski adına Hərbi liseyin yaradılması milli hərbi kadr hazırlığında mühüm əhəmiyyətə malik idi. Bununla bağlı Ümummilli Lider Heydər Əliyev demişdir: “Biz Cəmşid Naxçıvanski adına Hərbi liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam”.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də mühüm siyasətin yeridilməsində Heydər Əliyevin mühüm xidmətləri olmuşdur. 1993-cü ildə Heydər Əliyev Bakıya dəvət olunanda Azərbaycan Ordusu ağır böhran vəziyyətində idi. Ordu quruculuğu ilə bağlı cəmiyyət daxilində son dərəcə bədbin bir əhvali-ruhiyyə hökm sürürdü, bu da öz növbəsində ordunun varlığına mənfi təsir göstərirdi.

Səmərəli milli ordu quruculuğuna nail olmağın bir sıra mühüm şərtləri var idi. İlk növbədə, ordu quruculuğunun səmərəliliyinə nail olunmasının başlıca şərtlərindən birini Heydər Əliyev xalqın gücünə arxalanmaqda, xalqla vəhdətdə, onun etibarı və etimadında görürdü.

Azərbaycanda ordu quruculuğunun yeni əsaslar üzərində qurulmasının və qısa müddət ərzində yeni ordunun formalaşdırılmasının başlıca şərtlərindən biri də məhz

Heydər Əliyevin bütün xalqı bu prosesə cəlb etməsi idi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Ordusunu məhv olmaqdan, dağılmaqdan xilas edərək, qısa müddət ərzində güclü və təşkilatlanmış bir ordu yaratdı, Azərbaycan Ordusunu Azərbaycanın müstəqilliyi və suverenliyinin əsas təminatçılarından birinə çevirdi.

Milli ordu quruculuğu prosesində yeni bir mərhələnin əsası isə 1993-cü il noyabrın 2-də Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciəti ilə qoyuldu. Bu müraciət güclü ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd olmaqla yanaşı, Heydər Əliyevin xalqa çağırışı idi. Bu çağırışın nəticəsində Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi. O, dəfələrlə hərbi hissələrdə oldu, əsgər və zabitlərin qayğı və problemləri ilə maraqlandı. Heydər Əliyev peşəkarlıqla bərabər, mənəviyyat saflığını, əqidə bütövlüyünü, vəzifə borcuna sadiqliyi zabit kadrlarının başlıca keyfiyyətləri hesab edir və buna nail olunmasını da ordu quruculuğunun ümdə vəzifələrindən biri sayırdı.

1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan münaqişəsində atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması prosesi daha da sürətləndi, silahlı qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.

Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və həmin vaxtdan etibarən hər il bu

tarix rəsmi dövlət bayramı kimi qeyd edilməyə başlandı.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda milli hərbi kadrların yetişdirilməsi üçün müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi. Bu məqsədlə, Heydər Əliyev Hərbi Akademiyanın yaradılması haqqında 1999-cu il fevralın 20-də Fərman imzalamışdır.

Heydər Əliyevin 2001-ci il 20 avqust tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədi ilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır.

Hərbi sahədə Azərbaycanın beynəlxalq əlaqələri inkişaf etdi. Azərbaycan Silahlı Qüvvələrinin zabitləri qardaş Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin, Almaniya, Böyük Britaniya, İtaliya, Rumıniya və Macarıstanın hərbi akademiyalarında və dinləmə kurslarında təhsil aldılar.

Ümummilli Lider Heydər Əliyevin hərbi, ordu quruculuğu sahəsində siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordunu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Silahlı qüvvələrin modernləşdirilməsi Prezident İlham Əliyevin dövlət siyasətinin strateji istiqamətlərindəndir.

Müstəqillik dövründə Azərbaycan Qafqazda ən müasir ordunun yaradılmasına nail olmuşdur. Qafqazın ən müasir ordusu hesab olunan Azərbaycan Ordusu Hərbi Hava və Ha-

va Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır.

44 günlük Vətən müharibəsi dövründə məhz güclü Azərbaycan Ordusunun rəşadəti sayəsində Füzuli, Ağdam, Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Şuşa, Hadrutun və 300-ə yaxın kəndin, strateji yüksəkliklərin işğaldan azad olunması ilə bölgədə yeni geosiyasi reallıq yarandı. Müharibədə Azərbaycan Ordusunun ən müasir hərbi texnika və avadanlıqlarla təchiz olunması, yüksəkdəqiqlikli silahlardan, pilotsuz uçuş aparatlarından istifadə qələbəni şərtləndirdi. Ali Baş Komandan İlham Əliyev: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhəri bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar". Beləliklə, "Şuşasız bizim işimiz yarımçıq olar" söyləyən Ali Baş Komandan İlham Əliyev ulu babalarımızın torpaqlarını Azərbaycan xalqına qaytarmaqla Ümummilli Lider Heydər Əliyevin vəsiyyətini də yerinə yetirdi.

Aparılan tədqiqatdan aydın olur ki, müstəqillik illərində Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsi zərurəti onun milli maraqlarından irəli gəlmiş, bu istiqamətdə zəngin qanunvericilik bazası yaradılmış və praktik işlər görülmüşdür.

SSRİ dönəmində təhlükəsizlik sistemində milli kadrların

hazırlanması, bu məqsədlə təhsil ocaqlarının yaradılması mərkəzin təzyiqləri ucbatından asan olmasa da, Heydər Əliyev müdrik uzaqgörənliyi, peşəkar siyasi səriştəsi və siyasi biliyi ilə buna nail ola bilmişdi. Ümumilli Lider dövlətin, cəmiyyətin, insanların təməl hüquq və azadlıqlarının, bir sözlə ən mühüm dəyərlərin, həyati vacib maraqların, dövlət müstəqilliyinin, konstitusiya quruluşunun, ictimai-siyasi təhlükəsizliyin təmin olunmasını ölkənin milli təhlükəsizlik siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Bu baxımdan ölkənin ərazi bütövlüyü, sərhəd toxunulmazlığının, milli birliyinin əsas təminatçısı olan milli təhlükəsizlik siyasətinin əsaslarının və həyata keçirilmə mexanizmi məsələlərinin öyrənilməsi mühüm elmi və siyasi əhəmiyyətə malikdir.

Azərbaycanın milli təhlükəsizliyinin daha səmərəli təmin edilməsi baxımından Heydər Əliyevin də təşəbbüsçüsü olduğu ümum Qafqaz evinin yaradılması ideyasının reallığa çevrilməsi, Cənubi Qafqaz dövlətlərinin nəqliyyat, enerji sahələrində daha sıx əməkdaşlığı faydalı ola bilər. Digər tərəfdən, Rusiya, İran, Ermənistan kimi dövlətlərlə əhatə olunan Azərbaycanın milli təhlükəsizliyinin təmin olunması üçün onun Türk Dövlətləri Təşkilatında fəaliyyətinin daha da inkişafı və strateji tərəfdaşlıq müqavilələrinin imzalanması daha məqsədəuyğun hesab edilə bilər.

**Nəsib Məhəməliyev.** Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə Milli Məclis tərəfindən hazırlanmış "Heydər Əliyev-zamanın fövqündə" adlı filmin və Ulu Öndərin parlament fəaliyyətinə həsr olunmuş üç cildlik kitabın təqdimatına görə təşəkkürlərimi bildirirəm. Film müstəqillik tarixinin ən çətin, mürəkkəb, ziddiyətli dövrünü yaşayan Azərbaycanın hansı çətin sınaqlardan keçdiyini faktlarla göstərir. Hesab edirəm ki, öl-

kəni parçalanmaqdan xilas edən, vətəndaş müharibəsinin, anarxiyanın, xaosun qarşısını alan, bugünkü güclü Azərbaycan dövlətinin təməlini addım-addım quran Heydər Əliyevin xidmətlərini təhrif etmək istəyənlərə ən gözəl cavabdır.

Hörmətli həmkarlar, dahi alman filosofu İmmanuel Kantın müdrik bir fikri var. “Dünyada mövcud olan ixtiraların ən mürəkkəbi idarəetmə sisteminin mənimsənməsidir”. Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının dünyaya bəxş etdiyi siyasi və ictimai xadim olaraq, dövlət idarəetmə sistemini mükəmməl şəkildə mənimsəmiş nadir şəxslərdəndir.

1960-cı illərin sonunda Azərbaycana rəhbərlik etməyə başladığı andan, Sovetlər İttifaqı çərçivəsində başlatdığı proqressiv islahatları, geridə qalmış aqrar respublikanı ön sıralara çıxarması, qanlı 20 Yanvar hadisələrində, Moskvanın mərkəzində SSRİ rəhbərliyini ittiham etməsi ilə ilk dəfə üçrəngli dövlət bayrağımızı Naxçıvanda qaldırması, İttifaqın saxlanması üçün referendumun əleyhinə çıxması, Xəzər dənizinin hüquqi statusu müəyyən edilmədən “Əsrin müqaviləsi”nin imzalanması, Qərb şirkətlərinin ölkəmizə gəlişini əngəlləmək üçün ciddi maneçiliklər törədən İran silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Bakıda Türk şahinlərinin nümunəvi uçuşlarını təşkil etməsi və sair. Heydər Əliyevin uzaqgörən, mövcud streotipləri dağıdan, qeyri-standart düşüncə tərzinə malik, ən kritik vəziyyətlərdən çıxış yolu tapmağı bacaran lider olaraq adını tarixə yazdırmışdır.

Zaman keçdikcə Heydər Əliyev şəxsiyyətinin Azərbaycan xalqının taleyində oynadığı rol daha da qabarıq şəkildə özünü göstərir. Bu gün qətiyyətlə deyə bilərik ki, əgər 1987-ci ildə Heydər Əliyev SSRİ rəhbərliyində tut-

duğu vəzifələrdən istefa verməsəydi, erməni separatçıları baş qaldırmaz, torpaqlarımız işğal olunmaz, on minlərcə soydaşlarımız qətlə yetirilməz, yüz minlərcə insan qaçqın, məcburi köçkün vəziyyətinə düşməz, dövlətimiz, ekologiyamız  milyardlarla manat ziyan çəkməzdi. Hər il süni şəkildə yaradılmış problemlərin həllinə yönəldilmiş külli miqdarda maliyyə vəsaiti ölkənin inkişafına, əhalinin sosial-rifah halının yaxşılaşdırılmasına sərf oluna bilərdi.

Belə bir deyim var. "Tarixdən düzgün nəticə çıxarmadıqda, fəsadları ağır olur". 1918–1920-ci illər AXC zamanı, cəmi 23 ay ərzində beş hökumət fəaliyyət göstərmiş, 1988-ci ildən, 1993-cü ilin iyun ayına qədər Azərbaycanda altı siyasi hakimiyyət dəyişmişdir. Təxminən ildə bir dəfə, bir balaca sosial gərginlik yarandıqda başlarını götürüb qaçan dövlət başçılarından fərqli olaraq, Heydər Əliyev bütün sui-qəsdlərə, dövlət çevrilişlərinə cəhdlərə, təzyiqlərə rəğmən, xalqı böhrandan çıxardı. O illərdə baş verən prosesləri yaxından izləyən, ictimai-siyasi fəaliyyətlə aktiv şəkildə məşğul olan, daha sonra isə etimadını qazanmış şəxs olaraq qeyd edə bilərəm ki, mənim xatirəmdə Heydər Əliyev böyük dövlət adamı, xilaskar olması ilə yanaşı, kişilik, qorxmazlıq, mərdlik simvolu kimi təcəssüm olunur.

Heydər Əliyev harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, Azərbaycan xalqını ən yüksək səviyyədə təmsil edir, millətin müasirləşməsinə, digər millətlər arasında müsbət imicinin formalaşmasına çalışırdı. Cəmiyyətin inkişafına, sağlamlaşdırılmasına mane olan amillərin aradan qaldırılması üçün sistemli tədbirlər görürdü. Xatirimdədir, 2001-ci ilin iyun ayında Heydər Əliyevin keçirdiyi qapalı iclasda ölkədə dini durumun vəziyyəti müzakirə olunurdu. O zaman çoxsaylı çadır düşərgələrində, qaçqınların, məcburi köçkünlərin məskunlaşdığı məkan-

larda humanitar yardım adı altında, bir çox xarici ölkələrdən gəlmiş müxtəlif dini konfessiyalara, təriqətlərə mənsub din xadimləri missionerliklə məşğul olurdular. Beyinləri yuyulmuş və yad təsirlərə məruz qalmış bu insanların fəaliyyəti ailədaxili münasibətlərdə gərginlik yaradır, cəmiyyətin parçalanmasına, müqavimət gücünün zəiflədilməsinə xidmət edirdi. Ümumilikdə, vaxtında qarşısı alınmasaydı, dövlətçiliyimiz üçün real təhlükə ola bilərdi. Heydər Əliyev müvafiq mərkəzi icra orqanının rəhbərinin məruzəsini dinlədikdən sonra, qanunsuz fəaliyyətlə məşğul olan 100-dən yuxarı beynəlxalq “humanitar” təşkilatın işinin dayandırılması barədə qəti tapşırıq verdi. Onların göstərdiyi maliyyə yardımlarının, kommunal xərclərin tam şəkildə dövlət büdcəsi hesabına ödənilməsi təmin olundu. Nəzərə almaq lazımdır ki, həmin dövrdə ölkənin iqtisadi vəziyyəti ağır, imkanları aşağı idi. O zamanlardan uzun illər keçməsinə baxmayaraq, bu günlərdə belə, Azərbaycanın dünyəvi dövlət quruluşunu qəbul etməyən, ölkəni orta əsrlərin feodal təfəkkürünə qaytarmaq arzusunda olan “kərimə” dövləti yaratmaq istəyənlərlə mübarizə aparmaq məcburiyyətindəyik.

Ulu Öndərin uzaqgörənliklə, zamanında qəbul etdiyi qərarlar nəticəsində, bugünkü güclü Azərbaycan dövlətinin əsası qoyuldu. 30 ildən artıq müddətdə dünya güclərinin həll edə bilmədiyi məsələ həllini tapdı. İşğal altında olan torpaqlarlarımız Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Silahlı Qüvvələrimiz tərəfindən azad olundu. Həmin ərazilərdə geniş miqyaslı infrastruktur layihələri icra olunur, ermənilərin xarabazara çevirdikləri yerlər cənnətə çevrilir. Dünya birliyi şişirdilmiş erməni təbliğatı ilə qurub-yaradan Azərbaycan xal-

qının fərqini görür. Ən əsası isə xalqımız Heydər Əliyevin məşhur ifadəsi ilə desək, milli mənsubiyyəti ilə fəxr edir.

Prezident İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev İli" elan edilməsindən sonra, ölkəmizdə və hüdudlarından kənarda, Ümummilli Liderin adına layiq minlərcə tədbir keçirilmiş, onun həyat yolu, fəaliyyəti təhlil olunmuşdur. Hesab edirəm ki, bütün bunlar davam etdirilməli, əlalxüsus gənclər arasında daha geniş şəkildə təbliğ olunmalı, gələcək nəsillərə ötürülməlidir. Yerləşdiyimiz coğrafiya keçmişdə və hazırda olduğu kimi, gələcəkdə də müxtəlif geosiyasi güclərin maraq dairəsində olacaqdır. Dövlətimizin təhlükəsizliyi, müstəqilliyimizin qorunması baxımından Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik prinsiplərinə, onun təcrübəsinə hər zaman ehtiyacımız olacaqdır.

Yekunda, hər birinizi 15 iyun Milli Qurtuluş Günü münasibəti ilə təbrik edirəm, əmin-amanlıq, rifah arzulayıram.

Novruzəli Aslanov. Məndən öncə həmkarlarım Ümummilli Lider Heydər Əliyevin zəngin irsi, həyat və fəaliyyəti barədə çıxışlarında kifayət qədər parlaq məqamlara toxundular. Ulu Öndər Heydər Əliyev irsini öyrənmək, onu təbliğ etmək, gənc nəsillərə ötürmək və ondan bəhrələnmək çox önəmlidir. Heydər Əliyev nəinki Azərbaycanda, eyni zamanda, beynəlxalq aləmdə qəbul edilən müdrik dövlət xadimi kimi tanınıb. Onun siyasi baxışları, parlaq zəkası, zəngin diplomatiyası müasir Azərbaycanın dinamik inkişafına öz töhfəsini verməkdədir.

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar olur. Heydər Əliyev öz xalqına, vətəninə sonsuz sədaqəti, məhəbbəti, xeyirxahlığı, düşünülmüş və uzaqgörən siyasəti ilə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatında yeni bir tarix

yazdı. Onun həyata keçirdiyi çoxşaxəli uğurlu siyasətinin bəhrəsini biz bu gün də görürük. Heydər Əliyevin mənalı həyatı Azərbaycanın XX əsr tarixinə, həm də xalq-rəhbər birliyinin yenilməzliyi kimi yazıldı.

Ulu Öndər irqindən, dilindən, dini baxışlarından, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir kəsə hörmətlə yanaşırdı. Xalqla bir yerdə olmaq, insanların qayğısına qalmaq onun üçün ən ümdə məsələlərdən biri idi. Heydər Əliyev həmişə dünyada sülhün və əmin-amanlığın tərəfdarı olub. Qarabağ problemini qan tökülmədən həllinə çalışıb. Ulu Öndər torpaqlarımızın düşməndən azad olunacağına əmin idi və bu yolda öz səylərini bir an da olsun əsirgəmirdi.

Humanitar sahədə uzun müddət fəaliyyət göstərdiyim üçün mən Ulu Öndərin Ermənistanın işğalı dövrünü əhatə edən humanitar diplomatiya və humanitar siyasəti barədə qısa olaraq bəzi məqamları nəzərinizə çatdıracam. Bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O dövrdə dövlət büdcəsinin imkanlarının məhdud olması Azərbaycanı humanitar fəlakətlə üz-üzə qoymuşdu. Öz yeni müstəqillik tarixinin başlanğıcında ciddi problemlərlə üzləşən ölkəmiz kənardan ediləcək yardıma ehtiyac duyurdu. Daxil olan humanitar yardımları vaxtında və təyinatı üzrə bölüşdürmək, paylamaq o dövrdə heç də asan iş deyildi. 1991-ci ildə Ulu Öndər Naxçıvanda olarkən bu problemin həlli üçün Beynəlxalq Qızıl Xaç Komitəsinə çağırış etdi. Bu çağırışdan sonra Azərbaycana maşın karvanı ilə ilk humanitar yardımlar daxil olmağa başladı. Bunun sayəsində təcavüzdən zərərçəkmiş insanların ehtiyaclarının böyük bir hissəsini qarşılamaq mümkün oldu. Sonrakı illərdə bu humanitar

yardımın davamlı olması üçün 1992-ci ildə Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycanda nümayəndəliyini açdı, daha sonra 1993-cü ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının nümayəndəliyi Bakıda fəaliyyətə başladı. Həmin çətin illərdə Biləsuvar, Bərdə, Ağcabədi, Saatlı, İmişli rayonları ərazisində qaçqın və məcburi köçkünlər üçün çadır şəhərcikləri salındı və onlar bütün lazımi ləvazimatlar və xidmətlərlə təmin olundular.

Ulu Öndərin diqqəti sayəsində Milli Məclisin bu zalında 1994-cü il noyabrın 25-də "Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında" Qərar qəbul olunmuşdur. Məhz bu qərardan sonra Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yeganə və rəsmi milli təmsilçisi kimi 1995-ci ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam, bərabərhüquqlu üzvlüyünə qəbul edildi.

Heydər Əliyevin humanitar diplomatiyasının ənənələrini bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daha da inkişaf etdirərək həyata keçirirlər.

Mən böyük şərəf və qürur hissi ilə qeyd etmək istəyirəm ki, həm Heydər Əliyevin, həm də İlham Əliyevin prezident seçkilərində vəkili olmuşam və bununla da fəxr edirəm.

Azərbaycanda dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin qorunub saxlanılması, dinamik iqtisadi inkişaf və beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev irsi bizim milli sərvətimizdir.

Ulu Öndərimiz tərəfindən əsası qoyulan müstəqil dövlətimizin inkişafı bu gün etibarlı əllərdədir. Azərbaycan

Prezidentinin ətrafında sıx birləşən xalqımız buna tam əmindir. Bu həmrəylik sarsılmazdır və əbədidir!

**Nurlan Həsənov.** Bu gün Ulu Öndər Heydər Əliyevin hakimiyyətə dönüşü Azərbaycan üçün tək Milli Qurtuluş Günü deyil, eyni zamanda, Azərbaycanın sürətli inkişafının əsasının qoyulduğu tarixdir. Bu, cəmiyyətin müxtəlif sahələrinə, o cümlədən hüquq sahəsinə də aiddir.

Bir hüquqşünas kimi qeyd edə bilərəm ki, Ulu Öndər hakimiyyətə gəlmədən öncə mövcud olan hüquq sistemi, qanunlar hüquqi dövlət quruculuğu, qanunun aliliyi, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə təminat vermirdi. Digər sahələrlə yanaşı, hüquq sahəsində də köklü islahatların həyata keçirilməsi, yeni, müasir və milli dəyərlərə əsaslanan milli qanunvericilik bazasının formalaşdırılması zərurətə çevrilmişdir.

Məhz ölkəmizdə gələcək islahatların hüquqi bazası rolunu oynayacaq yeni Konstitusiyamızın hazırlanması Ulu Öndərin adı ilə bağlıdır. Məhz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamız özündə ən müasir insan hüquq və azadlıqlarını, dövlət orqanlarının bölgüsü prinsipini, milli qanunvericiliyimizin beynəlxalq hüquqa uyğunlaşdırılması ilə bağlı normaları ehtiva edirdi.

Baxmayaraq ki, Ulu Öndər Heydər Əliyevdən öncə hakimiyyətdə olan yaramaz AXC–Müsavat cütlüyünün hüquqi islahatlar aparmaq üçün kifayət qədər vaxtı var idi. Onlar heç bir addım atmadı. Separatizm, torpaqlarımızın işğal altına düşməsi məhz yarıtmaz AXC–Müsavat cütlüyünün yarıtmaz, talançı siyasətinin nəticəsi idi.

Biz izlədiyimiz videolarda da gördük ki, 1990-cı illərin əvvələrində Heydər Əliyev necə bir çətin yol keçmiş və onunla birgə Azərbaycanımız da hansı çətinliklərdən keçib

bugünə gəlmişdir.

Bu gün Azərbaycanın müstəqillik dövründə əldə etdiyi uğurlar, sürətli iqtisadi inkişafı, regionun lider ölkəsinə çevrilməsi məhz Ulu Öndər Heydər Əliyevin əsasına qoyduğı siyasətin nəticəsidir.

**Pərvin Kərimzadə.** Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri misilsizdir. Bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın.

Azərbaycanın gələcək müstəqilliyi üçün zəmin hazırlayan böyük dövlət xadimi 1969–1982-ci illərdə milli ruhun və azərbaycançılığın sovet ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını almaqla onun dirçəldilməsi istiqamətində mühüm işlər gördü. Ulu Öndər Heydər Əliyev ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirərək milli lider, qüdrətli dövlət xadimi, xilaskar kimi bu gün mövcud olan müstəqil Azərbaycan dövlətinin təməlini qoydu. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi müasir tariximizin çox mühüm dönüş nöqtəsi oldu.

Heydər Əliyev Azərbaycan dövlətinin haqq səsini bütün dünyaya çatdırdı, müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratdı, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirdi, adını qızıl hərflərlə bəşəriyyət tarixinə yazdırdı. Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq ideyalarının bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ulu Öndərin zəngin təcrübəyə, parlaq zəkaya, ali liderlik qabiliyyətinə, yüksək siyasi idarəçiliyə əsaslanan siyasətinin həyata keçirilməsi nəticəsində mümkün oldu.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən, praqmatik siyasəti nəticəsində ölkəmizin dövlətçilik tarixinin şanlı səhifəsi yazıldı. Ümummilli Liderin ölkə rəhbərliyinə tarixi qayıdışından sonra Azərbaycanda dövlət və cəmiyyət həyatının, sosial-siyasi vəziyyətin saflaşdırılması, sağlamlaşdırılması prosesi başladı. Həmin qarışıq dövrdə dahi şəxsiyyət Heydər Əliyevin yüksək idarəçilik məharəti, siyasi uzaqgörənlik və sarsılmaz qətiyyəti vətəndaş müharibəsinin qarşısını aldı. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində də dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Ölkədə ordu quruculuğu, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, Ermənistan–Azərbaycan münaqişəsinin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi ilə yanaşı, işğal edilmiş torpaqlarımızı azad etməyə və Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə qadir güclü nizami ordunun təməli qoyuldu. Ulu Öndərin gərgin əməyi nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ hüquqi baza yaradıldı.

Bu gün Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan Respublikasının dövlət müstəqilliyi etibarlı əllərdədir. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın inkişafı, müstəqilliyi və gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan, ona arxa və dayaq olan Ümummilli Lider Heydər Əliyevin uzaqgörən, praqmatik siyasəti nəticəsində ölkəmizin dövlətçilik ta-

rixinin şanlı səhifəsi yazıldı.

Ulu Öndərin "Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!" kəlamı dahi şəxsiyyətin həyatının ana xəttini təşkil edib. 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin başıpozuqluğu, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması ilə üzləşdirmişdi. Ölkədə səriştəsiz idarəetmə nəticəsində bütün sahələri böhran bürümüşdü. Siyasi tariximizin çətin, mürəkkəb, keşməkeşli və qeyri-müəyyən dövründə, ölkədə vəziyyətin durmadan ağırlaşdığı və kəskinləşdiyi, inamın azaldığı, ümidlərin tükəndiyi bir vaxtda Ümummilli Lider xalqımız qarşısında ən böyük xidmətlərindən birini – xilaskarlıq missiyasını yerinə yetirdi. Heydər Əliyevin qayıdışı Azərbaycanın qurtuluşunu təmin etdi. Ümummilli Liderin zəngin dövlətçilik təcrübəsi və məqsədyönlü siyasəti sayəsində xaosun, vətəndaş qarşıdurmasının qarşısı alındı və sabitlik təmin edildi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycan müstəqilliyini itirmək təhlükəsindən azad etdi. Azərbaycanın inkişafı, müstəqilliyi və gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan, ona arxa və dayaq olan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini dövlət başçısı İlham Əliyev uğurla davam etdirir.

2003-cü ildən ötən dövrdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib, ölkəmizin dünya dövlətləri arasında nüfuzu artıb. Azərbaycanın qütblər arasında tranzit ölkəyə çevrilməsi bu qədim diyarda siyasi düşüncələrin, elmi fikirlərin, mədəniyyət-

lərin, dini baxışların dialoqunun baş tutmasını şərtləndirib. Azərbaycanın sürətli inkişaf dövrü məhz Ulu Öndərin hakimiyyətə ikinci dəfə gəlişi ilə başlayıb və bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyevin ötən illər ərzində həyata keçirdiyi uğurlu siyasətin bariz nəticəsi Azərbaycanın 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevrilməsi və ərazi bütövlüyümüzün birmənalı təsdiqi ilə özünü ifadə edir. İllərdir torpaqlarının 20 faizi düşmən tapdağı altında qalan Azərbaycan "Qarabağ Azərbaycandır!" reallığını cəmi 44 gün ərzində tarixə şərəflə həkk etdirdi. Müzəffər Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatları keçirərək işğal olunmuş ərazilərimizdən yağı düşməni qovdu, işğalçı Ermənistan hakimiyyətinə layiq olduğu yeri göstərdi. Bu savaş xalq-iqtidar birliyindən güc alan Azərbaycanın qüdrətinin, milli birliyinin sarsılmazlığının göstəricisi oldu. Eyni zamanda, Azərbaycan xalqının qazandığı zəfərin möhtəşəmliyi ölkə başçısı İlham Əliyevin mümkünsüzü mümkünə çevirmək qüdrətindən bəhrələndi. Bu qələbə son əsrlərin ən böyük qalibiyyəti, münaqişənin birdəfəlik bitməsi, Qarabağla yanaşı, Naxçıvanla kommunikasiyaların bərpası, dünya azərbaycanlılarının bir yumruq kimi birləşməsi ilə tarixə yazıldı.

Əlbəttə ki, qazanılan hər bir uğurumuzun, o cümlədən möhtəşəm Qarabağ Zəfərimizin kökündə, əsasında Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt dayanır. Milli və siyasi liderlik keyfiyyətlərinin dünya tarixində bir dövlət xadimində birləşməsi nadir hallarda rast gəlinir. Məhz bu iki keyfiyyəti özündə cəmləşdirən şəxslər xalqın ümumilli liderinə çevrilir. Heydər Əliyev Azərbaycan xalqının həm siyasi lideri oldu, həm də milli

lideri. Zaman-zaman yeniləşən nəsillər Ümummilli Liderin ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar.

**Ramin Məmmədov.** Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü öz siyasi məzmununa və tarixi əhəmiyyətinə görə yaşadığımız mürəkkəb coğrafiyada yeni mərhələnin başlanğıcı olub. 1993-cü ilin 15 iyunundan bizi ayıran zaman məsafəsinə indi əldə etdiyimiz nailiyyətlər kontekstində baxdıqda Ulu Öndərin hakimiyyətə gəlişinin tarixi-siyasi məzmununu daha dərindən təhlil etmək, qiymətləndirmək imkanı yaranır.

Hesab edirəm ki, Milli Qurtuluş Gününün ideoloji əhəmiyyətini, tarixi məzmununu iki vacib nəticəsinə görə qiymətləndirmək mümkündür. Birincisi, Ulu Öndərin hakimiyyətə gəlişi ilə ölkədə yaranan ictimai-siyasi sabitlik qlobal gücləri maraqlandıran nəhəng iqtisadi layihələrin həyata keçirilməsi üçün əlverişli şəraitin formalaşmasına gətirib çıxardı. Heydər Əliyevin liderlik keyfiyyətləri, beynəlxalq aləmdə nüfuzu, müdrik qərarları sayəsində Azərbaycan ağır bir tarixi dövrü geridə buraxmağa, öz resurslarını müstəqilliyin möhkəmləndirilməsinə səfərbər etməyə imkan tapdı.

Prezident İlham Əliyevin uğurla davam etdirdiyi Heydər Əliyev siyasəti ərazi bütövlüyümüzün təmin olunması ilə nəticələndi. Bu gün Azərbaycan regional proseslərdə ciddi söz sahibi, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi qəbul olunur.

İkincisi, 15 iyun, əslində, tarixi kontekstinə görə həm də türk dünyası üçün böyük əhəmiyyətə malikdir. Azərbaycanın məhv olmaqdan xilas edilməsi türkdilli ölkələr arasında əlaqələrin inkişafı, möhkəm təmələ əsaslanan

münasibətlərin qurulması üçün də yeni bir pəncərə açdı. Məhz bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsinin imzalanma tarixi həm də rəmzi məna daşıyır. Regionun bütün təhlükəsizlik konfiqurasiyasını dəyişən bu tarixi sənədin imzalanmasına gedən yol məhz 1993-cü ilin 15 iyunundan başlayır. Çünki Heydər Əliyev hakimiyyətə qayıtmasa idi, Azərbaycanı hansı faciələrin gözlədiyini təxmin etmək çətin deyil. Azərbaycan olmadan türk dünyasının birliyi heç zaman mükəmməl və tamamlanmış ola bilməzdi. Bu baxımdan, düşünürəm ki, milli qurtuluş tariximiz türk dünyası üçün Şuşa Bəynnaməsi qədər dərin tarixi-siyasi əhəmiyyət kəsb edir. Şuşa Bəyannaməsi 1921-ci il oktyabrın 13-də imzalanmış Qars müqaviləsinə iki dost və qardaş ölkənin sadiqliyinin təcəssümü kimi bizim ortaq tariximizin ən böyük hadisələrindən biridir.

Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə əldə olunmuş uğurların yaratdığı möhkəm təməl Azərbaycanı yeni bir tarixi dövrün astanasına gətirib. Cənab Prezidentin də dəfələrlə öz çıxışlarında qeyd etdiyi kimi, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıb. Azərbaycanın güclü olması isə, bütövlükdə, yaşadığımız regionda sülhün və tərəqqinin ən etibarlı təminatıdır. Təsadüfi deyil ki, bu gün artıq qlobal güc mərkəzləri də Azərbaycanın rolunu, geosiyasi proseslərdə sabitləşdirici faktor olması faktını etiraf edirlər. Hesab edirəm ki, bu, böyük tarixi nailiyyətdir və Milli Qurtuluş Gününün Azərbaycan xalqı üçün ictimai dəyərinin, tarixi-siyasi əhəmiyyətinin ən mühüm göstəricisidir.

**Rauf Əliyev.** Ümummilli Lider Heydər Əliyev Azər-

baycanın xilaskarıdır. Görkəmli siyasi və dövlət xadimi, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı misilsiz xidmətləri dövlətçilik tariximizin ən parlaq səhifələrini təşkil edir və illər ötsə, nəsillər dəyişsə də, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır. Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə, 1969–1982-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır.

Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər.

Sovet dövründə ilk dəfə olaraq ölkəmizin və xalqımızın mənafeyini qarşıya məqsəd qoyaraq bütün addımları məhz Azərbaycanın gələcək inkişafına yönəlmiş siyasətə start verilmişdir. Belə ki, bu dövrdən respublikamızda görünməmiş inkişaf və yüksəliş, eləcə də tikinti-quruculuq işləri başlamışdır. Bu siyasət nəticəsində respublikamızda bütün sahələrdə, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edilmiş, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edilib istifadəyə verilmişdir. İldən-ilə yeni yaşayış massivləri, qəsəbə və kəndlər salınmış, məktəblər, uşaq baxçaları, universitetlər açılaraq xalqın istifadəsinə verilmişdir.

1991-ci ilin oktyabr ayında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkədə daxili vəziyyət son dərəcədə gərginləşmişdi, hərc-mərclik baş alıb gedirdi. Ölkədə hakimiyyət böhranı yaranmışdı. Hakimiyyətdə olan

Xalq Cəbhəsi ölkəni daha dərin uçuruma aparırdı. 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Xalqın tələbi ilə respublikanın belə ağır günündə Azərbaycan xalqının görkəmli oglu, Ümummilli Lider Heydər Əliyev Bakıya gəldi. Ulu Öndər az bir zaman ərzində vətəndaş müharibəsi təhlükəsinin qarşısını aldı. 1993-cü ilin iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bununla da 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Əgər həmin məqamda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, kim bilir, dövlətimizi, xalqımızı daha hansı faciələr gözləyirdi.

Dövlət müstəqilliyinin qorunub saxlanılması ilə bağlı Ulu Öndər Heydər Əliyev demişdir: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir". Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi, mədəni həyatında, xarici siyasət sahəsində dönüş yaradılıb və müstəqil dövlət quruculuğu prosesinə başlanılıb. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsində bir tərəfdən milli ordunun formalaşması, müdafiə qabiliyyətinin gücləndirilməsi üçün mühüm addımlar atılmış, digər tərəfdən atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələrdən istifadə olunmuş, bununla da 1994-cü ilin may ayında ölkəmiz üçün həyati əhəmiyyətə malik atəşkəs rejiminə nail olunmuşdur.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin inkişafında növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi Azərbaycan iqtisadiyyatını gücləndirir. Azərbaycan dövləti "Əsrin müqaviləsi"nin icrasına bir

manat vəsait qoymayıb. Mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərcə milli kadr yetişib. Bu gün "Əsrin müqaviləsi"nin icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da ölkəmizə böyük əlavə üstünlük verir.

Ulu Öndər Heydər Əliyevin neft strategiyasının əhəmiyyətini qeyd edən cənab Prezident İlham Əliyev bildirmişdir ki, bu strategiya bu gün imkan verir, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin müqaviləsi", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir.

1993–2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf illəri kimi daxil olub. Ulu Öndər Heydər Əliyev demişdir: "Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşüb və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaq".

2003-cü ildən sonrakı dövrü böyük yolun davamı kimi dəyərləndirən cənab Prezident İlham Əliyev 2003-cü ildə xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Prezident seçildiyi vaxtdan Heydər Əliyev siyasətini layiqincə yaşatmaqla yanaşı, həyata keçirdiyi düşünülmüş və balanslaşdırılmış siyasi kursu ilə Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirir. Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev xalqımızın tarixi keçmişinin, müstəqillik tarixinin öyrənilməsi və gələcək nəsillərə çatdırıl-

ması kimi məsələləri daim diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Ulu Öndərin yeni neft strategiyasının uğurla reallaşması və inkişaf etdirilməsi, yeni sosial-iqtisadi layihələrin həyata keçirilməsi, regionda, eləcə də dünyada cərəyan edən proseslərə dövlət başçısının müdrik siyasi baxışları Azərbaycanın dövət müstəqilliyinin daha da möhkəmləndirilməsinə və dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. 2003-cü ildən başlayaraq cənab Prezident İlham Əliyev tərəfindən yeni tarixi şərait, reallıqlar müdrikcəsinə qiymətləndirilərək müəyyənləşdirilən və həyata keçirilən siyasət nəticəsində Azərbaycan dünyanın hərtərəfli, sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilmişdir.

Ötən illlər ərzində cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan çox böyük uğurlara imza atıb. Əlbəttə, bu uğurların başında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 gün davam edən, işğal altında olan torpaqlarımızın azad olunması uğrunda aparılan Vətən müharibəsində əldə olunan tarixi Zəfərdir. Müstəqil daxili və xarici siyasət yürüdən Azərbaycanın yalnız regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə kimi tanınması, Azərbaycan Prezidentinin həyata keçirdiyi müdrik çoxşaxəli siyasət, qazanılan bütün uğurlar əminliklə düşünməyə əsas verir ki, dövlət müstəqilliyi bir də heç vaxt əldən verilməyəcəkdir, əbədi olacaqdır.

Müstəqilliyimizin on ili – 1993–2003-cü illər ərzində dahi Heydər Əliyev "siyasət mümkün olanı etmək deyil, mümkünsüzü bacarmaq sənətidir" məşhur kəlamda söylənildiyi kimi, düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müs-

təqilliyini dönməz, əbədi və daimi etdi. Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. O inkişaf ki sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının və dövlətçilik fəaliyyətində müstəsna xidmətləri olan bir şəxsiyyətdir. Sovetlər birliyinin dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra dilindən, dinindən və milli-mənəvi dəyərlərindən asılı olmayaraq, bütövlükdə, dövlətçilik ənənələrinin formalaşdırılmasında mühüm işlər görmüş Ulu Öndər sonralar 1990-cı illərin əvvəllərindən başlayaraq ölkəmizdə azərbaycançılıq ideologiyasının mühüm elementlərinin inkişaf etdirilməsində əvəzsiz işlər görməklə tarixə düşmüşdür. Azərbaycançılıq ideologiyası, xüsusən də yeni müstəqillik əldə etmiş respublikanın hüquqi və demokratik dövlət kimi möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün Ulu Öndər tərəfindən irəli sürülmüş əvəzedilməz bir ideologiyaya çevrilmişdir.

"Azərbaycançılıq" termininin yaranmasında əsas ideologiya ölkədə yaşayan müxtəlif etnik qrupları və xalqları dövlətin ümumi mənafeyi ətrafında birləşdirmək olmuşdur. Belə ki, bu terminin işlədilməsi, əsasən, Sovetlər Birliyindən sonra rast gəlinsə də, sözügedən ideologiyasının müstəqillik illərində daha öncə ölkədə yaşayan müxtəlif xalqların, millətlərin fərqli mədəniyyətləri və adət-ənənələrini qoruyub saxlayaraq, xalqların mədəni müxtəlifliyini həm müdafiə, həm də birgə inkişaf etdirmək dövlətin inkişafı istiqamətində atılmış bir addım kimi böyük rol oynamışdı. Qeyd etmək yerinə düşər ki, hələ Ulu Öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə,

1969–1982-ci illərdə Azərbaycanda məhz onun rəhbərliyi ilə Azərbaycan dilinin əhəmiyyəti artmış və ana dilinə olan diqqət və qayğı, eləcə də dövlət qurumlarında azərbaycanlıların yüksək vəzifələrə gətirilməsi və bu kimi bir çox misalları gətirmək olar.

Həmin dövrdə Azərbaycanda ən qabaqcıl texnologiyanın istehsalı, elmin qabaqcıl nailiyyətlərinin istehsalata tətbiqi, yüzlərcə gəncin Sovet İttifaqının ən nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsi, böyük alim ordusunun yetişməsi, xalq təsərrüfatının dinamik inkişafı, mədəniyyətin çiçəklənməsi, təhsilin inkişaf etdirilməsi sürətlə gedirdi. Ulu Öndər Heydər Əliyevin gerçəkləşdirdiyi bu siyasətin təməlində Azərbaycanın gələcəyi, milli dövlətçilik düşüncəsinin dayandığını, azərbaycançılıq ideologiyasını illər ötdükdən sonra, artıq Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra daha aydın anlaşılacaqdı. Belə ki, azərbaycançılıq ideologiyası bir termin kimi yaranma tarixi 1990-cı illərin əvvəllərinə təsadüf etsə də, qürurla qeyd edə bilərik ki, istər sovet dövründə, istərsə də Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ölkədə azərbaycançılıq ənənəsinin formalaşmasının əsası məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu günə qədər Ulu Öndərin ideyalarının layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Təkcə təhsil sahəsində aparılmış dövlət siyasətinə diqqət yetirsək, görərik ki, 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali təhsil məktəblərində təhsil almağa göndərilmişdir. Bunun nəticəsi kimi ötən əsrin 70-80-ci illərində Ulu Öndərin təşəbbüsü ilə 15 mindən çox azərbaycanlı SSRİ-nin 170 universitetində təhsil almışdır. Tarixi faktları araşdırarkən

bəlli olur ki, əvvəlki illərdən fərqli olaraq qeyd etdiyimiz dövrdə xarici universitetlərdə təhsil alan tələbələrin milli tərkibi 97,7 faiz azərbaycanlılardan ibarət olmuşdur. Müqayisə üçün qeyd edilməlidir ki, əvvəlki illərdə respublikadan kənarda təhsil almağa göndərilənlər arasında etnik azərbaycanlıların payı cəmi 40 faizə çatırdı. Vaxtında atılmış addımlar sonralar olkəmizin müstəqilliyi bərpa edildikdən sonra Azərbaycana güclü milli kadr potensialına malik olmağa imkan vermişdir.

Sovet dövründə ilk dəfə olaraq ölkənin və xalqın mənafeyini qarşıya məqsəd qoyaraq bütün addımların məhz Azərbaycanın gələcək inkişafına yönəldilməsi siyasətinə start verilmişdir. Belə ki, bu dövrdən başlayaraq ölkədə bu vaxta qədər görünməmiş inkişaf və yüksəliş, eləcə də tikinti-quruculuq işləri başlanılmışdır. Respublikanın bütün sahələrində, siyasi və mədəni həyatında uğurlu layihələr icra olunaraq Azərbaycanda yeni həyat və inkişaf başlamışdır. Bu inkişaf nəticəsində tezliklə respublikanın bütün sahələrində, iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edilmiş, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edilmişdir. İldən-ilə yeni yaşayış massivləri, qəsəbə və kəndlər salınmış, məktəblər, uşaq bağçaları, universitetlər açılmışdır. Respublikamız üçün böyük əhəmiyyət kəsb edən yeni saraylar, yaraşıqlı binalar və şəhərə gözəllik verən yaşıllıqlar salınmışdır.

Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra azərbaycançılıq ideologiyasının davam etdirilməsində əsas məqsəd, xüsusi ilə müstəqilliyin ilk illərində ölkədə baş verən ifrat millətçilik və separatçılıq mühitində dövlətçiliyi düzgün inkişaf etdirməkdən ibarət idi. 1990-ci illərin əvvəllərində elə təzəcə müstəqilliyini qazanmış

Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzü, dərin siyasi, iqtisadi və sosial böhranla üzləşmişdi. Ölkənin düşdüyü belə bir şəraitdə Azərbaycan xalqı xilaskar kimi Heydər Əliyevi gördü və onu ölkəyə rəhbərlik etməyə dəvət etdi.

Ötən illər ərzində Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə sadiq qalmış və onu inkişaf etdirmişdir. Belə ki, 1988-ci ildən Ermənistanla Azərbaycan arasında davam edən müharibə nəticəsində 20 faiz Azərbaycan torpaqlarının işğal faktını heç vaxt qəbul etməyən Azərbaycan münaqişənin birdəfəlik köklü həll olunması və ərazilərin işğaldan azad olunaraq köçkün və qaçqın soydaşlarımızın öz torpaqlarına geri qayıtması tələb kimi ortaya qoyulmuşdur. Bunun nəticəsi olaraq 2020-ci ildə 44 günlük müharibə dövründə biz Azərbaycan xalqının bir an belə dayanmadan necə vahid bir gücə çevrildiyinin və böyük əzm ilə vətəndaş borcunu göstərərək müzəffər orduya rəhbərlik edən cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək "Dəmir Yumruğa" çevrildiyinin şahidi olduq. Məhz azərbaycançılıq ideologiyası 30 ildən bəri davam edən münaqişənin bitməsinə və Azərbaycanın qələbə çalmasına yol açdı.

Biz bundan sonra da azərbaycançılıq məfkurəsinin davam və inkişaf etdirilməsini, milli-mənəvi dəyərlərimizi, eləcə də adət-ənənələrimizi daim yaşadaraq vahid bir ideologiya ətrafında birləşdirməli və azərbaycançılığı Azərbaycan dövlətinin milli siyasi məfkurəsinə çevirməliyik.

Ulu Öndər Heydər Əliyevin bütün uğurların fövqündə duran məslək, milli ideya və qüdrətli məfkurə–azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərlərin qorunması,

təbliğ edilməsi sahəsində irəliləyişlərin rəhni baxımından mükəmməl bir ideologiya və dəyərli ideya kimi Azərbaycan reallığında bərqərar olmuş və Ulu Öndərin layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

**Sadiq Qurbanov.** Bu gün yubiley münasibəti ilə əlaqədar keçirilən plenar iclasda Heydər Əliyevin dövlətçilik təlimində azərbaycançılıq ideologiyası haqqında danışmaq istəyirəm.

İnsanların hər biri ömrünü bir zaman kəsiyində yaşayır, zamanın diqtəsi ilə hərəkət edirlər. Lakin tarixdə elə şəxsiyyətlər var ki, onlar vaxtdan ucada dururlar, zamana sığmırlar, zamanın gərdişini dəyişirlər. Bu gün nuruna toplaşdığımız şəxsiyyət Ümummili Lider Heydər Əliyev məhz belə şəxsiyyətdir. Heydər Əliyev siyasətdə zəmanənin ruhunu tutmaq və şəraitə uyğun hərəkət etmək qabiliyyətinə malik idi. Onda hadisələrin gedişini izləmək, qabaqcadan görmək və qərarları lazımi məqamda vermək istedadı vardı. Siyasəti empirik elm kimi əsaslandıran, öz təlimi ilə öz dövrünü xeyli qabaqlamış İtaliya filosofu Makiavelli göstərirdi ki, siyasətin ali məqsədi, əsas problemi zamanın xarakterinə və qərar qəbul olunan məqamda spesifik şəraitə uyğun gələn hərəkət obrazını tapmaqdan ibarətdir. Buradan çıxış edərək o yazırdı ki, siyasət ümumi sərəncamların, sadəcə, mənimsənilməsi ilə başa çatmır. Burada mücərrəd danışmaq olmaz, çünki şəraitdən asılı olaraq hər şey dəyişir.

Heydər Əliyevin siyasət fəlsəfəsində siyasi əxlaqın ali tələbləri dövlət, xalq maraqlarına tabedir. Makiavelli hələ öz dövründə dövlət mənafeyini, vətənin xilası kimi anlayaraq yazırdı ki, "söhbət vətənin xilasından gedəndə hər şeyi unudub onun mövcudluğunu və azadlığını qorumaq

lazımdır". Heydər Əliyevin dahiyanə zəkası, kompleks siyasət yeritməsi, müdrik siyasət fəlsəfəsi düşüncələrə hakim kəsilmişdir.

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təfəkkürü tarixi şüura əsaslanır. Bu konteksdən yanaşdıqda görürük ki, dahi rəhbərin siyasəti dünyada gedən qloballaşma, demokratiya, insanların düşüncələrində baş verənləri nəzərə alaraq, azərbaycanlıların etnik qurumdan siyasi millətə keçməsi xarakteristikasını ön plana çəkirdi. Müasir politoloqlar siyasi milləti milli inkişafın yüksək zirvəsi hesab edirlər. Məlumdur ki, millətin mövcudluğu onun milli şüur səviyyəsi ilə əlaqədardır. Milli şüurun iki səviyyəsini göstərirlər. Milli şüurun ilkin səviyyəsi etnik şüur mərhələsidir ki, buraya milli dil və mədəniyyət, maddi-məişət ünsürləri, milli psixoloji hisslər, milli-mənlik şüuru, milli xarakter, milli mentalitet və sair daxildir. Bu məqamda xüsusi qeyd etmək istərdim ki, Heydər Əliyev siyasi düşüncəsinin formalaşmasında erkən və orta əsr türk dünyasında ömür yaşamış sərkərdələrimizin siyasi baxışlarından xüsusi məharətlə bəhrələnmişdir. VI əsrdə Göytürk xaqanı olmuş Qara İssık xanın oğlu Şetunun Çin xaqanının məktubuna cavabına diqqət yetirək: "Sizə hər il vergi göndərəcəyəm, bütün vaxtımı sizə sərf edəcəyəm, sözünüzü dinləyəcəm. Ancaq paltarlarımızın ətəklərini kəsməyə, çiyinlərimizdə dalğalanan saçlarımızı kəsməyə, dilimizi dəyişdirməyə və sizin qanunlarınızı mənimsəməyə gəlincə isə, bizim ənənələrimiz, qədimdən qalma adətlərimiz çox uzaq keçmişlərdən gəlir, mən özüm də indiyə qədər bunlardan tək bircəsini belə dəyişdirməyə cürət etməmişəm. Ona görə ki, bütövlükdə, türk xalqı eyni qəlbin yiyəsidir".

Ulu Öndər Heydər Əliyev çıxışlarının birində milli

dövlətçilik şüurunun formalaşması kontektində tarixi məsələlərə öz konseptual baxışını belə ifadə edir: "Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlər Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr, 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçmişdir. Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik".

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik düşüncəsinin mayasını müstəqillik ideyası təşkil edir. Heydər Əliyev müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünü dərk etməsinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünəri ilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmkar mübarizə aparırdı. Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanlarımızın istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başla-

maqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub-yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Heydər Əliyev milli şüurda formalaşdırılan yeniləşmədə milli bütövlüyün, milli özünüdərkin təməlini qoydu. Heydər Əliyev dövlətçilikdə müstəqillik ənənələrinin möhkəmlənməsində tarixi varislik kontekstində yeni ideoloji konsepsiya irəli sürürdü. Bu konsepsiya azərbaycançılıq ideologiyası idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Heydər Əliyevin yaratdığı konsepsiya tarixi şüura əsaslanırdı. Odur ki, yeni konsepsiya tarixi varislik və yeni siyasi şərait konteksində qiymətləndirilməlidir.

1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında ilk dəfə geniş ictimaiyyət qarşısında çıxış edən Heydər Əliyev aşağıdakı fikirləri söyləməklə respublika rəhbərliyini ölkənin formal deyil, real müstəqillik yolu tutmağa, aydın ideoloji konsepsiya yaratmağa səsləyir. O, qeyd edir: “Məmməd Əmin Rəsulzadə partiyasının ideyasını təmsil edən bayraqla ona zidd olan ideyanın banisinin büstünün sessiya keçən salonda yan-yana durması da təəccüb doğurur. Sadəcə desək, bu uyğunsuzluğu anlamaq çətindir. Bəlkə buna bir izahat vermək lazım idi?”.

Heydər Əliyevin irəli sürdüyü müstəqil ideoloji konsepsiya tarixi varisliyə əsaslanır. O, özünü ADR-in varisi elan edən bir respublikanı Sovet imperiyasına aydın münasibət bəsləməyə çağıraraq deyir: “28 May Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 1918-ci il mayın 28-də ilk Azər-

baycan Demokratik Respublikası yaranmışdır. Belə olan halda bu hadisəyə və 1920-ci il 28 aprel hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun. İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət, öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsının sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?”.

Heydər Əliyevin müstəqil dövlət konsepsiyası tezisləri Heydər Əliyev siyasi fəlsəfəsinin mayasını təşkil edən dövlət müstəqilliyi konsepsiyası onun həyat amalına çevrilmişdir. Heydər Əliyevin müstəqil dövlət konsepsiyasının əsasını aşağıdakılar təşkil edirdi:

1) Dövlət müstəqilliyi;
2) Demokratiya, siyasi plüralizm, şəffaflıq;
3) Hüququn aliliyi;
4) Sosial ədalət.

Heydər Əliyev hər bir çıxışında tarixi məsuliyyəti dərk etməyə, azadlıq və istiqlaliyyətimizin əldə olunmasında bütün gücümüzü səfərbər etməyə çağırırdı: “Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında dü-

şünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır. Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Tarix subut edir ki, milli ideologiya xalqların özünüdərk prossesində və dünya xalqları içərisində öz yerini müəyyənləşdirməsində əsas faktordur. Dövlət xalqın qalxanıdır. Dövlət olmadan xalq özünü realizə edə bilməz. Dövlət-xalq vəhdətini yaratmaq üçün isə hökmən ideologiya lazımdır. Heydər Əliyevin dövlətçilik təfəkkürü bunu realizə etməyə imkan verirdi və məhz bu təfəkkürlə o azərbaycançılıq ideologiyasını yarada bildi.

Bəs nə idi Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideologiyası? İlk növbədə qeyd edim ki, Heydər Əliyevin azərbaycançılıq ideologiyası ona qədər mövcud olan idealogiyaları – turançılıq, türkçülük və islamı eyni uğurla ehtiva edərək yeni məna və məzmun ifadə edir.

Millilik, dövlətçilik, müstəqillik və dünyəvilik görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik ideologiyasının əsaslarını təşkil edir. Heydər Əliyev azərbaycançılıq ideologiyasını müstəqil dövlətçilik ideologiyasına çevirməyə nail olaraq dövlət müstəqilliyimizin ideya-siyasi istiqamətini bəyan edir.

Azərbaycan dili, Azərbaycan xalqı və müstəqil Azərbaycan dövlətçiliyi anlayışlarından hər biri Heydər Əliyev tərəfindən müəyyən edilmiş azərbaycançılıq ideologiyasının əsas atributlarıdır. Heydər Əliyevin müstəqil ölkəmizdə dövlət dili anlayışına müstəqil dövlətçilik nöqteyinəzərindən qiymət verməsi nəticə etibarı ilə Azərbaycan

xalqı amilinin mahiyyətinin açılmasına işıq salmışdır. Heydər Əliyevin Azərbaycan dili və Azərbaycan xalqı təlimi ölkəmizdə ümummilli birlik və həmrəylik yaratmağın nümunəsidir. Ulu Öndər Heydər Əliyevin kəşf etdiyi azərbaycançılıq ideologiyası, sözün əsl mənasında, mükəmməl bir milli birlik platformasıdır.

Heydər Əliyev fenomenində Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələri zəminində tarixi varislik və şəxsiyyətin miqyası özünü parlaq nümunəsində göstərir.

XXI əsr Azərbaycanın tarixində iqtisadi, mədəni, siyasi, diplomatik istiqamətlərdə baş verən bütün transformasiyaların, modernləşmə proseslərinin, möhtəşəm inkişafın arxasında qüdrətli bir liderin dayandığı, yeni tipli bir görkəmli dövlət xadiminin respublikaya uğurla rəhbərlik etdiyi danılmaz faktdır.

Heydər Əliyevin kompleks yanaşma prinsipinin İlham Əliyev tərəfindən çoxaspektrli yanaşma, çoxvektorlu inkişaf metodu ilə əvəzləməsi, əslində, həm də siyasi varisliyin günümüzdəki yeni modeldə təzahürü kimi dəyərləndirilməlidir. Prezident İlham Əliyevin çevik idarəçilik modelinin və praqmatik siyasətinin mahiyyəti ölkəmizdə qazanılan böyük nailiyyətlərin və dünya birliyində əldə edilmiş mühüm nəticələrin təzahürüdür.

Heydər Əliyev irsini ən yaxşı əxz etmiş siyasətçi, peşəcə tarixçi, diplomat olan cənab İlham Əliyevin söylədiyi səciyyəvi fikirlər maraq doğurur: “Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq... Azərbaycanda bu siyasətin alternativi yoxdur”.

Heydər Əliyevin qəbul etdiyi azərbaycançılıq ideolo-

giyası Azərbaycanın uğurlu gələcəyinin təminatçısıdır!

**Sevil Mikayılova.** 15 iyun əzəmətli tarixdir. Məhz bu tarixdə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı və Azərbaycan xalqını üzləşdiyi tarixi bəladan xilas etdi. Milli Qurtuluş Günü kimi qeyd etdiyimiz bu tarix Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, möhkəmlənməsi və inkişafı naminə Ulu Öndərin iradəsini və öz xalqına məhəbbətini ifadə edir. Heydər Əliyevin hakimiyyətə qayıdışı uzun illər təhlil edəcəyimiz hadisədir, fenomen şəxsiyyətin zamanı dərk və iti qərar qəbul etmək qabiliyyəti bir xalqın taleyini dəyişdi, dövləti və dövlətçiliyi qoruyub saxladı, aydın yola cıxardı.

1993-cü ilin hakimiyyət böhranı ölkədə həyatın bütün sahələrini iflic vəziyyətinə salmışdı. Yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmış Azərbaycan xaos, özbaşınalıq, anarxiya burulğanında boğulurdu. Müstəqilliyimizin bərpası tarixi nailliyət idi, lakin o zamankı hakimiyyətin siyasi səriştəsizliyi ucbatından ölkə parçalanmaq və müstəqilliyini itirmək həddinə çatmışdı. Azərbaycanın əzəli torpaqları Ermənistan tərəfindən işğal olunurdu, gənc respublika günü-gündən zəifləyir, insanların ümidi tükənirdi. Ən dəhşətlisi odur ki, nəticədə ölkə idarəolunmaz vəziyyətə düşdü, vətəndaş müharibəsi təhlükəsi yarandı. Vəziyyətin dramatik hal aldığını görən ölkə rəhbərliyi çıxış yolunu xalqı dəhşətli faciə içərisində qoyub qaçıb gizlənməkdə gördü.

Heydər Əliyev hakimiyyətə özünəməxsus mərdliklə qayıtdı, qorxmadan, çəkinmədən, özünü yox, xalqını və vətənini hər şeydən üstün tutaraq. Uca Tanrının himayəsi və xalq sevgisi ilə. Belə bir çətin və mürəkkəb bir tarixdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu,

respublikada hököm sürən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhv olmaqdan və parçalanmaqdan xilas etdi. Bu tarixi minnətdarlıq hissi ilə xatırlayırıq.

Xüsusi qeyd etmək lazımdır ki, Ulu Öndər ilk olaraq qanunsuz silahlı birləşmələrin qiyam qaldırdığı Gəncəyə getdi. Səfər olduqca təhlükəli idi. Onu isə yalnız bir qrup jurnalist müşahidə edirdi. Gəncəlilər dahi xilaskarı – Ulu Öndəri böyük izdihamla, gül-çiçəklə, ehtiramla qarşıladılar. Xalq əmin idi ki, ölkəni bu çətin vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər. Böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik 1993-cü ilin 15 iyun – Milli Qurtuluş Günü Azərbaycanın siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Atəşkəsin imzalanması ölkəyə investisiya axınını artırmağa imkan yaratdı. Ən əsası dünyanın aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı, Azərbaycanın iqtisadi müstəqilliyinin bünövrəsi qoyuldu. Ulu Öndər xalqımızı işıqlı yola çıxardı.

Onun ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. İftixar hissi ilə qeyd edirik ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğal altındakı torpaqlarımızı azad edərək, xalqımızın 30 illik doğma yurd-yuva həsrətinə son qoydu. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. O müdhiş tarixi yaşamış, gələcəyi üçün ümidsizlik və qeyri-müəyyənlik sindromu ilə üz üzə qalmış, dövlətçiliyini itirmək qorxusu ilə rahatlıq tapmayan insanlarımız bu gün qurtuluş salnaməsini yaratmış

böyük şəxsiyyəti dərin hörmətlə anır. Məsud, güclü, təhlükəsiz Azərbaycan Ulu Öndər Heydər Əliyevin həyatını həsr etdiyi ali missiyanın zirvəsidir. Bu il 100 illik yubleyini qeyd etdiyimiz dahi liderin uca ruhunu ehtiramla yad edirik. Azərbaycan durduqca onun ideyaları var olacaq!

**Sevinc Fətəliyeva.** Tarix özünün yaratdığı dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Azərbaycan xalqı özünü bütünlüklə xoşbəxt saya bilər ki, onun XX əsrin son 30 ilinə və XXI əsrin əvvəlinə təsadüf edən tarixi və taleyi Ümummilli Lider Heydər Əliyevin şəxsiyyəti və onun əzəmətli ideyaları üzərində qərar tutur. Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə müasir tariximizin bu həqiqəti, Azərbaycanın indiki əzəmətli inkişafı fonunda daha aydın, daha bariz şəkildə qavranılmaqdadır.

Müasir Azərbaycan tarixindən söhbət düşəndə ilk öncə gözümüzün önündə bütün həyatını xalqının xoşbəxtliyinə həsr edən Heydər Əliyev canlanır. Özünün dediyi kimi, azərbaycanlı olması ilə daim qürur duyan bu böyük şəxsiyyətin həyatının 40 ildən artıq bir dövrü ölkəmizin tərəqqisi naminə apardığı mübarizəyə həsr olunub. Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxardı. Ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

Azadlıq, müstəqillik hər bir xalq, dövlət üçün ən müqəddəs nemətdir. Ulu Öndər Heydər Əliyevin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisi hər bir dövr üçün aktuallığını qoruyur, birliyə, həmrəyliyə, bir çağırış kimi önə çəkilir. Biz azadlığımız, müstəqilliyimiz naminə ağır sınaqlardan keçmişik. Lakin unutmayaq ki, qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.

Sabah xalqımız qürur duyduğu bir tarixi günü, Milli Qurtuluş Gününü qeyd edəcək. Bu münasibətlə hər birinizi təbrik edir və qeyd etmək istəyirəm ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyunu onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən, həmin çətin və ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu qürur tarixini yaradan isə bu il 100 illiyini qeyd etdiyimiz, Azərbaycanın inkişafında, möhkəmlənməsində, dünyaya tanıdılmasında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan dahi şəxsiyyət Heydər Əliyevdir.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibə-

sindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi.

O dövrdə dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən milli ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu sazişdən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və sair əldə edildi.

Təbii ki, bu uzaqgörən siyasətin reallaşması nəticəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu və tezliklə regionun lider dövlətinə çevrildi. Eyni zamanda, Azərbaycan dünyada söz sahibi olan dövlət kimi özünü təsdiq etdi.

Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik

islahatlar yoluna çıxardığı Azərbaycan hazırda onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətə çevrilmişdir. Ali Baş Komandanımız İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi nəticəsində 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olundu, Azərbaycan xalqı dünyada qalib və qürurlu xalq kimi tanındı. Sözsüz ki, qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Azərbaycanın inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal mərkəzə çevirməkdədir. İlk növbədə siyasi sahədə qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini respublikamıza yönəldə bilib. Ölkəmiz beynəlxalq birliyin müstəqil üzvü kimi öz mənafelərini qarşılıqlı hörmət prinsipi çərçivəsində həyata keçirir. Bu isə Azərbaycanın müstəqil inkişafını təmin etməklə yanaşı, öz gücünə inamını, eləcə də ölkəmizə olan etimadı artırır. Eyni zamanda, Azərbaycan təkcə siyasi, iqtisadi məsələlərdə deyil, humanitar, mədəni sahələrdə də yeni qlobal mərkəz rolunu oynayır.

Bu gün Azərbaycan ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasındadır. Ölkəmizdə bütün sahələrin inkişafına təkan verən mühüm amillərdən biri olmaq etibarı ilə ictimai-siyasi sabitlik həm də milli təhlükəsizliyimizin qarantı qismində çıxış edir. Birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycanda hökm sürən

ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər və nəticələr deyilənləri təsdiq edir.

Bütün bu uğurların əsasında yenidən keçdiyimiz yola nəzər salır və bir daha vurğulayırıq ki, illər ötəcək, nəsillər dəyişəcək, lakin hər zaman dahi şəxsiyyət, müasir Azərbaycanın memarı Heydər Əliyev eyni sevgi, hörmət və ehtiramla xatırlanacaqdır.

**Sevinc Hüseynova.** Xalqımızın və dövlətimizin tarixinin ən əhəmiyyətli günlərindən biri olan Milli Qurtuluş Günü ərəfəsindəyik. Bu günü Azərbaycan xalqı böyük coşqu hissi ilə qeyd edir. Bu gün qüdrətli Azərbaycanın vətəndaşı olaraq o vaxtkı hadisələrdən danışmaq asandır. 30 il öncə isə xalqımız tarixinin ağrılı günlərini yaşayırdı, yenicə müstəqilliyinin bərpasına müvəffəq olmuş Azərbaycanda dərin böhran hökm sürürdü. Belə bir taleyüklü şəraitdə həmin dövrün mövcud iqtidarı müstəqilliyi saxlamaq gücündə deyildi. Azərbaycan, həmçinin Ermənistanın işğalçılıq siyasətinə qarşı apardığı mübarizədə uduzurdu.

Bütün bunların nəticəsində cəmiyyət sarsıntı içində idi. Xalq sabah nə baş verəcəyindən narahatlıq hissi keçirirdi. Xüsusi ilə 1992-ci ilin mayında Şuşa və Laçının işğala məruz qalması, eyni zamanda, həmin faciəli hadisələrdən az sonra hakimiyyətə gələn yeni iqtidarın ölkəni idarə etmək gücündə olmaması mövcud şəraiti daha da ağırlaşdırmış, hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına

düşmüşdü.

Bir tərəfdən, Ermənistanın torpaqlarımızı işğal etməsi, digər tərəfindən, ölkə daxilində siyasi böhran, xaosun hökm sürməsi Azərbaycanı ciddi təhlükələrə doğru sürükləyirdi. AXC–Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməlləri, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: “Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də, daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri 1 ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı”.

Belə bir şəraitdə cıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Heydər Əliyevin simasında görürdü. Cəmiyyətimizdə böyük nüfuz sahibi olan ziyalılar, ictimai-siyasi xadimlər tərəfindən Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək YAP yaradılmışdır.

Bildiyiniz kimi, o zaman nüfuzlu ziyalılar, ictimai-siyasi xadimlər tərəfindən partiya yaradılması üçün Ulu

Öndər Heydər Əliyevə müraciət edilməsi heç də təsadüfi deyildi. Dahi şəxsiyyətin siyasi təcrübəsi, biliyi, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə isə əsl vətənpərvərlik və xalqa sadiqlik nümayiş etdirməsi Azərbaycanın mütərəqqi düşüncəli insanlarının onun ətrafında sıx birləşməsi zərurəti yaradırdı. Burada, şübhəsiz ki, Ulu Öndərin 1970–1980-ci illərin əvvəllərində gördüyü işlər də xüsusi önəm daşıyırdı.

Yeri gəlmişkən, Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dönəmində Azərbaycan keçmiş Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə ilk sıralarda qərarlaşmışdı. Azərbaycan donor respublika səviyyəsinə yüksəlmiş, sənaye və kənd təsərrüfatı sahələrində möhtəşəm uğurlar əldə etmişdi. Bütün bunlarla bərabər, Heydər Əliyevin qətiyyəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizə aparması da bu dahi şəxsiyyətə xalq sevgisi qazandırmışdı.

Digər mühüm amil isə Heydər Əliyevin Naxçıvan dövrü ilə bağlı idi. Belə ki, həmin vaxt Naxçıvan həm Ermənistanın, həm də o vaxtkı Azərbaycan rəhbərliyinin əsassız hücumlarına, təqiblərinə məruz qalırdı. Muxtar respublika blokada şəraitində yaşayırdı. Belə bir mühitdə sosial problemlərin ağırlığı altında əhali Heydər Əliyev amilini nəzərə alıb, bütün çətinliklərə sinə gərirdi. Digər tərəfdən, erməni faşizmi də muxtar respublikada öz istəklərinə nail ola bilmirdi. Halbuki Qarabağdan sonra onların növbəti hücum hədəfi Naxçıvan idi. Lakin buna baxmayaraq, dahi şəxsiyyətin rəhbərliyi ilə əhali Naxçıvanı qoruya bildi, ayrı-ayrı vaxtlarda düşməni yerinə oturtmağa nail oldu.

Xususi qeyd etmək istərdim ki, o zaman Naxçıvan

erməni məkri, Azərbaycan rəhbərliyinin ögey münasibəti nəticəsində blokada vəziyyətinə düşmüşdü. Belə bir vaxtda – 1990-cı ilin iyul ayında xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlməsi muxtar respublikanı başı üzərini almış təhlükədən, erməni işğalından xilas etdi.

Ulu Öndər Heydər Əliyev yaxşı bilirdi ki, ermənilərin göz dikdiyi, blokadada saxladığı Naxçıvanın qorunub saxlanması Azərbaycan dövlətçiliyi, bütövlükdə, türk dünyası üçün mühüm önəm daşıyır. Bu barədə Prezident İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi: "Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi".

Xatırladım ki, həmin dövrdə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" və "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərarlar xalqımızın müstəqillik və milli dövlətçilik yolunda qəbul edilən ilk rəsmi sənədlər idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının Naxçıvan MR-nın Dövlət Bayrağı kimi təsis olunması və Azərbaycanın ali hakimiyyət orqanları qarşısında dövlət rəmzləri haqqında qərar qəbul edilməsi vəsatətinin qaldırılması da dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətindən irəli gəlirdi.

Ümummilli Liderimiz tərəfindən hazırlanan və qəbul edilən "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar da ilk dəfə

qanlı 20 Yanvar hadisələrinə düzgün siyasi qiymət verilməsinin bariz nümunəsi idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən həmin dövrdə qəbul edilən qərarlar içərisində öz tarixi əhəmiyyətinə görə 1991-ci il 16 dekabr tarixli "31 Dekabr – Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" tarixi Qərarın qəbul edilməsi də Heydər Əliyev müdrikliyinin və uzaqgörənliyinin təcəssümü idi.

Ümumiyyətlə, Ülu Öndərin rəhbərliyi ilə irəli sürülən ideyalar və bu istiqamətdə Naxçıvanda qəbul edilən qərarlar Azərbaycan ictimaiyyəti tərəfindən yekdilliklə dəstəklənirdi. Məhz ölkə ictimaiyyətinin təsiri nəticəsində az sonra Azərbaycan SSR rəhbərliyi də bəzi addımlar atmalı oldu. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin vaxtı ilə qəbul etdiyi üçrəngli bayraq Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi təsdiqləndi.

1993-cü ildə olkədə yaranmış təhlükəli vəziyyətdən yalnız böyük dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev xilas edə bilərdi. Dövlətçilik anlayışından bixəbər olan və hərbi birləşmələri, əslində, öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC–Müsavat cütlüyü sonda Heydər Əliyevdən imdad istədi.

Məhz belə bir zamanda, 1993-cü il iyunun 9-da Umummilli Lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Naxçıvandan Bakıya gəldi və Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan xilas etdi. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma vətənin xilası

naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı.

1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu.

Bugünkü qüdrətli, qarabağlı Azərbaycan görkəmli tarixi şəxsiyyət Hedər Əliyevin duhasının şah əsəridir.

Yaşasın Heydər Əliyev siyasəti!

Yaşasın bu siyasətin layiqli davamçısı, Qələbə salnaməsinin müəlifi möhtərəm cənab İlham Əliyev!

Yaşasın güclü, qüdrətli Azərbaycan!

**Sədaqət Vəliyeva.** XX əsrin sonlarında ölkəmizdə hər bir sahədə dərin böhran, xaos, nizamsızlıq hökm sürürdü. Digər tərəfdən də AXC–Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyində tüğyan edən hərc-mərclik mövcud ictimai-siyasi böhranı daha da dərinləşdirirdi. Artıq Azərbaycan bir dövlət kimi məhv olma təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqımızı belə çətin və ağır vəziyyətdən yalnız və yalnız, hər zaman ən çətin günlərdə xalqının yanında olan, ömrünü xalqına həsr edən, adını tarixə vətəninin, xalqının xilaskarı kimi həkk edən dahi Heydər Əliyev xilas edə bilərdi. 1993-cü ilin iyun ayının 9-da xalqın

təkidli tələbi ilə Bakıya qayıdan Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyev tarixi xilaskarlıq missiyasını öz üzərinə götürərək Azərbaycanı xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi kimi təhlükələrdən xilas etdi.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində çox qısa müddət ərzində ölkəmizdə mövcud ictimai-siyasi böhran aradan qalxdı, asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu, nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişəsinin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Bu proseslərin davamı olaraq idarəetmə sistemi formalaşdırıldı, "Əsrin müqaviləsi" və digər enerji müqavilələri imzalandı. Bütün bunlar Azərbaycanda böyük iqtisadi dirçəlişin yaranması ilə nəticələndi.

Eyni zamanda, qanunvericilik sahəsində də böyük islahatlar aparıldı, ilk parlament seçkiləri keçirildi və referendum yolu ilə Konstitusiya qəbul edildi. Bununla da ölkədə hökm sürən ictimai-siyasi böhran aradan qalxmaqla yanaşı, Azərbaycanın sürətli inkişafının əsası qoyuldu. Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş 15 iyun Milli Qurtuluş Günü dövlətçiliyimizin şanlı qürur səhifələrindən biridir. 15 iyun, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş günü oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata və qələbələrə aparan yol bilavasitə həmin gündən başlandı.

Bu gün Azərbaycanın inkşafında və əldə etdiyi bütün uğurların kökündə Heydər Əliyev siyasəti dayanır. Əsası Ümumilli Liderimiz tərəfindən qoyulmuş bu siyasət bu gün cənab Prezident, dövlət başçımız İlham Əliyev tərəfindən uğurla və layiqincə davam etdirilir. Bu gün Azər-

baycan dahi Heydər Əliyev məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində torpaqlarını işğaldan azad etmiş, qalib dövlət kimi dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Xalqımız öz xilaskarı Heydər Əliyevi hər zaman dərin hörmət və ehtiramla yad edir.

**Soltan Məmmədov.** Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının tarixindəki müstəsna rolu müstəqil dövlətçiliyik ənənələrinin formalaşması ilə ifadə olunur. 1993-cü ildə ölkədə baş verən dəhşətli proseslər, Azərbaycan parlamentində, məhz bu salonda televiziya ekranlarından gördüyümüz acınacaqlı hadisələrin fonunda baxdıqda 30 il öncə hansı fəlakətlərdən qurtulduğumuzu daha yaxşı görmək mümkündür. Ulu Öndər süquta uğramış böyük bir imperiyanın qalıqları altında qalaraq dağılmış, uçurumun bir addımlığında olan kiçik bir respublikada güclü, mükəmməl bir dövlət modeli yaratdı. Bu dövlət indi nəinki öz vətəndaşlarının təhlükəsizliyini və rifahını təmin etməyə qadirdir, həm də regional, qlobal proseslərə təsir etmək imkanına sahibdir. Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan öz tarixinin ən şərəfli dövrünü yaşayır.

Azərbaycan Prezidentinin Sərəncamına uyğun olaraq, qeyd edilən "Heydər Əliyev İli" çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Ulu Öndərin 100 illiyi münasibəti ilə təntənəli tədbirlər keçirilir. Macarıstanda, Böyük Britaniyanın tarixi Viktoriya və Albert Muzeyində keçirilən tədbirlərdə bu böyük şəxsiyyətin Cənubi Qafqazın tarixində misilsiz rolu xüsusi vurğulandı.

Fondun dəstəyi ilə Rusiya Dövlət Dumasının inzibati binasında və Rusiya Federal Məclisinin Federasiya Şurasında sərgilər təşkil olunub, İtaliya, Qazaxıstan, Gürcüstan və digər ölkələrdə Ümummilli Liderin 100 illik yubileyi yüksək səviyyədə qeyd edilib.

Çin Xalq Respublikasının paytaxtı Pekində Diaoyutay dövlət iqamətgahında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilən tədbir Azərbaycan xalqının böyük oğluna dərin ehtiramın və müasir Azərbaycan dövlətinə xüsusi münasibətin göstəricisi kimi tarixə düşdü. Qeyd edim ki, bu tədbirdə Çinin yüksək səviyyəli dövlət rəsmiləri, eləcə də 50-yə yaxın xarici diplomatik korpus rəhbərləri iştirak ediblər.

Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunmuş "Xarıbülbül" festivalı, "Bakı Marafonu 2023" də məhz Ümummilli Liderin 100 illik yubileyinə həsr edilib.

Azərbaycan Respublikasının Milli Məclisi, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimiz, diaspor təşkilatlarımız, Azərbaycan mədəniyyət mərkəzləri və digər qurumlar tərəfindən Ümummilli Liderin 100 illiyi müxtəlif ölkələrdə təntənəli şəkildə qeyd olunub. Bu tədbirlər Heydər Əliyevin ruhuna ehtiramın, onun xalqımız və dövlətimiz qarşısında xidmətlərinə dərin hörmətin ifadəsidir.

Müasir Azərbaycanın banisi olan Ulu Öndərin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir. Onun ideyaları, müəyyən etdiyi strateji inkişaf xətti daim inkişaf edən, öz xalqının təhlükəsizliyini və rifahını təmin etməyə qadir dövlət modelinin qurulmasını hədəfləmişdi. Biz bu gün tam əminliklə deyə bilərik ki, cənab Prezidentin rəhbərliyi altında Azərbaycan qarşısına qoyduğu bütün məqsədlərə nail olur. Biz müstəqil, qüdrətli bir ölkənin vətəndaşları olmağımızla fəxr edirik. Ümummilli Liderimizin ruhuna

ehtiramın ən gözəl nümunəsi də məhz müasir, güclü Azərbaycan dövlətidir.

**Tahir Rzayev.** May ayının 16-da Ulu Öndərimiz Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş və bir çox ölkələrin parlament sədrlərinin, sədr müavinlərinin, siyasi xadimləri iştirakı ilə Milli Məclisdə keçirilən beynəlxalq konfrans, "Heydər Əliyev və Azərbaycan Parlamenti" üç cildliyinin çap olunması, eləcə də bugünkü xüsusi iclas Ümummilli Liderimiz Heydər Əliyevin ölməz irsinə, əbədi xatirəsinə, böyük hörmət və ehtiramın ifadəsidir. Keçirilən tədbirlər, həm də Heydər Əliyevin parlamentə rəhbərlik etdiyi dövrü əks etdirən üç cildliyin nəşri parlament tariximizi dəyərləndirmək, Ulu Öndərimizin çox çətin və mühüm dövrdəki fəaliyyətini səciyyələndirmək, nəsillərə çatdırmaq baxımından əhəmiyyətlidir.

Hörmətli sədr, bu tədbirlərin və nəşrin, göstərilən bu filmin təşəbbüskarı Sizsiniz, rəhbərlik etdiyiniz kollektivdir. Bu təşəbbüslər Ulu Öndərimizin adına, xatirəsinə olan sonsuz məhəbbətdən, ölməz rəhbərin bəşəri ideyalarına sədaqətdən qaynaqlanmaqla bərabər, həm də parlamentin, deputatlarımızın fəaliyyətini təqdim etmək baxımından qürurvericidir. Buna görə Sizə öz minnətdarlığımı bildirirəm.

Bugünkü iclasımız çox əlamətdar bir gündə keçirilir. Sabah xalqımız Milli Qurtuluş Gününü qeyd edəcək. Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış, Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən qurtaran bu gün məhz Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.Mənə görə bizim qurtuluş tariximiz 1969-cu ildən Heydər Əliyevin Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçildiyi o günlərdən hesablanmalıdır. Çünki Ulu Öndərimiz 1993-cü ildə ölkəni xaosdan, öz-

başınalıqdan, parçalanmaqdan xilas etdi, hakimiyyətə gəldiyi ilk dövrdə isə respublikamızı ətalətdən, gerilikdən, iqtisadi, mənəvi böhrandan qurtardı. Həmin dövrdə İttifaqda ən geridə qalan, adı, uğuru heç bir siyahıda olmayan Azərbaycan bir neçə il ərzində ölkənin ən qabaqcıl respublikaları sırasına çıxdı. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə kənd təsərrüfatının ümumi məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdır. O zamanki pulla 101,1 milyard manatlıq məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki əlli ilə bərabərdir. Respublikanın su-meliorasiya kompleksinə qoyulan vəsait isə əvvəlki əlli ildəkindən 2,5 dəfə çox olmuşdur. 18,5 milyon kvadrat metr mənzil sahəsi istifadəyə verilmiş, 2,2 milyon insan yeni mənzillərlə təmin edilmişdir. Respublikada yüzlərcə yeni zavodlar, fabriklər, məktəblər, xəstəxanalar, sənaye, emal müəssisələri tikilib istifadəyə verilmişdir. O dövrdə sənaye istehsalının həcmi 2,7 dəfə artmışdır. Siz fikir verin, həmin illərdə Azərbaycanda kənd təsərrüfatının, xalq təsərrüfatının inkişafı, intensivləşdirilməsi, üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin 4 mühüm qərarı qəbul edilmişdir ki, bu, respublikanın inkişafına böyük təkan vermişdir.

İkinci dəfə hakimiyyətə gəldiyi illərdə də Ulu Öndərimiz ölkəni iqtisadi, siyasi böhrandan qurtarmaq məqsədi ilə çox mühüm layihələrin həyata keçirilməsinə nail oldu. Neft müqavilələrinin imzalanması, torpaq islahatının həyata keçirilməsi, atəşkəsin tətbiqi, idarəetmədə dəyişikliklər, beynəlxalq münasibətlərə, əməkdaşlığa böyük önəm verilməsi Heydər Əliyevin uzaqgörənliyinin nəticəsi idi və bu günümüzün uğurlarında özünü aydın göstərir.

Heydər Əliyevin ən böyük arzusu Qarabağı azad

görmək idi. O, sağlığında çox böyük səylər göstərməsinə baxmayaraq, buna nail ola bilmədi. Ancaq hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev ordumuzun və xalqımızın birliyi sayəsində bu arzunu həyata keçirdi, Ulu Öndərimizin vəsiyyətləri yerinə yetirildi. Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin ruhu şaddır və onun ölməz ruhu azad, çiçəklənən Qarabağ və Şərqi Zəngəzur torpaqlarını gəzməkdə, xalqımızın sevincinə, dövlətimizin inkişafına şərik olmaqdadır.

Heydər Əliyev yalnız Azərbaycan xalqı üçün yaşayıb yaratmamışdır. Onun bəşəri ideyaları, amalları dünya xalqlarının azadlığına, sülhə, əmin-amanlığa xidmət etmiş və bu gün dünyanın əksər ölkələrində dahi rəhbərin xatirəsi məhəbbətlə yad edilir. Nə qədər Azərbaycan, Azərbaycan xalqı, İlham Əliyev kimi fədakar uzaqgörən rəhbər, mətin, sədaqətli oğul və qızlarımız var Heydər Əliyevin ruhu güləcək, adı ucalacaq, xatirəsi yaşayacaqdır.

**Tamam Cəfərova.** Hər bir xalqın taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Azərbaycan xalqı üçün belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Azərbaycan tarixində dönüş nöqtəsi olan 15 iyun xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, azərbaycanlı olması ilə daim fəxr edən Heydər Əliyevdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, vətəninə həsr etmiş müdrik dövlət xadimi Ulu Öndər Heydər Əliyevin adı tariximizə müstəqilliyimizin memarı, yeni Azərbaycanın qurucusu kimi yazılıb.

Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin adı

Azərbaycanın dövlətçilik tarixinə təkcə xilaskar lider kimi deyil, həm də qurucu lider kimi qızıl hərflərlə yazılmışdır. Hakimiyyətinin birinci dönəmində milli intibah missiyasını yerinə yetirən Heydər Əliyev hakimiyyətinin ikinci dönəmində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində elm və təhsil məsələləri xüsusi yer tutur və Ulu Öndərin bu sahələrin inkişafında xidmətləri misilsizdir. Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin və təhsilimizin qüdrətli hamisi kimi çıxış etmişdir. Keçən əsrin 70-ci illərini Azərbaycan təhsilinin intibahı dövrü kimi qiymətləndirmək olar. Bu illərdə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndiriləræk 765-dən 2117-yə çatdırılmışdır. Bu dövrdə, həmçinin 5 yeni ali məktəb açılmış, tələbələrin sayı 70 mindən 100 minə çatmışdır.

1970–1980-cı illərdə Azərbaycanın əldə etldiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyinə hədəflənmiş milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Dahi rəhbər keçmiş ittifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir. SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın

azərbaycanlı göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır. Ulu Öndər həmişə bu gənclərlə görüşür, onlara qayğı göstərirdi. Böyük qürur hissi ilə qeyd etmək istəyirəm ki, mənə də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi ilə həyata keçirilən bu layihə çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil almaq və dahi liderlə görüşmək nəsib olmuşdur.

Azərbaycandan kənarda təhsil alan gəncləri doğma övladları, Azərbaycanın milli sərvəti adlandıran Ulu Öndər 1998-ci il avqustun 31-də indiki H.Əliyev sarayında onlarla keçirilən möhtəşəm görüşdə belə bildirmişdir: "Mən çox həyəcanlıyam, həm də çox sevinirəm. Ona görə sevinirəm ki, 29 il bundan əvvəl əsasını qoyduğum xeyirxah işin gözəl bəhrələrini görürəm. Vaxtı ilə bu salona 16-17 yaşında daxil olmuş insanlar – sizlər ötən illərdə böyük həyat yolu keçmişsiniz, formalaşmısınız, püxtələşmisiniz, Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərirsiniz. Bunların hamısının əsası həmin illərdə qoyulubdur. Ona görə də mən sizin hər birinizin həyatında etdiyim xidmətin nəticəsini görərək bu gün sevinirəm, şadlanıram və iftixar hissi keçirirəm".

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Heydər Əliyev elə şəxsiyyətlərdəndir ki, adı və əməlləri dünya durduqca yaşayacaq, gələcək nəsillərə örnək olmaqla, onların yolunda əbədi məşələ çevriləcəkdir. Nə qədər müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir.

Əminliklə deyə bilərik ki, bugünkü qalib və güclü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbay-

candır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

**Ülviyyə Ağayeva.** 1993-cü il 15 iyun – Azərbaycan tarixinin şanlı səhifələrindən biri Milli Qurtuluş Günüdür. Məhz həmin gün dövlətçiliyimiz bir daha yox olmaq təhlükəsindən xilas edilmişdir. Həmin gün Ümummilli Liderimiz Heydər Əliyevin üzərinə bəlkə də ulu Tanrı tərəfindən qoyulmuş xilaskarlıq missiyası sayəsində ölkəmizin müstəqilliyi növbəti təhlükədən qorunmuş, respublikamızda baş verən ictimai-siyasi böhran aradan qaldırılmış və bu gün cəmiyyətin bütün sahələrində baş verən ictimai-siyasi inkişafın, mədəni tərəqqimizin təməli qoyulmuşdur. Məhz bu tarixdən ölkəmiz müstəqil dövlət kimi tanınmağa başlamış və dünyanın idarə olunmasında daha mühüm rol oynayan qüdrətli siyasi liderlər onunla hesablaşmalı olmuşlar. Bu gün tam əminliklə deyə bilərik ki, milli qurtuluş ideologiyasının təntənəsindən sonra regionda və bütünlüklə, dünyada Azərbaycanın nüfuzu daha da artmışdır.

Bu tarixi hadisə, sözün həqiqi mənasında, Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etmişdir. Çünki Azərbaycan xalqı hələ ilk dəfə 1918-ci ildə qazandığı müstəqilliyini qoruyub saxlaya bilməmişdi və indi də yenə həmin qara qüvvələr onun yolunda dayanaraq bu sərvət mənbəyini əldən vermək istəmirdilər. Ancaq uzun illər boyu xalq tarixin

həmin qanlı səhifələrindən dərs almışdı və daha əzmkar, daha həmrəy olmağı bacardı. Xalq bir də çətin sınaq günündə bütün mənəvi məsuliyyəti öz üzərinə götürən cəsarətli, müdrik lideri – Ulu Öndər Heydər Əliyevə inana bildi. Beləliklə də, müstəqiliyimiz bərpa edildikdən sonra davam etməkdə olan gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsi kimi böyük faciədən və bunun qaçılmaz nəticəsi olan parçalanma təhlükəsindən xilas oldu. Bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu.

Xalqımız növbəti ağır sınaqdan üzüağ çıxdıqdan sonra, milli qurtuluşunda nəyə qadir olduğunu, xilas yolunun vətəndaş həmrəyliyində olduğunu görərək və milli liderinə arxalanaraq inamla bu günümüzə, uğurlarına doğru addımlamışdır. Bu dövrdən etibarən ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi, mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaradılmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Bu gün respublikamız artıq beynəlxalq arenada daxili çəkişmələri, sosial-iqtisadi problemləri ilə deyil, demokratik, multikulturalist və tolerant bir dövlət kimi, müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edən, əmin-amanlıq hökm sürən dövlət kimi diqqəti cəlb edir.

**Ülviyyə Həmzəyeva.** Xususi iclas üçün və möhtəşəm filmin ərsəyə gəlməsi üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Biz bir daha Heydər Əliyevli illərə qayıtdıq, kövrəldik və bugünkü günə qədər keçdiyimiz keçməkeşli yollara bir daha nəzər saldıq. Parlament tərəfindən bizə hədiyyə olunan “Heydər Əliyev və Azərbaycan Parlamenti” adlı üç cildlik, çox qiymətli material və Ümumilli Lider Heydər Əliyev irsinə hörmət və ehtiramın göstəricisidir.

Azərbaycan xalqının dahi oğlu, Ümumilli Lider Heydər

Əliyev özü xalqımız üçün əsl qəhrəman, qurtuluş tarixini yazan dahi insandır. Bunu bu gün bir daha göstərilən filmdən görə bildik.

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan müdrik siyasi xadimdir. Bu il biz böyük sevinclə Ulu Öndər Heydər Əliyevin 100 illiyini böyük təntənə ilə qeyd edirik.

Hər çətinliyə sinə gərərək iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, öz canı bahasına xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

Qazanılan bütün nailiyyətlərin əsasında, həmçinin torpaqlarımızın 44 gün ərzində azad olunması və Zəfər günümüzdən bu yana keçirilən bütün ictimai-siyasi, iqtisadi-mədəni uğurlarımızın təməlində Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident, Ali Baş Komandan İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Bu gün xalqımız müstəqil, Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək!

Sabahkı 15 iyun – Milli Qurtuluş günümüz yeni tarixdə, Zəfər tariximizin işığında mübarək olsun!

**Ziyad Səmədzadə.** Ulu Öndərin Azərbaycan dövlətinin

tarixində mühüm yer tutan, əbədi yaşayacaq məhsuldar fəaliyyətinin bəzi məqamları barədə aşağıdakıları qeyd etmək istərdim.

Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla reallaşması Azərbaycanın iqtisadi müstəqilliyinin və iqtisadi təhlükəsizliyinin təmin edilməsinin fundamental əsaslarını yaratdı.

Hər birimizə məlumdur ki, Azərbaycanın müstəqilliyinin ilk illərində başabəla islahatçıların professionallıqdan uzaq, reallığı nəzərə almayan, əsası olmayan tədbirlər həyata keçirmələri nəticəsində respublikamızın iqtisadiyyatı çox ağır vəziyyətə düşmüşdü. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi yarandıqda xalqımızın tələbi ilə zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev yenidən böyük siyasətə qayıtdı.

Ulu Öndər Heydər Əliyev bazar iqtisadiyyatına keçidlə əlaqədar hazırladığı kompleks tədbirlər sistemində iqtisadiyyatın böhran vəziyyətindən çıxarılması, Azərbaycanın müstəqilliyinin qorunması, iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün neft amilinə üstünlük verdi. 1994-cü ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqavilə"si imzalandı, onun reallaşması ilə bağlı ciddi tədbirlər həyata keçirildi.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Ulu Öndər bu mühüm sənəddə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə əlaqədar dünyanın aparıcı dövlətlərinin transmilli şirkətlərinin başçıları ilə görüşür, beynəlxalq əməkdaşlıq, investisiyaların Azərbaycana cəlb edilməsi ilə bağlı konstruktiv danışıqlar aparırdı.

1999-cu il aprelin 24-də ABŞ Prezidenti Bill Klinton Ağ evdə Heydər Əliyevlə görüşündə ona demişdir: "Siz

bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiyada sülhün və sabitliyin bərqərar olmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk”.

Həmin görüş çərçivəsində Vaşinqtonda Heydər Əliyevin ictimai-siyasi xadimlər ilə görüşündə senator Hovard Beyker demişdir: “Görüşə gəldiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Siz həmişə olduğu kimi, yenə də bizi valeh etdiniz. Biz Sizin iradənizə, cəsarətinizə heyranıq və qeyd etdiyimiz kimi, dünyanın çox təhlükəli bir regionunda yerləşən dövlətinizə necə rəhbərlik etdiyinizə vurğunuq. Bizim bir çoxumuz Sizin ölkənizdə olmuşuq. Biz Sizin çox yüksək qonaqpərvərliyinizə, açıq və cəsarətli mülahizələrinizə, fikir mübadiləsi aparmaq məharətinizə məftunuq”.

Heydər Əliyevin müzakirə olunan hər bir məsələ barədə professional baxışı, inkişafı ləngidən maneələrin aradan qaldırılması üçün verdiyi təkliflər onun bir daha Ümummilli Lider kimi məsuliyyətindən, daimi narahatlığından, bütün varlığını xalqına həsr etməsindən xəbər verirdi.

Heydər Əliyev deyirdi: “Biz iqtisadiyyatı o sistemlə apara bilmərik və aparmayacağıq. Biz yeni iqtisadiyyat qururuq və o iqtisadiyyat sistemindən, o maliyyə sistemindən yeni iqtisadi sistemə, yeni maliyyə sisteminə keçmək üçün ağıllı hərəkətlər etmək lazımdır”.

Dövlət başçısı onu da nəzərə almağı tövsiyə edirdi ki, “bazar iqtisadiyyatı ilə gedən ölkələrin həm böyük təcrübəsi var, həm də onlar çox çevik hərəkət edirlər, lazım olan zaman manevr edirlər ki, həm istehsala stimul versinlər, həm də dövlətin vergiləri gəlsin və dövlət xeyir götürsün”. O deyirdi: “Çeviklik göstərmək lazımdır ki, hansısa qərar 3 il bundan qabaq qəbul olunubsa və əgər

indi şərait dəyişilibsə, bəlkə müəyyən dəyişikliklər etmək lazımdır. Yəni gərək biz daim bazara nəzarət edək. İdxal-ixrac prosesinə daim nəzarət edək. Biz liberal iqtisadiyyat yaratmışıq. Liberal ticarət yaratmışıq. Ancaq gərək biz bunlara daim nəzarət edək ki, dəyişikliklər zamanı biz də öz dəyişikliklərimizi aparaq və ölkəmiz bütün bu proseslərdən mənfəət götürsün, Azərbaycanda özəl sektor inkişaf etsin".

Heydər Əliyev ciddi narahatlıq keçirirdi ki, ölkənin maliyyə imkanları çox azdır, əhalinin xeyli hissəsi işsizlik, yoxsulluq şəraitində yaşayır, doğma yurdlarından erməni millətçiləri tərəfindən qovulmuş azərbaycanlılar ağır çətinliklərlə üzləşirlər.

Burada Ulu Öndər Heydər Əliyevin bir fikrinə diqqəti cəlb etmək istərdim: 1997-ci il martın 6-da Türkiyənin NTV televiziyasına müsahibəsində jurnalistin "bir neçə gün bundan əvvəl Türkiyənin "Eksimbank"ı Azərbaycana 250 milyon dollarlıq kredit açmışdı. Lakin bu kreditin çox az hissəsi ayrıldı. Bu kreditdən istifadə olunması üçün hansı layihələr vardır", sualına Heydər Əliyev belə cavab verir: "Bilirsiniz, bu kredit açılmışdır. Lakin ondan istifadə edilməsi Azərbaycana heç bir xeyir verməmişdir. Bu vəsaitin 71 milyon dolları xərclənibdir. Onun böyük bir qismi o illər, yəni 1993–1994-cü illərdə Azərbaycanda ağır vəziyyət olan vaxt buğda alınmasına sərf edilibdir. Demək, insanlara çörək vermək üçün buğda alınıb. Böyük bir qismi də o vaxt digər məsələlər üçün istifadə edilib. Amma respublikamız bu kreditdən elə bir fayda görməmişdir. Bu krediti geri qaytarmaq imkanımız yoxdur. Amma biz 10 milyon dollar da onun faizini verməyə məcburuq. Demək, biz 10 milyon faiz ödəmişik, indi 71 milyon dollar da qalıb".

Jurnalistin “Bu kreditin qalan hissəsi hansı şərtlərlə verilməlidir?”, sualına cavab olaraq deyir: “Əgər qalan hissəsi də bu şərtlərlə veiləcəksə, bunu almaq heç lazım deyil. Çünki belə şərtlərlə biz nə edə bilərik?”

Ancaq Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcəyinə inanırdı. Azərbaycanın dövlət müstəqilliyinin 10 illiyinə həsr edilmiş mərasimdə Prezident Heydər Əliyev demişdir: “Biz indi nə qədər çətinliklərlə, məhrumiyyətlərlə rastlaşsaq da, özümüzü xoşbəxt hesab etməliyik. Xalqımızı xoşbəxt hesab etməliyik ki, biz artıq on ildir müstəqil dövlət kimi yaşayırıq. Artıq bunu dəyişmək, bunu sarsıtmaq mümkün deyildir... Zaman gələcək, Azərbaycan müstəqil bir dövlət kimi daha da möhkəmlənəcək, iqtisadi cəhətdən inkişaf edəcək, Azərbaycan möhkəm və qüdrətli bir dövlət olacaqdır. Ancaq gələcək nəsillər də gərək bunu unutmasınlar”.

Onun bu arzuları həqiqətə çevrilir. Bu gün Azərbaycan regionun dinamik inkişaf edən, borc alan ölkədən borc verən ölkəsinə çevrilmişdir. 1990-cı illərin ortalarında 100 milyon dollar valyuta ehtiyatları olmayan Azərbaycanın valyuta ehtiyatları bu gün 70 milyard dollara yaxındır.

Müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin təfəkkürə və iti analitik duyuma malik olan Heydər Əliyevin müstəqil Azərbaycanın inkişaf strategiyası barədə baxışları fundamental xarakter daşıyaraq, Azərbaycan reallıqlarına, onun malik olduğu imkanların sistemli təhlilinə, qloballaşan dünyada gedən proseslərin milli maraqlar baxımından qiymətləndirilməsinə əsaslanırdı. 2002-ci ildə Ümummilli Lider Heydər Əliyevin davamlı səyləri nəticəsində çoxlarının əfsanə hesab etdiyi əsas Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təməli qoyuldu. Heydər Əliyev bu münasibətlə keçirilən mərasimdə etdiyi

çıxışında Bakı–Tbilisi–Ceyhan layihəsinin qlobal və regional əhəmiyyətini, ölkələr arasında əməkdaşlığın genişlənməsində müstəsna rola malik olduğunu vurğulayaraq bildirdi ki: "Azərbaycan qədim neft ölkəsidir. 150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt neft Azərbaycan xalqına məxsus olmayıb. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz bunun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik.

Bakı–Tbilisi–Ceyhan boru kəməri Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcək, Azərbaycanın iqtisadiyyatı, ümumiyyətlə, gələcəyi üçün çox mühüm rol oynayacaqdır".

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev dedi: "Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı–Tbilisi–Ceyhan neft kəmərinə inam o qədər böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayanlar var idi, eyni zamanda, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi".

Bizim hər birimiz qürur hissi keçiririk ki, Ulu Öndər

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kimi 1993–2003-cü illərdə ölkəmizin siyasi-iqtisadi həyatında dönüş yaratdı.

Son 30 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya qoyulub, onun strukturunda daxili investisiyaların xüsusi çəkisinin artması meyilləri əhəmiyyətli dərəcədə möhkəmlənib. Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrilib.

Real sektorun inkişafı, irimiqyaslı istehsal, sosial infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində Azərbaycan bu gün dünyada özünün iqtisadi, enerji, maliyyə təhlükəsizliyini təmin edən bir ölkə kimi tanınır.

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciət edən zaman Prezident İlham Əliyev dedi: “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”.

Artıq torpaqlarımız 30 illik erməni işğalından azad olunmuş, erməni faşizmi üzərində parlaq qələbə qazanılaraq ərazi bütövlüyümüz təmin edilmişdir. Hazırda bu torpaqlarda, Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarında Böyük Qayıdışa dair dövlət proqramına əsasən böyük quruculuq və bərpa işləri aparılır.

Tam əminliklə demək olar ki, onilliklər, əsrlər keçəcək, Heydər Əliyevin Azərbaycan xalqının gələcəyi haqqında əbədiyaşar ideyaları müstəqil dövlətimizin daha keyfiyyətli inkişafını, xalqımızın işıqlı gələcəyini təmin edəcəkdir.

**Ziyafət Əsgərov.** 1991-ci ildə SSRİ-nin dağılmasından sonra müstəqilliyini yenidən bərpa edən ölkəmiz çoxlu sayda çətinliklərlə qarşılaşmalı olsa da, bu dövrü xalqımız

üçün xüsusi ilə təhlükəli və dözülməz edən əsas iki amil var idi: tarixən ölkəmizə qarşı torpaq iddiaları ilə çıxış edən ermənilərin ölkəmizin ərazi bütövlüyünü pozması, Azərbaycana qarşı elan edilməmiş müharibəyə başlaması və dövlət idarəçiliyimizin səriştəli siyasi xadimlərdən, xalqı, vətəni sevən, dövlətin mənafeyini şəxsi mənafelərindən üstün tutan liderdən məhrum olması.

Belə bir şəraitdə ölkədə hakimiyyət böhranı ən yüksək həddə çatmışdı, xaos və anarxiya bütün respublikanı bürümüşdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma həm dövlət müstəqilliyimizi, həm də milli varlığımızı itirmək təhlükəsi yaratmışdı.

1992-ci ilin yayında erməni işğalının daha da sürətlənməsi, özbaşınalıq, siyasi hərc-mərclik, AXC–Müsavat iqtidarının səriştəsizliyi, mərkəzi hakimiyyətin yerlərdə zəifliyi, hərbi müxalifətin yaranması xalqın mübarizə əzminə böyük zərbə vurmuşdur. Xalqın bir yumruq kimi birləşib düşmənə qarşı müqavimət göstərməli olduğu bir vaxtda hərbi və siyasi müxalifət hakimiyyəti ələ almağa, mövcud iqtidar isə nəyin bahasına olursa-olsun öz hakimiyyətini qorumağa çalışırdı. Azərbaycan, sözün əsl mənasında, bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Bu bir tarixi həqiqətdir ki, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq, müstəqilliyi əbədi, dönməz, sarsılmaz etmək də bir o qədər çətin və mürəkkəb məsələdir. Bu məsuliyyətli vəzifəni öz üzərinə götürərək onun öhdəsindən şərəflə gələn dövlət xadimləri isə həmin xalqın əsl xilaskarı və qurtarıcısı olur.

15 iyun 1993-cü il tarixində Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi də Azərbaycan xalqı üçün məhz belə qurtuluş anı olmuşdur. Ulu Öndər bütün təhlükələrə baxmayaraq, xalqın qurtuluşu missiyasını cə-

sarətlə öz üzərinə götürmüş və bu missiyanın öhdəsindən elə bir iradə, siyasi məharət, xalq-millət sevgisi və qətiyyətlə gəlmişdir ki, 15 iyun Azərbaycanın taleyini dəyişən gün kimi müstəqillik tariximizə qızıl hərflərlə yazılmışdır. Hətta mövcud siyasi dairələr də istəməsələr belə Heydər Əliyev-xalq birliyinin gücü qarşısında geri çəkilməyə məcbur olmuşdular. Bununla ölkəmizdə həm də Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxmasına səbəb olan xalq-iqtidar birliyinin əsası qoyulmuşdur.

15 iyun tarixində hakimiyyətə qayıdışı ilə Ulu Öndər xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətini həyata keçirdi, kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtardı.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", deyən Ulu Öndər çox gözəl anlayırdı ki, ilk növbədə ölkədə vətəndaş həmrəyliyi bərpa olunmalıdır. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Həqiqətən də, Ulu Öndər qısa vaxt ərzində ölkədə sabitliyə, vətəndaş həmrəyliyinə nail oldu. Çünki xalqın Heydər Əliyevə olan inamı möhkəm və sarsılmaz idi.

Milli dövlətçilik konsepsiyamızın yaradılması məhz Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində reallığa çevrildi. Ulu Öndər ölkəmizin hər bir vətəndaşını, bütün xalqımızı azərbaycançılıq ideyası ətrafında birləşdirməyi bacardı. Yalnız bundan sonra ictimai-siyasi, sosial-iqtisadi, ordu quruculuğu, elm-təhsil, səhiyyə və digər sahələrdə inkişaf başlandı. Siyasi islahatlara start

verildi, ölkədə çoxpartiyalı sistem yarandı, demokratik idarəetmə sistemi formalaşdırıldı, ilk parlament seçkiləri keçirildi, müstəqil dözvlətimizin ilk Konstitusiyası qəbul olundu. Qarabağ müharibəsində atəşkəsə nail olundu, düşmən təcavüzü dayandırıldı, ordu quruculuğuna böyük diqqət yetirildi. Şübhəsiz ki, Ulu Öndərin xalqımız qarşısındakı tarixi xidmətlərindən biri də məhz Azərbaycan Ordusunun memarı olmasıdır.

Daxildə sabitlik, əmin-amanlıq, inkişaf baş verdikcə dünyada da ölkəmizə qarşı formalaşan fikir Azərbaycanın xeyrinə dəyişməyə başladı. Başda qardaş Türkiyə, digər türk dövlətləri və region dövlətləri olmaqla, bütün dünyada ölkəmizin müsbət imici və nüfuzu formalaşdı. Çünki artıq Azərbaycanın hər bir uğurunun arxasında dahi Heydər Əliyev şəxsiyyəti dayanırdı. Ulu Öndərin xarizması, qətiyyəti, siyasi məharəti ölkə daxilində sabitliyin və inkişafın əsas şərti olduğu kimi, beynəlxalq münasibətlərdə də Heydər Əliyevin böyük şəxsiyyəti, nüfuzu, hörməti və gücü Azərbaycanın uğurlarının qarantına çevrildi. Qarabağ müharibəsində atəşkəsə nail olunmasında, iqtisadi dirçəlişimizin əsasını qoyan, Azərbaycan neftinin dünya bazarına çıxarılmasını təmin edən "Əsrin müqaviləsi"nin bağlanmasında, Azərbaycanın ən uğurlu şəkildə dünya birliyinə inteqrasiyasının təmin edilməsində, xüsusən də "bir millət, iki dövlət" fəlsəfəsi ilə Türkiyə Respublikası ilə qardaşlıq münasibətlərimizin formalaşmasında Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Müstəqilliyini yenicə bərpa etmiş, torpaqlarının iyirmi faizi düşmən işğalında olan, hərbi əməliyyatların yenidən başlaması təhlükəsi olan bir dövlətə xarici dövlətlərin və şirkətlərin böyük miqyaslı layihələrdə külli miqdarda investisiya qoymasına tək səbəb dahi Heydər Əliyevin beynəlxalq

nüfuzu, gücü, ona olan böyük inam və hörmət idi.

Ulu Öndər bütün bu imkanlarından, beynəlxalq nüfuzundan, ona olan hörmətdən yalnız vətənin və xalqın xeyri üçün istifadə edirdi. Ulu Öndərin atdığı bütün addımlar, verdiyi siyasi qərarlar Azərbaycanı daha qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək arzusunun reallaşdırılmasına yönəlmişdir. Bu arzunun reallaşdırılması uğrunda Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də sonrakı dövrlərdə Azərbaycanın inkişaf yolunda dönmədən, əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis, davamçı, qətiyyətli lider yetişdirməsi olmuşdur. Məhz bu layiqli davamçı cənab Prezident İlham Əliyev 30 illik işğala son qoyaraq ərazi bütövlüyümüzü bərpa edən müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinə adını əbədi həkk etdirmiş, Azərbaycan dövlətini tarixinin ən qüdrətli zirvəsinə yüksəltmişdir.

Artıq ikinci ildir ki, biz 15 iyun tarixini ikiqat bayram kimi qeyd edirik. Çünki 2021-ci ilin məhz Milli Qurtuluş Günündə dövlətimizin tarixinə qızıl hərflərlə yazılmış digər mühüm tarix-siyasi hadisə baş verdi: Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Azərbaycan–Türkiyə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldən Şuşa Bəyannaməsi imzalandı. Şuşa Bəyannaməsini mən həm də qardaşlıq bəyannaməsi adlandırardım. Bəyannamə Azərbaycan və Türkiyə əlaqələrinin, demək olar ki, bütün sahələrini əhatə edir. Lakin, əlbəttə, ən mühüm məqam siyasi-hərbi müttəfiqlik və milli təhlükəsizlik məsələlərində əməkdaşlıqla bağlıdır. Cənab Ali Baş Komandanın sözləri ilə desək, Şuşa Bəyannaməsi göstərir ki, Azərbaycan və Türkiyə həmişə bir yerdə olacaq və bir-birinin təhlü-

kəsizliyini təmin edəcək.

Beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək hər zaman Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən biri olub. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında birbaşa göstərilib ki, Azərbaycan Respublikası beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərir. Biz ən həssas bölgələrdə vəziyyətin sabitləşməsinə çalışırıq. Şuşa Bəyannaməsi də sülhə və inteqrasiyaya yol açır, bölgədə inteqrasiya proseslərini stimullaşdırır. Bəyannamədə nəzərdə tutulduğu kimi, iki dövlətin birlikdə regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə etməsi və bu sahədə ortaya çıxan problemləri həll etməsi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də, region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi üçün mühüm vasitə olacaq.

Hərbi əməkdaşlıq və təhlükəsizlik məsələlərindən başqa, bəyannamə həm də iqtisadi əməkdaşlıq sahəsində, ölkələrimiz arasında qarşılıqlı surətdə investisiya qoyuluşlarının həyata keçirməsində, yeni nəqliyyat-tranzit layihələrinin planlaşdırılmasında fəaliyyətimizi daha da genişləndirib. Şuşa Bəyannaməsindən sonra dövlətlərimiz arasında daha da güclənmiş dostluğun sübutudur ki, qardaş Türkiyə dövləti Şuşa şəhərində konsulluq açmaq qərarına gəlmişdir. Şuşada Türkiyə konsulluğunun açılmasının iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi və mənəvi tərəfi də var. Bu, Qarabağda Azərbaycanın dostu, qardaşı Türkiyənin varlığı deməkdir.

Cənab Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyə Respublikasının prezidenti seçilməsindən sonra ilk rəsmi səfərini ölkəmizə etməsi isə bu qardaşlığın artıq necə möhkəm, qırılmaz olduğunu bütün dünyaya sübut etdi. Türk xalqı bu seçimi ilə həm də Türkiyə–Azərbaycan qardaşlığına  səs vermişdir. "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir"  deyimi ilə bu qardaşlığın əsasını qoyan Ulu Öndərin əziz xatirəsini böyük ehtiramla anırıq. Dahi Heydər Əliyev ideologiyası bundan sonra da Türkiyə–Azərbaycan qardaşlığının və Azərbaycanın uğurlarının təməlində dayanmağa davam edəcək.

# MÜNDƏRİCAT

4 iyun 2023-cü il.................................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................. 106

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Növbədənkənar
on üçüncü sessiya

53-cü cild

14 iyun 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***


Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  14,8. Sifariş 15. Tiraj 150.